# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# ALTMIŞ SƏKKİZİNCİ KİTAB

## MART 2015 - MAY 2015

AZƏRNƏŞR
BAKI - 2018

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Bakıda keçiriləcək «Bakı–2015» ilk Avropa oyunlarına hazırlıq işləri, Avropa oyunları parkının, Veloparkın və digər idman və mədəniyyət mərkəzlərinin açılışına həsr olunmuş toplantılarda çıxışları, dövlət başçısının Səudiyyə Ərəbistanına, Türkiyə Respublikasına və Rusiya Federasiyasına səfərləri, Fransa Respublikası və Vyetnam Sosialist Respublikası prezidentlərinin və Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına, enerji və qeyri-neft sektoruna dair bağlanan müqavilələr və sənədlər öz əksini tapmışdır.

Cilddə, həmçinin ölkə başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişafı proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışlarında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxış və danışıqlarına dair materiallar da toplanılmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

# İRLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BRENDAN UARD İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də İrlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Brendan Uardın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Brendan Uard Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Brendan Uardın etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə Azərbaycan ilə İrlandiya arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, ticarət, sərmayə qoyuluşu, birgə layihələrin həyata keçirilməsi, digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi və bu istiqamətlərdə işlərin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Bakıda I Avropa oyunlarının keçirilməsi ilə bağlı məsələlər ətrafında söhbət zamanı səfir bu oyunlara ölkəsinin idmançılarının hazırlıqları barədə prezident İlham Əliyevə məlumat verdi.*

## EKVADOR RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HUMBERTO VİNUEZA RODRİQEZ İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Ekvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Humberto Vinueza Rodriqezin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Humberto Vinueza Rodriqez Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Humberto Vinueza Rodriqezin etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı bunun üçün kifayət qədər potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev münasibətlərimizin möhkəmləndirilməsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. İqtisadi sahədə əməkdaşlıq məsələlərinə toxunan dövlətimizin başçısı bu istiqamətdə əlaqələrimizin genişləndirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından rolunu qeyd etdi. Azərbaycanın xarici siyasətində Latın Amerikası ölkələri ilə əməkdaşlığın prioritet istiqamətlərdən biri olduğunu deyən prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Humberto Vinueza Rodriqez Ekvador prezidenti Rafael Korreanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında* neft-qaz, *sərmayə* qoyuluşu, *mədəni əlaqələr, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı* prezident *Rafael Korreanın* salamlarına *görə minnətdarlığını* bildirdi, onun da *salamlarını* Ekvador *dövlətinin başçısına çatdırmağı xahiş* etdi.

# PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XORXE ABARKA DEL KARPİO İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Xorxe Abarka del Karpionun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Xorxe Abarka del Karpio Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xorxe Abarka del Karpionun etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Xorxe Abarka del Karpio paytaxtımızda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi. O, Latın Amerikası ölkələrində Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Peru arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən sərmayə qoyuluşu, biznes, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# URUQVAY ŞƏRQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ANİBAL KABRAL SEQALERBA İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Uruqvay Şərq Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Anibal Kabral Seqalerbanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Anibal Kabral Seqalerba Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Anibal Kabral Seqalerbanın etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən investisiya qoyuluşu, müştərək layihələrin icrası və digər sahələrdə inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı. Prezident İlham Əliyev müxtəlifsəviyyəli görüşlər zamanı əməkdaşlığımızın siyasi, iqtisadi və digər sahələrdə genişləndirilməsi ilə bağlı müzakirə olunan məsələlərin önəmini qeyd etdi.*

*Səfir Anibal Kabral Seqalerba Uruqvay Şərq Respublikasının Prezidenti Tabare Vaskesin salamlarını dövlətimizin başçısına çatdırdı. İkitərəfli əlaqələrin inkişafına toxunan səfir parlamentlərarası əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı. Ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu deyən diplomat Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında əməkdaşlığın*

*davamlı şəkildə inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini* bildirdi.

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın sərmayə* qoyu*luşu, ticarət, mədəni əlaqələr və digər* sah*ələrdə* genişl*ə*ndiril*məsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı* prezident Tabare Vaskesin salamlarına *görə minnətdarlığını* bildirdi, onun da *salamlarını* Uruqvay *Şərq Respublikasının Prezidentinə çatdırmağı xahiş* etdi.

## SLOVAKİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PETER PRİPUTEN İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Peter Priputenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Peter Priputen Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Peter Priputenin etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Slovakiya arasında əlaqələrin ikitərəfli və çoxtərəfli formatda inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi. Ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın mövcud olduğunu vurğulayan prezident İlham Əliyev birgə fəaliyyət sahələrinin araşdırılmasının zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı Avropa İttifaqı çərçivəsində əməkdaşlığın ikitərəfli əlaqələrin inkişafı baxımından da mühüm əhəmiyyət daşıdığını dedi.*

*Səfir Peter Priputen ölkəmizə səfərindən ötən dövr ərzində böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını, Azərbaycanın Slovakiya üçün dost ölkə olduğunu və dövlətlərimiz arasında hər hansı siyasi problemin olmadığını vurğuladı. O, ölkəsinin Azərbaycan ilə əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, turizm, idman, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər sahələrdə inkişaf etdirilməsində maraqlı olduğunu nəzərə çatdırdı.*

*Bakıda keçiriləcək I Avropa oyunlarına hazırlıqla bağlı söhbət zamanı slovakiyalı diplomat ölkəsinin bu oyunlarda 250 idmançı ilə təmsil olunacağı barədə dövlətimizin başçısına məlumat verdi.*

## HƏBƏŞİSTAN FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AYALEV QOBEZİE VORKNEH İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Həbəşistan Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ayalev Qobezie Vorknehin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Ayalev Qobezie Vorkneh Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Ayalev Qobezie Vorknehin etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Həbəşistan Federativ Demokratik Respublikası arasında ikitərəfli əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.*

*Səfir Ayalev Qobezie Vorkneh Həbəşistan Federativ Demokratik Respublikasının Prezidenti Mulati Teşomenin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.*

*Görüşdə son illər dinamik şəkildə inkişaf edən ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, biznes, mədəniyyət və digər*

*sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Mulati Teşomenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Həbəşistan Federativ Demokratik Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

# MONTENEQRO RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BRANKO MİLİÇ İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Monteneqro Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Branko Miliçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Branko Miliç Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Branko Miliçin etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Branko Miliç Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçin, Baş nazir Milo Dukanoviçin və Parlamentin Sədri Ranko Krivokapiçin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında mövcud olan dostluq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin xüsusilə son bir neçə ildə sürətlə inkişaf etdiyini və yaxşı nəticələrin əldə olunduğunu vurğuladı. Dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev Monteneqronun prezidenti Filip Vuyanoviçin, Baş nazir Milo Dukanoviçin və Parlamentin Sədri Ranko Krivokapiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Monteneqronun Prezidentinə, Baş nazirinə və Parlamentin Sədrinə çatdırmağı xahiş etdi.*

## VENESUELA BOLİVAR RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AMENHOTEP ZAMBRANO KONTRERAS İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Venesuela Bolivar Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Amenhotep Zambrano Kontrerasın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Amenhotep Zambrano Kontreras Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Amenhotep Zambrano Kontrerasın etimadnaməsini qəbul etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. İqtisadi sahədə əməkdaşlığa toxunan prezident İlham Əliyev bu sahədə əlaqələrin inkişaf etdirilməsi üçün investisiya və birgə fəaliyyətlə bağlı müxtəlif layihələrin önəmini vurğulayaraq bu istiqamətdə səfirin uğurlu iş aparacağına ümidvar olduğunu dedi.*

*Səfir Amenhotep Zambrano Kontreras Venesuela prezidenti Nikolas Maduronun beynəlxalq təşkilatlarda Azərbaycanın ölkəsinə verdiyi dəstəklə bağlı minnətdarlığını prezident İlham Əliyevə çatdırdı. Səfir paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. O, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən qeyri-neft sektorunda, mədəniyyət və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın önəmini vurğuladı.*

## BAKI «AĞ ŞƏHƏR» BULVARINDA HƏYATA KEÇİRİLƏN İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*30 mart 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Bakı «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verildi.*

*Bakı «Ağ şəhər» bulvarı prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın «Qara şəhər» kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazidə ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlamaqla, paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.*

*Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün «Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq.*

*Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.*

*Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlandı və müvafiq tapşırıqlarını verdi.*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Yenidən Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə qələbəniz uzun müddət ərzində Sizin həyata keçirdiyiniz dərindən düşünülmüş, ardıcıl siyasətin qardaş Özbəkistan xalqı tərəfindən dəstəklənməsini inandırıcı şəkildə təsdiq edir. Bu gün Özbəkistan müstəqilliyin və demokratiyanın möhkəmləndirilməsi, dinamik sosial-iqtisadi inkişaf yolu ilə inamla irəliləyir. Özbəkistan dünya birliyində layiqli yer tutur, beynəlxalq aləmdə onun nüfuzu artır.

Xalqlarımız arasında çoxəsrlik dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək ənənələrinin inkişafına və genişləndirilməsinə Sizin töhfənizi Azərbaycanda yüksək qiymətləndirirlər. Əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında çoxplanlı qarşılıqlı fəaliyyət və strateji tərəfdaşlıq qardaş xalqlarımızın və ölkələrimizin firavanlığı naminə bundan sonra da hərtərəfli və dönmədən inkişaf edəcək.

Əziz İslam Abduqəniyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Özbəkistanın rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 mart 2015-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ AMANGƏLDİ JUMABAYEV İLƏ GÖRÜŞ

*1 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Qazaxıstan Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Amangəldi Jumabayevi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Səfir Amangəldi Jumabayev qeyd etdi ki, dövlətimizin başçısının həyata keçirdiyi müdrik daxili və xarici siyasət onda böyük təəssürat yaradıb. O, səfir kimi fəaliyyəti müddətində əməksevər və qonaqpərvər Azərbaycan xalqının ona daim səmimi münasibət bəslədiyini vurğulayaraq ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Amangeldı Jumabayevin ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, inteqrasiya proseslərində və digər sahələrdə daha da genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirərək, ona gələcək fəaliyyətində uğurlar arzuladı.*

## RUSİYA KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ, KİNOREJİSSOR NİKİTA MİXALKOV İLƏ GÖRÜŞ

*1 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovu qəbul etmişdir.*

Nikita Mixalkov Azərbaycana səfərindən dərin məmnunluq hissi keçirdiyini bildirdi. Bakıda misli görünməmiş inkişafın şahidi olduğunu vurğulayan kinorejissor filmlərindən birinin epizodunun Bakıda çəkildiyini məmnunluqla xatırlatdı. Ölkəmizdə gedən böyük inkişaf proseslərinə toxunan Nikita Mixalkov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə göstərdiyi müstəsna xidmətlərinin önəmini vurğulayaraq ulu öndərin Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyin qurulması və möhkəmləndirilməsindəki rolunu xüsusi qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən humanitar sahədə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovun Azərbaycana səfərinin ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyini bildirdi. Dövlətimizin başçısı ölkəmizdə mədəniyyətin, o cümlədən kinematoqrafiyanın inkişafına dövlət səviyyəsində qayğı göstərildiyini, bu sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi və Azərbaycan mədəniyyətinin dünyada təbliğ olunması istiqamətində ardıcıl işlər aparıldığını da qeyd etdi.

Sonra Nikita Mixalkov prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Oxot dənizində «Dalniy Vostok» traulerinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmalarını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *2 aprel 2015-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 aprel 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Maktumun aprelin 2-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda hörmətli qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Məktumu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Məktuma raport verdi.*

*Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Dubay əmirinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezident İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş nazirinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev və əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Məktum rəsmi foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*2 aprel 2015-ci il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Maktumun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Zati-aliləri, hörmətli qonaqlar! Sizi Azərbaycanda səmimi salamlayıram. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bizim aramızda çox fəal siyasi dialoq mövcuddur. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. BMT və İslam Əməkdaşlıq Təşkilatında ölkənizin bizə göstərdiyi dəstəyə görə Sizə minnətdarıq. Azərbaycan da öz növbəsində, hər zaman bütün beynəlxalq təsisatlarda Sizin ölkənizi dəstəkləyir. Ona görə də xalqlarımız arasındakı qardaşlığa əsaslanan güclü siyasi əlaqələr və fəal siyasi dialoq ikitərəfli tərəfdaşlıq üçün olduqca özəl format yaradır.

Sözsüz ki, iqtisadi əməkdaşlıq və investisiya ilə əlaqədar məsələlər mühüm əhəmiyyət kəsb edir. Şadıq ki, Sizin Ticarət Palatanızın xaricdə ilk ofisi 3 il əvvəl Bakıda yaradılıb. Qarşılıqlı investisiyalar, müxtəlif layihələrin birgə icrası, birgə müəssisələrin yaradılması üçün yaxşı imkanlar var, xüsusilə də turizm sahəsində. Bildiyiniz kimi, Azərbaycandan çox adam sizin gözəl ölkənizə səfər edir. Ümidvarıq ki, sizin ölkənizdən də turistlər Azərbaycana daha tez-tez səfərlər edəcəklər. Beləliklə, əməkdaşlığın formatı çox genişdir. Əminəm ki, nümayəndə heyəti üzvlərinin xüsusi layihələrlə bağlı fikir

mübadiləsi aparmaq imkanı olacaq. Bir daha sizi salamlayıram və Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

**Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Məktum:** Çox təşəkkür edirəm. Biz səmimi qarşılandıq. Əlaqələrimizi daha da genişləndirmək və yaxşılaşdırmaq üçün bu gözəl ölkədə olmaqdan çox şadıq. Bu, ölkənizi görmək üçün yaxşı imkandır. Bizim bir-birimizdən öyrənəcəyimiz şeylər var.

* * *

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi perspektivləri, qarşılıqlı və birgə investisiyalar, turizm və digər məsələlər müzakirə olundu.*

*Görüşdə regional təhlükəsizlik və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 aprel 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra aprelin 2-də prezident İlham Əliyevin və əlahəzrət Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun iştirakı ilə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Fövqəladə Halların, Böhranların və Fəlakətlərin İdarə Edilməsi Komitəsi arasında «Fövqəladə halların idarə olunması sahəsində Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət naziri Ənvər Məhəmməd Qarqaş imzaladılar.*

*Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Qiymətli Kağızlar və Əmtəə Komitəsi arasında «Yardım və qarşılıqlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifov və Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mənsuri imzaladılar.*

## «AITF–2015» XIV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*3 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 3-də «Baku Expo» Mərkəzində «AITF–2015» XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər, «HOREX Caucasus–2015» IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar, həmçinin «CIBS–2015» II Xəzər Beynəlxalq kater və yaxtalar sərgiləri ilə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi barədə məlumat verdi. Bildirildi ki, Beynəlxalq turizm və səyahətlər sərgisi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilir, Dünya Turizm Təşkilatı, Azərbaycan Turizm Assosiasiyası və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası tərəfindən dəstəklənir. Bu sərginin əhəmiyyəti, burada iştirak edən ölkə və şirkətlərin sayı ildən-ilə artmaqdadır. 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdısa, bu il onların sayı 42-yə çatıb. Bu ölkələrdən gələn 371 şirkət sərgidə ümumilikdə 80-dək turizm istiqamətini təqdim edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış oldular.*

*Qeyd edildi ki, əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti olan Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmiz turizm mərkəzi kimi də bütün dünyada tanınır. Son illərdə Azərbaycanın turizm potensialını nümayiş etdirmək məqsədilə bir sıra mühüm tədbirlər keçirilir. Onların arasında*

*Bakıda hər il keçirilən Beynəlxalq turizm və səyahətlər sərgisinin xüsusi rolu var. Bu sərgi ümumilikdə Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri hesab olunur. Məhz buna görə də sərgiyə maraq getdikcə artır. Odur ki, turizm və səyahətlər sərgisi müxtəlif turizm imkanları ilə bol olan məkana çevrilib. Sərgi həm turizm peşəkarlarına, həm də bütün səyahət həvəskarlarına gözəl imkanlar yaradır. Eyni zamanda, sərgi Azərbaycanın zəngin turizm potensialını xarici iştirakçılara əyani şəkildə göstərir. Bu sərgi bütövlükdə turizm sənayesi üzrə beynəlxalq görüş platforması kimi, regionda liderdir.*

*Bildirildi ki, Azərbaycan Turizm Assosiasiyası 2009-cu ildə yaradılıb. Qurum turizm şirkətlərini birləşdirir, onların fəaliyyətini əlaqələndirir. Assosiasiya Dünya Turizm Təşkilatının üzvüdür. Bu quruma 100-dən çox turizm şirkəti və 80-dən çox mehmanxana kompleksi daxildir.*

*Naxçıvan stendi ilə tanışlıq zamanı məlumat verildi ki, muxtar respublika burada 6 hotel kompleksi ilə təmsil olunur. 1995–2015-ci illərdə Naxçıvana gedən turistlərin sayı 20 dəfədən çox artıb. Turizm sahəsinə göstərilən dövlət qayğısı, Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olub. Ölkəmizin regionları da sərgidə geniş təmsil olunur. Burada bölgələrimizin turizm imkanları ilə bərabər, milli adətlərimiz, mətbəximiz, tarixi abidələrimiz barədə də ətraflı məlumat verilir.*

*Sərgidə təmsil olunan «Dalga beach Aquapark» istirahət mərkəzi Abşeron yarımadasının ən mənzərəli yerlərindən olan Mərdəkanda yerləşir. Burada müştərilərin istirahətini yüksək səviyyədə təşkil etmək üçün zəruri şərait yaradılıb.*

*Bu sərginin daha bir mühüm xüsusiyyəti turizm xidmətlərinin geniş çeşidini nümayiş etdirmək, turagentlik və turoperatorları, milli qrupları, beynəlxalq nümayəndəlikləri, avtomobil, hava və dəniz daşımaları üzrə şirkətləri, müxtəlif ölkələrin mehmanxana biznesi üzrə nümayəndələrini, turizm və ticarət*

*assosiasiyalarını, eləcə də fəal və ekstremal istirahət turlarının təşkilatçılarını bir yerə toplamaqdır.*

*Sərgidə regionun aparıcı aviaşirkəti olan «Azərbaycan Hava Yolları» QSC və onun tərəfdaşı kimi, «SilkWay» şirkəti də iştirak edir. Məlumat verildi ki, Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni terminalı dünyanın 18 ən yaxşı dördulduzlu terminalları sırasındadır.*

*İran İslam Respublikası da sərgidə iştirak edir. İran sərgiyə 5 şirkətlə qatılıb. Onlar Təbriz, Urmiya, Ərdəbil və digər şəhərləri təmsil edir. İran stendində 1 hotel komlpeksi də imkanlarını nümayiş etdirir.*

*Maldiv Respublikası isə ilk dəfədir Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinə qatılıb və 5 turizm şirkəti ilə təmsil olunur. Maldivdən gələn şirkətlər əsasən yay və ekzotik turizm növləri üzrə xidmətlərini təqdim edir.*

*Malayziyanın turizm şirkətləri də sərgiyə gələn qonaqlara əsasən ekzotik turizm marşrutları üzrə xidmətləri təklif edir.*

*Macarıstan artıq 3-cü dəfədir ki, sərgiyə qatılıb. Bu ölkənin stendində milli stendlə yanaşı, 3 turizm operatoru da xidmətlərini təklif edir. Burada təklif olunan turizm istiqamətləri əsasən ekskursiya, ov və tibbi istiqamətlər üzrədir.*

*Budəfəki sərgidə Argentina bu ölkənin Turizm Nazirliyinin milli stendi ilə təmsil olunur. Stenddə Argentinanın çayı, mətbəxi, şirniyyatları və adətləri barədə məlumat verilir.*

*Hindistan isə sərgiyə 2010-cu ildən qatılır. Bu dəfə əvvəlki illərlə müqayisədə buraya gələn şirkətlərin sayı artaraq 7-yə çatıb. Bu şirkətlər ekzotik və tarixi marşrutlar üzrə turizm imkanlarını nümayiş etdirir.*

*İkinci dəfə sərgiyə qatılan Dominikan Respublikası 16 turizm şirkəti ilə təmsil olunur. Bu il Dominikanın turizm imkanlarını nümayiş etdirən stendin sahəsi xeyli genişlənib. Bu ölkənin şirkətləri Azərbaycan vətəndaşları üçün eksklüziv təkliflərlə çıxış edir.*

*Sərgidə qardaş Türkiyə 30-dan çox turizm şirkəti və idarəsi ilə təmsil olunur. Qars, Ərdahan, İğdır, Ərzurum, Alaniya, An-*

*talya, Bodrum, Mardin kimi səfalı məkanların geniş turizm imkanlarının təqdim olunduğu stenddə ziyarətçilərə yay-qış turizminin bir çox xidmətləri təklif edilir.*

*Sloveniyanın stendində 16 turoperator öz xidmətlərini təklif edir. Buraya əsasən tibbi-müalicəvi istiqamətlər daxildir.*

*Builki turizm sərgisinə Litva 16 şirkətlə qatılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «HOREX Caucasus–2015» IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi ilə də tanış oldular.*

*Sərgidə Azərbaycan, İtaliya, Koreya Respublikası, Litva, Rusiya və Türkiyənin aparıcı şirkətləri iştirak edir. Sərgi iştirakçıları arasında dünyanın nüfuzlu şirkətləri də var. Ölkədə mehmanxana, restoran, idman kompleksləri və biznes mərkəzlərinin intensiv tikintisi ilə əlaqədar bu sərginin keçirilməsi olduqca aktualdır. Sərgidə dünyanın aparıcı şirkətlərindən olan «Lactalis» şirkəti də məhsullarını nümayiş etdirir. Dünyanın 37 ölkəsində müəssisələri olan şirkət pendir istehsalı üzrə liderlərdən biridir.*

*Dövlətimizin başçısı «CIBS–2015» II Xəzər Beynəlxalq katerlər və yaxtalar sərgisinə də baxdı. Bu sərgi Xəzər regionunda katerlər, yaxtalar, müxtəlif növ dəniz avadanlığı, yaxt-klublar, su idmanı, su nəqliyyatı və bu istiqamətdə digər sektorlarda fəaliyyət göstərən şirkətləri özündə birləşdirən yeganə ixtisaslaşdırılmış tədbirdir. İştirakçıların coğrafiyası Azərbaycan, ABŞ və Ukraynanı əhatə edir.*

*Sərgilərlə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya «Bakı–2015» I Avropa oyunlarının açılışı mərasiminə biletlər təqdim olundu.*

*Dövlətimizin başçısı sərgilərin işinə uğurlar arzuladı.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏR

*5 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gəlmişlər.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Ər-Riyadın Hərbi Aerodromunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi oldu.*

*Dövlətimizin başçısı İlham Əliyevi İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycanın və Səudiyyə Ərəbistanının dövlət himnləri səsləndi.*

*Səudiyyə Ərəbistanının dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səuda təqdim olundu.*

*Sonra İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud tərəfindən Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi.*

# SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*Ər-Riyad*

*5 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudla görüşmüşdür.*

*İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ölkəsində salamladı və bu səfərin uğurla keçəcəyinə əminliyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığın inkişafı baxımından bu səfərin əhəmiyyəti yüksək qiymətləndirildi. İslam ölkələri arasında qarşılıqlı anlaşmanın və faydalı əməkdaşlığın inkişafının vacibliyi vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyinin və bir-birinə qarşılıqlı dəstək verdiyinin qeyd olunduğu görüşdə iqtisadi, xüsusilə neft-qaz, turizm, kənd təsərrüfatı, poladəritmə, enerji sahələrində, eləcə də biznes dairələri arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər müzakirə edildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.*

*Kral Salman bin Əbdüləziz Al Səud münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiklərini və*

*Səudiyyə Ərəbistanının* bu *mövqeyinin heç* vaxt *dəyişməyəcəyini diqqətə çatdırdı.*

Prezident *İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində tutduğu ədalətli mövqeyə və işğalçı ölkə ilə* diplomatik *əlaqələr* qur-*madığına*, bu *məsələ ilə bağlı beynəlxalq təşkilatlarda* verdiyi *dəstəyə görə Səudiyyə Ərəbistanı Krallığına minnətdarlığını* bildirdi.

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT PALATALARI ŞURASININ SƏDRİ ƏBDÜLRƏHMAN ƏL-ZAMİL İLƏ GÖRÜŞ

*Ər-Riyad*

*5 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Ər-Riyadda Səudiyyə Ərəbistanı Krallığının Ticarət Palataları Şurasının sədri Əbdülrəhman əl-Zamil ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

*Söhbət zamanı neft və kimya sənayesi, neft-qaz, kənd təsərrüfatı məhsullarının birgə istehsalı, Səudiyyə Ərəbistanına və üçüncü ölkələrə ixracı imkanları ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın və Səudiyyə Ərəbistanının neft-kimya sənayesi şirkətləri arasında görüşlərin keçirilməsi ilə bu sahədə əməkdaşlıq imkanlarının araşdırılması məsələsi müzakirə edildi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ NEFT VƏ MİNERALLAR NAZİRİ ƏLİ ƏL-NAİMİ İLƏ GÖRÜŞ

*Ər-Riyad*

*5 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Ər-Riyadda Səudiyyə Ərəbistanı Krallığının Neft və Minerallar naziri Əli əl-Naimi ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edildi, Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı Krallığına səfərinin bu əlaqələrin daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi vurğulandı.*

*Söhbət zamanı dünya bazarında neftin qiyməti ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin Səudiyyə Ərəbistanı şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı imkanların olduğu qeyd edildi. Həmin şirkətlərin ölkəmizdə həm kontraktor, həm də investor kimi fəaliyyəti üçün əlverişli mühitin olduğu vurğulandı, müxtəlif məsələlərə dair texniki təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsi, eləcə də «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı müzakirələr aparıldı.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ MALİYYƏ NAZİRİ İBRAHİM ƏL-ASSAF İLƏ GÖRÜŞ

*Ər-Riyad*

*5 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Ər-Riyadda Səudiyyə Ərəbistanı Krallığının Maliyyə naziri İbrahim əl-Assaf ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın iqtisadiyyat, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsinə yaxşı imkan yaratdığı bildirildi. Hazırda yol tikintisi, su təchizatı və digər sahələrdə müxtəlif əməkdaşlıq layihələrinin həyata keçirildiyi qeyd edildi. Bu istiqamətlərdə fəaliyyətin davamı olaraq sosial sahədə, irriqasiya, kənd təsərrüfatı, kanalizasiya və digər sahələrdə müxtəlif layihələrin reallaşdırılması ilə bağlı müzakirələr aparıldı.*

## CİDDƏ ŞƏHƏRİNƏ SƏFƏR

*6 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində paytaxt Ər-Riyadda görüşlərini başa çatdıraraq Ciddə şəhərinə gəlmişlər.*

*Ciddə şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı və xanımı Ciddə şəhərində yüksək qonaqpərvərliklə qarşılandılar.*

## İSLAM İNKİŞAF BANKI QRUPUNUN PREZİDENTİ ƏHMƏD MƏHƏMMƏD ƏLİ İLƏ GÖRÜŞ

*Ciddə*

*6 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Ciddədə İslam İnkişaf Bankı Qrupunun prezidenti Əhməd Məhəmməd Əli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İslam İnkişaf Bankı arasında yüksək səviyyəli əməkdaşlıqdan məmnunluq ifadə edildi. Son 10 ildə Bank ilə ölkəmiz arasında səmərəli əməkdaşlığın qurulduğu, uğurlu layihələrin icra olunduğu bildirildi, Azərbaycanda gedən sürətli inkişaf proseslərinin əlaqələrimizin genişlənməsinə təkan verdiyi vurğulandı. Azərbaycan ilə İslam İnkişaf Bankının neft-qaz, elektrik enerjisi, su təchizatı, yol tikintisi, infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı və sənaye, sərmayə qoyuluşu sahələrində nümunəvi əməkdaşlıq etdikləri diqqətə çatdırıldı.*

*Söhbət zamanı ikitərəfli əməkdaşlığa digər tərəfdaşların da cəlb olunması ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ İLƏ GÖRÜŞ

*Ciddə*

*6 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Ciddədə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi İyad bin Amin Mədəni ilə görüşmüşdür.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni prezident İlham Əliyevi salamladı.*

*Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibinin adından prezident İlham Əliyevin şərəfinə nahar verildi.*

**İyad bin Amin Mədəni:** Cənab Prezident!

Dəvətimizi qəbul edib bizimlə görüşə gəldiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk və şərəf hissi duyuruq. Özünüzü evinizdəki kimi hiss etməyiniz üçün əlimizdən gələni etmişik və bu bizim üçün böyük şərəfdir.

Biz zati-alinizə, eləcə də ölkənizə – Azərbaycana böyük diqqətlə və böyük ümidlə yanaşırıq. Zati-aliləri, Sizin rəhbərlik keyfiyyətlərinizdəki bir çox məqamları qeyd edirəm, necə ki, atanızın – Allah ona rəhmət etsin – timsalında gördüyüm kimi, güclü ölkə qurmaq əzmkarlığını Sizdə də görürəm. Həmçinin rəhbərliyiniz altında Azərbaycanın irəli sürdüyü bir çox təşəbbüsləri də vurğulamaq istəyirəm.

Bakıya, Azərbaycana səfər edən hər kəs əvvəlki vəziyyəti indiki ilə müqayisə etdikdə, ölkənizdəki tərəqqini, irəliləyişi dərhal görür. Bu işlər ölkənin mənafeyinə, tarixinə və özünəməxsusluğuna uyğun olaraq davam edir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının istər siyasi, istər iqtisadi, istərsə də əlaqələrimizi möhkəmləndirdiyimiz digər sahə-

lərdə dəstəklənməsində hər zaman tutduğu mövqeyinə görə olduqca minnətdarıq. Zati-aliləri, icazənizlə, bir neçə misal gətirim. Tədbirlərə gəldikdə, Bakı bu yaxınlarda İƏT-in əmək nazirlərinin görüşünü təşkil etmişdir. Daha sonra təşkilatımızın turizm nazirlərinin toplantısını qəbul etdi. Bundan əlavə, İƏT-ə üzv olan dövlətlərdə islam ənənələri və dəyərlərinə uyğun olaraq, qadınların oynadığı rolun daha da gücləndirilməsi mövzusunda mühüm görüş keçirilib.

Həmçinin Azərbaycan əsas məsələmizə, işimizə – fələstinli qardaşlarımızın dəstəklənməsinə sadiqliyini nümayiş etdirib. Burada həm siyasi dəstək, siyasi təsisatlara dəstək, həm Qüdsün, Qəzzanın və bütün işğal edilmiş ərazilərin əhalisinə göstərilən birbaşa yardım nəzərdə tutulur.

Zati-aliləri, həmçinin bilirik ki, ölkələrimizin əhalisinin əsas hissəsi gənclərdir. Bu sahədə Azərbaycanın irəli sürdüyü təşəbbüslər nümunəvidir və gənclərə hansı şəkildə yanaşmanın nümunəsi ola bilər. Gənclərdə gələcəyə ümidin, inamın olması çox mühüm məsələdir. Hər hansı mənfi, radikal ünsürlərə onların daxilində müqavimət olmalıdır.

Zati-aliləri, bütün bunları biz Azərbaycanın yanaşmasında, onun özünəməxsusluğunda görürük. Ölkəniz islam dininin yayıldığı ölkədir, həmçinin bəşəriyyətin qədim beşiyi olub. Əldə edilmiş arxeoloji tapıntılar da buna dəlalət edir. Cənab Prezident, Azərbaycan Asiya ilə Avropa arasında körpüdür, həmçinin ən qədim vaxtlardan neft ilə zəngin ölkə olub. Bu səbəbdən, burada Siz özünüzü evinizdəki kimi hiss etməlisiniz.

Bir sözlə, Azərbaycanın bu cür özünəməxsusluğu, tutduğu qəti mövqeyi və cənab Prezident, İslam Əməkdaşlıq Təşkilatında dəyərləndirdiyimiz hər bir məsələyə şəxsi diqqətiniz bizim üçün fərəh mənbəyidir, arxalandığımız meyardır və hesab edirik ki, ümumi dəyərlərimizə doğru irəlilədiyimiz yolda bunları daim hiss edəcəyik.

Mən həmçinin Sizi müşayiət edən bütün nümayəndə heyətini salamlayıram. BMT Təhlükəsizlik Şurasında Azərbaycanın sədrliyi zamanı tutduğu mövqeyinə görə minnətdarıq. Burada

həm də işgüzar və bank dairələrinin nümayəndələri əyləşiblər. Ümid edirəm ki, bu səfər onların arasında fikir mübadiləsi üçün fürsət yaratdı.

Cənab Prezident, verdiyiniz töhfəyə görə İslam Əməkdaşlıq Təşkilatı və üzv dövlətlər adından minnətdarlığımı bildirirəm. Üzv dövlətlər arasında sərmayələr artmalıdır. Bir sözlə, işləmək, fikir mübadiləsi aparmaq üçün imkanlar genişdir. İƏT-in üzvü olan dövlətlər arasında eyni layihələr və investorlarla rəqabətə girmək yox, əvəzləmə prinsipi əsasında çalışmalıyıq. Biz həmçinin əlahəzrət Şahzadəni burada salamlayırıq. Bizim üçün çox xoşdur ki, o, dəvətimizi qəbul edib, bu gün bizimlə buradadır. Bu bir daha onu göstərir ki, Səudiyyə Ərəbistanı Azərbaycana xüsusi əhəmiyyət verir.

Bizə verdiyiniz şərəfə görə bir daha minnətdarıq. Biz sizə, inşallah, səfərinizin uğurlu davam etməsini arzu edirik. Bu gün ziyafətə gəlmiş bütün qonaqlara təşəkkür edirəm. Sağ olun, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Əlahəzrət Şahzadə!

Cənab baş katib!

Əziz dostlar!

Əvvəlcə, göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Səudiyyə Ərəbistanında yenidən olmağımdam çox şadam. Dünən gözəl ölkənizə rəsmi səfərim başlayıb. Əlahəzrət, Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi ilə ikitərəfli münasibətlərimizə dair bir çox məsələləri və regional prosesləri müzakirə etmək şərəfinə nail oldum.

Biz tərəfdaşlığımızın strateji xarakterini bir daha təsdiqlədik. Səudiyyə Ərəbistanı və Azərbaycan qardaş və dostdurlar. Bütün beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik və dəstəkləməkdə davam edəcəyik.

Dünən ölkənizin nazirləri ilə görüşlər zamanı iqtisadi və siyasi əməkdaşlığa dair müxtəlif layihələri, qarşılıqlı ticarətin həcminin artırılması imkanlarını müzakirə etdik. İqtisadi tərəfdaşlığımızı siyasi əməkdaşlığımız səviyyəsinə qaldırma-

lıyıq. Gələn ay ölkəmizə səfər edəcək Səudiyyə Ərəbistanının iş adamlarından ibarət böyük nümayəndə heyəti və noyabr ayında sizin ölkənizə yollanacaq bizim nümayəndə heyətimiz fikrimcə, iqtisadi əməkdaşlıq üçün çox məhsuldar format yaradacaq. Başqa sözlə, əminəm ki, səfərim ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcək.

Bu gün, həmçinin Azərbaycanın fəal üzv olduğu İslam Əməkdaşlıq Təşkilatında olmaq mənim üçün böyük şərəfdir. Cənab baş katib, artıq qeyd etdiyiniz kimi, son bir neçə il ərzində Azərbaycanda nazirlər səviyyəsində müxtəlif görüşlər keçirilib. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi, olduqca fəal rol oynamağa və dünyada islam həmrəyliyi işinə töhfə verməyə çalışır. Cənab baş katib, düzgün qeyd etdiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğumuz zaman biz BMT ilə İƏT arasında əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirirdik və beləliklə, təşkilatımızın fəaliyyətinə daha çox diqqətin cəlb edilməsinə nail olduq.

Fürsətdən istifadə edərək, ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlük üçün Azərbaycanın namizədliyinə verdiyi güclü dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatına təşəkkürümü bildirmək istəyirəm. Həmin vaxt mən çox aydın şəkildə bəyan etdim ki, əgər seçilərsə, Azərbaycan nəinki özünü, eləcə də bütün müsəlman ölkələrini təmsil və müdafiə edəcək.

Biz islam həmrəyliyinin gücləndirilməsi üçün daha çox çalışacağıq. Azərbaycan 2017-ci ildə İslam Həmrəyliyi oyunlarını qəbul edəcək. Bu həmçinin birliyimizə verilən töhfədir. Çünki oyunlar təkcə idman yarışı olmayacaq, eyni zamanda, birliyimizin, müsəlman aləmində gənc nəsillərimizin həmrəyliyinin günləri olacaq. Biz qardaşlıq ənənələrimizi bizi əvəzləyəcək gənc nəsillərə ötürməliyik. Nəzərə almaq lazımdır ki, bu gün media, qloballaşma və gündəlik həyatımızın digər elementləri müxtəlif aspektlər baxımından öz rolunu oynayır. Əfsuslar ki, onlar bəzən köklərimizi, ənənələrimizi sual altında qoyaraq, mənfi rol da

oynayır. Qloballaşma özlüyündə yaxşı bir prosesdir. Lakin o bəzən kökləri, ənənələri, dini, bayramları və dəyərləri yaddan çıxarmaq mənasını daşıyırsa, onda biz bu cür qloballaşmanı dəstəkləmirik.

Bu səbəbdən, müsəlman aləminin gənc nəsli milli, ənənəvi dəyərlərimizə əsaslanaraq tərbiyələndirilməlidir. Əlbəttə, Səudiyyə Ərəbistanının bu baxımdan oynadığı rol çox əhəmiyyətlidir. Azərbaycan da öz növbəsində, dəyərlərimizi təşviq etmək üçün əlindən gələni edir. Biz müsəlman aləminin mədəniyyətini nümayiş etdirmək, islamı sülh, qardaşlıq və tolerantlıq dini kimi təqdim etmək məqsədilə dünyanın müxtəlif yerlərində bir çox konfranslar, sərgilər və digər mədəni tədbirlər təşkil etmişik.

İslamı dünyaya təhlükə kimi təqdim etmək istəyənlərə imkan verməmək üçün biz daha çox çalışmalıyıq, səylərimizi birləşdirməliyik. İslam sülh və qardaşlıq dinidir. Biz bunu bilirik. Hər kəs bunu bilməlidir. Dəyərlərimizi təşviq etmək və keçmişimizi, bu günümüzü və gələcəklə bağlı planlarımızı düzgün şəkildə çatdırmaq üçün daha fəal olmalıyıq.

İştirak etdiyimiz bütün beynəlxalq forum və təşkilatlarda müsəlman qardaşlarımızı dəstəkləməkdə davam edəcəyik, müsəlman aləmində hamımız üçün çox zəruri olan daha güclü tərəfdaşlıq və birlik quracağıq. Hesab edirəm ki, hazırda aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilmiş İslam Əməkdaşlıq Təşkilatı ilə öz məqsədlərimizə nail olacağıq.

Mən göstərilən qonaqpərvərliyə görə bir daha Səudiyyə Ərəbistanının rəhbərliyinə və İslam Əməkdaşlıq Təşkilatına öz minnətdarlığımı bildirmək istəyirəm. Dünəndən etibarən burada özümü evimdəki kimi hiss edirəm. Bu, qardaşlığımızın təzahürüdür və əməkdaşlığımızın mahiyyətidir.

Bir daha çox sağ olun. Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəninin görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə İƏT arasında yüksək səviyyəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu görüşün əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi. İslam Əməkdaşlıq Təşkilatının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli məsələsində tutduğu ədalətli mövqe yüksək qiymətləndirildi.*

## MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ

*Məkkə*

*6 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 6-da islam dünyasının əsas müqəddəs şəhəri Məkkədə Ümrə ziyarətində olmuşlar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri xüsusi zəvvar libası geyinərək, əl-Həram məscidinə gəldilər.*

*Bir neçə mərtəbəli və 9 minarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.*

*Ziyarətgahın yüksək səviyyəli din xadimləri dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, ailə üzvləri və onu müşayiət edən şəxslər Kəbənin ətrafına dolanıb təvaf etdilər və məsciddə namaz qıldılar.*

*Kəbənin qapıları müstəsna hallarda ali qonaqlar üçün açılır, bu dəfə isə Azərbaycan prezidenti İlham Əliyev və ailə üzvləri üçün açıldı. Bu da prezident İlham Əliyevin şəxsiyyətinə və fəaliyyətinə islam dünyasında verilən önəmin ifadəsidir. Bu həm də Səudiyyə Ərəbistanı Krallığı rəhbərliyinin dövlətimizin başçısına olan böyük hörmətinin və dərin səmimi münasibətinin təzahürüdür.*

*Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlandı. Azərbaycan Prezidenti və ailə üzvləri bu 2 təpə arasındakı məsafəni islam dininin ayinlərinə uyğun olaraq 7 dəfə qət etdilər.*

*Həzrəti Məhəmməd (s) bu torpaqda doğulub, peyğəmbərliyə çatıb, islam dini də Məkkədə yaranıb. Məkkədəki «Allah evi» Kəbə*

*həzrəti Məhəmməd peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən müqəddəs ziyarətgahına çevrilib. Sonralar Kəbə və müqəddəs «Zəmzəm» çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilib. Hər il Həcc ziyarəti zamanı dünyanın müxtəlif guşələrindən gələn milyonlarla müsəlman Kəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılır.*

*Ayə və hədislərdən də bəlli olduğu kimi, Kəbə yer üzündə insanlar üçün məbəd olaraq tikilən ilk evdir. Aləmlərə uğur, bərəkət və hidayət qaynağı olaraq qurulan Kəbə haqqında Allah-Taala «Qurani-Kərim»in «əl-İmran» surəsində belə buyurur: «Həqiqətən, insanlar üçün ilk bina olunan ev Məkkədəki evdir ki, o şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr, İbrahimin məqamı var». Tarixboyu bir çox dəyişikliklərə məruz qalan Kəbə müxtəlif dövrlərdə qismən, ya da tamamilə yenidən inşa olunub və bugünkü möhtəşəmliyinə çatıb.*

*Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı əl-Həram məscidini seyr etdi.*

*Azərbaycan Prezidentinə məscid haqqında ətraflı məlumat verildi.*

## PEYĞƏMBƏR MƏSCİDİNİ ZİYARƏT

*Mədinə*

*7 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri aprelin 7-də Mədinə şəhərində Peyğəmbər məscidini ziyarət etmişlər.*

*Peyğəmbər məscidində din xadimləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.*

*Sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Peyğəmbər məscidində namaz qıldılar.*

*Peyğəmbər məscidi və ya Məscid ən-Nəbəvi adlanan bu müqəddəs məkan dünyanın ən böyük məscidlərindən biridir. İslamda Məkkədəki əl-Həram məscidindən sonra ikinci müqəddəs ocaq hesab olunan Peyğəmbər məscidi hicrətdən sonra Mədinədə Məhəmməd peyğəmbər və əshabı tərəfindən inşa edilib. Sahəsi 400 min kvadratmetr olan məscidin 10 minarəsi var.*

*Bu məsciddə Məhəmməd peyğəmbərin dəfn olunduğu yerə müstəsna hallarda ali qonaqların daxil olmasına icazə verilir. Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində böyük hörmətlə qarşılanan prezident İlham Əliyevə olan yüksək münasibətin və onun nüfuzunun nəticəsi idi ki, dövlətimizin başçısına Peyğəmbər məscidində dərin ehtiram göstərildi, Məhəmməd peyğəmbərin dəfn olunduğu yer müstəsna hal kimi, ali qonağın və ailə üzvlərinin ziyarəti üçün açıldı.*

*Məscidlə tanışlıq zamanı buraya toplaşan insanlar da Azərbaycan Prezidentinə öz hörmət və ehtiramlarını bildirdilər, dövlətimizin başçısına səmimi salamlarını çatdırdılar.*

*Məhəmməd peyğəmbərin vaxtında bu məscid Rəsulullahın Mədinədə bütün fəaliyyətinin mərkəzi olub. Buna görə də Peyğəmbər məscidi faktiki olaraq həmin dövrdə islam ümmətinin*

*mərkəzi hesab edilirdi. Miladi təqvimlə 632-ci ildə həzrəti Məhəmməd (s) dünyasını dəyişdikdə hazırda Peyğəmbər məscidi kompleksinə daxil olan evində dəfn edilib. Hər il Məkkəyə Həcc ziyarətinə gedən zəvvarlar ənənəvi olaraq Mədinəyə gələrək, Peyğəmbər məscidində həzrəti Məhəmmədin məzarını da ziyarət edirlər.*

*Məscid kompleksi müasir texnologiyalar, həmçinin Şərq və islam mədəniyyətinin vəhdət təşkil etdiyi gözəl memarlıq üslubunda yenidən inşa edilib, ərazisi genişləndirilib. Hazırda burada 650 min müsəlmanın eyni vaxtda ibadətlə məşğul olmaq imkanı var.*

* * *

*Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri başa çatmışdır.*

## XVIII AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli sammit iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və növbəti toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə hər il qardaş Türkiyədə keçirilən bu toplantılar Avrasiya məkanında xalqlar və dövlətlərarası əlaqələrin inkişafına xidmət edir. Şübhə yoxdur ki, informasiya texnologiyaları, telekommunikasiya, maliyyə, enerji, nəqliyyat, logistika və digər sahələrlə bağlı müzakirələrin aparılacağı XVIII Sammit də region ölkələri arasında dostluq və əməkdaşlıq mühitinin möhkəmlənməsinə sanballı töhfə verəcəkdir.

Azərbaycan Respublikası bölgənin inkişafına yeni imkanlar açan mütərəqqi ideyaları, innovativ təşəbbüsləri, mühüm enerji və infrastruktur layihələrini dəstəkləməkdə davam edir. Hazırda zəngin karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərə nəql edən 7 neft və qaz kəməri mövcuddur. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş «Şahdəniz», TANAP və TAP layihələrinin ən iri səhmdarlarından biridir. Ötən il Bakıda «Cənub Qaz Dəhlizi»nin, təxminən 20 gün əvvəl isə Qarsda Trans–Anadolu qaz boru kəmərinin təməlinin qoyulması ilə «XXI əsrin müqaviləsi» adlandırılan nəhəng transmilli layihənin icrası istiqamətində əməli işlərə başlanılmışdır. Bu il Xəzər dənizində Beynəlxalq Dəniz Ticarəti Limanının əsas hissəsinin istifadəyə verilməsi, habelə Asiya ilə Avropanı qovuşduran Bakı–Tbilisi–Qars dəmir yolunun inşasının başa çatdırılması da nəzərdə tutulub.

Azərbaycan Avrasiya məkanında humanitar əməkdaşlığın dərinləşməsinə çalışan və bu sahəyə böyük həcmdə sərmayə qoyan dövlətlərdən biridir. 2015-ci ilin iyununda biz Bakıda ilk

Avropa oyunlarını, 2 il sonra isə İslam Həmrəyliyi oyunlarını yüksək səviyyədə təşkil etmək əzmindəyik.

Yaşadığımız qloballaşma dövründə kəskin dəyişən iqtisadi və siyasi şərait qarşıya daim yeni vəzifələr, həlli vacib olan problemlər də çıxarır. Ümid edirəm ki, sammitin iştirakçısı olan dövlət təmsilçiləri, siyasət və elm xadimləri, ictimaiyyət və biznes nümayəndələri gündəlikdə duran və hər birimizi düşündürən aktual məsələlər ətrafında səmərəli müzakirələr aparacaq, regionun tərəqqisinə və qarşılıqlı əlaqələrin genişlənməsinə kömək edən qərarlar qəbul edəcəklər.

Başda Mərmərə qrupu olmaqla, zirvə görüşünün bütün iştirakçılarını bir daha təbrik edir və toplantınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 aprel 2015-ci il*

## RUSİYA ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ, N.N.BLOXİN ADINA RUSİYA ONKOLOJİ ELMİ MƏRKƏZİNİN DİREKTOR MÜAVİNİ, ELMİ-TƏDQİQAT UŞAQ ONKOLOGİYA VƏ HEMATOLOGİYA İNSTİTUTUNUN DİREKTORU MƏMMƏDBAĞIR CAVAD OĞLU ƏLİYEVƏ

Hörmətli Məmmədbağır Cavad oğlu!

Sizi, müasir təbabət sahəsində tanınmış alimlərdən birini 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar diləyirəm.

Siz həkimlik fəaliyyətinə Azərbaycanda başlamış, sonra Rusiyanın görkəmli alimlərinin rəhbərliyi ilə gözəl elmi məktəb keçmisiniz. Sizin Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Rusiya Federasiyası Hökuməti mükafatı laureatı kimi yüksək adlar almağınız, habelə Rusiya Elmlər Akademiyasına üzv seçilməyiniz Sizin tibb elmində nailiyyətlərinizin etirafıdır. Sevindirici haldır ki, Siz Azərbaycan üçün yüksəkixtisaslı tibbi kadrlar hazırlanmasına lazımi diqqət yetirmisiniz və yetirirsiniz.

Yaradıldığı andan Sizin rəhbərlik etdiyiniz Ümumrusiya Azərbaycanlılar Konqresi Azərbaycan diasporunun nüfuzlu ictimai təşkilatlarından birinə çevrilməyə və Rusiya–Azərbaycan münasibətlərinin müxtəlif sahələrdə inkişafına layiqincə töhfə verməyə nail olub. Konqresin Rusiyada yaşayan azərbaycanlıların Rusiya cəmiyyətinin tərkib hissəsinə çevrilə bilməsi və özlərinin ikinci Vətəninin inkişafına və çiçəklənməsinə kömək etməsi üçün gördüyü bütün işləri Azərbaycanda yüksək qiymətləndirirlər. Ümidvaram ki, bu strategiya gələcəkdə də Konqresin səmərəli işini təmin edəcək.

Əminəm ki, Siz bundan sonra da elmi və ictimai fəaliyyətinizi ahəngdar şəkildə əlaqələndirəcək, həm insanların

sağlamlığının qorunması sahəsində uğurlar qazanacaq, həm də cəmiyyətdə tolerantlığın və qarşılıqlı anlaşmanın yüksək səviyyəsinin bərqərar olmasına kömək edəcəksiniz. Sizə ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *7 aprel 2015-ci il*

# «AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUNUN TÜRK–MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI» MÖVZUSUNDA KEÇİRİLƏN II BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və mötəbər elmi toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

İnsanlığa qarşı törədilən cinayətlərin ən ağırı sayılan soyqırımı probleminin dərindən və hərtərəfli öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Hər bir humanitar faciənin elmi cəhətdən araşdırılması və tarixi faktların dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılması həmin hadisəyə obyektiv siyasi-hüquqi qiymətin verilməsinə, günahkarların layiqli cəzasına çatmasına və gələcəkdə belə halların qarşısının alınmasına həlledici təsir göstərə bilər.

Azərbaycan xalqı da son 100 ildə dəfələrlə amansız təcavüzün qurbanı olmuş, qırğınlara, deportasiya və etnik təmizləmələrə məruz qalmışdır. Konfransın keçirildiyi Quba şəhərində 8 il əvvəl aşkar edilmiş kütləvi insan məzarlığı erməni millətçilərinin XX əsrin əvvəllərində Azərbaycan və Şərqi Anadolunun türk–müsəlman əhalisinə qarşı həyata keçirdiyi sistemli və məqsədyönlü qətllərin yalnız bir fraqmentidir. Sovet hakimiyyəti dövründə bu cinayətlərin ört-basdır olunması, tarixçilərin öz elmi-tədqiqat işlərini məhdud ideoloji çərçivələr və yanlış metodologiya əsasında aparmağa məcbur edilməsi erməni ekspansionist şovinizminin daha da güclənməsinə rəvac vermiş, 23 il əvvəl dünya ictimaiyyətinin gözü qarşısında Xocalı soyqırımı kimi ağır faciənin baş verməsinə zəmin yaratmışdır. Etnik mənsubiyyətə görə törədilmiş bu kütləvi qırğına beynəlxalq birliyin vaxtında adekvat münasibət bildirməməsi sonralar planetin başqa yerlərində, o cümlədən Avropanın mərkəzində soyqırımı cinayətlərinin təkrarlanmasına yol açmışdır.

Qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə xalqlar arasında əlaqələrin güclənməsi universal bəşəri dəyərlərə hörmətlə yanaşmağı tələb edir. Belə şəraitdə, Azərbaycanda olduğu kimi, humanitar əməkdaşlığın, sivilizasiyalararası dialoqun və multikulturalizm ənənələrinin təşviq edilməsi, milli və dini tolerantlıq mühitinin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsi zəruridir. Ona görə də dünyanın mütərəqqi qüvvələri, ictimai, siyasi, elm və mədəniyyət xadimləri soyqırımı cinayətlərinə yol açan etnik, irqi və dini dözümsüzlüyə, düşmənçilik yaradan bütün hallara qarşı qətiyyətlə mübarizə aparmalıdırlar. Bu sahədə atılmalı olan ən mühüm addımlardan biri də tarixi yaddaşın təzələnməsi, uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlərin açılması, təhrif edilmiş tarixi hadisələrə obyektiv elmi qiymətin verilməsi ola bilər.

Şübhə yoxdur ki, dünyanın müxtəlif ölkələrindən tədqiqatçıların qatıldığı bu beynəlxalq elmi konfrans maraqlı məruzə və çıxışlarla, problemin ayrı-ayrı aspektlərinə dair qiymətli faktların təqdimatı ilə yadda qalacaqdır. Əminəm ki, gələcək araşdırmalarınız da türk–müsəlman xalqlarının şanlı keçmişinin faciəli məqamlarına işıq salmağa və tarixdən ibrət dərsi götürməyə xidmət edəcəkdir. Bu nəcib fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2015-ci il*

## İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ PREZİDENTİ ŞAHZADƏ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti, Səudiyyə Ərəbistanı Krallığının Gənclər və İdman naziri, Milli Olimpiya Komitəsinin prezidenti şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Şahzadə Abdullah bin Mosaad Azərbaycanda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu, ölkəmizdə ən müasir səviyyədə idman infrastrukturunun yaradıldığını vurğuladı və əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, Azərbaycanın İslam Həmrəyliyi oyunlarına tam hazır olduğunu məmnunluqla qeyd etdi.*

*Səudiyyə Ərəbistanına səfərini və kral Salman bin Əbdüləziz Al Səudla görüşünü məmnunluqla xatırladan dövlətimizin başçısı ailəsi ilə birlikdə müqəddəs Kəbədə dua etmək üçün yaradılan yüksək şəraitə görə Səudiyyə Ərəbistanının Kralına minnətdarlığını ifadə etdi. Məkkədə, Mədinədə və Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatında olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın və islam aləmində həmrəyliyin daha da möhkəmləndirilməsində bu səfərin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev eyni zamanda, səfərin İslam Həmrəyliyi oyunlarına hazırlıqla bağlı məsələlərin müzakirəsi üçün də yaxşı fürsət yaradacağını bildirdi.*

## AVROPA İTTİFAQININ KOMİSSARI YOHANNES HAHNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hahnın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, mədəni, turizm və digər sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı, insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanda bu istiqamətdə uğurlu işlərin həyata keçirildiyi bildirilərək, ölkəmizdə sərbəst toplaşma azadlığı, media, fikir, internet və digər azadlıqların təmin olunduğu qeyd edildi. Söhbət zamanı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların olduğu vurğulandı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRİ SALEM XALİFA MƏHƏMMƏD ƏL-ĞAFLİ İLƏ GÖRÜŞ

*9 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Salem Xalifa Məhəmməd əl-Ğaflini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı islam aləminin müqəddəs ocaqlarının ziyarətindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin genişləndirilməsində ölkəmizin maraqlı olduğunu deyən prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Səfir Salem Xalifa Məhəmməd əl-Ğafli ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi və ikitərəfli əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, cansağlığı və firavanlıq arzularımı yetirirəm.

Yüksək mənəvi-əxlaqi dəyərlərin və tolerantlıq ənənələrinin qorunub saxlanıldığı Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluqlarını, dil və mədəniyyətlərini qoruyub saxlayırlar. Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəsin Vətənidir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizin bütün milli və dini azlıqları, o cümlədən Azərbaycan cəmiyyətində özünəməxsus yeri olan pravoslav xristianlar millətlərarası və dinlərarası münasibətlərə, vətəndaş cəmiyyəti quruculuğuna öz layiqli töhfələrini verərək, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Gözəl bahar günlərinə təsadüf edən Pasxa bayramı xeyirxahlığı, həmrəyliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 aprel 2015-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK *

*10 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 10-da Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz 2015-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik, gələcək planlar haqqında danışacağıq. Deyə bilərəm ki, birinci rübün yekunları çox müsbətdir. Keçən ilin sonunda bölgədə böhranın başlamasına baxmayaraq Azərbaycan iqtisadiyyatın dinamik inkişafını təmin etmişdir və biz keçən ili də çox gözəl göstəricilərlə başa vurduq.

Bu ilin birinci rübündə bu müsbət meyillər davam edib. Mən keçən ilin sonunda əmin olduğumu bildirmişdim ki, 2015-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Birinci rübün

---

* Назирляр Кабинетинин 2015-ъи илин бириньи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунан иъласында Vерэиляр назири Фазил Мяммядов, Nяглиййат назири Зийа Мяммядов, Mәdяниййят вя Туризм назири Ябцлфяс Гарайев чыхыш етdilәr.

yekunları bu sözləri təsdiqləyir. Ümumi daxili məhsul 5 faizdən çox artıb.

Bu həm region, həm də dünya üçün çox gözəl göstəricidir. Bu gün dünyada 5,3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox azdır.

Azərbaycanda dinamik inkişaf təmin edilir və sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artıb. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasətin nəticəsində mümkün olub. Çünki uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan – neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etmədi. Budur Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir.

Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Şadam ki, artıq qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əminəm ki, bu faiz nisbəti getdikcə daha da artacaq və beləliklə, bundan sonra Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən daha da az asılı olacaq.

Bir daha demək istəyirəm ki, neftin qiymətinin 2 dəfədən çox düşməsi bizim ümumi dinamik inkişafımıza təsir etməyib, qeyri-neft sektoru əsas iqtisadi yükü öz üzərinə götürüb. Bundan sonra məhz qeyri-neft sektorumuzun inkişafı ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edəcək.

Sevindirici haldır ki, sənaye istehsalı birinci rübdə artıb. Son illər ərzində neftin hasilatının bir qədər düşməsi nəticəsində biz sənaye istehsalında artımı müşahidə etmirdik. Bu ilin birinci rübündə sənaye istehsalı təxminən 4 faiz artıb. Bu da görülən işlərin nəticəsidir. Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdir və bu sahəyə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların

yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sayəsində sənaye potensialımız böyük dərəcədə güclənib. Bunun nəticəsidir ki, Azərbaycanda sənaye istehsalı artır.

Kənd təsərrüfatında da artım var. Demək olar ki, 3 faizdən çox artıb. Hesab edirəm ki, bizi gələcəkdə kənd təsərrüfatının əsas artımı gözləyir. Çünki hazırda aparılan islahatlar, işlərin təkmilləşdirilməsi və düşünülmüş siyasət əminəm ki, yaxın illərdə daha da sürətli artıma təkan verəcəkdir.

İnflyasiya Azərbaycanda çox aşağı səviyyədədir. Keçən il 1 faizdən bir qədər çox idi. Bu il isə 2,8 faizdir. O da çox əlamətdar hadisədir ki, manatın məzənnəsinə bu ilin fevralında dəyişikliklər edilib, buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu onu göstərir ki, Azərbaycanda istehlak bazarına nəzarət tam təmin edilir, dövlət və hökumət bu məsələləri daim diqqət mərkəzində saxlayır.

İnflyasiyanın aşağı səviyyədə olması insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir. Onu da bilməliyik ki, inflyasiya çox aşağı səviyyədə olanda iqtisadi inkişafı bir qədər əngəlləyir. Ona görə burada, əlbəttə ki, düzgün balans seçilməlidir və Azərbaycanda makroiqtisadi vəziyyət daim diqqət mərkəzindədir. İnflyasiya həm sosial funksiyalarını özündə ehtiva etməlidir, eyni zamanda, ölkəmizin inkişafını, xüsusilə ixrac potensialımızın genişləndirilməsini təmin etməlidir. Hər il olduğu kimi, bu il də əhalinin pul gəlirləri inflyasiyanı üstələyir. Əhalinin pul gəlirləri 5,3 faizdir, təxminən 2 dəfə inflyasiyadan artıqdır.

Bax, budur bizim əsas iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, 2015-ci ildə istənilən ölkə üçün, xüsusilə neft-qaz sektoru inkişaf etmiş ölkələr üçün bu, həddindən artıq müsbət göstəricidir, deyə bilərəm ki, bizim böyük uğurumuzdur. Bu uğurları biz əldə etmişik, Azərbaycan xalqı əldə edib. Əgər biz vaxtilə ölkəmizin qeyri-neft sektorunun inkişafına bu qədər böyük diqqət göstərməsəydik, bəlkə də bu gün bu nəticələr o qədər də ürəkaçan olmazdı. Əksinə, bizi staqnasiya, resessiya gözləyə bilərdi, necə ki, biz indi dünyada, bölgədə bəzi yerlərdə bunu müşahidə edirik.

Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil. Əksinə, biz indi özümüz donor kimi, həm başqa ölkələrə, eyni zamanda, beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təqdim edirik. Bu da bizə əlavə mənfəət gətirir. Azərbaycan iqtisadi müstəqilliyini tam şəkildə əldə etdikdə təbii ki, siyasi müstəqillik daha da güclənir.

Regionlarda birinci rübdə müsbət meyillər müşahidə olunub. İş yerlərinin yaradılması prosesi gedir, 30 minə yaxın iş yeri – onlardan 25 mini daimi iş yeridir – açılmışdır. Bu, daimi prosesdir, çünki dəfələrlə qeyd etdiyim kimi, Azərbaycanda müsbət demoqrafik vəziyyət mövcuddur. Əhali artır, belə olan halda iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bizim iqtisadi potensialımız əhalinin artması ilə uzlaşmalıdır. Çünki əhalinin artması çox müsbət prosesdir, bu, ölkəmizi gücləndirir, ölkəmizin sürətli inkişafını göstərir. Çünki biz demoqrafik dinamikaya nəzər saldıqda görürük ki, məhz son illər ərzində əhalimiz kəskin şəkildə artmağa başlayıb. İqtisadiyyat da öz növbəsində, bu artım üçün gözəl imkan yaratmalıdır ki, daim iş yerləri açılsın və işsizlik aşağı səviyyədə olsun. Hazırda işsizlik və yoxsulluq ən aşağı – 5 faiz səviyyəsindədir.

Sosial məsələlər də öz həllini tapır. Bu sahə daim diqqət mərkəzindədir və bizim düşünülmüş iqtisadi islahatlarımız bütün dövrlərdə güclü sosial siyasətlə də tamamlanırdı. Bu il bütün sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün əlavə vəsait ayrılır, məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir. Hazırda 20-dən çox tibb müəssisəsi tikilir və təmir edilir, əhalinin diaqnostikası məsələləri öz həllini tapır, müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə təqribən artıq 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçib. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılıb. Artıq müayinədən keçmək üçün Bakıya gəlməyə ehtiyac yoxdur. Hər bir yerdə müasir tibb ocaqları var və bunlar da insanlara gözəl xidmət göstərməlidir.

Sosial siyasətimizin digər aspektləri də daim diqqət mərkəzindədir. Sosial sahə insanların rifah halını, rahat yaşamasını təmin edən sahədir. Ona görə Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlayır. Təbii ki, bizim gəlirlərimiz azalıb, çünki neftin satışından əldə edilən gəlirlər təbii olaraq azalır. Ancaq əvvəlki illərdə əldə edilmiş maliyyə resursları, eyni zamanda, düşünülmüş siyasət, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi bizə imkan verir ki, hətta azalan gəlirlərlə bütün sosial öhdəlikləri yerinə yetirək və ölkə üçün vacib olan infrastruktur layihələrini icra edək.

Bu il də dövlət investisiya proqramı kifayət qədər genişdir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapıb və bu layihələrin icrası nəticəsində ölkəmizin inkişafı üçün daha da yaxşı şərait yaradılacaq. İnsanların rahatlığı, eyni zamanda, biznes mühitinin yaxşılaşdırılması üçün infrastruktur layihələri, əlbəttə ki, önəmli yer tutur.

Bizim islahatlar aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görüb. İldən-ilə bizim yerimiz yaxşılaşır. Biz daha bir pillə qalxmışıq və dünya miqyasında rəqabətqabliyyətliliyə görə 38-ci yeri tutmaq, hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir. Bu yeri biz neftə, qaza görə yox, məhz düşünülmüş islahatlara görə qazanmışıq. Bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir, milli maraqlar və daxili resurslar üzərində qurulubdur. Ona görə Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir. Dünya miqyasında biz bu göstəriciyə görə ən qabaqcıl yerdəyik. Bu bizə iqtisadi müstəqillik verir, eyni zamanda, biz Azərbaycana istənilən məbləğdə xarici bazarlardan maliyyə resursları da cəlb edə bilərik. Sadəcə olaraq, hesab edirəm ki, buna böyük ehtiyac yoxdur. Təbii ki, müəyyən mənada biz bunu edirik. Amma daha çox öz işlərimizi, ölkədə görüləsi işləri daxili imkanlar hesabına təmin edirik.

Ölkəmizin beynəlxalq nüfuzu gündən-günə artır. Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvüdür. Bütün həmkarlarımla

keçirilən görüşlərdə Azərbaycana böyük hörmət müşahidə olunur. Azərbaycanda gedən işlər dünya birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır. Bizim xarici siyasətimiz çox fəaldır, çevikdir, milli maraqlar üzərində qurulubdur və milli maraqlar bizim üçün ən prioritet məsələdir. Yəqin ki, buna görə Azərbaycan son illər ərzində bütün bölgədə yaşanan böhranlardan, əgər belə demək mümkündürsə, itkisiz çıxıb və şərəflə öz siyasətini aparır. Biz heç kimin təhriki ilə addımlar atmırıq, düşünülmüş addımlar atırıq. Əgər o addımlar milli maraqlara uyğundursa, biz bunu edirik, deyilsə, biz bunu etmirik. Elə bir qüvvə yoxdur ki, bizi nəyəsə məcbur edə bilsin, yaxud da bizi hansısa kampaniyalara cəlb etsin ki, bu da bizim maraqlarımıza uyğun olmasın. Ona görə bu mövqe, yəni hər bir məsələ ilə bağlı prinsipial mövqemiz təbii olaraq, bizə böyük hörmət qazandırıb. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə, gözəl imicə malik olan ölkədir. Mən dünya birliyi deyəndə bütün ölkələri nəzərdə tuturam. Çünki dünya birliyi hansısa bir təşkilat deyil, dünya birliyi bütün ölkələrdir. Bütün ölkələr BMT-də təmsil olunur və bilirsiniz ki, bizim BMT-dəki mövqelərimiz çox güclüdür. Əgər belə olmasaydı, bir neçə il bundan əvvəl 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi.

Biz öz prinsipial beynəlxalq siyasətimizi bu il də davam etdiririk. Bu ilin əvvəlindən, baxmayaraq ki, cəmi 3 aydan bir qədər çox vaxt keçib, mənim çoxsaylı səfərlərim bizim beynəlxalq mövqelərimizi daha da möhkəmləndirib. İlin əvvəlindən mən Türkiyəyə 2 dəfə, Almaniyaya, Bolqarıstana, Vatikana və Səudiyyə Ərəbistanına da səfərlər etmişəm. 3 ay ərzində edilən bu səfərlər artıq Azərbaycanın çoxşaxəli xarici siyasət apardığını göstərir. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, bizim müqəddəs ocaqlarımız bu ölkədə yerləşir, Vatikan isə xristian aləminin mərkəzidir.

Azərbaycan öz dini, milli-mənəvi dəyərlərinə sadiq olaraq müasirlik yolu ilə uğurla, inamla gedir. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətləri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurmuşuq və bizə göstərilən hörmət, əlbəttə ki, bizi sevindirir. Bu bir daha

göstərir ki, bizim xarici siyasətimiz qüsursuzdur. Mən bunu açıq bəyan etmək istəyirəm. Biz heç bir ölkə ilə əlaqələrimizi pozmamışıq. Heç bir ölkə ilə bizim aramızda heç bir gərginlik yoxdur. Əksinə, son illər ərzində biz nə qədər dost qazanmışıq, nə qədər ölkələr bizimlə əməkdaşlıq etmək istəyir. Dövlət, hökumət başçılarının Azərbaycana səfərləri, beynəlxalq tədbirlərdə mənim iştirakım bunu bir daha göstərir. Azərbaycan bu gün dünya miqyasında öz güclü yerini tutmuş ölkədir, dünya miqyasında hörməti getdikcə artır.

Mən ilin əvvəlində dünyanın 2 aparıcı iqtisadi və siyasi forumlarında– Davosda və Münhendə iştirak etmişəm. Davos Dünya İqtisadi Forumuna, Münhen Təhlükəsizlik Konfransına məhdud sayda qonaqlar dəvət edilir. Bu tədbirlərdə dünyanın həm üzləşdiyi problemlər açıq və qapalı şəkildə müzakirə edilir, eyni zamanda, orada imkan yaradılır ki, hər bir iştirakçı öz baxışlarını ifadə etsin, öz fikirlərini bölüşsün. Azərbaycanın mövqeyi bir çox məsələlərlə bağlı çox böyük önəm daşıyır – təkcə enerji siyasəti deyil, ümumiyyətlə, geosiyasi məsələlər, təhlükəsizlik məsələləri, iqtisadi əməkdaşlıq və sabitlik. Çünki baxın, indi dünyanın hər bir yerində qarşıdurma, müharibə, ziddiyyət, böhran, çevrilişlər və digər xoşagəlməz hallar müşahidə edilir. Bu 1 il deyil, 2 il deyil, artıq 10 ilə yaxındır ki, hər tərəf yanır. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır və təbii ki, bu, dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.

Əlbəttə, antiazərbaycan qüvvələri bizə qarşı durmadan fəaliyyət göstərir. Bu barədə mən öz fikirlərimi dəfələrlə bildirmişəm. Azərbaycanın uğurlu inkişafını qəbul etməyən, işimizə kölgə salmaq, bizi ləkələmək istəyən dairələr öz səylərini davam etdirirlər. Ancaq nə Azərbaycanda, nə də ölkəmizdən kənarda onların səyləri heç bir nəticə vermir və verə bilməz. Ölkəmizdən kənarda Azərbaycanın nüfuzu, beynəlxalq imici haqqında indi mən qısa da olsa, çox dəqiq dəlillərlə öz fikirlərimi bildirdim. Ölkə daxilində də vəziyyət hamının gözü qabağındadır. Sabitlik, inkişaf, xalqla iqtidar arasındakı birlik bir daha onu göstərir ki, bizə qarşı aparılan kampaniyalar,

yaxud da ki, burada hansısa iğtişaş yaratmaq cəhdlərinin heç bir təsiri yoxdur, ola da bilməz. Azərbaycan inamla inkişaf edir.

Əlbəttə, bu səylər davam edəcək, çünki uğurlarımızı həzm edə bilməyən dairələr bizdən əl çəkməyəcəklər. Biz isə onlara ən yaxşı cavabı öz işlərimizlə veririk və onların nə sözlərinə, nə məqalələrinə, nə bəyanatlarına heç bir əhəmiyyət vermirik və verməyəcəyik.

Bizim əsas problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, həll olunmamış qalır. Bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, bunun yeganə səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir. Baxmayaraq, Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçıları dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymur və bu dövlətlər bu bəyanatlardan başqa, heç bir konkret addımlar atmırlar. Ona görə bu bəyanatlar havada qalır və beləliklə, münaqişə uzanır, öz həllini tapmır. Keçən ilin ortalarından həmsədr ölkələrin başçıları tərəfindən fəallıq göstərildi. Avqust, sentyabr, oktyabr aylarında Rusiya, Amerika və Fransa rəhbərləri zirvə görüşləri keçirdilər ki, biz vəziyyətdən çıxış yollarını tezliklə tapaq və münaqişəyə son qoyaq. Azərbaycan, əlbəttə ki, bu fəallığı dəstəkləyir. Çünki həmişə qeyd etdiyim kimi, münaqişənin həll edilməsində ən maraqlı tərəf məhz Azərbaycandır. Ancaq Ermənistan bu görüşlərdə qeyri-səmimi mövqe nümayiş etdirir, hər vəchlə çalışırdı ki, danışıqların mahiyyəti kənarda qalsın və hansısa etimad tədbirləri haqqında daha da çox söhbət aparılsın. Biz buna etiraz etmirdik. Etimad tədbirləri də önəmlidir, ancaq işin mahiyyəti işğala son qoyulmasıdır. Buna baxmayaraq, Paris görüşündən sonra biz şifahi olaraq razılaşdıq ki, hər iki tərəf təmas xəttində gərginliyi azaltmağa çalışacaq və bəlkə bu, danışıqlar prosesinə müsbət təsir göstərə bilər. Ancaq Ermənistanın riyakar siyasəti bir daha özünü büruzə verdi. 2 həftə keçməmiş Ağdam rayonunda genişmiqyaslı hərbi təlimlərə başladılar. O təlimlərin bir məqsədi var idi – Azərbaycanı təxribata çəkmək və danışıqlar prosesini pozmaq. Biz bu

təxribatlara bir neçə gün dözdük, ondan sonra düşmənə layiqli cavab verdik və beləliklə, onlara öz yerini göstərdik. Onlar isə bundan istifadə edərək, Azərbaycanı aqressiv davranışda ittiham etməyə başladılar.

Heç kim buna, bu tezisə ciddi yanaşmırdı. Azərbaycan həmişə çox təmkinli mövqe nümayiş etdirir. Danışıqlarda 20 ildən çox iştirakımız onu göstərir ki, biz məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Məsələnin həll olunmamasını Ermənistan istəyir. Çünki torpaqlarımızdan çıxmaq istəmir. Keçən ilin sonlarından Ermənistan tərəfi daim bizim mövqelərimizə hücum çəkir və bu il də bu davam edir. Bu hücumlar nəticəsində onlarla erməni öz həyatını itirib. Bizdə olan məlumata görə, son 3-4 ay ərzində 50-dən çox işğalçı təmas xəttində məhv edilib. Bunun günahkarı kriminal Ermənistan rejimidir, onun başçılarıdır, Ermənistanda hökm sürən diktatura rejimidir. Bu barədə mən öz fikirlərimi bildirmişəm. Əgər ölmək istəmirsinizsə, Azərbaycan torpaqlarından rədd olun!

Azərbaycan öz prinsipial mövqeyindən əl çəkməyəcək. Biz bu mövqeni müdafiə edəcəyik. Ermənistan isə bu işğalın yüksək qiymətini ödəyir – həm iqtisadi tənəzzül, həm müstəqillik qalıqlarının tamamilə itirilməsi, təmas xəttindəki itkilər, həm də Ermənistan ordusunda artan fərarilik halları. İndi Azərbaycan tərəfinə keçən erməni əsgərləri qeyd edirlər ki, Azərbaycan tərəfinə keçmək istəyənlərin sayı kifayət qədər çoxdur. Sadəcə olaraq, qorxurlar, çünki orada əmr verilib ki, əgər kimsə Azərbaycan tərəfinə keçmək istəyərsə, onları arxadan güllələməlidirlər, öldürməlidirlər. Budur reallıq. Bu, işğalçı dövlətin ödədiyi qiymətdir və nə qədər ki, Ermənistan–Azərbaycan münaqişəsi həll olunmayıb, onlar bu qiyməti ödəyəcəklər.

Biz Ermənistana qarşı daha da fəal mübarizə aparmalıyıq, aparırıq, bütün beynəlxalq, regional layihələrdən onları təcrid etmişik. Onların rəsmi statistik məlumatlarına görə əhalinin 30 faizi yoxsulluq, səfalət içində yaşayır. Amma real məlumat 50–60 faizdir. Onların rəsmi məlumatlarına görə, hər il ölkədən 60–

70 min insan həmişəlik köçür. Amma bizdə olan məlumat onu göstərir ki, bu rəqəm 100 minə yaxındır. Bir neçə ildən sonra artıq Ermənistan dövlətində, tarixi Azərbaycan torpaqlarında yaradılan bu dövlətdə erməni əhalisi qalmayacaq.

Mən bunu dəfələrlə demişəm, bizim cəmiyyətimiz, xüsusilə gənc nəsil heç vaxt unutmamalıdır ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu bizim tarixi dədə-baba torpaqlarımızdır, bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Bu bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün deyil. Bu bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq. İqtisadi, siyasi, hərbi gücümüz, demoqrafik vəziyyətimiz bunu deməyə əsas verir. Maşallah, Azərbaycan əhalisi yaxın zamanlarda artıq 10 milyonu keçəcəkdir və bu, məsələnin həlli üçün az əhəmiyyət daşımır.

Bir sözlə, biz ərazi bütövlüyümüzün bərpası üçün bundan sonra da fəal səylər göstərəcəyik. Münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. İkili standartlara son qoyulmalıdır. Ölkəmizin ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyündən az əhəmiyyət daşımır. Əgər Qərb dünyası postsovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edirsə, bizim münaqişə də öz həllini bu prinsiplər üzərində tapmalıdır. Amma bizə gəldikdə görürsünüz ki, münasibət fərqlidir. Bu riyakarlıqdır, ikili standartlardır, ədalətsizlikdir. Hər bir görüşdə, ən yüksək səviyyədə keçirdiyim görüşlərdə bu sözləri mən, bax, dediyim ifadələrlə tərəf-müqabillərimə çatdırıram. Bu riyakarlığa, ikili standartlara son qoyulmalıdır. Ermənistan Azərbaycanın tarixi, qanuni torpaqlarını işğal edibdir. Ancaq rəsmi bəyanatlara gəldikdə, çox mücərrəd ifadələr işlədilir. Biz öz sözümüzü

deyirik, deyəcəyik. Qeyd etdiyim kimi, bizim beynəlxalq nüfuzumuz artır. Azərbaycanla hesablaşmamaq artıq mümkün deyil və ölkəmizin iştirakı, razılığı olmadan bölgədə heç bir təşəbbüs irəli sürülə və öz həllini tapa bilməz.

Birinci rübdə enerji sektorunda iki önəmli hadisə baş verdi. Fevralın 12-də «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının birinci iclası bizim təşəbbüsümüzlə Bakıda keçirildi. Bildiyiniz kimi, keçən il sentyabrın 20-də «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur və Məşvərət Şurası iclasının keçirilməsi çox önəmli hadisə idi. Bu toplantıda «Cənub Qaz Dəhlizi»nin bizimlə əməkdaşlıq edən bütün mövcud və gələcək üzvləri iştirak edirdi. Mətbuata verilən yekun bəyanat da çox müsbət idi, orada Azərbaycanın liderlik rolu qeyd edilib. Mart ayında Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyuldu. Bu hadisə, əlbəttə ki, dünya birliyinin diqqətini cəlb etdi. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsidir. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» 4 hissədən ibarətdir, TANAP onun önəmli hissəsidir. Azərbaycan TANAP layihəsinin icrasında əsas, yəni səhmdar kimi fəaliyyət göstərir. Artıq işlər başlayır və hesab edirəm ki, Azərbaycan qazı – «Şahdəniz-2»dən çıxarılacaq qaz 2018-ci ildə Türkiyəyə çatdırılacaqdır. TAP layihəsi də icra edilməlidir. Hesab edirəm ki, TAP layihəsinin icrası üçün bəzi hallarda yaradılan süni maneələr aradan qaldırılacaq və Avropa ölkələri, bu layihədə iştirak edən ölkələr və Avropa İttifaqı bu məsələləri özləri həll edəcəkdir. Hər halda, Azərbaycan və Türkiyə üzərinə düşən vəzifələri, TANAP layihəsinin icrası ilə bağlı bütün vəzifələri vaxtında yerinə yetirəcək.

«Cənub Qaz Dəhlizi» tamamilə yeni enerji xəritəsini ortaya qoyur və Azərbaycanın rolu getdikcə artır. Bildiyiniz kimi, Avropa İttifaqı indi enerji ittifaqı haqqında bəzi təkliflər irəli sürüb və Azərbaycan Avropa Komissiyasının sənədlərində artıq önəmli tərəfdaş kimi göstərilir. Biz, əlbəttə ki, bütün bu işləri izləyirik. Biz bilirik ki, Azərbaycanın rolu nə qədər əhəmiyyətlidir. Biz bilirik ki, Azərbaycan qazı hazırda Avropa məkanı üçün yeganə yeni mənbədir. Biz öz işimizi görürük və

gördüyümüz işlər nəticə verir. Biz 2012-ci ildə prezident Ərdoğanla İstanbulda TANAP layihəsini imzaladıq və 2015-ci ildə TANAP layihəsinin təməl daşını qoyduq. Görün qısa müddət ərzində nə qədər iş görülüb. Bundan əvvəl TAP layihəsi seçilib, «Şahdəniz-2» layihəsinə start verilib və Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» kəməri də artıq inşa edilir. Bax, bizim işimiz bunlardan ibarətdir – boşboğazlıq yox, konkret nəticəyə hesablanmış işlərdən. Biz heç vaxt populist vədlər verməmişik, konkret nəyi demişiksə, onu da etmişik. Ona görə birinci rübdə ümumi iqtisadi inkişafla əlaqədar dediyim bu sözlər bir daha bizim uğurlu siyasətimizi göstərir. Eyni zamanda, birinci rübdə enerji siyasətimizi bundan sonra uğurla aparmaq üçün çox önəmli addımlar atılıb. Əminəm ki, nəzərdə tutulan bütün vəzifələr ilin sonuna qədər icra ediləcək, dinamik inkişaf təmin olunacaq, iqtisadiyyat, qeyri-neft sektorumuz artacaq və Azərbaycan 2015-ci ildə daha da böyük zirvələrə çatacaqdır.

## YEKUN NİTQİ

Qeyd etdiyim kimi, ilin birinci rübünün göstəriciləri bizi çox sevindirir. Çalışmalıyıq ki, ilin sonuna qədər bu tempi saxlayaq və ölkə iqtisadiyyatının inkişafını təmin edək.

Giriş sözümdə qeyd etdiyim kimi, qeyri-neft sektoru prioritet olaraq qalır, bütün lazımi tədbirlər görülür. Hesab edirəm ki, bu il qeyri-neft sektorumuz daha da arta bilər. Birinci aylarda 7 faiz artım, əlbəttə ki, yaxşı göstəricidir. Çalışmalıyıq ki, ümumiyyətlə, qeyri-neft sektorumuz ümumi daxili məhsulun çox böyük hissəsini təşkil etsin. Ancaq o da həqiqətdir ki, bir neçə ildən sonra «Cənub Qaz Dəhlizi» işə düşəndə bizim qaz ixracımız kəskin şəkildə artacaq. Beləliklə, neft-qaz sektorumuz daha da böyüyəcək. Belə olan halda, qeyri-neft sektorunun daim neft sektorunu üstələməsi üçün biz əlavə tədbirlər görməliyik. Bu tədbirləri biz görürük. Onların içərisində, əlbəttə ki, infrastruktur

layihələri bölgələrdə iqtisadi inkişafa şərait yaradır. Eyni zamanda, dövlətin sahibkarlara olan münasibəti, diqqəti və dəstəyi də.

Mən sahibkarlarla il ərzində dəfələrlə görüşürəm. Hər il biz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını müzakirə edərkən bu görüşlər olur. Ondan sonra mənim bütün bölgələrə, rayonlara səfərlərimdə hansısa sənaye obyektinin açılışı nəzərdə tutulur. Beləliklə, sahibkarlara göstərilən siyasi dəstək kifayət qədər yüksəkdir. Eyni zamanda, dövlət sahibkarlığın inkişafı üçün digər tədbirlər də görür. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə kreditlər verilir. Bu kreditlər real iqtisadiyyatın inkişafını təmin edir, iş yerlərinin yaradılmasına şərait yaradır. Bu il də kifayət qədər böyük məbləğdə kreditlər ayrılıb. Bu kreditlərin, demək olar ki, tam həcmi sonra qaytarılır və yenidən resurs baza kimi sahibkarlara verilir. Həm dövlət büdcəsində sahibkarlığın inkişafı üçün vəsait nəzərdə tutulur, eyni zamanda, əvvəlki illərdə verilmiş və qaytarılmış kreditlər yenidən sahibkarlara verilir. O kreditlərin qaytarılması yenə də sahibkarlığın inkişafına şərait yaradır.

Azərbaycanda, deyə bilərəm ki, hazırda çox böyük sahibkarlıq sinfi yaradılıb. Ölkəmizin ümumi inkişafı bundan sonra daha çox sahibkarlığın inkişafından asılı olacaq. Əlbəttə, dövlət inhisarında olan strateji sahələr dövlətin əlində qalmalıdır. Bu, strateji nəqliyyat infrastrukturu, neft-qaz sektoru, strateji enerji infrastrukturudur. Çünki bu sahələr dövlət tərəfindən idarə edilməlidir ki, işlər məqsədyönlü şəkildə aparılsın. Əsas infrastruktur qurumları dövlət monopoliyasında olanda tariflərə də dövlət nəzarət edir və imkan vermir ki, tariflər artsın, yaxud da insanların yaşayış səviyyəsinə mənfi təsir göstərsin.

Digər sahələr isə artıq sahibkarlıq hesabına formalaşır. Ümumi daxili məhsulumuzun haradasa 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Keçən il «Sənaye ili» elan edilmişdi və qeyd etdiyim kimi, bu sahəyə böyük diqqət göstərilir. Biz özümüzü bütün tikinti materialları ilə tam şəkildə təmin etməliyik. Artıq biz buna yaxınlaşırıq. Bu rəqəmləri mən

müşavirələrdə səsləndirmişəm. İndi biz bir çox pozisiyalar üzrə tikinti materiallarımızı özümüz istehsal edirik və eyni zamanda, ixrac edirik. İxrac üçün də bizə yeni bazarlar lazımdır.

Bazarlara çıxmaq o qədər asan deyil, gərək məhsul rəqabətqabliyyətli və qiyməti ucuz olsun. Dövlət öz tərəfindən sahibkarlara bu dəstəyi də göstərir. Çünki Azərbaycanda yanacaq kifayət qədər ucuzdur. Özəl sektora və ümumiyyətlə, əhaliyə satılan qazın qiyməti çox aşağıdır, cəmi 100 manatdır. Halbuki dünyada qiymət ondan bir neçə dəfə artıqdır. Elektrik enerjisinin qiyməti kifayət qədər aşağıdır. Bütün bunlar sahibkarlığın inkişafı üçün dövlət tərəfindən verilən böyük güzəştlərdir. Azərbaycanda istehsal olunan məhsulların rəqabətqabliyyətliliyi üçün bu, əlavə bir güzəştdir, üstünlükdür. Sahibkarlar da bundan səmərəli şəkildə istifadə etməlidir. İlk növbədə, daxildə satılan malların qiyməti süni şəkildə qalxmamalıdır. Dövlət bu sahəyə nəzarət edir. Əlbəttə, xarici bazarlara girmək üçün qiymətlər də münasib olmalıdır. Əgər Azərbaycanda yanacağa qoyulan tariflər bu qədər aşağı səviyyədə olmasaydı, bu, sahibkarlar üçün də böyük problem yaradardı. Sahibkarlar bunu bilməlidir ki, dövlət tərəfindən bu çox böyük dəstəkdir. Kreditlər də, eyni zamanda, siyasi dəstək və hətta İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən metodik tövsiyələr də sahibkarlara təqdim edilir. Onların qoyduqları investisiyaların həcminə görə müxtəlif tövsiyələr paketi də verilir.

Regionlarda da sənaye inkişafı sürətlə gedir. Artıq biz bir neçə sənaye mərkəzi müəyyən etmişik. İndi növbə gəlib ki, hər bir rayonda sənaye zonası yaradılsın. Birinci zona Neftçalada yaradılır. Mənə verilən məlumata görə, yerli sahibkarlar tərəfindən çox böyük həvəslə, böyük maraqla qarşılanır. Hətta görürük ki, o sənaye zonasında fəaliyyət göstərən sahibkarların sayı nəzərdə tutduğumuzdan daha da çoxdur. Bu çox sevindirici haldır, bu birinci pilot layihəsidir. Hesab edirəm ki, biz indi başqa rayonlarda da buna oxşar zonalar yaratmalıyıq. Bu barədə mən bir neçə ay bundan öncə öz fikirlərimi bildirmişdim ki, hər bir rayonda

xüsusi yer olmalıdır. Orada infrastruktur, nəqliyyat yolları – bütün lazımi təminat olmalıdır ki, sənaye potensialımız bir yerdə inkişaf etsin.

Bu il «Kənd təsərrüfatı» ili elan edilib. Bu da bu sahəyə göstərilən diqqətin təzahürüdür. Sənaye, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən sahələrdir. Xüsusilə Azərbaycan kimi ölkənin – bizim əhalimizin təxminən yarısı bölgələrdə, kəndlərdə yaşayır. Ərzaq təhlükəsizliyi bizim üçün prioritetdir. Çünki biz hələ tam şəkildə ərzaq təhlükəsizliyimizi təmin edə bilməmişik, ancaq bu istiqamətdə böyük yol keçmişik. Çünki bu gün Azərbaycan özünü əsas ərzaq məhsulları ilə təmin edir. Düzdür, bəzi hallarda bu məhsulların komponentləri idxal edilir. Bu, əlbəttə, birinci mərhələ üçün hesab edirəm ki, məqbul variantdır. Ancaq çalışmalıyıq ki, Azərbaycanda istehsal olunan bütün ərzaq məhsullarının komponentləri – toxumdan tutmuş, ta hazır məhsullara qədər Azərbaycanda istehsal olunsun. Ona görə bütün bu zənciri biz yaradırıq, yaradacağıq. İlk növbədə, sənaye, yəni emal müəssisələrini yaratdıq. Bəzi hallarda o müəssisələrdə istehsal olunan mallar xaricdən xammal kimi gətirilirdi, burada paketlənirdi və ya süzülürdü. Bu birinci mərhələ idi. Biz indi əsas mərhələyə keçirik, lokalizasiya 100 faiz olmalıdır. Çünki ərzaq təhlükəsizliyi bundan sonra dünya üçün ən böyük məsələ olacaq, o ölkələr ki, ərzaq təhlükəsizliyini təmin etməyib, onlar böyük problemlərlə üzləşəcək.

Əlbəttə, bazar iqtisadiyyatı prinsipləri bizim üçün əsasdır. Biz idxal da edirik, ixrac da. Ancaq görürük ki, bəzi hallarda əgər biz hansısa mənbədən asılıyıqsa, onda müəyyən problemlər yaranır, o cümlədən qiymətlə bağlı olan problemlər. Bizim son illər ərzində gördüyümüz işlər imkan verdi ki, indi inflyasiya çox aşağı səviyyədə olsun. Nəyə görə? Çünki biz xarici bazarlardan, xarici ərzaq bazarlarından o qədər də asılı deyilik. Çünki yerli istehsal artıq kifayət qədər güclüdür. Yerli istehsal əgər 100 faiz yerli xammal üzərində qurulacaqsa, o zaman, ümumiyyətlə, xaricdə gedən proseslər, böhranlı vəziyyət, yaxud da ki, neftin qiymətinin ucuzlaşması bizə təsir etməyəcək.

Ona görə ərzaq təhlükəsizliyi birinci məsələdir. Yerli istehsalın artırılması prosesi gedir. Müxtəlif yerlərdə emal müəssisələri yaradılır və ixrac imkanlarımız da genişlənir. Biz indi ixrac nomenklaturamızı da genişləndirməliyik. Azərbaycandan ənənəvi olaraq meyvə-tərəvəz ixrac edilirdi. İndi isə daha çox hazır məhsul və digər, yəni süd məhsulları, gələcəkdə isə ət və digər məhsullar ixrac edilməlidir.

Kənd təsərrüfatının inkişafı üçün çox ciddi tədbirlər görülür, islahatlar aparılır. Torpaqların elektron uçotu, qeydiyyatı indiki mərhələ üçün çox önəmli məsələdir. Biz buna nail ola bilsək, onda həm şəffaflıq olar, həm də dəqiq biləcəyik ki, nəyimiz var. Çünki bəzi hallarda tərtib olunan xəritələr həqiqətlə uzlaşmır, indi bu məsələ aydınlaşdırılır, təftiş edilir. Verilən pay torpaqları, ayrılan sahələr həqiqəti əks etdirmir. Peykdən əldə edilən görüntülər xəritədə göstərilən görüntülərlə üst-üstə düşmür. Bu çox ciddi məsələdir. Vaxtilə bu sahədə böyük səhvlər buraxılıb. Ona görə biz indi hər şeyi yenidən tənzimləməliyik. Elektron uçot ona görə lazımdır ki, sahibkarlar hansı torpağın sahibi olduqlarını bilsinlər. Dövlət də bilməlidir ki, kimin hansı torpağı var, o torpaqlarda nə yetişdirilir və ya yetişdirilmir. Bəzi hallarda torpaq götürülür, ondan sonra təyinatı dəyişdirilir. Yaxud da ki, hasarlanır, sadəcə olaraq, mülkiyyət kimi saxlanılır. Buna yol vermək olmaz. Burada vəziyyəti tam şəffaflaşdırmaq üçün torpaqların elektron uçotu məsələsi öz həllini tapmalıdır. Bu sadəcə olaraq, statistika deyil, bu məhsuldarlıqdır, bu, aqrar siyasətimizdir. Həmçinin biz tövsiyə də edə bilərik, əlavə güzəştlər də verə bilərik ki, sən bu torpaqda bu məhsulu yetişdirirsən, gəl bu məhsulu yetişdir. Dövlət sənə daha da çox subsidiya verəcək, kömək edəcək. Çünki dövlətə, ölkəyə bu lazımdır. Ona görə bu çox ciddi məsələdir. Mən bilirəm, indi Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə çox ciddi məşğuldur. Gərək bütün aidiyyəti qurumlar da buna qoşulsunlar ki, biz torpaqların elektron uçotunu tərtib edək. Burada uyğunsuzluq aradan götürülməlidir.

Biz son illər suvarmaya, meliorasiyaya çox böyük diqqət göstərdik. Biz bu sahəyə böyük maliyyə resursları ayırdıq.

Hesab edirəm ki, bu tamamilə düzgün bir siyasət idi. İndi Taxtakörpü və Şəmkirçay su anbarları artıq fəaliyyət göstərir. Bu anbarlar bizə bundan sonra daim xidmət edəcək. Suvarılan torpaqların sahəsi xeyli artacaq və meliorasiya tədbirləri bundan sonra da aparılacaqdır. Biz indi daha çox kanalların tikintisi ilə məşğul olmalıyıq. Çünki anbarlar yaradılıb. O anbarlarda elektrik stansiyaları da qurulub, kanallar da var. Amma kanalların şaxələndirilməsi də önəmlidir. Çünki biz nəzərdə tutulan torpaqları maksimum su ilə təmin etməliyik. O rəqəmlər dəfələrlə səsləndirilmişdir. 100 min hektardan çox yeni əkin sahələri dövriyyəyə veriləcək və mövcud olan torpaqlarda suvarma yaxşılaşdırılacaqdır. Bu işlər böyük əhəmiyyət daşıyır. Mən bu sahəni daim diqqət mərkəzində saxlayıram.

Keçən il Xızı rayonunda olarkən orada boş, yararsız torpaqları gördüm. İndi o yerlərə su veriləcək. Bu ilin sonuna qədər Xızı rayonunda 3 min hektardan çox torpağa artıq su verilməlidir. Bu daim diqqət mərkəzindədir. Ümumiyyətlə, Taxtakörpü su anbarının fəaliyyəti nəticəsində on minlərlə hektar torpaq suvarılacaq. Orada hansı məhsul yetişdiriləcək? Bunu Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye nazirlikləri müəyyən etməlidir. Sahibkarlara kömək göstəriləcək, kreditlər veriləcək. Ondan sonra sahibkarlara deyiləcək ki, sən burada nəyi əkməlisən. Burada özbaşınalıq, hərc-mərclik ola bilməz. Dövlət bu siyasəti aparır və tövsiyə edir, yaxud da ki, göstəriş verir. Çünki biz bilməliyik hansı məhsullar yetişdirilməlidir, hansı məhsullar üçün bazar var. Yoxsa biz burada da müəyyən problemlərlə üzləşə bilərik. Gəlirli, çox gəlir gətirən məhsul var, az gəlir gətirən məhsul var. Vəsaiti tez qaytaran məhsul var, gec qaytaran məhsul var. İndi biz bunun hamısını yaxşı bilirik – dövlət üçün, daxili tələbatı təmin etmək üçün nə lazımdır və biz bunları hansı bazarlara ixrac edəcəyik.

Biz indi yeni bazarlar axtarırıq, tapırıq. İndi ənənəvi bazarlar var. Ənənəvi bazarımız Rusiya bazarıdır və bizim kənd təsərrüfatı məhsullarımızın böyük əksəriyyəti bu bazara ixrac edilir. İndi Qazaxıstanın Aktau şəhərində böyük logistika bazası

yaradılır və orada 10 min ton məhsulu saxlamaq mümkün olacaqdır. O bazar bizim üçün çox maraqlıdır. Hesab edirəm ki, bu ilin sonuna qədər bu sahədə də artıq biz real nəticəni görəcəyik. Dövriyyəyə buraxılacaq yeni torpaqlarda bazarların tələbatına uyğun məhsul yetişdirilməlidir. Ona görə burada 100 faiz dövlət nəzarəti və rəhbərliyi olmalıdır. Biz yüz minlərlə hektar torpağı dövriyyəyə qatırıq, suvarmanı təmin edirik. Buna milyardlarla vəsait xərclənib. Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisinə qoyulan vəsait təqribən 1,5–2 milyard manata yaxındır. Hələ kanalların şaxələndirilməsi, ondan sonra digər tədbirlər var. Nəyə görə? Ona görə ki, imkan yaradaq insanlar daha da yaxşı yaşasınlar, kəndli məhsul yetişdirsin, pul qazansın, biz bu məhsullardan düzgün istifadə edək. Daxili bazarları təmin edək ki, qiymətlər qalxmasın. Xaricə sataq ki, həm sahibkara, həm də dövlətə daha çox pul gəlsin. Ona görə burada mən bir daha demək istəyirəm ki, dövriyyəyə buraxılacaq yeni torpaqlarda heç bir özbaşınalıq ola bilməz. Bu torpaqlardan ancaq dövlətin göstərişi ilə istifadə olunmalıdır. Mən iki nazirliyə göstəriş vermişəm, orada kənar müdaxilə ola bilməz.

Aqroparklar da artıq Azərbaycanda yaradılır. Bu da çox gözəl təşəbbüsdür. Birinci aqroparkın təməli artıq qoyulub. İri fermer təsərrüfatlarının, taxılçılıqla məşğul olan təsərrüfatların fəaliyyəti genişləndirilir. Pilot layihəsi özünü doğrultdu. Pilot layihəsində məhsuldarlıq 55 sentner idi – halbuki ölkə üzrə bu rəqəm haradasa 24, bəzi yerlərdə 25-26 sentner- dir – yəni 2 dəfədən çoxdur. Ona görə də biz bu pilot layihələrini, bu təcrübəni bütün başqa sahələrə də yaymalıyıq ki, məhsuldarlıq artsın. Əgər biz buna nail olsaq, onda mövcud torpaqlarla taxıla, buğdaya olan tələbatımızı özümüz təmin edəcəyik.

Ümumiyyətlə, ixrac – kənd təsərrüfatının ixracı və sənaye məhsullarının ixracı gələcəkdə iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi olacaqdır. Çünki ixrac ölkəyə valyuta resurslarını gətirir. Bizim valyuta resurslarının mənbəyi neft-qazdır. Elə etməliyik ki, ərzaq məhsulları, sənaye, tikinti materialları,

hazır məhsullar istehsal edək, ixrac edək və biz bu yolla gedəcəyik.

Makroiqtisadi sabitlik daim diqqət mərkəzindədir. İnflyasiya çox aşağı səviyyədədir. Mən keçən il demişdim ki, bu il də inflyasiya birrəqəmli olacaq və birinci rübdə cəmi 2,8 faiz artıb. Bu çox gözəl göstəricidir. Baxmayaraq ki, fevral ayında manatın məzənnəsində dəyişiklik edilmişdir və bu da istər-istəməz idxal olunan malların qiymətinə təsir edə bilərdi. Ancaq görülən tədbirlər nəticəsində istehlak bazarında vəziyyət tam sabitdir. Biz qiymətlərin qalxmasına imkan vermədik. Qiymətlər sabitdir, sabit də qalmalıdır.

Ümumiyyətlə, manatın məzənnəsinin dəyişdirilməsi – mən bu barədə artıq bir dəfə öz fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm – bu, qaçılmaz bir hal idi. Çünki biz 2005-ci ildə pul islahatını apararkən 1 manatı 1 dollara bərabərləşdirdik. O vaxta qədər 1 dollar 5000 manat idi. Bu balans saxlanılmalı idi. Əslində biz imkan verməməli idik ki, manat çox bahalaşsın. Çünki iqtisadçılar yaxşı bilir, bu, yerli istehsalçılara da mənfi təsir göstərir, bizim ixrac imkanlarımıza da əngəllər törədir. Ancaq ölkə iqtisadiyyatının çox sürətli inkişafı və neft gəlirlərinin kütləvi şəkildə xəzinəyə daxil olması, əlbəttə ki, manatı çox gücləndirdi. 2005-ci ildə biz pul islahatını apardıq, 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşdü və böyük gəlirlər gəlməyə başladı. Nəticə etibarilə biz gördük ki, 1 manat artıq 1,3 dollar səviyyəsində idi. Ondan sonra gördük ki, hətta 1 manat 1 avrodan da qiymətli və bahalıdır. Bu tamamilə qeyri-təbii bir məzənnə idi. Buna son qoyulmalı idi və bu gün bütün mötəbər beynəlxalq maliyyə qurumları bizim addımımızı dəstəkləyir, alqışlayır, eyni zamanda, əhali də görür ki, məzənnənin dəyişdirilməsinin gündəlik həyata təsiri olmayıb. Ona görə ki, ilk növbədə, vaxtilə görülən işlər nəticəsində gündəlik tələbat məhsullarının böyük hissəsini özümüz istehsal edirik. Digər tərəfdən, istehlak bazarına nəzarət gücləndirilib və möhtəkirlərə qarşı çox ciddi mübarizə aparılır.

Bilirsiniz ki, biz istəyirdik məzənnəni tədricən, yavaş-yavaş dəyişdirək. Amma ondan sonra ajiotaj yarandı. Hər gün 500 milyon dollar vəsait bazarlardan yığışdırılırdı, alınırdı və belə getsə idi, bizim Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə aşağı düşə bilərdi.

Ona görə görülən tədbirlər, iqtisadiyyatımızın şaxələndirilməsi, sosial siyasətimiz nəticəsində biz imkan vermədik ki, bəzi pisniyyətli insanlar bu vəziyyətdən istifadə etsin. Bax, bütün bu məsələlər vəziyyətin sabit saxlanılmasına xidmət göstərdi.

Mənim narahatlığım dərman preparatlarının qiymətləri ilə bağlı idi. Mən xüsusi göstəriş vermişdim ki, bütün apteklərdə ciddi nəzarət təşkil edilsin və qiymətlərin qalxmasına imkan verilməsin. Onu da qeyd etməliyəm ki, dərman preparatlarının bazarı əfsuslar olsun ki, Azərbaycanda müəyyən dərəcədə nəzarətdən kənarda qalıb. Bu əslində dözülməz bir hal idi. Bu hadisə deyə bilərəm ki, bizim diqqətimizi bu sahəyə daha da ciddi şəkildə yönəltdi və gördük ki, çox böyük pozuntular, uyğunsuzluqlar var. Bəzi hallarda dərmanların qiyməti bir neçə dəfə, bəzi hallarda 10 dəfə şişirdilir. Yəni burada tamamilə özbaşınalıq və anarxiya hökm sürürdü. Kim dərmanı hansı qiymətə istəyirdi, o qiymətə də satırdı. İnsanlar da məcbur olub o dərmanları alırdılar, böyük vəsait xərcləyirdilər, xüsusilə pensiyaçılar ki, onlara daha çox dərman lazımdır.

Bəzi hallarda ölkəyə o qədər də yüksəkkeyfiyyətli dərmanlar gətirilmirdi. Ona görə mən Səhiyyə Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə göstəriş vermişəm ki, bu sahədə vəziyyət tamamilə nəzarətə götürülsün. Eyni zamanda, hökumətə tapşırmışam ki, ciddi nəzarət olmalıdır və indi yeni mexanizm işlənilir. Ümid edirəm ki, bir neçə aydan sonra biz bu mexanizmi tətbiq etməyə başlayacağıq və insanlar bunu gündəlik həyatda görməlidirlər. Qiymətlər qalxmamalıdır. Mən hesab edirəm ki, bəzi dərmanların qiymətlərində kəskin azalma da olmalıdır.

Bu mövzu ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm. Bu vəziyyət bir də onu göstərdi ki, yerli istehsalın ölkə iqtisadiyyatı üçün nə qədər böyük əhəmiyyəti var. İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırıram ki, yerli istehsalın stimullaşdırılması üçün əlavə tədbirlər hazırlasın, təklif versin və biz də lazımi qərarlar, sərəncamlar verək.

Onu da qeyd etməliyəm ki, Azərbaycan yeganə ölkə deyildi ki, milli valyuta devalvasiyaya uğramışdır. Mənə verilən arayışda bəzi rəqəmlər var. İstəyirəm sadəcə olaraq, Azərbaycan ictimaiyyəti son vaxtlar bizim qonşuluğumuzda hansı hadisələrin baş verdiyini bilsin. Yəni son vaxtlar bölgədə vəziyyət bundan ibarətdir: Qazaxıstanda milli valyuta 20 faizdən çox aşağı düşdü, Türkmənistanda 20 faizdən çox devalvasiyaya uğradı. Gürcüstanda milli valyuta 30 faizdən çox qiymətdən düşdü. Türkiyədə 2013–2015-ci illərdə türk lirəsi qiymətini 40 faiz itirdi. İranda milli valyuta 2013–2015-ci illərdə 113 faiz aşağı düşdü. Rusiyada son vaxtlar rubl 80 faiz aşağı düşdü. Dünyanın aparıcı valyutalarından biri, yəni iki, ya üç aparıcı valyutasından biri – avro qiymətini 25 faiz itirdi. Norveç milli valyutası qiymətini 34 faiz itirdi. Yəni sadəcə olaraq, mən bu rəqəmləri müqayisə üçün səsləndirdim.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bu məzənnənin dəyişdirilməsi əslində məzənnənin bərpası deməkdir. Biz 2005-ci ildə müəyyən etdiyimiz məzənnəni bərpa etdik. O vaxt 1 manat 1 dollar idisə, bu gün də 1 manat 1 dollardır. Hesab edirəm ki, bundan sonra da belə olmalıdır.

Biz inhisarçılığa qarşı mübarizəni daha da gücləndirməliyik, əlavə tədbirlər görülməlidir. Yerli istehsalın stimullaşdırılması ilə bərabər, bu sahəyə də diqqət yetirilməlidir, əgər ya qanunvericilikdə, ya hansısa tənzimləyici qərarlarda hansı əlavə tədbirlər lazımdırsa, biz bunu edəcəyik. Biz azad, ədalətli rəqabəti təmin etməliyik.

Bu il sosial infrastruktur layihələrinin icrasi – məktəblərin, xəstəxanaların, uşaq bağçalarının, peşə məktəblərinin tikintisi davam etdiriləcəkdir. İndi buna böyük ehtiyac var. Bu il əlavə 3

«ASAN xidmət» Mərkəzi açılmalıdır. «ASAN xidmət» mərkəzlərinin sayı 8-ə çatıbdır – 4-ü Bakıda, 4-ü rayonlardadır, 3 mərkəz tikilir. Hazırda Bakıda 4 mərkəz fəaliyyət göstərir. Biri də tikilir. Gəncə, Sumqayıt, Sabirabad, Bərdə şəhərlərində «ASAN xidmət» mərkəzləri artıq açılıbdır. Qəbələdə və Masallıda da «ASAN xidmət» mərkəzləri tikilir.

Biz ilin birinci rübündə elektroenergetika sahəsində ciddi islahatlar apardıq. «Azərişıq» qurumu yaradıldı. «Azərişıq» «Bakıelektrikşəbəkə» Səhmdar Cəmiyyətinin əsasında qurulubdur və əsas məqsəd rayonlarda elektrik enerjisi ilə təchizatı Bakının səviyyəsinə qaldırmaqdır. Bax, bu idi əsas məqsəd. Çünki son illər ərzində Bakı şəhərində «Bakıelektrikşəbəkə» təşkilatı çox uğurla fəaliyyət göstərirdi. Artıq «Barmek»in dövrü çoxlarının yadından çıxıb. «Barmek» Azərbaycanı nə günə salmışdı?! «Bakıelektrikşəbəkə» o təsərrüfatı öz üzərinə götürənə qədər «Barmek»in təsərrüfatı nə gündə idi?! O günlər çox yaxşı ki, hamının yadından çıxıb. Amma o qaranlıq gecələr hamımızın yadındadır. Gənc nəsil yəqin ki, bunu xatırlamır, heç xatırlamasa yaxşıdır.

Rayonlarda isə hələ ki, görüləsi işlər çoxdur. Bilirsiniz ki, mən bölgələrdə tez-tez oluram, demək olar ki, hər ay. Elə rayonlar, şəhərlər var ki, orada 10 dəfədən çox olmuşam. Hər halda, Azərbaycanda elə bir yer yoxdur ki, mən orada ən azı 2 dəfə olmayım. Hər dəfə olanda həm maraqlanıram, həm də başqa məlumat mənbələrim var ki, qaz, içməli su, elektrik enerjisi təchizatı ilə bağlı vəziyyət necədir. Bəzi hallarda mənə yerli icra hakimiyyəti orqanlarının rəhbərləri çox müsbət mənzərə təqdim etməyə çalışırlar. Reallıq ondan ibarətdir ki, bölgələrdə elektrik enerjisi ilə bağlı vəziyyət istədiyimiz səviyyədə deyil. Düzdür, biz indi böyük enerji gücləri, elektrik stansiyaları yaratmışıq. Son illər ərzində yaratdığımız enerji potensialı bütün sovet dövründə yaradılan potensialdan böyükdür, ondan çoxdur. Nə qədər elektrik stansiyaları yaradıldı. Onlar olmasaydı, indi bizim iqtisadi, sənaye inkişafımız mümkün olmazdı. Yəni biz diqqəti bu sahəyə yönəltdik ki, generasiya güclərini yaradaq.

Azərbaycanda həm alternativ su- elektrik stansiyaları, həm də əsas qaz elektrik stansiyaları tikilib. Amma ötürücü xətlərdə hələ ki, vəziyyət o qədər də yaxşı deyil. Xüsusilə rayonlarda, kənd yerlərində bir balaca külək əsən kimi dirəklər aşır, işığın verilməsi dayandırılır. Buna dözmək olmaz. Mən dəfələrlə məsələ qaldırmışam, demişəm, göstəriş vermişəm ki, gedin bu sahəni düzəldin. Bölgələrdə insanlarla görüşlər əsnasında mən onların xahişlərini, problemlərini eşidirdim. Deyirdilər ki, işıqlar sönür, işıqsız qalırıq. Azərbaycan kimi ölkədə belə vəziyyət dözülməzdir. Görəndə ki, bu inzibati tədbirlər səmərə vermir, biz struktur islahatlarına keçdik. Əminəm ki, «Azərişıq» yaxın zamanlarda bütün şəhər və rayonlarımızda elektrik enerjisi ilə təminatı Bakının səviyyəsinə qaldıracaqdır. Bu çox ağır, çətin işdir. İndi böyük səylər göstərilməlidir. Ancaq qarşıya vəzifə qoyulub və mən birinci rübdə bu struktur islahatını xüsusilə vurğulamaq istəyirəm.

Azərbaycanda, o cümlədən Bakıda daim ekoloji tədbirlər aparılır, göllər təmizlənir, ağaclar əkilir, parklar salınır. Bakı indi parklar, bağlar şəhəridir. Eyni zamanda, bölgələrdə insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular yaradılır. Biz içməli su problemini həll etmək üçün 3 istiqamətdən istifadə edirik. İlk növbədə, «Azərsu» tərəfindən icra edilən layihələr. Burada da bir neçə şəhərdə artıq içməli su layihəsi başa çatıbdır və bu proses gedir, əhali tərəfindən də çox gözəl qarşılanır. «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyəti bu işləri görür. Həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırır. Bu günə qədər çaylar boyu, xüsusilə Kür, Araz çayları boyu yerləşən kəndlərdə 480 min əhali artıq təmiz içməli su ilə təmin edilib. 292 kənddə müasir təmizləyici qurğular quraşdırılıb. Bu vaxta qədər onlar suyu çaydan götürürdülər, duruldurdular, yaxud da ki, kanallardan su içirdilər. Bu, insanların sağlamlığına mənfi təsir göstərirdi. Hazırda 28 kənddə işlər gedir, təmizləyici qurğular quraşdırılır. Bu kəndlərdə 51 min insan yaşayır. Hesab edirəm ki, bu işlər bu

ilin sonuna qədər tamamlanmalıdır. Beləliklə, 530 min insan ancaq bu təmizləyici qurğular hesabına içməli su ilə təmin ediləcəkdir.

Avropa oyunlarının keçirilməsinə az vaxt qalır. Biz Nazirlər Kabinetinin növbəti toplantısını ilin 6 ayının yekunlarına həsr edəcəyik. Ona görə Avropa oyunlarına qalan müddət ərzində bütün müvafiq qurumlar daha da fəal işləməlidir. Əslində biz bütün hazırlıq işlərini artıq başa çatdırırıq. Nəqliyyat, infrastruktur, təhlükəsizlik, texniki-təşkilati məsələlər öz həllini tapır. Təşkilat Komitəsi çox fəal və səmərəli işləyir. Beynəlxalq Əməliyyat Komitəsi də fəal işləyir. İdman obyektlərimiz, demək olar ki, hazırdır. Keçən ay biz Bakı Olimpiya stadionunun və Bakı Atıcılıq Mərkəzinin açılışını qeyd etdik. Su İdmanı Sarayında son tamamlama işləri gedir. Heydər Əliyev adına İdman-Konsert Kompleksində təmir işləri başa çatır. Bulvarda yerləşən idman sarayında da işlər yekunlaşır. Bildiyiniz kimi, həm yeni idman obyektləri yaradılır, həm əvvəlki illərdə yaradılan obyektlər əsaslı şəkildə təmir olunur, əslində yenidən qurulur.

Avropa oyunları parkı yaradılır. Bu əslində müvəqqəti idman qurğuları kimi nəzərdə tutulur. Ancaq nəzərə alsaq ki, 2017-ci ildə İslam Həmrəyliyi oyunları Bakıda keçiriləcəkdir, hesab edirəm, Avropa oyunlarından sonra Avropa oyunları parkı qalmalıdır. Ola bilər İslam Həmrəyliyi oyunlarından sonra da qalsın. Çünki indi Bakıda yeni gözəl istirahət zonası yaradılır. Bayraq Meydanından ta Bibiheybətə qədər gözəl bir park və istirahət zonası, idman zonası yaxın zamanlarda ictimaiyyətin istifadəsinə veriləcəkdir. Biz tədricən bulvarı genişləndiririk. Yadınızdadır, Bayraq Meydanı yaradılandan bir qədər sonra insanların sərəncamına verildi. İndi Bayraq Meydanından Bibiheybətə tərəf böyük tikinti, abadlıq işləri görülür. Beləliklə, «Ağ şəhər» bulvarı ilə birlikdə bulvarın uzunluğu 16 kilometrə çatacaqdır.

Tofiq Bəhramov adına stadionda təmir-bərpa işləri artıq başa çatıb. İndi orada da müvafiq qurğular tikilir. «Crystall Hall»da bir neçə idman növü üzrə yarışlar keçiriləcəkdir. Orada da işlər

hazırdır. Mingəçevirdəki «Kür» avarçəkmə bazasında müvəqqəti qurğular, tribunalar yaradılır. Atletlər Kəndi, demək olar ki, hazırdır. Media Kəndi yaradılıbdır – deyə bilərəm ki, ümumiyyətlə, ilk dəfə belə bir yer olacaq. Çünki Yay Olimpiya və Qış Olimpiya oyunlarında heç vaxt Media Kəndi olmamışdı, jurnalistlər hərəsi bir yerdə qalırdı. Biz isə jurnalistlərə diqqət göstərərək, onlar üçün də gözəl yaşayış yerlərini müəyyən etdik, düz Atletlər Kəndinin yanında yerləşir.

Olimpiya oyunlara dünyada çox böyük maraq var. 60-a yaxın telekanal artıq müqavilə bağlayıb ki, bu oyunları yayımlasın və beləliklə, «Bakı–2015» I Avropa oyunları dünya ictimaiyyəti tərəfindən də izlənəcək. Yəni son mərhələdəyik, şadam ki, çox qısa bir müddətdə – 2 il yarım ərzində biz bu işin öhdəsindən gəldik. Əslində mən şübhə etmirdim, çünki bizim başladığımız bütün işlər uğurla yekunlaşır. Əminəm ki, Avropa oyunları da böyük idman və dostluq bayramına çevriləcəkdir.

Bir sözlə, vəzifələr aydındır. Biz ilin sonuna qədər fəal işləməliyik ki, bütün vəzifələri uğurla icra edək, ölkəmizi daha da gücləndirək. Sağ olun.

## ASTARA RAYONUNA SƏFƏR

*11 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Astara rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev prezident İlham Əliyevə abidənin ucaldığı Heydər Əliyev parkında yaradılan şərait və son illərdə rayonda görülən işlər barədə məlumat verdi.*

## «ASTARAÇAY» MMC-nin ÇAY EMALI FABRİKİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də «Astaraçay» MMC-nin Çay emalı fabrikində yaradılan şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Astaraçay» kənd təsərrüfatı müəssisəsi 2010-cu ildə yaradılıb. Təsərrüfatın ümumi əkin sahəsi 640 hektardır. Çay plantasiyalarında müasir suvarma şəbəkəsi yaradılıb və hazırda təsərrüfatda 400 hektara yaxın çay sahəsi mövcuddur. Əkilən «Kolxida» çay toxumları Gürcüstanın Batumi şəhərinin Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən toplanıb gətirilib. Toxumlar sınaqdan keçirilərək yerli şəraitə uyğunlaşdırılıb.*

*Burada, həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında Çay fabriki inşa edilib. Ərazisi 5 hektar olan fabrikdə xaricdən gətirilən ən müasir avadanlıqlar quraşdırılıb. Müəssisənin məhsuldarlığı gün ərzində 12 tondur. Gələcəkdə gündəlik çay istehsalını 24 tona çatdırmaq mümkündür. Çəkici-bükücü sex də müasirliyi ilə diqqəti çəkir. Burada çəkisi 100, 200 və 400 qram olan çay bükümləri hazırlanacaq. Müəssisədə dəqiqədə 8 ədəd çay bükümünün istehsalı mümkündür.*

*Qeyd olundu ki, çayçılığın təməli ötən əsrin 30-cu illərindən başlayaraq respublikamızın bir sıra bölgələrində, əsasən də Astara və Lənkəranda qoyulub. 100 ildən çox ömrü olan çay kolları həm bol və qiymətli məhsulu ilə, həm də ekologiyanın mühafizəsi və qorunması baxımından nadir bitkilərdən sayılır.*

*Respublikamızda çayçılığın inkişafında* sovet *dövründə* ulu *öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər də mühüm rol oynayıb. Çay bitkisi hər yerdə* deyil, *yalnız* spesifik *xüsusiyyətləri* olan torpaqlarda *yetişdirilir. Bu baxımdan* Astara *öz əhəmiyyəti ilə diqqət çəkir.* Astarada *yetişdirilən yaşıl çay öz dadı və keyfiyyəti ilə seçilir. Bu bölgədə* ekoloji *cəhətdən təmiz şəraitdə yetişdirilən məhsul dünyanın müxtəlif şəhərlərində keçirilən* beynəlxalq *sərgilərdə dəfələrlə qızıl* medala layiq *görülüb. Son illərdə bu sahədə yaranan durğunluq artıq* aradan *qalxır. İndi* Astarada *çayçılığın əvvəlki şöhrətinin özünə qaytarılmasına* geniş imkanlar *açılıb. Çünki çayçılıq Astaranın kənd təsərrüfatı* sektorunda strateji *əhəmiyyətə* malik *sahədir. Bu cür müəssisələrin istifadəyə* verilməsi *isə* ilk *növbədə, Azərbaycanda böyük ənənəsi* olan *çayçılığın yenidən dirçəlməsinə şə*rait *yaradır. Müəssisədə Çay Muzeyi,* dequstasiya *zalı və* turistlər *üçün Çay evi də* tikilib.

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müəssisənin Lənkəran ərazisindəki* 60 hektar *sahədə taxıl səpini aparılıb və ötən il* 120 tona *yaxın məhsul toplanılıb.* Burada, *həmçinin ötən il* ilk *dəfə* olaraq 20 hektar *sahədə səpmə üsulu ilə çəltik əkilib. Əkini Türkiyənin Ədirnə şəhərinin Kənd Təsərrüfatı* Elmi-*Tədqiqat İnstitutunun çəltikçilik bölməsinin* elmi *işçiləri* yerli *mütəxəssislərlə birgə həyata keçiriblər. Əkin sahəsində* yerli *«Haşimi»* sortu *ilə yanaşı, İtaliyadan gətirilmiş məhsuldar* sortlardan *istifadə* edilib. *Çəltik sahələrindən* 102 ton *məhsul* toplanılıb *və* orta *məhsuldarlıq* 51 sentner *təşkil* edib. *Cari ildə* 200 hektara *yaxın sahə çəltik səpini üçün hazırlanır. Bunun üçün xüsusi* texnikalar *da alınıb.*

*Həmçinin* Astara rayonu *ərazisində gündəlik* istehsal *gücü* 10 ton *olan düyü dəyirmanı əsaslı şəkildə təmir edilərək genişləndirilib və* 10,5 ton *çəltik* tutumu *olan* 3 qurutma *aqreqatı quraşdırılıb.* Bununla *yanaşı,* Astarada 76 hektar, *Lənkəranda* 15 hektar olmaqla, *cəmi* 91 hektar *sahədə* feyxoa, 6 hektarda *portağal və* 3 hektarda *naringi tingi əkilib.*

*Çay fabriki ilə tanışlıqdan sonra prezident İlham Əliyev müəssisənin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı kollektivin üzvlərini və rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m Ə l i y e v:** Astarada yenidən olmağımdan çox məmnunam. Şadam ki, Azərbaycanda belə gözəl müəssisə yaradılıb. Fabrik, demək olar ki, tam hazırdır, yaxın zamanlarda işə başlayacaq. Beləliklə, Astarada çayçılığın bərpası işi uğurla gedəcək.

Astarada çayçılığın çox qədim və gözəl ənənələri var. Sovet dövründə böyük çay plantasiyaları salınmışdır. Əfsuslar olsun ki, sonrakı dövrdə bu sahə bir qədər tənəzzülə uğradı. Biz məcbur olub çayı xaricdən idxal etməyə başladıq. Amma indi belə gözəl müəssisələr yarandıqda əminəm ki, Azərbaycan yaxın gələcəkdə özünü keyfiyyətli yerli çayla təmin edəcək.

Bütün avadanlıqlar çox müasirdir, xarici mütəxəssislər də bu işlərdə böyük fəallıq göstəriblər. Onların dəstəyi çox önəmlidir. Bu fabrikdə və çay plantasiyalarında 1000-dən çox insan işlə təmin olunacaq. Beləliklə, biz bir neçə məqsədi həyata keçirmiş oluruq. İlk növbədə, yerli istehsal yaranır, ənənəvi kənd təsərrüfatı sahəsi olan çayçılıq bərpa edilir. Eyni zamanda, kənd təsərrüfatının inkişafına təkan veriləcək. Bu, sənaye müəssisəsidir. Burada həm kənd təsərrüfatı, həm sənaye sahələri birləşir. Bu il Azərbaycanda «Kənd təsərrüfatı ili»dir, keçən il «Sənaye ili» elan edilmişdi. Bizim siyasətimiz, bax, bu Çay fabrikində öz əksini tapır.

Kifayət qədər investisiyalar qoyulub, sahibkarlıq özünü göstərir. Dövlət sahibkarlığa kömək göstərir. Sahibkarlar da çalışırlar ki, doğma Vətənə xidmət etsinlər. Həm özləri mənfəət götürsünlər, həm də dövlət üçün xeyir versinlər.

Son illər ərzində regionların inkişafı proqramı çərçivəsində çox işlər görülüb. Əsas məqsəd yerli istehsalın, iş yerlərinin yaradılması və ixrac potensialımızın gücləndirilməsidir. Əminəm ki, vaxt gələcək Azərbaycan öz çayını daha da böyük

həcmdə dünya bazarlarına çıxaracaq. Çünki buna nail olmaq üçün bütün imkanlar var. Dövlət siyasəti aparılır, bizim maliyyə vəziyyətimiz kifayət qədər yaxşıdır. İlin birinci rübünün yekunları da çox müsbətdir. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Gələcəkdə biz kənd təsərrüfatının, sənayenin, qeyri-neft sektorunun hesabına daha da inkişaf edəcəyik.

Mən çox şadam ki, son illərdə cənub bölgəsində gördüyümüz işlər nəticəsində böyük infrastruktur layihələri icra edilib. Astarada 10 ildən çoxdur ki, elektrik stansiyası fəaliyyət göstərir. Qazlaşdırma uğurla gedir. Astara rayonunun qazlaşdırılması 75 faiz səviyyəsindədir. İndi içməli su layihəsi icra edilir. Ümid edirəm ki, gələn ilin sonuna qədər Astara təmiz içməli su ilə təmin ediləcək. Yollar çəkilir, Bakı–Astara magistral yolu inşa edilir. Biz bu layihəni müəyyən mərhələlərə bölmüşük. İş yerlərinin, yerli istehsalın yaradılması da, əlbəttə ki, diqqət mərkəzindədir.

Belə kompleks yanaşma imkan verir ki, Azərbaycan iqtisadiyyatı neft amilindən daha az asılı olsun və dayanıqlı inkişaf təmin edilsin. Bununla bərabər, Astarada gözəl abadlıq işləri aparılır, bulvar salınıb – mən bunu alqışlayıram. Bu, insanların rahatlığı, istirahəti üçün gözəl bir təşəbbüsdür. Bildiyiniz kimi, indi Azərbaycanın müxtəlif yerlərində bulvarlar salınır. Vaxtilə bir bulvarımız var idi – Bakı bulvarı. Onun uzunluğu təqribən 3,5 kilometr idi. Bir aydan sonra Bakıda yeni açılışlar olacaq. Biz bulvarı genişləndiririk və Bakı bulvarının uzunluğu 16 kilometr olacaq. Digər şəhərlərdə, çaylar boyu yerləşən şəhərlərdə, dəniz kənarındakı şəhərlərdə bulvarlar salınır. Mən bunu alqışlayıram. Bu gözəllikdir, müasirlikdir, insanların rahat yaşaması üçün edilən gözəl hədiyyədir.

Abadlıq, quruculuq, sosial infrastruktur – yadımdadır, keçən dəfə Astarada olarkən xəstəxananın açılışını qeyd etmişdik. Məktəblər tikilir, kənd yolları salınır. Demək olar ki, Astara rayonunun əksər kəndlərini birləşdirən kənd yolları tikilib, biri bu gün açılacaq. Biz digər kənd yollarının da tikintisinə nail olacağıq ki, Azərbaycanda bir dənə də təmirsiz kənd yolu qalmasın. Məqsəd

bundan ibarətdir. Son illərdə bu sahəyə kifayət qədər böyük vəsait ayrılıb. Yollar tikilir, çünki yol olmasa inkişaf da olmaz. Yol olanda insanlar özlərini daha rahat hiss edirlər. Yol həm sosial, həm də iqtisadi layihədir. İnfrastruktur layihələri bizim fəaliyyətimizin birinci mərhələsində prioritet olmasaydı, inkişaf mümkün deyildi. Biz elektrik stansiyaları tikməsəydik, bu gün bu müəssisənin yaradılmasına heç bir imkan olmazdı. Çünki enerji generasiyası, qaz xətləri, infrastruktur, yollar – bunlar hər bir ölkənin inkişafını şərtləndirən amillərdir. Ondan sonra isə dövlət investisiyalarının yatırılması, kreditlərin verilməsi, sahibkarlığın inkişafı, belə gözəl müəssisələrin yaradılması prosesi başlanır.

Qeyd etdiyim kimi, burada 1000-dən çox insan işlə təmin ediləcək. Bu, işsizliyin aradan qaldırılması üçün çox gözəl addımdır. Ənənəvi olaraq çay plantasiyalarında daha çox qadınlar işləyirdi. Bu da çox vacibdir ki, ailədə hər iki valideyn işlə təmin edilsin. Qadınlar üçün çay plantasiyalarında işləmək Azərbaycanda ənənəvi xarakter daşıyan haldır. Hesab edirəm ki, müasir şəraitdə işləmək, əlbəttə, hər bir insan üçün çox önəmlidir. Gözəl müəssisədir, əminəm ki, burada insanlara, fəhlələrə yaxşı baxacaqlar, onların maaşı da, yeməyi də, iş şəraiti də yaxşı olacaq. Əminəm ki, bu fabrik gələcəkdə öz fəaliyyətini genişləndirəcək. Çünki həm Lənkəranda, həm Astarada, həm digər yerlərdə imkanlar genişdir. Siz burada eyni zamanda, çəltikçiliklə də məşğulsunuz. Bu da çox önəmlidir, bu zonanın ənənəvi kənd təsərrüfatı sahəsidir. Ölkəmiz, bax, bu cür inkişaf edəcək, o cümlədən Astara.

Astara gözəl rayondur, Azərbaycanın gözəl guşəsidir, gözəl təbiəti, iqlimi, insanları var. Çox şadam ki, burada həm abadlıq işləri görülür, eyni zamanda da gözəl müəssisələr yaradılır. Bu mənim Astaraya son illər ərzində 7-ci səfərimdir. Bu özlüyündə sübut edir ki, Astaraya nə qədər böyük diqqət göstərilir. Mən bundan sonra da burada gedən işləri daim nəzarətdə saxlayacağam.

Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

* * *

*Rayon ictimaiyyətinin nümayəndələri Astaranın hərtərəfli inkişafının daim diqqət mərkəzində saxlanıldığına görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Yaxşı işləmisiniz. Görürəm ki, medallarınız çoxdur. Harada, hansı sahədə işləmisiniz?

**S a k i n:** Fermada işləmişəm, kənd təsərrüfatı sahəsində.

**İ l h a m Ə l i y e v:** Yaxşı işləmisiniz ki, sizi o vaxt təltif ediblər.

**S a k i n:** Bəli, ulu öndər Heydər Əliyevin dövründə işləmişəm.

**İ l h a m Ə l i y e v:** Lap yaxşı. Bəs o vaxtdan çayçılıqda işləyənlər var?

**S a k i n:** Bu şəkildə gördüyünüz kimi, düz 33 il bundan əvvəl biz ulu öndəri bu məkanda qarşılamışdıq. O vaxt bizimlə çox səmimi söhbət etdi. Onun bizə bir tövsiyəsi oldu ki, çay bitkisi çox müqəddəs bitkidir. Onun halallığa çox ehtiyacı var. Bu gün mən çox şadam, ümumiyyətlə, astaralıların hamısı çox şaddır ki, Siz onun tövsiyəsini davam etdirirsiniz. Çayçılıq bizim rayona xas olan təsərrüfatdır. Rayonun iqlimi buna imkan yaradır. Çayçılığın inkişafına göstərdiyiniz diqqətə görə çox sağ olun. Biz daim Sizi dəstəkləyirik. Allah Sizi qorusun. Bir daha Astaraya xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Cənab Prezident, xoş gəlmisiniz! Sizin ziyarətiniz də qəbul olunsun. Bu bölgə bizim üçün əzizdir, müqəddəsdir. Sizin gəlişiniz bu bölgəni bizim üçün daha da təravətləndirdi. İlk çay bitkisi 1812-ci ildə məhz bu bölgədə əkilib. İndi Sizin qayğınızın nəticəsində biz çayçılığı inkişaf etdiririk. Sizin tapşırığınızla cənub bölgəsində çayçılığın genişləndirilməsi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil edildi. Həmin ildən biz yeni plantasiyalar salmağa başladıq. Sizin sayənizdə qısa müddətdə 450 hektar çay plantasiyası salmışıq. Gördüyünüz bu Çay fabriki də şəxsən Sizin sayənizdə

tikilib. İnanın ki, indiyədək belə bir fabrik bu bölgədə, respublikada olmayıb.

**İ l h a m Ə l i y e v:** Heç vaxt olmayıb.

**S a k i n:** Hamısı Sizin diqqətiniz sayəsində olub.

**İ l h a m Ə l i y e v:** Əminəm ki, bundan sonra belə fabriklərin sayı çox olacaq – həm burada, həm digər yerlərdə. Çünki çayçılıq bizim ənənəvi kənd təsərrüfatı sahəmizdir. Çox istəyirəm ki, biz özümüz həm daxili bazarı təmin edək, həm də ixrac edək. Xaricdə də görsünlər ki, Astara çayı nə qədər gözəldir, ləzzətlidir, keyfiyyətlidir. Çünki bizdə, ümumiyyətlə, Azərbaycanda kənd təsərrüfatı məhsullarının hamısı keyfiyyətlidir. İndi bəzi xarici ölkələrdə məhsullara o qədər kimyəvi maddələr vurur, məhsulu artırmaq üçün o qədər müxtəlif yollara əl atırlar ki, məhsul da öz keyfiyyətini, dadını itirir. Azərbaycanda bütün meyvə, tərəvəz, kənd təsərrüfatı məhsulları təbiidir, gözəldir, keyfiyyətlidir, o cümlədən də çay. Ona görə çox istərdim ki, biz Astara çayını dünyanın aparıcı ölkələrinin mağazalarında görək. Belə fabriklə buna nail olmaq mümkün olacaq. Şadam ki, biz bu gün bu ənənəni bərpa edirik. Siz tamamilə haqlısınız ki, ulu öndər həmişə bu bölgədə olarkən deyirdi ki, çayçılıq çox əhəmiyyətli sahədir.

**S a k i n:** Astaraya səfərləri zamanı birinci olaraq çay plantasiyasına gələrdi.

**İ l h a m Ə l i y e v:** Sonra – keçən əsrin 90-cı illərində Azərbaycana qayıdanda da çox heyifsilənirdi ki, bu sahəyə lazımi diqqət göstərilməyib. Demək olar ki, biz çayçılığı itirirdik. Biz gərək onun siyasətini davam etdirək. Çalışırıq ki, davam etdirək. Belə gözəl müəssisələrin yaradılması ölkəmizin gücünü göstərir. Görürəm, burada xarici mütəxəssislər də var, sizi də salamlayıram. Sağ olun, siz də bizə kömək edirsiniz. Təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun.

## Dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Astaranın Dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsi ilə müşayiət olunur. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində yeni park və xiyabanların salınmasına, mövcud olanların isə yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlər sırasında Astarada Dənizkənarı park-bulvar kompleksinin salınması mühüm əhəmiyyət kəsb edir.*

*Şəhərin mərkəzində yerləşən bu mədəniyyət və istirahət kompleksində yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub. Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yaradılan bu Dənizkənarı park-bulvar kompleksi ilk növbədə, şəhər sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan və şəhərə xüsusi yaraşıq verən bu istirahət ocağı Azərbaycanın tərəqqisini, ölkəmizin və onun bölgələrinin inkişafını bir daha sübut edir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, park-bulvar kompleksi Astara şəhərində Xəzər dənizinin sahil boyunca 1 kilometr uzunluğunda olan ərazini əhatə edir. Kompleksin inşasına 2014-cü ilin mart ayında başlanılıb və artıq tikinti-quraşdırma işləri başa çatdırılıb. Burada park-bulvarın sahəsi 6 hektar, çimərliyin sahəsi 2 hektardır. Park-bulvarda fəvvarə kompleksi, süni şəlalələr, yay-qış uşaq əyləncə mərkəzləri, açıq fitnes meydançası, kafe-çay evi tikilib. Bundan əlavə, ərazidə uşaq əyləncə attraksionları quraşdırılıb.*

*Burada dövlətimizin başçısı Astarada icrası nəzərdə tutulan sosial infrastruktur layihələrinin eskizinə baxdı.*

*Prezident İlham Əliyev görüləcək işlər barədə tapşırıq və tövsiyələrini verdi.*

## Deqadi–Pəlikəş avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Astarada Deqadi–Pəlikəş avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Deqadi–Pəlikəş avtomobil yolunun tikintisi üçün prezident İlham Əliyev 2013-cü ildə müvafiq sərəncam imzalayıb və Prezidentin ehtiyat fondundan ilkin olaraq 2 milyon manat ayrılıb. Ötən il dövlətimizin başçısının imzaladığı digər sərəncamla 2014-cü il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,7 milyon manatı bu yolun inşasına yönəldilib.*

*Tikintisinə 2013-cü ildə başlanılan avtomobil yolunda işlər artıq başa çatıb. Uzunluğu 21 kilometr olan bu yoldan 21 yaşayış məntəqəsinin 12 min nəfər əhalisi istifadə edir.*

## LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏR

*11 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Astara rayonuna səfərini başa çatdıraraq Lənkəran şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı şəhərin mərkəzindəki Heydər Əliyev Xatirə parkında ulu öndərin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Heydər Əliyev Xatirə parkında aparılan abadlıq işləri barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, burada sakinlər və qonaqların istirahəti üçün hərtərəfli şərait yaradılıb.*

### Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində yenidənqurma və bərpa işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində yenidənqurma və bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, hazırda Xan evi kimi tanınan bu nadir bina Lənkəran xanı Mirəhməd xan tərəfindən həyat yoldaşı Tuğra xanımın şərəfinə 1912–1913-cü illərdə inşa edilib. Bina fransız memarları tərəfindən layihələndirilib və tikinti işləri onların rəhbərliyi ilə aparılıb. Binanı xarici və yerli ustalar inşa ediblər. Tikinti materialları isə Bakıdan gəmi ilə daşınıb. Xan evinin tikintisində Şərq və Qərb memarlıq üslubundan istifadə edilib, kərpic və ağ daş materiallarına üstünlük verilib. Üçmərtəbəli bina 12 otaqdan ibarətdir. Sahəsi 812 kvadratmetr*

olan Xan evi 1913-cü ildə Lənkəranda ilk dəfə xüsusi elektrik qurğusu quraşdırılmaqla, elektrik enerjisi ilə təmin edilib. 1978-ci ildən Xan evi Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyətə başlayıb. Uzun illər təmir edilmədən fəaliyyət göstərən muzey binası tədricən aşınıb, dam örtüyü sıradan çıxıb, mərtəbələrarası örtüklər, döşəmələr, qapılar, pəncərələr keyfiyyətini itirərək, yararsız vəziyyətə düşüb.

Tarixi binanın əsaslı təmirinə 2013-cü ilin sentyabrından başlanılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən inşaat işləri yüksək səviyyədə aparılıb və bu ilin aprel ayında başa çatdırılıb.

Dövlətimizin başçısı muzeyin ekspozisiya zallarına baxdı. Ekspozisiya zallarında adı qədim yazılı mənbələrdə çəkilən Lənkəranın ərazisində tapılmış və bu diyarın tarixini, etnoqrafiyasını, maddi və mənəvi dəyərlərini, məişətini əks etdirən əşyalar, alətlər, rayonun tarixində baş vermiş mühüm hadisələri əks etdirən sənədlər toplanılıb. Eksponatların tarixi ardıcıllıqla və hər biri haqqında geniş və ətraflı məlumat verilməklə nümayişi və etibarlı şəkildə qorunması üçün əlverişli şərait yaradılıb. Bina qədim olsa da burada infrastruktur tam müasir tələblərə uyğun qurulub. Yanğın təhlükəsizliyini təmin etmək üçün müasir tələblərə uyğun yanğın xəbərvermə və yanğınsöndürmə sistemləri, mərkəzləşmiş videomüşahidə qurğusu quraşdırılıb.

Diqqətə çatdırıldı ki, baş plana əsasən ərazidə qazanxana binası, transformator yarımstansiyası, generator, su anbarları və digər zəruri avadanlıqlar, həmçinin otaqlarda temperaturu sabit saxlamaq üçün döşəmə tipli havalandırma sistemi quraşdırılıb. Muzeyin ətrafında geniş abadlıq işləri görülüb, ərazinin asfalt örtüyü yenilənib.

## MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Lənkəranda əsaslı şəkildə yenidən qurulan Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.*

*Bildirildi ki, bu gün Azərbaycanda bütün sahələrə olduğu kimi, mədəniyyət sferasına da xüsusi diqqət göstərilir. İndi paytaxtla yanaşı, respublikanın hər yerində yerləşən mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Lənkəran şəhər Mədəniyyət Mərkəzinin binasında əsaslı yenidənqurma işlərinin aparılması ölkədə mədəniyyət və incəsənətin inkişafına diqqətin daha bir təzahürüdür. Lənkəranın ictimai-siyasi və mədəni həyatında Mədəniyyət Mərkəzinin böyük rolu olub. 1982-ci ildə istifadəyə verilən mərkəz uzun müddət Lənkəran şəhər 2 saylı Mədəniyyət evi adı ilə fəaliyyət göstərib. O vaxtdan keçən dövr ərzində burada əsaslı təmir işləri aparılmayıb. İndi yenidən qurulan bina ən müasir səviyyəyə çatdırılıb, incəsənət adamlarının fəaliyyəti üçün burada geniş imkanlar yaradılıb. Mədəniyyət Mərkəzinin binasının əsaslı təmir işlərinə 2014-cü ilin aprelində başlanılıb və bu ilin aprelində başa çatdırılıb. Bölgələrdə mədəniyyət ocaqlarının əsaslı təmir olunması, müasir tipli yeni mədəni infrastrukturun yaradılması regionlarda bu sahənin hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Bu gün mədəniyyət xadimləri, incəsənət adamları ən yüksək səviyyədə qayğı ilə əhatə olunublar.*

*Onların sosial məsələlərinin həllinə dövlət səviyyəsində həmişə diqqət göstərilib.*

*Dövlətimizin başçısına Mədəniyyət Mərkəzində yaradılan şərait barədə ətraflı məlumat verildi. Bildirildi ki, burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Lənkərana səfərlərindən və ölkədə mədəniyyətin inkişafına göstərdikləri qayğıdan bəhs edən fotostend yaradılıb. Üçmərtəbəli bina ən yüksək səviyyədə, müasir üslubda təmir edilib. 550 yerlik akt zalında Lənkəranın mədəni həyatında baş verən hadisələri qeyd etmək, həmçinin respublika və rayon əhəmiyyətli müxtəlif tədbirləri keçirmək üçün hərtərəfli şərait var. Bu ümumilikdə, rayonun incəsənət və mədəniyyət işçilərinə yeni uğurlar əldə etmək üçün həm stimul, həm də geniş imkanlar yaradır.*

*Dövlətimizin başçısı Lənkəran şəhər uşaq musiqi məktəblərinin birləşmiş xorunun ifasını dinlədi.*

*Sonra prezident İlham Əliyev məktəblilərlə xatirə şəkli çəkdirdi.*

*Diqqətə çatdırıldı ki, Lənkəranda tez-tez mədəniyyət tədbirlərinin keçirilməsi və rayonda bir çox incəsənət kollektivinin fəaliyyət göstərməsi nəzərə alınaraq, mərkəzdə rejissor, qrim, istirahət otaqları, dekorasiya və tikiş sexləri də yaradılıb. Mədəniyyət Mərkəzinin zəngin kitab fondu, oxu zalı və 50 yerlik konfrans zalı var. Rəqs zalı, ingilis dili, kompüter kursu və digər dərnəklər gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün mühüm əhəmiyyət kəsb edir.*

*Bildirildi ki, burada etnoqrafiya sərgisi də yaradılıb. Bu sərgi Lənkəranın qədim tarixi haqqında geniş məlumatlar əldə etməyə imkan verəcək. Son illərdə ölkəmizdə mədəniyyətin inkişafına göstərilən yüksək diqqət özünü mədəniyyət ocaqlarının və bu sahədə çalışan insanların qayğı ilə əhatə olunmasında, həmçinin ölkəmizin beynəlxalq səviyyəli mədəni tədbirlərə ev sahibliyi etməsində daha çox büruzə verir. Bu baxımdan Heydər Əliyev Fondunun mədəniyyətimizin inkişafı, onun dünyada təbliği, Azərbaycanın zəngin mədəni irsinin,*

*musiqi ənənələrinin qorunması ilə bağlı həyata keçirdiyi layihələr xüsusi önəm kəsb edir. Bölgələrdə müasir mədəniyyət ocaqlarının yaradılması bu sahənin regionlarda da hərtərəfli inkişafına töhfələr verir. Lənkəranda əsaslı şəkildə yenidən qurulan Mədəniyyət Mərkəzi də bu baxımdan əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev mərkəzlə tanışlıqdan sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün çox gözəl gündür. Lənkəranda Mədəniyyət Mərkəzi əsaslı təmirdən sonra açılır. Gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, bu bina yenidən qurulub, bərpa edilib. Bildiyiniz kimi, bina keçən əsrin 70-ci illərində tikilib və təmirə ehtiyacı var idi. Hazırda bu, ən yüksək səviyyədə qurulmuş bir Mədəniyyət Mərkəzidir – zallar, geniş otaqlar, iclas zalları. Burada konfranslar, konsertlər, müxtəlif tədbirlər keçiriləcək. Yəni Lənkərana yaraşan bir mədəniyyət ocağıdır. Bu məni çox sevindirir. Çünki Azərbaycanın hər bir yerində mədəniyyət ocaqlarının təmiri, bərpası sürətlə gedir, geniş vüsət alıb. Həm qədimdən qalan tarixi abidələr, eyni zamanda, sovet dövründə tikilmiş mədəniyyət mərkəzləri təmir olunur, yenidən qurulur. Bu gün Lənkəranda Tarix-Diyarşünaslıq Muzeyinə də baş çəkdim. O da tarixi binadır. Gözəl təmir olunub, uzun illər təmirə ehtiyacı var idi. Orada göstərilən fotoşəkillər o tarixi binanın köhnə görüntülərini əks etdirir. Burada, bu binanın həyətində də onun əvvəlki vəziyyətini əks etdirən şəkillər var.

Bu gün mənzərə tam fərqlidir. Bu gün Lənkəranda və demək olar ki, ölkəmizin hər bir yerində tarixi mədəni obyektlərimiz bərpa edilir və bu belə də olmalıdır, xüsusilə Lənkəranda. Lənkəranın çox qədim mədəniyyəti, tarixi var. Biz bu mədəniyyəti, tarixi qoruyuruq. Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilən eksponatlar göstərir ki, bu diyarın nə qədər zəngin tarixi və mədəni irsi var.

Son illər bütövlükdə Lənkəranda görülən işlər ölkəmizin ümumi inkişaf dinamikasını əks etdirir. Son vaxtlar cənub bölgəsində, xüsusilə Lənkəranda infrastruktur layihələrinin icrası sürətlə aparılır. Bu gün deyə bilərik ki, əsas infrastruktur

layihələri icra edilib. 2 il bundan əvvəl şəhərə içməli suyun verilməsini qeyd etmişik. İndi şəhər içməli su ilə tam şəkildə təmin edilib. Qazlaşdırma sürətlə gedir. Şəhər tam qazlaşdırılıb. Kənd əhalisinin təxminən 80 faizi artıq təbii qaz alır, ilin sonuna qədər yəqin ki, 100 faizə yaxın bir rəqəm ortaya çıxacaq. Eyni zamanda, bu ilin əvvəlində «Azərişıq» qurumunun yaradılması nəticəsində hazırda bütün bölgələrdə elektrik enerjisi təchizatı ilə bağlı əlavə tədbirlər görülür. Vaxtilə biz kifayət qədər böyük həcmdə generasiya gücləri yaratmışıq, o cümlədən bu bölgədə «Astara» elektrik stansiyasını, «Şirvan» elektrik stansiyasını. Yəni elektrik güclərimiz kifayət qədər böyükdür. Ancaq ötürücü xətlərin, transformatorların yenilənməsinə böyük ehtiyac var idi. Hazırda «Azərişıq» bu işlərə çox fəal qoşulub. Əminəm ki, bir neçə ildən sonra bizim bütün bölgələrimizdə elektrik enerjisi ilə təminat Bakıda olan səviyyəyə qalxacaq.

Kənd yollarının tikintisi gedir. Lənkəranda bir neçə kənd yolu layihəsi icra edilib. Bu da, əlbəttə ki, həm inkişafa təkan verir, eyni zamanda, böyük sosial məna daşıyır. Çünki Azərbaycan əhalisinin təxminən 50 faizi aqrar bölgələrdə, kəndlərdə yaşayır. Kənd yolları layihəsi, ümumiyyətlə, bütün ölkəmizi əhatə edibdir.

Hazırda Bakı–Astara magistral avtomobil yolu tikilir. Əminəm ki, yaxın illərdə istifadəyə veriləcək. Beləliklə, avtomaşınla gəlib-getmək üçün daha da gözəl imkan olacaq. Lənkəran aeroportu artıq neçə ildir ki, fəaliyyət göstərir. Aeroport sovet dövründə tikilmişdi, amma sonra fəaliyyət göstərmirdi. Yadımdadır, aeroportun ərazisinə baş çəkəndə gördüm ki, hər şey dağılıb və o vaxt qərar qəbul etdim ki, biz yenidən aeroport tikməliyik. Müxtəlif fikirlər var idi ki, bəs bu qədər vəsait qoyulacaq, kim istifadə edəcək, yəni sadəcə olaraq, bir tikinti obyekti kimi istifadəsiz qalacaq. Amma bu gün biz görürük ki, bunun nə qədər böyük əhəmiyyəti var. Lənkərandan birbaşa Moskvaya, Rusiyanın digər şəhərlərinə və başqa yerlərə uçuşlar təşkil edilir. Nəinki lənkəranlılar, bütün cənub zonasının sakinləri bu aeroportun xidmətindən istifadə edirlər. Biz ən müasir

təyyarələr almışıq. Ölkəmizdə 7 aeroport tikilib. Onlardan 5-i beynəlxalq statusa malikdir ki, biri də Lənkəran aeroportudur.

Biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Əlbəttə, sosial sahə heç vaxt yaddan çıxmır, əksinə, həmişə bizim prioritetimiz kimi qalır. Lənkəranda Mərkəzi Rayon Xəstəxanası, ondan əvvəl isə Diaqnostika Mərkəzi yaradılıb. Birinci Diaqnostika Mərkəzi məhz Lənkəranda yaradılıb. Uşaq xəstəxanası, məktəblər, mədəniyyət ocaqları tikilir. Yəni bu cür yanaşma imkan verir ki, ölkəmizin hər bir regionu, hər bir rayonu hərtərəfli inkişaf etsin. Hər bir rayonda normal yaşamaq, işləmək üçün bütün şərait yaradılır.

Bu gün mən Lənkəranda yaradılan yeni kənd təsərrüfatı layihəsinə də fikir verdim, yaxından tanış oldum. Bu da bir yenilik olacaq. Xarici mütəxəssislərin dəstəyi ilə burada müasir texnologiyalar əsasında meyvə bağları salınır. Əlbəttə, bu həm Lənkəranın iqtisadiyyatına, eyni zamanda, ixrac potensialına da müsbət təsir göstərəcək. Çalışmalıyıq ki, bundan sonra öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edək.

Bizim, əlbəttə, böyük enerji resurslarımız, neft-qaz yataqlarımız var. Bu gün bunlar Azərbaycan xalqına xidmət edir və dünya miqyasında öz rolunu oynayır. Eyni zamanda, gözəl təbii şəraitimiz, Lənkəran kimi gözəl məkanımız var. Digər bölgələrdə də təbii şərait unikaldır. Xoşbəxtik ki, belə gözəl ölkədə yaşayırıq – 9 iqlim qurşağı, hər cür təbii şərait, münbit torpaqlar, dağlar, çaylar, Xəzər dənizi, bulaqlar var. Bu, böyük sərvətdir və biz bu sərvətdən səmərəli şəkildə istifadə edirik.

Bu gün Azərbaycan müstəqil dövlətdir və öz taleyini özü müəyyən edir. Azərbaycan xalqı da görür ki, biz ancaq müstəqillik dövründə yaxşı yaşaya bilirik. Biz əsrlərboyu müstəqillikdən məhrum idik və Azərbaycan xalqı öz potensialını tam realizə edə bilmirdi. 23 ildir ki, müstəqil dövlət kimi yaşayırıq və bu gün çiçəklənən Azərbaycan bu müstəqilliyin bəhrəsidir. Biz müstəqilliyi qoruyuruq, qoruyacağıq. Bizim yolumuz inkişaf yoludur, hər bir bölgə inkişafdadır, ölkəmiz inkişafdadır. Birinci regional inkişaf proqramı hələ 2004-cü ildə qəbul edilmişdi və 11 il keçəndən sonra bu gün hər kəs hər bir rayonda bu proqramın

nəticələrini görür. O ki qaldı Lənkəranın gələcək inkişafına, biz çalışacağıq ki, əlavə investisiyalar qoyulsun. Dövlət tərəfindən infrastruktur layihələri davam etdiriləcək. Hələ ki, məktəb tikintisinə, təmirinə ehtiyac var, kənd yollarına vəsait qoyulacaq, şəhərdaxili yollar da gərək təmir olunsun. Mənzil fondunun bərpası məsələləri var. Yəni hələ görüləsi işlər çoxdur. Ancaq əsas infrastruktur layihələri artıq arxada qalıb. Biz onları icra etmişik.

Biz Lənkəranın turizm potensialından da maksimum dərəcədə istifadə etməliyik. Çünki Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır, indi 2 milyondan çoxdur. Lənkəran Beynəlxalq Aeroportu da bir vasitə olacaq ki, biz xarici turistləri cəlb edək. Daxili turizm də inkişaf etməlidir. Təkcə bu məqsədlə yox, eyni zamanda, ölkəmizi gənclər daha yaxşı tanısınlar deyə, biz indi «Ölkəmizi tanıyaq» proqramını icra edirik. Müxtəlif bölgələrdən gənclər Lənkərana, Lənkərandan isə başqa zonalara səfərlər edirlər. Gələcəkdə bu, daxili turizmin inkişafına da təsir göstərəcək. Yəni təbii sərvətlərimizdən səmərəli şəkildə istifadə edərək, ölkəmizi daha da gücləndirməliyik, insanların həyatını daha da yaxşı təmin etməliyik.

Lənkəranın inkişafı daim diqqət mərkəzindədir. Bu, son 11 il ərzində mənim Lənkərana 10-cu səfərimdir. Bu özlüyündə göstərir ki, bu bölgəyə, bu şəhərə nə qədər diqqət göstərilir. Görəndə ki, belə gözəl, müasir abidələr yaradılıb, sizin qədər mən də sevinirəm. Təbrik edirəm və yeni uğurlar arzulayıram.

## Yeni inşa olunan Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Lənkəranda yeni inşa olunan Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı bağçanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Körpələr evi-uşaq bağçasının inşasına 2013-cü ilin dekabrında başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Ərazisi 0,7 hektar olan bağça 3 binadan*

*ibarətdir. Burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hərtərəfli şərait yaradılıb. Bağçada 3 yaşdan 6 yaşadək 110 uşaq 11 qrupda təlim-tərbiyə alacaq. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları əsas götürülüb. Binada uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar var. Bağçada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılır. Bundan başqa, musiqi zalı və digər istirahət otaqları da balacaların ixtiyarına veriləcək. Uşaqların qidalanmasına xüsusi diqqət yetirilir.*

*Bağçanın ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, yay çardağı, oyun meydançası yaradılıb, su anbarı tikilib və transformator yarımstansiyası quraşdırılıb.*

## Yeni yaradılan «Gilan aqro-sitrus» təsərrüfatı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 11-də yeni yaradılan «Gilan aqro-sitrus» təsərrüfatı ilə tanış olmuşdur.*

*Bildirildi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində ölkəmizdə qeyri-neft sektorunda böyük çəkiyə malik olan kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılıb. Bütövlükdə kənd təsərrüfatının inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin «2015-ci ilin Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilməsi haqqında» Sərəncam imzalaması da dövlətin aqrar sahəyə diqqətinin növbəti əyani göstəricisidir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi bu sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoyub. Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Artıq «Kənd təsərrüfatı ili»nə dair tədbirlər planı da təsdiqlənib. Plana uyğun olaraq*

aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. «Kənd təsərrüfatı ili» çərçivəsində iri təsərrüfatların yaradılması da nəzərdə tutulur. Bu isə fermer və kəndli təsərrüfatlarına maddi-texniki dəstəyin daha da artmasına və ərzaq istehsalının həm daxili, həm xarici bazar üçün təminatına şərait yaradır. 2015-ci ilin Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilməsi bu sahənin inkişafına təkan verəcək, onun modernləşdirilməsini sürətləndirəcək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin edəcək. Tədbirlər planına uyğun olaraq Lənkəranda yeni «Gilan aqro-sitrus» təsərrüfatı yaradılıb.

Məlumat verildi ki, yeni sitrus təsərrüfatının ümumi sahəsi 45 hektardır. Hazırda 15 hektar sahədə «Gilan aqro» şirkəti tərəfindən Cənubi Koreyadan gətirilən 20 min ədəd «Halla-bong» sitrus meyvəsinin ağacları əkilib. Yeni salınmış sitrus təsərrüfatında 140 nəfərin daimi işləməsi nəzərdə tutulur.

Bildirildi ki, sitrus təsərrüfatının ümumi smeta dəyəri 10 milyon manatdır. Gələcəkdə təsərrüfat genişləndiriləcək, 500 hektara yaxın ərazini əhatə edəcək. O cümlədən dağətəyi ərazilərdə terras əkin üsulu ilə sitrus plantasiyaları salınacaq. Aparılacaq işlərin nəticəsində bölgədə istifadəsiz qalmış torpaqlar yenidən kənd təsərrüfatı dövriyyəsinə qaytarılacaq və 2000 yeni daimi iş yerinin yaranmasına imkan verəcək. Burada suvarma ilkin olaraq damcı üsulu ilə həyata keçiriləcək, sonradan bununla yanaşı, çiləmə üsulundan da istifadə edilməsi nəzərdə tutulub. Becərilən məhsuldar sitrus növlərindən yüksək dad keyfiyyətlərinə və əmtəəlik xüsusiyyətlərə malik meyvələr əldə ediləcək. Bu növlərin məhsuldarlığı hektarda orta hesabla 35–45 tona çatır ki, bu da yerli növlərdən 2-3 dəfə çoxdur. İstehsal olunmuş meyvələrdən təzə halda və qida, qənnadı, kosmetik, ətriyyat və digər sənaye sahələrində, həmçinin şirə istehsalında və şərabçılıqda istifadə edilməsi nəzərdə tutulur. O cümlədən daxili bazarda satış üçün rayonda mövcud olan Gilan–Lənkəran konserv zavodunda meyvə şirəsi istehsal olunacaq.

*Sitrus təsərrüfatında ümumilikdə 1800 ton məhsul götürüləcək. Bu da 180 min nəfərin illik istehlak normasına bərabərdir.*

## Yenidən qurulan Liman–Nərimanabad–Balıqçılar avtomobil yolu ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Liman–Nərimanabad–Balıqçılar avtomobil yolu ilə tanış olmuşdur.*

*Əvvəlcə dövlətimizin başçısı avtomobil yolunun sxematik planına baxdı. Bildirildi ki, uzun illər təmir işləri aparılmaması nəticəsində yol istismara yararsız vəziyyətə düşüb. Qısa müddətdə yenidən qurulan yol əhalinin gediş-gəlişini xeyli asanlaşdıracaq. Yolun yenidən qurulmasına Azərbaycan Prezidentinin 2013-cü il 13 sentyabr tarixli Sərəncamı ilə Prezidentin ehtiyat fondundan 2 milyon manat və 2014-cü il 6 noyabr tarixli digər Sərəncamına əsasən dövlət büdcəsindən 3,6 milyon manat, ümumilikdə 5,6 milyon manat vəsait ayrılıb. Yolun tikintisinə 2013-cü ilin oktyabr ayında başlanılıb, tikinti işləri bu ilin aprelində başa çatdırılıb.*

*Məlumat verildi ki, yolun inşası zamanı ən müasir texnoloji üsullardan istifadə edilib, işin keyfiyyətlə və qısa müddətdə görülməsinə xüsusi diqqət yetirilib. 10 min nəfərin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun ümumi uzunluğu 18,8 kilometr, eni 6 metrdir. Üçüncü texniki dərəcəli yolun yenidən qurulması zamanı ətrafındakı bataqlıq qurudulub, əraziyə torpaq tökülərək, 1000-dən çox həmişəyaşıl küknar ağacları əkilib.*

*Bu cür kəndarası yolların inşası sosialyönümlü tədbirlər olmaqla yanaşı, eyni zamanda, ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət daşıyır. Ölkədə həyata keçirilən infrastruktur layihələri Azərbaycanın hər bir bölgəsini, rayonunu və kəndini əhatə edir, həmçinin regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.*

## SERBİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ALEKSANDR VUÇİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Serbiyanın Baş naziri ilə Münhendəki görüşünü və tərəfdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı apardıqları səmərəli müzakirələri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.*

*Serbiyanın Baş naziri Aleksandr Vuçiç ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi sahədəki kimi, iqtisadi sahədə də genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunun vurğulandığı görüşdə bu istiqamətdə müxtəlif layihələrin uğurla həyata keçirildiyi bildirildi. Ölkələrimiz arasında mövcud olan möhkəm siyasi əlaqələrin və qarşılıqlı anlaşmanın ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.*

*Söhbət zamanı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, infrastruktur, sərmayə qoyuluşu, yükdaşımaları, mədəni, humanitar və digər sahələrdə perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunularaq münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə və ərazi bütövlüyü*

*çərçivəsində həll olunmasında ölkələrimizin mövqeyinin üst-üstə düşdüyü vurğulandı.*

## RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RÜSTƏM MİNNİXANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Tatarıstana səfərini və Kazan şəhərinin onda böyük təəssürat yaratdığını məmnunluqla xatırladığını dedi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası və onun subyektləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin bu münasibətlərin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən ticarət, sərmayə qoyuluşu, birgə layihələrin icrası və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Prezident Rüstəm Minnixanov Azərbaycana səfərindən ötən dövr ərzində ölkəmizdə gedən böyük inkişaf proseslərinin, xüsusilə Bakı şəhərinin abadlaşdırılması və yenidən qurulması istiqamətində aparılan işlərin onda və nümayəndə heyətində dərin təəssürat yaratdığını dedi. O, əldə olunan yüksək nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini vurğulayan*

*Tatarıstan Prezidenti nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə artıq bir sıra səmərəli görüşlər keçirdiklərini vurğuladı. Rüstəm Minnixanov Azərbaycanda yaşayan tatar icması ilə keçirdiyi görüş zamanı icma üzvlərinin ölkəmizdə bərqərar olmuş tolerant mühitin onların firavan yaşamaları üçün hər cür şərait yaratdığını dedi.*

*Görüşdə maşınqayırma, neft maşınqayırması, Gəncədə avtomobilyığma, neft-kimya, informasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «İSLAM MAARİFÇİLİYİ VƏ MÜASİR DÖVR» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «İslam maarifçiliyi və müasir dövr» Beynəlxalq Bakı Konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bu gün sürətlə qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya kimi zərərli təzahürlər, dinin şübhəli siyasi ambisiyalara alət edilməsi cəhdləri təəssüf ki, acı gerçəklikdir. Buna görə də cəmiyyətdə dinin işıqlı yeri və maarifçilik rolu, beynəlxalq münasibətlər sistemində dinin birləşdirici missiyası, bəşəriyyətin gələcək taleyi naminə sivilizasiyalar və dinlərarası dialoq zərurəti getdikcə xüsusi aktuallıq kəsb edir.

Dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycanda islam maarifçiliyi və müasir dövr kimi mühüm bir mövzu ətrafında tanınmış dini liderlərin, hökumət və dövlət rəsmilərinin, görkəmli alimlərin, din mütəxəssislərinin, nüfuzlu «beyin mərkəzləri» təmsilçilərinin bir araya gəlməsini son dərəcə təqdirəlayiq hal hesab edirəm. İslamın daxilindəki maarif işığını görənlər onu hamıya göstərməyi də bacarmalıdırlar. Bu baxımdan, keçirilən konfransın elmi tərəfi ilə yanaşı, həm də böyük ictimai əhəmiyyəti var.

Tarixən müxtəlif dinlərin dinc və azad şəkildə yaşayıb formalaşdığı ölkəmizdə bu gün sistemli və harmonik din siyasəti həyata keçirilir. Belə harmoniyaya nail olmağımız Azərbaycanın beynəlxalq nüfuzunu artırır və sizin mötəbər konfransınızın məhz Bakıda keçirilməsi bunu bir daha sübut edir.

Əminəm ki, bugünkü beynəlxalq toplantınızda din və cəmiyyət mövzusunda bir sıra qlobal problemlər və Azərbaycanın dövlət–din münasibətləri sahəsində nümunəvi təcrübəsi ilə bağlı ciddi müzakirələr aparılacaq, gəldiyiniz nəticələr dinlərarası əməkdaşlığın inkişafına, mütərəqqi dini maarifçiliyə, etnik-dini dözümlülük, həmrəylik və sülh işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu xeyirxah və nəcib işdə hər birinizə cansağlığı, konfransınıza uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2015-ci il*

# İTALİYA RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ FEDERİKA QUİDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də İtaliya Respublikasının İqtisadi İnkişaf naziri Federika Quidinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Federika Quidi İtaliya prezidenti Sercio Mattarellanın və Baş nazir Matteo Renzinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Federika Quidi ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını dedi. Əlaqələrimizin möhkəmləndirilməsində enerji sahəsində əməkdaşlığın önəmini vurğulayan italiyalı nazir TAP layihəsi ilə bağlı ölkəsində həyata keçirilən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Dövlətimizin başçısı Romada İtaliyanın Baş naziri Matteo Renzi ilə keçirdiyi görüşləri xatırladaraq səfər zamanı qəbul edilmiş «Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»nin ölkələrimiz, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq əlaqələri baxımından əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini, həmçinin enerji təhlükəsizliyi sahəsində əməkdaşlığımızın önəmini vurğuladı. Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» layihəsinə toxunaraq, TANAP layihəsinin həyata keçirilməsində birgə səylərin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev İtaliyanın İqtisadi İnkişaf* naziri Federika Quidinin *Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu* bildirdi.

*Görüşdə Azərbaycan ilə İtaliya arasında kənd təsərrüfatı, yüksək* texnologiyalar, *sənayenin inkişafı və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında* fikir *mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı* prezident Sercio *Mattarellanın və Baş nazir* Matteo Renzinin *salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını İtaliya Prezidentinə və Baş* nazi*rinə çatdırmağı xahiş* etdi.

# PAYTAXTA GƏTİRİLƏN YENİ METRO QATARLARINA BAXIŞ

*16 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Bakı Metropolitenində olmuşdur.*

Dövlətimizin başçısı Bakı Metropoliteninin Nəriman Nərimanov adına elektrik deposunda metropolitenin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə maraqlandı.

«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, metropolitenin qatar parkının yenilənməsi məqsədilə dəmir yolu infrastrukturunda dünyada aparıcı mövqe tutan, böyük nüfuza malik və «Metrovaqonmaş» Səhmdar Cəmiyyətinin səhmlərinin 25 faizinin sahibi olan Fransanın «Alstom» şirkəti ilə ötən il Memorandum imzalanıb. Həmin Memorandumun şərtlərinə uyğun olaraq, bu şirkətlə «Bakı Metropoliteni» QSC arasında bağlanan müqaviləyə əsasən, 5 vaqondan ibarət 3 qatarın alınması nəzərdə tutulub. Artıq 2 qatar paytaxta gətirilib.

Alınan qatarlar texniki innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Bu nəsil qatarların idarə edilməsi mikroprosessor əsasında həyata keçirilir. Əvvəlki nəsil qatarlardan fərqli olaraq, yeni qatarların dartı mühərrikləri dəyişən cərəyanla işləyir. Əgər əvvəlki nəsil qatarların mühərriklərinin gücü 114 kilovat idisə, indi bu rəqəm 170 kilovat təşkil edir. Köhnə vaqonların çəkisinə gəlincə, əvvəllər bu göstərici baş vaqon üçün 38, aralıq vaqon üçün 36 ton təşkil edirdi. İndi isə yeni nəsil vaqonlarda baş vaqonun çəkisi 34, aralıq vaqonun çəkisi 29 tondur. Yeni nəsil vaqonların banı paslanmayan metaldandır və bu qatarlarda əvvəlkilərdən fərqli olaraq vaqonlararası

*birbaşa keçid var. Bütün vaqonlarda daha mükəmməl havalandırma sistemi quraşdırılıb. Vaqonların salonunda «hərəkətli sətir» sistemi və təhlükəsizliyin təmin edilməsi üçün müşahidə kameraları qoyulub.*

*Dövlətimizin başçısına məlumat verildi ki, qısa vaxtda Bakı Metropoliteninin infrastrukturunun beynəlxalq standartlara uyğun yenidən qurulması istiqamətində görülmüş əhəmiyyətli işlərdən biri də burada diaqnostika kompleksinin yaradılmasıdır. Belə ki, xaricdə istehsal olunan ən müasir serverlər və fasiləsiz cərəyan təminatı, lazer optik sistemləri, cərəyan çeviriciləri, işçi kompüter avadanlığı, GPS – koordinasiya qurğusu və digər müasir sistem və qurğularla təchiz olunmuş diaqnostika kompleksi qatarların hərəkətinin tam təhlükəsizliyini, səlistliyini və sərnişindaşımanın rahatlığını təmin edəcək. Kompleksin əsas vəzifəsi qatarların avtomatik sürət tənzimlənməsi sisteminin kod və siqnallarını nəzarətdə saxlamaqdır. Bundan başqa, diaqnostika kompleksinin verdiyi imkanlardan bəhrələnərək, rels dövrələrində cərəyan asimmetriyasının təyin edilməsi, tunellərdə qızmaya məruz qalma ehtimalı olan bütün avadanlıq və texniki qurğulara teplovizion nəzarətin aparılması mümkündür. Kompleks, həmçinin qatarların səlis və rahat hərəkətinə maneə yarada biləcək bütün fiziki amillərin qeydiyyatı və analizinə, qüsurların qabaqcadan proqnozlaşdırılması və avtomatik nəzarətə götürülməsinə, bütün əməliyyatların xətti video şəklində qeydə alınmasına və digər tədbirlərin aparılmasına imkan verəcək.*

*Yeni nəsil vaqonların tutumu 330 sərnişin təşkil edir. Köhnə vaqonlarda isə bu rəqəm 308 idi. Bu texniki göstəricilərdən göründüyü kimi, müasir tələblərə cavab verən yeni qatarlar ən mütərəqqi texnologiyaya, idarəetmə üsuluna malik olmaqla, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin edəcək.*

*Qeyd edək ki, son vaxtlar Bakı Metropolitenində aparılan abadlıq işləri nəticəsində depo ərazisindəki park yenidən qu-*

*rulub. Burada depo işçiləri üçün yeməkxana və ehtiyat avadanlıq saxlanılan böyük anbar kompleksi tikilib.*

## QAZAXISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BEYBİT İSABAYEV İLƏ GÖRÜŞ

*19 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Beybit İsabayevin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Beybit İsabayev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beybit İsabayevin etimadnaməsini qəbul etdikdən sonra səfirlə söhbət etdi.*

*Xalqlarımız arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən dövlətimizin başçısı müasir dövrdə ikitərəfli münasibətlərimizin müttəfiqlik səviyyəsinə qalxdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qazaxıstanın mühüm birgə iqtisadi, enerji, nəqliyyat layihələrini həyata keçirdiyini deyərək, bütün bunların əməkdaşlığımızın potensialının daha da gücləndirilməsi işinə xidmət etdiyini bildirdi. Prezident İlham Əliyev Xəzərin statusunun müəyyənləşdirilməsi və Xəzər hövzəsində əməkdaşlıqla bağlı Azərbaycan ilə Qazaxıstan arasında tam qarşılıqlı anlaşmanın olduğunu diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı* Beybit *İsabayevin səfir* kimi *fəaliyyəti dövründə əlaqələrimizin* bundan sonra da *möhkəmlənəcəyinə və ölkələrimizin* regional *əməkdaşlığın və təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə səylərinin* daha da *artırılacağına ümidvar olduğunu dedi.*

*Səfir Beybit İsabayev Qazaxıstan Respublikasının* Prezidenti Nursultan *Nazarbayevin salamlarını dövlətimizin başçısına çatdırdı. Qazaxıstan ilə Azərbaycan arasında mövcud* olan dostluq *və qardaşlıq əlaqələrinin ən yüksək səviyyədə* bundan sonra da *inkişaf edəcəyinə ümidvar olduğunu* bildirən *səfir* Beybit *İsabayev fəaliyyəti dövründə əlaqələrimizin* ge*nişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini* dedi.

*Dövlətimizin başçısı* prezident Nursultan Nazarbayevin sa*lamlarına görə minnətdarlığını* bildirdi, onun da salam*larını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş* etdi.

## VYETNAM SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NQUYEN THAN ŞON İLƏ GÖRÜŞ

*19 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Nquyen Than Şonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Nquyen Than Şon Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nquyen Than Şonun etimadnaməsini qəbul etdikdən sonra səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Vyetnam Sosialist Respublikasına keçənilki səfərini, orada Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyi və aparılan səmərəli müzakirələri məmnunluqla xatırlatdı. Yüksək səviyyəli qarşılıqlı təmasların ölkələrimiz arasında əlaqələrin dinamik və uğurlu inkişafının göstəricisi olduğunu deyən prezident İlham Əliyev mövcud əlaqələrin hazırkı vəziyyətinin razılıq doğurduğunu qeyd etdi. Prezident İlham Əliyev səfirin fəaliyyətinin ikitərəfli münasibətlərin gücləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Səfir Nquyen Than Şon Vyetnam Sosialist Respublikasının Prezidenti Truonq Tan Şanqın salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Nquyen Than Şon ölkəsinin Azərbaycan ilə dostluq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsində və daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd etdi. Prezident İlham Əliyevin Vyetnama səfərinin onlarda xoş təəssürat yaratdığını deyən səfir ölkəsində ulu öndər*

*Heydər Əliyevi və* onun *rəhbərliyi dövründə Azərbaycanın əldə* etdiyi *uğurları çox gözəl xatırladıqlarını* bildirdi.

*Dövlətimizin başçısı İlham Əliyev* prezident Truonq Tan *Şanqın salamlarına və ən xoş arzularına görə minnət*darlığını bildirdi, onun da *salamlarını* Vyetnam *dövlətinin başçısına çatdırmağı xahiş* etdi.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–İsrail əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *20 aprel 2015-ci il*

## BAKI SU İDMANI SARAYININ AÇILIŞI MƏRASİMİ

*20 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva aprelin 20-də Bakı Su İdmanı Sarayının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı Su İdmanı Sarayının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Su İdmanı Sarayında yaradılan şəraitlə tanış oldular.*

*Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, bu sahədə yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədilə prezident İlham Əliyev 2012-ci il avqustun 30-da Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsi haqqında Sərəncam imzalayıb. 2013-cü il aprelin 19-da isə dövlətimizin başçısının iştirakı ilə bu möhtəşəm idman sarayının təməli qoyulub.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.*

*6 hektar ərazisi olan bu nəhəng idman qurğusu yüksək keyfiyyətlə inşa edilib və artıq istifadəyə hazırdır. Paytaxtın Bayıl qəsəbəsində, Bakı Bulvarının yeni salınan hissəsində yerləşən və ümumi sahəsi 72 min kvadratmetr olan Su İdmanı Sarayı Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir.*

*Sonra prezident İlham Əliyevə Bakı Su İdmanı Sarayının interyerində həyata keçirilən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, tikintidə ən müasir avadanlıq və inşaat materiallarından istifadə olunub. Sarayda inşaat işlərinin gedişi ilə bir neçə dəfə tanış olan, tikintinin keyfiyyətlə aparılmasını diqqət*

*mərkəzində saxlayan prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, bu nəhəng idman qurğusunun arxitekturası müasir üslubu və gözəlliyi ilə seçilir və bu saray şəhərimizdə həyata keçirilən quruculuq işlərinə bir töhfədir.*

*Su İdmanı Sarayında 3 hovuz yaradılıb. Dövlətimizin başçısı yarışların keçiriləcəyi əsas hovuza baxdı. Uzunluğu 50, eni 25, dərinliyi isə 2,5 metr olan hovuz su idmanının müxtəlif növləri üzrə yerli və beynəlxalq səviyyəli yarışlar üçün nəzərdə tutulub.*

*Əsas zaldakı hündürlükdən suyatullanma hovuzunun uzunluğu 25 metrdir. Burada hündürlüyü 1, 3, 5, 7,5 və 10 metr olan 5 pilləli suyatullanma platforması inşa edilib. Hovuzlar Beynəlxalq Üzgüçülük Federasiyasının rəsmi tərəfdaşı olan İtaliyanın «Myrtha Pools» şirkəti tərəfindən yaradılıb.*

*Su İdmanı Sarayında yarışları eyni vaxtda 6 mindən çox tamaşaçı izləyə biləcək. Bundan əlavə, sarayda əlil tamaşaçılar, VVIP, VIP və media bölmələri inşa olunub.*

*Diqqətə çatdırıldı ki, binanın dam örtüyünün bir hissəsində «SKY LİGHT» xüsusi panoram şüşə panellərindən istifadə edilib. Bu şüşə panelləri eyni zamanda, günəş enerjisini elektrik enerjisinə çevirmək funksiyasına malikdir. Buradan əldə edilən elektrik enerjisi sarayın bəzi sahələrinin enerji təminatına yönəldiləcək.*

*İlk Avropa oyunlarına hazırlıq işlərinin gedişi ilə bağlı Təşkilat Komitəsi fəal iş aparır. Komitə tərəfindən təşkilati işlər yüksək səviyyədə həyata keçirilir. İlk Avropa oyunlarına hazırlıqla bağlı işlərin beynəlxalq standartlara uyğun şəkildə vaxtında və yüksək keyfiyyətlə aparılması Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Avropa oyunlarının Əlaqələndirmə Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları hazırlıq işlərinin yüksək səviyyədə aparılmasında xüsusi önəm daşıyır.*

*İlk Avropa oyunlarının xaricdə təbliğ olunması işinə də böyük əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın bir sıra paytaxt*

*şəhərlərində keçirilən təntənəli tanıtım mərasimlərinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Su İdmanı Sarayının 150 yerlik restoranında yaradılan şəraitlə tanış oldular.*

*Su İdmanı Sarayının binasında Avropa Olimpiya Komitəsinin və Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə uyğun olaraq funksional və köməkçi sahələr yaradılıb. Binada üzgüçülər üçün xüsusi məşq platformaları və avadanlığı quraşdırılan fitnes-akrobatika, ağır atletika zalları mövcuddur. Su İdmanı Sarayının ikinci zalında məşqlər üçün üzgüçülük hovuzu inşa olunub. Hovuzun uzunluğu 51, eni 20 metrdir.*

*Bakı Su İdmanı Sarayında yaradılan şərait təsdiqləyir ki, dünyada idman ölkəsi kimi tanınan, olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası ölkəmizin gücünü göstərir. İlk Avropa oyunlarına hazırlığın mühüm mərhələsi olan Bakı Su İdmanı Sarayının inşası bir daha bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə baş tutacağına əminlik yaradır.*

*Qeyd edək ki, 2015-ci ildə Odlar Yurdu Azərbaycandan start götürəcək Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının 41-ci sessiyasında qəbul olunub. Ölkəmizin namizədliyi 38 dövlət tərəfindən dəstəklənib. Bu oyunların Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, Azərbaycanın beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən qaynaqlanır. I Avropa oyunlarına az vaxt qalmasına baxmayaraq, ölkəmizdə bu mötəbər tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir.*

*Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi təbii ki, həm də son illərdə ölkəmizin idman sahəsində qazandığı uğurların nəticəsidir. Təsadüfi deyil ki, 22 illik müstəqilliyi dövründə Azərbaycan atletləri olimpiadalarda 26, Avropa və dünya çempionatlarında isə 2 minədək medal qazanıblar.*

*Bu il iyunun 12-dən 28-dək keçiriləcək ilk Avropa oyunlarında isə 49 ölkədən 6 mindən artıq atlet idmanın 20 növü üzrə mübarizə aparacaq.*

## BAKI İDMAN SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*20 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva aprelin 20-də Bakı İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, təmir zamanı binanın damı və fasadı, işıqlandırma sistemi yenilənib, ətrafda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.*

*Müasir tələblərə uyğun yenidən qurulan binada Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi üçün bütün şərait yaradılıb.*

*Bakı İdman Sarayı əsas idman zalı və texniki binadan ibarətdir. Burada ümumilikdə, 32 min kvadratmetr sahədə əsaslı təmir işləri aparılıb. Üçmərtəbəli binada təmir işləri ən yüksək səviyyədə, beynəlxalq tələblər nəzərə alınaraq görülüb. I Avropa oyunları zamanı bu qurğuda idmanın badminton və stolüstü tennis növləri üzrə yarışların keçirilməsi nəzərdə tutulur. Təmirdən əvvəl tamaşaçı oturacaqlarının sayı 1100 idisə, indi bu rəqəm 1736-ya çatdırılıb. Oturacaqların sayının artırılması üçün zalda əlavə olaraq ikitərəfli tamaşaçı tribunası inşa edilib. Binada, həmçinin hakimlər, mətbuat nümayəndələri və VIP qonaqlar üçün də xüsusi otaqlar yaradılıb. Badminton və stolüstü tennis yarışlarının keçirildiyi yerlərlə bağlı beynəlxalq federasiyaların tələbləri*

nəzərə alınaraq, burada xüsusi ağıllı idarəetmə sistemi, hava axınını horizontal istiqamətdə bərabər şəkildə paylayan havalandırma sistemi qurulub. İdman sarayında dopinq yoxlama otağı, tamaşaçılar, idmançılar və mətbuat nümayəndələri üçün kafelər və digər zəruri bölmələr yaradılıb. Bundan başqa, burada «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin əməkdaşlarının iş və istirahət otaqları, iclas və toplantı zalları da var. İdman qurğusundakı püşkatma zalı, İdarə Heyətinin iş, müsahibə, VIP qonaqların gözləmə və yarışları izləmə, beynəlxalq federasiya nümayəndələrinin işçi, səs sistemlərinin idarə edilməsi və yarışların əlaqələndirilməsi otaqları da ən müasir səviyyədədir. Binanın daxilində 6 lift şaxtası inşa edilib və müasir liftlər quraşdırılıb. Bununla da fiziki imkanları məhdud olan tamaşaçıların və gələcəkdə paralimpiyaçı idmançıların binanın bütün sahələrindən tam istifadə edə bilmələrinə hərtərəfli imkan yaradılıb. Bina transformator yarımstansiyası, generator və qazanxana ilə də təchiz edilib. Sarayın qaz, su, kanalizasiya, elektrik, rabitə və fiber-optik internet xətləri yenilənib.

Beləliklə, Bakı İdman Sarayının kompleks şəkildə yenidən qurulması ilk Avropa oyunları zamanı idmanın badminton və stolüstü tennis növləri üzrə də yarışların yüksək səviyyədə keçirilməsinə imkan verəcək. Mövcud idman komplekslərinin ən yüksək səviyyədə yenidən qurulması və müasir idman qurğularının istifadəyə verilməsi bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanılan bütün layihələr uğurla, həm də vaxtında icra olunur. Bu cür layihələrin reallaşdırılması eyni zamanda, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində mühüm rol oynayır. «Bakı–2015»-ə hazırlıqla əlaqədar həyata keçirilən layihələr Avropa Olimpiya Komitəsinin I Avropa oyunlarının məhz Bakıda keçirilməsi ilə bağlı qərarının düzgün olduğunu bir daha göstərir.

## İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİ HÜSEYN DEHQANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Hüseyn Dehqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə həm Azərbaycanda, həm İranda, həm də beynəlxalq təşkilatlar çərçivəsində görüşlərinin önəmini bildirən prezident İlham Əliyev birgə səylər nəticəsində əlaqələrimizin müxtəlif sahələrdə yüksək səviyyəyə qalxdığını qeyd etdi. Dövlətimizin başçısı müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu vurğulayaraq hərbi sahədə də əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev İranın Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri Hüseyn Dehqanın ölkəmizə səfərinin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Nazir Hüseyn Dehqan İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. İranın Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri İran–Azərbaycan münasibətlərinin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı. O, ulu öndər Heydər Əliyevin müasir İran–Azərbaycan əlaqələrinin memarı olduğunu qeyd edərək, bu gün prezident İlham Əliyevin göstərdiyi siyasi iradə və*

*qətiyyətin münasibətlərimizin gələcək inkişafı üçün möhkəm zəmin yaratdığını bildirdi.*

*Görüşdə hərbi-texniki əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASININ «ROSTEX» DÖVLƏT KORPORASİYASININ BAŞ DİREKTORU SERGEY ÇEMEZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Rusiyanın «Rostex» Dövlət Korporasiyasının baş direktoru Sergey Çemezovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Baş direktor Sergey Çemezov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sergey Çemezov rəhbərlik etdiyi «Rostex» Dövlət Korporasiyasında aparılan struktur islahatları və həyata keçirilən işlər barədə məlumat verdi.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında əlaqələrin çox yüksək səviyyədə olduğu bildirildi, müdafiə sənayesi, maşınqayırma, yüksək texnologiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

# İ.M.SEÇENOV ADINA BİRİNCİ MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN REKTORU PYOTR QLIBOÇKO İLƏ GÖRÜŞ

*21 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçkonu qəbul etmişdir.*

*Pyotr Qlıboçko Bakıda gedən çox böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı. O, ölkəmizin müvafiq strukturları ilə əməkdaşlığa toxunaraq rəhbərlik etdiyi təhsil ocağında xeyli sayda azərbaycanlı tələbənin uğurla təhsil aldığını qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda təhsilə dövlət səviyyəsində böyük qayğının göstərildiyini qeyd edərək, bu sahənin ölkəmizin inkişafının əsas prioritetlərindən biri olduğunu vurğuladı, gənc nəslin hərtərəfli inkişafı istiqamətində, o cümlədən peşəkar tibb kadrlarının yetişdirilməsi sahəsində ölkəmizdə genişmiqyaslı işlərin həyata keçirildiyini bildirdi.*

*Görüşdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## HEYDƏR ƏLİYEV ADINA İDMAN SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*22 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 22-də Heydər Əliyev adına İdman Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov burada aparılan əsaslı təmir işləri barədə məlumat verdi.*

*İnşasına 1977-ci ildə başlanılan bu idman qurğusu 1990-cı ildə istifadəyə verilib. Əvvəllər binada belə yüksək səviyyədə əsaslı təmir işləri aparılmamışdır. Təmir işləri zamanı binanın fasadı tamamilə yenilənib. Tacşəkilli fasad xüsusi örtüklə üzlənmiş konstruksiyadan ibarətdir. Fasadı bədii tərtibatda işıqlandırmaq üçün müxtəlif rəngdə xüsusi lampalar və projektorlar quraşdırılıb, avtomat idarəetmə mərkəzi yaradılıb.*

*Dövlətimizin başçısı və xanımı bu idman qurğusunda aparılan əsaslı təmir işlərinin gedişi ilə dəfələrlə tanış olub, müvafiq tapşırıq və tövsiyələrini veriblər.*

*Əsaslı təmir işləri aparılarkən kompleksin mötəbər yarışların təşkilinə, o cümlədən I Avropa oyunları zamanı beynəlxalq idman federasiyalarının tələblərinə cavab verməsi və funksionallığının daha da artırılması üçün bir sıra tədbirlər görülüb. Bu sarayın əsaslı təmiri Avropa Olimpiya Komitəsi, «Bakı–2015» I Avropa oyunları Əməliyyat Komitəsi və aidiyyəti beynəlxalq federasiyaların tələbləri nəzərə alınmaqla, yüksək keyfiyyətlə yerinə yetirilib.*

İdman Sarayının məşq zalı ən müasir səviyyədə qurulub. Burada püşkatma, dopinq yoxlama, tibb, hakimlər üçün istirahət, beynəlxalq federasiyaların işçi otaqları və kafe, yarış mərkəzi, 40 nəfərlik iclas zalı, 250 yerlik yeməkxana, mətbəx və digər köməkçi otaqlar var. Kompleksdə 200 yerlik mətbuat mərkəzi, jurnalistlər üçün kafe, 40 nəfərlik konfrans otağı, könüllülər üçün 350 nəfərlik zal və kafe də yaradılıb.

Əsas zal və korpuslardan ibarət olan İdman Sarayında I Avropa oyunları zamanı Yunan-Roma və sərbəst güləş, həmçinin cüdo və sambo üzrə yarışlarda qadınlar və kişilər qüvvələrini sınayacaqlar. Sarayın ümumi tamaşaçı tutumu təmirdən əvvəl 7587 nəfər idisə, indi bu rəqəm 7830-a çatdırılıb. Burada eyni zamanda, VIP tamaşaçılar üçün 126, fiziki imkanları məhdud tamaşaçılar üçün isə 30 oturacaq quraşdırılıb. İdman obyektinin yarış zalları, mətbuat işçiləri üçün sahələr, yüksək səviyyəli qonaqlar üçün VIP otaqlar, yarışların gedişinin canlı teleyayımının təşkili mərkəzi ən müasir səviyyədə yaradılıb.

Əsaslı təmir işlərinin layihəsinin hazırlanması və icrasına xarici şirkətlərlə yanaşı, yerli şirkətlər və mütəxəssislər də cəlb olunub. Ümumi sahəsi 54,8 min kvadratmetr olan binada aparılan əsaslı təmir işləri zamanı daxili kommunikasiya, havalandırma sistemləri yenidən qurulub, zalların döşəməsinə idman təyinatlı xüsusi örtük vurulub.

İdman qurğusunda təhlükəsizliyin təmin olunması məqsədilə müşahidə kameraları və zalların işıqlandırılması üçün 222 müasir projektor quraşdırılıb. Bina genişzolaqlı internet, müasir akustika sistemləri, avadanlığın davamlı işləməsini təmin edən transformator, UPS və generator elektrik sistemləri ilə təchiz edilib.

Belə müasir idman komplekslərinin istifadəyə verilməsi bir daha sübut edir ki, «Bakı–2015» ilk Avropa oyunlarına hazırlıqla bağlı ölkəmizdə qarşıya qoyulan bütün hədəflərə qısa zamanda, həm də keyfiyyətlə nail olunub. Azərbaycanda idman qurğularının ən yüksək səviyyədə yenidən qurulması və müasir

*idman obyektlərinin inşası beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir.*

*Bu gün Azərbaycanda idmana olan dövlət qayğısı, bunun nəticəsində idmançılarımızın olimpiadalarda, müxtəlif səviyyəli beynəlxalq yarışlarda qazandıqları böyük nailiyyətlər, paytaxtla yanaşı, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılması gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində mühüm rol oynayır. Bütün bu reallıqlar və ilk Avropa oyunları ilə bağlı ölkəmizdə görülən işlər Avropa Olimpiya Komitəsinin I Avropa oyunlarının məhz Bakıda keçirilməsi ilə bağlı qərarının düzgün olduğunu bir daha nümayiş etdirir. Belə mühüm beynəlxalq idman tədbirini yüksək səviyyədə keçirməklə, Azərbaycan həm də növbəti Avropa oyunlarının standartını müəyyən edəcək.*

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, birgə səylərimizlə Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daha da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 aprel 2015-ci il*

**NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Niderland Krallığının milli bayramı – Kral Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi- qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 aprel 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*24 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Türkiyənin rəsmi şəxsləri qarşıladılar.*

## ÇANAQQALA ZƏFƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Çanaqqala*

*24 aprel 2015-ci il*

*Türkiyədə Çanaqqala zəfərinin 100 illiyi münasibətilə aprelin 24-də təntənəli mərasim təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Təntənəli mərasimə 21 dövlətin başçısı, 70-dən çox ölkədən rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri qatılıblar.*

*Mərasim Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın «Məhmətçik» abidəsinin önünə xatirə əklili qoyması ilə başlandı. Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz isə abidənin önünə ittifaq dövlətləri adından çələng qoydu.*

*Çanaqqala savaşlarında həlak olanların xatirəsi 1 dəqiqəlik sükutla yad olunduqdan sonra yaylım atəşləri açıldı, Türkiyə Respublikasının Dövlət himninin sədaları altında Türk bayrağı səmada dalğalandı.*

*Çanaqqala savaşlarında həlak olanların ruhuna Qurani-Kərimdən ayə oxundu.*

*Sonra Türkiyə Diyanət İşləri başqanı Məhmət Görməz Çanaqqalada şəhid olanların ruhuna dua oxudu, bəşəriyyətə sülh və qardaşlıq arzularını çatdırdı.*

*Xristian din xadimi də savaşda həlak olanların ruhuna dua etdi.*

*İttifaq dövlətləri adından çıxış edən Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz Çanaqqala savaşında bir çox millətlərin nümayəndələrinin iştirak etdiyini vurğuladı. 1915-ci*

*ildə baş verən bu döyüşdə minlərlə insanın öz ailə və doğmalarını geridə qoyaraq buradakı dəhşətlərə sinə gərdiyini, saysız qəhrəmanlıq nümunələri göstərdiklərini deyən Uels şahzadəsi Çarlz bu savaşın tarixə alicənab savaş kimi düşdüyünü diqqətə çatdırdı. Çanaqqala döyüşünün dünya miqyasında ciddi dəyişikliklərə səbəb olduğunu deyən şahzadə Çarlz nifrəti və dözümsüzlüyü aradan qaldırmaq üçün bundan sonra da bütün insanların üzərinə ciddi vəzifələrin və məsuliyyətin düşdüyünü bildirdi.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bildirdi ki, mərasimin keçirildiyi Gelibolu yarımadası Birinci dünya müharibəsinin ən vacib cəbhələrindən biri olub. «Çanaqqalada yaşanan savaş türklərin və bu müharibədə iştirak edən millətlərin taleyini müəyyən etdi» – deyən Ərdoğan bildirdi: «Bizim üçün Çanaqqala zəfər rəmzidir, eyni zamanda, itkilərimiz baxımından bir hüzn ifadəsidir». Türkiyə Prezidenti bu torpaqlarda yüzlərlə gəncin gələcəyinin dəfn olunduğunu diqqətə çatdırdı. İndi dünyanın əmin-amanlığa böyük ehtiyacının olduğunu deyən prezident Rəcəb Tayyib Ərdoğan şəhidlərin əziz xatirəsi naminə yer üzündə sülhün bərqərar olması üçün bütün dövlətlərin əllərindən gələni etmələrinin vacibliyini vurğuladı.*

*Çıxışında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün «Uzaq diyarlardan övladlarını hərbə göndərən analar, göz yaşlarınızı dayandırın. Övladlarınız bizim bağrımızda hüzur içindədir. Onlar bu torpaqlarda canlarını verdikdən sonra artıq bizim övladlarımız olublar» sözlərini sitat gətirən Rəcəb Tayyib Ərdoğan bu torpaqlar uğrunda canını qurban verən bütün gənclərin xatirəsini bir daha ehtiramla yad etdi. Bildirdi ki, gələcək nəsillər Çanaqqalada əldə olunan müqəddəs amalları qorumalıdır. Çanaqqala dostluğun, sevginin və sülhün örnəyinə çevrilməlidir.*

*Sonra dünyanın müxtəlif ölkələrindən olan, fərqli dillərdə danışan uşaqlardan təşkil edilən xorun ifasında türk, fransız və ingilis dillərində «Sülhün səsli nəğməsi» oxundu.*

*Türkiyə Silahlı Qüvvələrinin «Mehteran» orkestri də öz çıxışını nümayiş etdirdi.*

*Daha sonra Türkiyə Silahlı Qüvvələrinin bölükləri də daxil olmaqla, ittifaq dövlətlərinin hərbi birliklərinin Fəxri keçidi oldu.*

*Dövlət başçıları Çanaqqala döyüşlərində həlak olan əsgərlərin məzarlarını ziyarət etdikdən sonra «Məhmətçik» abidəsinin önündə «Şəhidlik dəftəri»ni imzaladılar.*

*Mərasimin ən maraqlı anlarından biri dənizdə Türkiyə, İngiltərə, Fransa, Avstraliya və Yeni Zelandiya hərbi gəmilərinin keçidi oldu. Bunun ardınca «Türk ulduzları» səmada nümunəvi manevrlər etdilər.*

*Xatırladaq ki, Çanaqqala döyüşü Birinci dünya müharibəsi dövründə Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verib. İttifaq üzvləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazları idarə etmək hüququnu özlərində saxlamaq istəyirdilər. Lakin onlar türk xalqının dəmir iradəsini sarsıda bilmədilər. 8 ay davam edən və böyük itkilərin qeydə alındığı döyüşlərdə məğlub olan ittifaq dövlətləri geri çəkilmək məcburiyyətində qaldılar. Bu döyüş məhv olmaq vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşdi və Çanaqqala zəfəri adı ilə tarixə düşdü. Türklər bu qanlı mübarizədə 250 mindən çox şəhid verdilər. Bir o qədər hərbçi itirən müttəfiq qüvvələr üçün isə bu döyüş hərbi fəlakət rəmzi kimi qiymətləndirilir.*

*Çanaqqala zəfərinin əldə olunmasında azərbaycanlılar da yaxından iştirak ediblər və 3 mindən çox soydaşımız şəhidlik zirvəsinə ucalıb.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri aprelin 24-də başa çatmışdır.*

**NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı, yaralananlar və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu dəhşətli faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Nepal xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 aprel 2015-ci il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLANDIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*25 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ölkəmizdə işgüzar səfərdə olan Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev Fransa prezidenti Fransua Ollandı qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu. Əlaqələrimizin dinamik inkişaf etdiyi bildirildi. Son illərdə dövlət başçılarının qarşılıqlı səfərlərinin ikitərəfli münasibətlərin daha da inkişafına təkan verdiyi vurğulandı. Tərəflərin əlaqələrin daha da genişlənməsində maraqlı olduğu bildirildi və bunun üçün böyük imkanların mövcudluğu qeyd edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların son vəziyyəti ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Azərbaycan prezidenti İlham Əliyev Fransa prezidenti Fransua Ollandın münaqişənin həlli istiqamətində göstərdiyi fəallıqdan məmnunluğunu ifadə etdi.*

*Görüşdə regional, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.*

## AZƏRBAYCAN–FRANSIZ UNİVERSİTETİNƏ DAİR NİYYƏT MƏKTUBUNUN İMZALANMASI MƏRASİMİ

*25 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın iştirakı ilə aprelin 25-də Azərbaycan Respublikasının Təhsil naziri ilə Fransa Respublikasının Milli Təhsil, Ali Təhsil və Tədqiqat naziri arasında «Azərbaycan–Fransız Universitetinə dair Niyyət Məktubu» imzalanmışdır.*

*Sənədi Azərbaycanın Təhsil naziri Mikayıl Cabbarov və Fransanın ölkəmizdəki səfiri Paskal Mönye imzaladılar.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ BİRGƏ NAHARDA İŞTİRAK

*25 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Respublikasının Prezidenti Fransua Olland aprelin 25-də «Azərbaycan–Fransız Universitetinə dair Niyyət Məktubu» imzalandıqdan sonra birgə nahar etmişlər.*

## «BAKI–2015» I AVROPA OYUNLARI MƏŞƏLİNİN ALOVLANDIRILMASI MƏRASİMİ

*26 aprel 2015-ci il*

*Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş vermişdir. Aprelin 26-da Bakıda I Avropa oyunlarının məşəli alovlandırılmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak etmişlər.*

*Ölkəmizin müstəqillik tarixində ev sahibliyi edəcəyi mötəbər tədbir – I Avropa oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzindədir.*

*Aprelin 26-sı isə ilk Avropa oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşür. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başlayır. I Avropa oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, oyunların açılışı mərasimində Bakı Olimpiya stadionuna gətiriləcək.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikki!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

2012-ci ilin sonunda Avropa Olimpiya Komitəsi I Avropa oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul etmişdir. Bu, tarixi bir qərar idi. Çünki başqa qitə oyunlarından fərqli olaraq, Avropada oyunlar heç vaxt keçirilməmişdir. Bu, Azərbaycana Avropa Olimpiya ailəsi tərəfindən göstərilmiş böyük etimad idi. Bu qərara görə Avropa Olimpiya Komitəsinə

və onun prezidenti cənab Patrik Hikkiyə Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərar bizi – Azərbaycan xalqını çox sevindirdi. Bu bizim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Vaxtımız məhdud idi. Ona görə biz dərhal işə başladıq, Təşkilat Komitəsi yaradıldı. Bu müddət ərzində Təşkilat Komitəsi çox fəal və böyük uğurla işlədi. Bu gün artıq Azərbaycan və Bakı şəhəri bu oyunların keçirilməsi üçün tam hazırdır. Təşkilat Komitəsinə bu yüksək fəaliyyətə görə minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, beynəlxalq və yerli mütəxəssislərdən ibarət Beynəlxalq Əməliyyat Komitəsinə də minnətdarlığımı bildirirəm. Onların da fəaliyyəti təqdirəlayiqdir. Əlbəttə, biz daim Avropa Olimpiya Komitəsinin dəstəyini hiss edirdik, bu gün də bunu hiss edirik. Beləliklə, oyunların hazırlanması üçün bütün məsələlər öz həllini tapıb.

Şəxsən mən hesab edirəm ki, bu oyunların Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərar bir neçə amillə bağlıdır. İlk növbədə, bunu idmançılarımızın uğurlu çıxışları mümkün etdi. Son Yay Olimpiya oyunlarında Azərbaycan komandası 30-cu yerə layiq görülüb. Avropa ölkələri arasında isə biz 15-ci yerə yüksəlmişik. Azərbaycanda gözəl gənc nəsil yetişir. Gənc idmançılarımız da bizi sevindirir. Keçən il Yeniyetmələrin Olimpiya oyunlarında Azərbaycan komandası 10-cu yerə yüksələ bilib. Bu, tarixi nailiyyətdir.

Bununla bərabər, son illər ərzində Azərbaycanda müasir idman infrastrukturu yaradılıb. Azərbaycanın bölgələrində 40-dan çox Olimpiya İdman Mərkəzi tikilib. Bakı şəhərində yaradılan və əsaslı şəkildə təmir edilən bütün idman obyektlərimiz ən yüksək standartlara cavab verir. Şəxsən mən hesab edirəm ki, bundan yüksək standart mümkün deyil.

Nəqliyyat infrastrukturumuz yeniləşib, müasirləşib və bu gün bizim tələblərimizə tam cavab verir. Xidmət infrastrukturu yaradılır. Bakıda bütün aparıcı brend hotellər öz fəaliyyətlərini genişləndirir.

Beynəlxalq yarışların keçirilməsi üçün bizim kifayət qədər geniş təcrübəmiz var. Son illər ərzində Azərbaycanda çoxsaylı dünya və Avropa çempionatları keçirilib. Azərbaycanın sürətli iqtisadi inkişafı, əlbəttə ki, bu qərarın qəbulunda öz rolunu oynayıb. Hesab edirəm, önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan əhalisi bu qərarı böyük sevinclə və qürur hissi ilə qarşıladı.

Beləliklə, bu gün biz tam məsuliyyətlə deyə bilərik ki, 2 il yarım ərzində görülmüş işlər ən yüksək səviyyədədir. Əminəm ki, biz bu gözəl idman bayramını yüksək səviyyədə keçirəcəyik.

Onu da qeyd etməliyəm ki, 2 ildən sonra Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Yəni bu idman bayramı davam edir. Bu əslində Azərbaycanın dünyada oynadığı nadir rolu əyani şəkildə ifadə edir. 2015-ci ildə Avropa oyunları, 2017-ci ildə isə İslam Həmrəyliyi oyunları Bakıda keçiriləcəkdir.

Azərbaycan əsrlərboyu sivilizasiyalararası, millətlərarası, dinlərarası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyub. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir.

Mən əminəm ki, bizim idman bayramlarımıza gələn xarici qonaqlar, idmançılar, məşqçilər Bakıdan öz vətənlərinə ən xoş təəssüratla qayıdacaqlar. Azərbaycan gənc müstəqil dövlətdir. Ancaq bizim çox böyük və zəngin tarixi və mədəni irsimiz var. Azərbaycanın zəngin tarixi, mədəniyyəti, qədim tarixi memarlıq abidələri bizim qürur mənbəyimizdir.

Bu gün biz qədim Atəşgah məbədinin önündə toplaşmışıq. Bu gün I Avropa oyunlarının məşəli Atəşgah məbədində alovlandırılacaqdır. Bu məşəl ölkəmizin bütün şəhərlərinə gətiriləcək, bütün ölkəmizi dolaşacaq ki, Azərbaycan xalqı bu gözəl idman və dostluq bayramını qeyd etsin.

Mən I Avropa oyunlarında iştirak edəcək bütün idmançılara uğurlar arzulayıram.

Qoy güclü qalib gəlsin! Yaşasın Azərbaycan!

**P a t r i k  H i k k i** *(Avropa Olimpiya Komitəsinin prezidenti):* Zati-aliləri cənab Prezident!

Birinci xanım Mehriban Əliyeva!

Hörmətli qonaqlar!

Bu axşam Avropa idmanı qitəmizin idman potensialının reallaşması yolunda yekun mərhələyə daxil olacaq. İlk Avropa oyunları artıq reallığa çevrilir.

2 ildən bir qədər əvvəl biz böyük məmnunluqla elan etdik ki, Avropa oyunlarını qəbul edən ölkə «Odlar Yurdu» Azərbaycan olacaq. Ən cəlbedici elementlərdən biri – ölkənizin milli rəmzi olan alov olimpiya hərəkatının gücünün və qüdrətinin əsas təcəssümüdür. Məşəlin alovlandırılmasının və estafetin müasir ənənəsinin əsasını qoymuş, qədim idman oyunlarını yaratmış yunan sivilizasiyası odu, alovu müqəddəs sayırdı.

Bu axşam biz nadir mərasimimizdə həmin olimpiya irsinə sadiq qalaraq, Atəşgah məbədində Avropa oyunlarının məşəlini alovlandıraraq, məşəli stadiona – «Bakı–2015» Olimpiya oyunlarının açılışı mərasiminə yola salırıq. Bu, Avropa idmanı üçün həlledici məqamdır. Həmkarlarım, eləcə də təmsil etdiyim Avropa Olimpiya Komitəsi sizə göstərdiyiniz yardıma görə olduqca minnətdardır. Çünki biz planlarımızın birgə reallaşmasına doğru yekun addım atırıq. Kamillik, dostluq və hörmət kimi, olimpiya dəyərləri məşəl estafetində aydın şəkildə əks olunur. Məşəlçilər qardaşlıq ruhunda alovlanan məşəli bir-birinə ötürərək, idman vasitəsilə sülh, dostluq və təntənə mesajını hər yerə yayırlar.

«Bakı–2015» bütün ölkənizin əməyi və səyləri sayəsində baş tutacaq. Azərbaycan rəhbərliyi ilə işləmək olduqca məmnunluq doğurur. Sizin peşəkarlığınız və diqqətiniz bizi hər zaman təsirləndirir. «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva oyunlara hazırlıq işlərində şəxsən iştirak edərək, dəyərli göstəriş və tövsiyələrini verib, işə tam sadiqliyini nümayiş etdirib.

Mən Avropa Olimpiya Komitəsinin səmimi minnətdarlığını prezident İlham Əliyevə və Mehriban xanıma çatdırmaq istərdim. Təşkilat Komitəsi və «Bakı–2015» I Avropa oyunları Əməliyyat Komitəsinin peşəkar heyəti planlarımızı reallığa çevirmək üçün 27 ay ərzində yorulmadan çalışıblar. Belə qısa müddət ərzində görülmüş bu qədər işləri hətta ən çılğın arzularımızda təsəvvür edə bilməzdik. Əslində bütün Bakı heyəti hətta oyunlar başlamazdan öncə dünya rekorduna imza atdı.

Mən gözəl ölkənizi gəzib dolaşan «Bakı–2015» məşəlinin estafetini izləməyi səmimiyyətlə arzulayıram. Çünki bu məşəl çox mühüm ilk Avropa oyunlarının açılışı mərasiminə aparan yolu işıqlandıracaq. Sağ olun.

* * *

*Daha sonra prezident İlham Əliyev I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə məşəli alovlandırdı.*

*Dövlətimizin başçısı məşəli «Bakı–2015» Avropa oyunlarının ilk məşəlçisi, olimpiya çempionu Rəfiqə Şabanovaya verdi.*

*Beləliklə də I Avropa oyunları məşəlinin səyahəti başlandı. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub və hər regionda «Alov festivalı»nın keçirilməsi nəzərdə tutulub. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınacaq. Məşəl iyunun 8-də paytaxtdakı idman arenalarında, iyunun 9-da isə İçərişəhərdə gəzdiriləcək. İyunun 10-u məşəl proqramının son günü olacaq və Bakıya gətirilənədək təxminən 5500 kilometr məsafə qət edəcək. 660 millimetr hündürlüyü olan məşəlin gövdəsi «Bakı–2015» brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.*

*I Avropa oyunları məşəlinin alovlandırılması münasibətilə ziyafət təşkil olundu və xatirə şəkilləri çəkdirildi.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Yenidən Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə Sizin qələbəniz qardaş Qazaxıstan xalqının Sizə yüksək etimadının, dövlətçiliyin möhkəmlənməsinə, sabitliyin qorunmasına, demokratik dəyərlərin bərqərar edilməsinə və ölkə əhalisinin rifahının yüksəldilməsinə yönələn davamlı və uzaqgörən siyasətinizi dəstəkləməsinin təsdiqidir.

Xalqlarımız arasında dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək ənənələrinin inkişafına və genişləndirilməsinə Sizin töhfənizi xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, bizim birgə səylərimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlığın bundan sonra da möhkəmlənməsinə, ölkələrimizin çiçəklənməsi, regionun tərəqqisi naminə bütün sahələrdə hərtərəfli qarşılıqlı fəaliyyətin təmin edilməsinə yönəldiləcək.

Hörmətli Nursultan Abişeviç, Sizə möhkəm cansağlığı, səadət, fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına sülh və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *27 aprel 2015-ci il*

## MALTA RESPUBLİKASININ BAŞ NAZİRİ COZEF MUSKAT İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Malta Respublikasının Baş naziri Cozef Muskatı qəbul etmişdir.*

*Azərbaycan ilə Malta arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Baş nazir Cozef Muskatın ölkəmizə son səfərindən sonra əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu, turizm və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı potensialın yarandığını dedi.*

*Malta Respublikasının Baş naziri Cozef Muskat ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Ölkəmizdə sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğulayan Baş nazir Azərbaycanda gedən bu müsbət proseslərə Avropa tərəfindən obyektiv qiymət verilməsinə tərəfdar olduğunu bildirdi.*

*Görüşdə Bakıda keçirilən III Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, regionda baş verən proseslər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA RESPUBLİKASININ YƏHUDİ İNSTİTUTLARININ TƏMSİLÇİLİK ŞURASININ PREZİDENTİ ROCER ÇUKERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransanın Yəhudi İnstitutlarının Təmsilçilik Şurasının prezidenti Rocer Çukermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rocer Çukermanın ölkəmizə səfərinin məhsuldar və keçirilən görüşlərin uğurlu olacağına ümid etdiyini bildirdi. Prezident İlham Əliyev səfərin Azərbaycan–Fransa əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Ölkəmizə İrəvandan gəldiklərini vurğulayan Fransanın Yəhudi İnstitutlarının Təmsilçilik Şurasının prezidenti Rocer Çukerman ilk gündən Bakıda böyük inkişafın və müasirliyin şahidi olduqlarını dedi. O, ölkəmizdə ilk dəfə keçiriləcək I Avropa oyunları ilə əlaqədar görülən yüksək hazırlıq işləri ilə bağlı Azərbaycan tərəfinə təbriklərini çatdırdı. Ölkəmizdə gedən böyük inkişaf proseslərinə toxunan Rocer Çukerman Azərbaycanın əldə etdiyi bu uğurlara Avropa tərəfindən obyektiv qiymət verilməsinin vacibliyini də vurğuladı.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA VƏ İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqanı və İsgəndəriyyə kitabxanasının direktoru İsmailSerageldini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın böyük şairi Nizami Gəncəvinin adını daşıyan mərkəzin artıq vacib beynəlxalq instituta çevrildiyi və bu qurumun müxtəlif sahələri əhatə edən tədbirlərinə marağın ildən-ilə artdığı qeyd olundu, bu istiqamətdə işlərin davam etdirilməsinin və fəaliyyətin daha da genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Söhbət zamanı mərkəzin xalqlar və ölkələr arasında dostluğun və qarşılıqlı anlaşmanın daha da möhkəmləndirilməsi işinə verdiyi töhfə xüsusi qeyd edildi.*

## III QLOBAL BAKI FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*28 aprel 2015-ci il*

*Azərbaycanın paytaxtında III Qlobal Bakı Forumu aprelin 28-də işə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Misirin İsgəndəriyyə kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin forumu açdı.*

**İsmail Serageldin:** Zati-aliləri!

Xanımlar və cənablar, sabahınız xeyir olsun!

Mən böyük şərəf hissi ilə prezident İlham Əliyevin dəvətini qəbul edib buraya gəlmişəm.

Bugünkü görüşümüzün məqsədi yeni formalaşan dünya durumunda etimadın qurulmasına aiddir. Təbii ki, İkinci dünya müharibəsindən sonra yaranmış vəziyyət və həmin vəziyyətdən sonrakı durum necə olmalıdır?! Bizim qarşımızda problemlər var, çağırışlar mövcuddur, dövlətlər, xalqlar arasında etimad məsələləri gündəliyimizdə vacib yer tutur. Buna görə də biz bu gün gündəlikdə duran həmin məsələləri fəal müzakirə etməliyik. Biz indi özümüz üçün müzakirələr aparmalıyıq ki, hansı yeni durum olmalıdır? Henri Kissincer əslində bu sahədə görüləcək tədbirlərin çərçivəsinin hüdudsuz olduğunu qeyd edib. Biz müəyyənləşdirməliyik ki, bir siyasi sistemin digər siyasi sistemə mənfi təsirinin qarşısının alınması hansı tədbirlərə əsaslanmalıdır. Bu məsələ bu gün bizi narahat edir. Buna görə də aydınlaşdırmalıyıq ki, bu gün dünyada məhz hansı yeni sərhədlər, üfüqlər açılır.

Bu gün Bakıya yüksək səviyyəli nümayəndələr, təmsilçilər təşrif gətiriblər. Bu bizim üçün böyük şərəfdir. Biz Bakı Forumumuzu artıq illik əsaslarla keçiririk. Mən indi böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə söz vermək istəyirəm.

*Dövlətimizin başçısı forumun rəsmi açılışında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram, hər birinizə «Xoş gəldiniz!» – deyirəm. Çox şadam ki, bu gün biz Bakıda 60-dan çox dövlətin nümayəndələrinin iştirakı ilə belə bir vacib, mühüm tədbir təşkil etmişik. Hazırkı və keçmiş prezidentlər, baş nazirlər, siyasətçilər, dövlət və ictimai xadimlər bu gün Bakıda dünya siyasəti ilə bağlı məsələləri nəzərdən keçirəcəklər. Onların baxışları, dəyərli bilikləri və təcrübələrinə əsaslanır. Düşünürəm, bu, nadir fürsətdir ki, belə yüksək səviyyəli qonaqların sayəsində bizi gələcəkdə hansı işlərin, hansı çağırışların gözlədiyini və bu gün dünyada mövcud olan gərginliyin azaldılması üçün hansı tədbirlərin görülməsini müzakirə edək.

Olduqca məmnunam və fəxr edirəm ki, qısa bir zaman kəsiyində çox mühüm beynəlxalq təsisata çevrilmiş bu mərkəz dahi azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır. Nizami ilə fəxr etməyən azərbaycanlı tapmaq çox çətindir və mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri – xanım prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə dünya səviyyəli beynəlxalq təsisatın yaradılması ilə bağlı diqqətəlayiq fəaliyyətləri və töhfələrinə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi gələcəkdə dünya siyasətinin mühüm məsələlərinə müraciət edəcək və irəli getmək yollarının müəyyənləşdirilməsində, gərginliyin azaldılmasında, əməkdaşlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasında daha da vacib rol oynayacaq.

Şadam ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vaxtaşırı tədbirlərini Azərbaycanın qədim şəhəri və Nizaminin vətəni olan Gəncədə təşkil edir. Mərkəz əsasən humanitar məsələlərlə məşğul olan təsisatdan bu gün dünya siyasətinə aid bütün məsələləri – iqtisadi inkişafla, sosial problemlərlə, münaqişələrin həlli ilə bağlı məsələləri müzakirə edən bir təşkilata çevrilib. Əlbəttə, humanitar aspekt də burada vacib rol oynayır.

Əsrlərboyu Azərbaycan sivilizasiyaların bir araya gəldiyi məkan olub. Bizim coğrafi yerləşməmiz və xalqımızın tarixi irsi Azərbaycanda xüsusi ab-hava yaradıb. Azərbaycan Avropa və Asiya arasında təbii coğrafi körpüdür. Əminəm ki, Azərbaycan hazırda Avropa ilə müsəlman dünyası arasında mədəni və siyasi körpü rolunu oynayır. Bizim cəmiyyətdə multikulturalizm ənənələri dərin köklərə malikdir. Siyasi quruluşdan asılı olmayaraq, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və etnik azlıqların nümayəndələri hər zaman sülh və ləyaqət şəraitində yaşayıblar. Müstəqil olandan sonra Azərbaycan bu səbəbdən dünya multilkulturalizm mərkəzlərindən birinə çevrilib. Gələn ay biz III Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edəcəyik.

Biz hər il Beynəlxalq Humanitar Forum təşkil edirik. Bu tədbirdə əsasən sülh şəraitində birgəyaşayış, etimadın artırılması və dünyada müxtəlif dövlətlər arasında mövcud olan gərginliyin azaldılması məsələləri müzakirə edilir. Ancaq böyük tarix və mədəniyyətimizə baxmayaraq, Azərbaycan 20 ildən bir qədər çoxdur ki, müstəqildir və bu illər diqqətəlayiq transformasiya illəri olub.

Bugünkü nailiyyətlərimiz aydın nümayiş etdirir ki, yalnız müstəqil olduğumuz illərdə bizim insanlar böyük uğur əldə edə bilər, öz gələcəyini müəyyən edə bilər, planlar qura bilər və dünyadakı mövqelərini müəyyən etməklə, böyük iqtisadi transformasiya və uğura nail ola bilər.

Bəli, Azərbaycan hər zaman enerji resursları ilə zəngin ölkə olub. Xatırlayırıq ki, Azərbaycan müstəqil olmayan dövrdə biz bu

resursların bəhrəsini görə bilmirdik. XX əsrin əvvəlində Azərbaycan bütün dünyada hasil olunan neftin yarısından çoxunu istehsal edirdi. Siz o vaxtkı mənzərəyə baxsanız çiçəklənmə, bərabərlik və sosial firavanlıq görə bilməzsiniz. Sovet dövründə, xüsusilə də İkinci dünya müharibəsi zamanı Azərbaycan nefti faşizmlə mübarizədə çox mühüm rol oynamışdır. Neftin 70 faizini Azərbaycan təmin edirdi. Lakin müstəqilliyin ilk illərində biz ekoloji fəlakət, neft sənayesinin dağılması, iqtisadi və sənaye tənəzzülü ilə üzləşdik. Yəni çox qısa bir zamanda – yalnız taleyimiz öz əlimizdə olanda biz uğura nail ola bildik. Bu çox çətin dövr idi, çünki biz yalnız dövlət və dövlətçiliyin əsaslarını yaratmaqla kifayətlənməli deyildik. Biz bütün sistemi transformasiya etməli idik – həm siyasi, həm də iqtisadi. Biz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitarizmdən demokratiyaya keçməli idik.

Düşünürəm ki, siyasi və iqtisadi islahatların paralel aparılması, sürətli transformasiya, sabitlik proqnozlaşdırıla bilən iqtisadi və sosial inkişafı təmin edib. Bu gün Azərbaycan bütün azadlıqlardan faydalanır, bizim cəmiyyət azaddır, bizdə bütün azadlıqlar təmin edilir – media azadlığı, azad, senzurasız internet, ifadə və toplaşma azadlığı, din azadlığı var. Siyasi transformasiya davam edir. Biz bundan sonra da hüquq sistemimizin təkmilləşdirilməsi üzərində çalışmalıyıq. Çünki ədalət – cəmiyyətdə ədalət, ailədə ədalət və ümumiyyətlə, hər yerdə ədalət istənilən cəmiyyətin normal inkişafı və sabitliyi üçün ən əsas elementlərdəndir. Həmçinin Azərbaycan özünün dünya xəritəsindəki yerini müəyyən edə bilib. Bizim ölkəmiz həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Biz dünyada çox az sayda dövlətlərdənik ki, hər iki təsisatın üzvüyük.

Azərbaycanın bu təşkilatlarda güclü mövqeyi var və biz fərqli tarixə, ənənəyə və mədəniyyətə sahib olan ölkələri daha da yaxınlaşdırmaqda mühüm rol oynayırıq. Azərbaycan həm də «Qoşulmama Hərəkatı»nın üzvüdür. Bu da bizim prioritetlərimizin göstəricisidir. Biz bir neçə il əvvəl 155 ölkənin dəstəyi ilə BMT

Təhlükəsizlik Şurasına üzv seçilməyimizlə fəxr edirik. Bu da aydın göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycana etibar edir və belə bir vacib səsvermə prosesində öz mövqeyini ifadə edir.

Dünyanın ən aparıcı beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçiləndə biz aydın şəkildə bildirdik ki, ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Təəssüf ki, beynəlxalq hüquq artıq heç də bütün dövlətlər tərəfindən hörmət olunan məfhum deyil. Bir daha təəssüf edirəm ki, artıq bu reallıqdır. Belə bir təsəvvür yaranır ki, beynəlxalq hüquq yalnız kifayət qədər güclü olmayan ölkələrə mütləq şamil edilir və onlar digər vasitələrlə məqsədlərinə nail ola bilmirlər. Biz bunu aydın görürük ki, ara-sıra dünyanın aparıcı dövlətləri beynəlxalq hüquq normalarını kobud şəkildə pozur və bu da müharibədən sonrakı beynəlxalq münasibətlər sisteminin bütün konstruksiyasına xələl gətirir.

Düşünürəm ki, bu bizim çox açıq və aydın şəkildə müzakirə edəcəyimiz bir məsələdir. Biz imkanlarımızdan, intellektual potensialımızdan və beynəlxalq nüfuzumuzdan istifadə etməyə çalışmalıyıq ki, bu gün mövcud olan beynəlxalq münasibətlər sistemini gücləndirə bilək. Beynəlxalq hüquqa hörmət etməliyik. Beynəlxalq təşkilatların qətnamələrinə hörmətlə yanaşmalıyıq. Çünki bəzi hallarda qətnamələr dərhal icra olunur – mən BMT Təhlükəsizlik Şurasının qətnamələrini nəzərdə tuturam – digər hallarda isə onlar illər, onilliklər boyu icra edilmir.

O zaman beynəlxalq hüquq, siyasi maraqlar və siyasi prioritetlər arasında ziddiyyət yaranır. Bu isə məyusluğa gətirib çıxarır. Belə bir vəziyyətin yaranmasına səbəb olur ki, ikili standartlar istisna deyil, bir qaydaya çevrilir. Bir ölkə olaraq biz bunun nə qədər ağrılı olduğunu yaxşı bilirik, çünki biz ikili standartlardan, beynəlxalq hüququn kobud şəkildə pozulmasından əziyyət çəkirik.

Bildiyiniz kimi, Azərbaycanın tarixi və beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalı uzun illərdir ki, davam edir. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şu-

rası Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Dağlıq Qarabağ Azərbaycanın tarixi, ayrılmaz parçasıdır və dünyanın heç bir ölkəsi «Dağlıq Qarabağ Respublikası» adlanan bu qanunsuz qurumu müstəqil olaraq tanımır.

Biz işğaldan əziyyət çəkirik. Bizim ərazimizin 20 faizi hələ də işğal altındadır və 1 milyondan artıq azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Biz etnik təmizləmədən əziyyət çəkmişik, bizə qarşı Xocalı soyqırımı törədilib və bu soyqırımı artıq dünyanın 10 ölkəsi tərəfindən tanınır və həmin proses davam edir.

Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Bu, BMT Nizamnaməsində əks olunub, bu, Helsinki Yekun Aktında da beynəlxalq hüququn fundamental prinsipi kimi təsbit edilib. Burada heç bir ziddiyyət olmamalıdır və aydın başa düşülməlidir ki, müqəddəratın müəyyən edilməsi hüququ dövlətlərin ərazi bütövlüyünü pozmamalıdır və istənilən dövlətin ərazi bütövlüyü həmin ölkənin hökuməti və xalqının razılığı olmadan dəyişdirilə bilməz. Azərbaycanın ərazi bütövlüyü digər dövlətlərin ərazi bütövlüyü qədər dəyərlidir. Təəssüflər ki, dünyanın müxtəlif yerlərində aqressiv separatçılıq parçalanma siyasətini həyata keçirməyə çalışır. Ərazi bütövlüyünün pozulması münaqişələrin yaranmasına səbəb olur və Dağlıq Qarabağ münaqişəsi bu vaxta qədər həll edilsəydi, bəlkə də digər münaqişələrin şahidi olmazdıq.

Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, sülh yolu ilə həll edilməsinə olduqca sadiqdir. Yeri gəlmişkən, digər vacib beynəlxalq təsisatlar – Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» buna bənzər qətnamələr qəbul etmişdir ki, münaqişə beynəlxalq hüquq prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Əlbəttə, bu bizim ölkəmiz üçün ən böyük problem, inkişafımız üçün ən böyük maneədir. Lakin buna baxmayaraq,

Azərbaycanın inkişafı çox uğurlu olub və son 10 il ərzində bizim iqtisadiyyatımız 3 dəfədən çox artıb. Biz iqtisadiyyatımızın şaxələndirilməsi və enerji sektorundan asılılığı azaltmağa müvəffəq olmuşuq. Bu gün enerji sektoru ümumi daxili məhsulun təqribən 30 faizini təşkil edir. Beləliklə, şaxələndirmə siyasəti böyük tərəqqiyə səbəb olub və hətta bu gün neftin qiymətinin aşağı düşdüyü bir vaxtda, ilin birinci rübündə Azərbaycan iqtisadiyyatı 5 faizdən çox artıb.

Biz şaxələndirmə siyasəti, sərmayələr və müasir infrastrukturun, əlverişli işgüzar mühitin yaradılması sayəsində özümüzü neftin qiymətinin qeyri-sabitliyindən qoruya bilmişik. Azərbaycan xarici sərmayələr üçün açıq ölkədir. Müstəqillik illəri ərzində Azərbaycana 200 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılıb. Ötən il 27 milyard, yəni 30 faiz birbaşa xarici sərmayə qoyulub. Beləliklə, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir. Çünki bizdə çox yaxşı işgüzar və sərmayə mühiti var. Davos Dünya İqtisadi Forumunun qiymətləndirilməsinə görə, rəqabətqabliyyəti baxımından Azərbaycan iqtisadiyyatı 38-ci yerdədir.

Bir daha qeyd edirəm ki, bu, enerji resursları sayəsində deyil, islahatlar və son illər ərzində görülən işlər nəticəsində mümkün olub. Biz, demək olar ki, işsizliyi tam aradan qaldıra bilmişik və hazırda bu göstərici 5 faizdən azdır. Yoxsulluq kəskin şəkildə azalaraq, 2003-cü ildə 49 faiz olduğu halda, 2013-cü ildə 5 faizə enmişdir. Hesab edirəm ki, iqtisadi və siyasi islahatlar, eyni zamanda, çox fəal sosial siyasət və insanların sosial müdafiəsi, enerji sektorunun inkişafından əldə edilən gəlirlərin toplanması, dövlət vəsaitinin xərclənməsində şəffaflıq bizim inkişafımız üçün, həmçinin vacib rol oynamışdır.

Növbəti illərdə biz daha çox saxələndirməyə diqqət yetirməliyik və bizim hökumətimizin diqqət yönəltdiyi sahələr müasir texnologiya və kənd təsərrüfatıdır. Azərbaycan artıq kosmik sənayeyə malik ölkədir, bizim 2 peykimiz var və kosmik sənayenin sürətli inkişafı bizim planlarımızın göstəricisidir. Çünki əhalimiz artır, iqtisadiyyatımız da artmaqdadır. İqtisadiyyat

əhalinin artımından daha sürətlə inkişaf etməlidir. Əks təqdirdə, müəyyən mərhələdə biz çətinliklərlə üzləşə bilərik. Bu səbəbdən islahatlar davam etməlidir. Biz heç zaman özümüzü arxayın hiss etməməliyik. Biz çox çalışmalıyıq, dövlətçiliyimizi və müstəqilliyimizi gücləndirməliyik. İqtisadi müstəqillik bizə müstəqil xarici siyasət yürütmək imkanı verir. Zəif və asılı olduqda, sən təsir altına düşürsən, fərq etməz kimdən, ancaq yenə də təsir altına düşürsən.

Güclü iqtisadiyyat qurmaqla biz özümüzü istənilən xarici təsirdən qorumuş olduq. Biz istədiyimiz kimi yaşamaq arzusundayıq. Əsrlərboyu Azərbaycan imperiyaların, digər dövlətlərin tərkibində olub. Bu gün biz azadıq və bizim insanlar müstəqillikdən həzz alır və onun üstünlüklərini görürlər. Biz öz seçimimizi müdafiə etməliyik və seçimimizi müdafiə edəcəyik. Bizim seçimimiz demokratiya, sosial firavanlıqdır. Bizim seçimimiz Azərbaycan xalqı daxilində sülhdür, multikulturalizm, dinlərarası dialoq, dünyanın bütün ölkələri ilə əməkdaşlıq, habelə regional və hamımız üçün faydalı qitə əhəmiyyətli layihələrin həyata keçirilməsidir.

Enerji təhlükəsizliyinə gəldikdə, enerji təminatının şaxələndirilməsində Azərbaycan öz vacib rolunu oynayır. 20 il ərzində biz elə bir neft strategiyası yürütmüşük ki, onun sayəsində regionda yeni enerji xəritəsi yaranıb. Biz bir neçə neft boru kəməri vasitəsilə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirə bilmişik və bu gün Xəzər dənizinin nefti – təkcə Azərbaycanın resursları deyil, Xəzərin şərq sahillərinin nefti də beynəlxalq bazarlara məhz Azərbaycan vasitəsilə nəql edilir.

Hazırda biz Avropanın ən iri infrastruktur layihəsini həyata keçiririk. Azərbaycan burada da təşəbbüs irəli sürmüş və aparıcı rol oynamağa başlamışdır. Bu layihə «Cənub Qaz Dəhlizi» adlanır və o, 4 hissədən ibarətdir. Birincisi, dünyanın ən böyük qaz yataqlarından olan «Şahdəniz» yatağının işlənilməsi, növbəti mərhələ Azərbaycan və Gürcüstanı birləşdirən boru kəmərləri sisteminin inşasını nəzərdə tutan «Cənubi Qafqaz» boru kəməri, Trans–Anadolu boru kəməridir ki, onun inşası nəzərdə tutulub. Hazırda bütün Türkiyə ərazisində –

ölkənin şərq sərhədindən qərb sərhədinədək tikinti işləri başlanılıb və Trans–Adriatik boru kəməri – TAP-dır ki, Türkiyə–Yunanıstan sərhədindən başlayaraq inşa ediləcək və Albaniya ərazisindən İtaliyaya uzanacaq.

Bundan əlavə, Bolqarıstan da bizim enerji siyasətimizin bir hissəsidir. Biz görürük ki, Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli formatı daha böyük formata çevrilib. Əminəm ki, qarşıdan gələn illərdə Balkan ölkələri bizim boru kəmərləri sistemimizə qoşulacaq, xüsusilə nəzərə alsaq ki, hazırda Avropada əlaqələndirici kəmərlər inşa edilir. Biz bunu tam dəstəkləyirik, çünki Azərbaycan nəhəng qaz ehtiyatlarına və tikilməkdə olan infrastruktura malikdir. Bizim planlarımıza görə, 2018–2020-ci illərdə mənim adını çəkdiyim bütün bu layihələr yekunlaşmalıdır. Bu, 45 milyard dollarlıq sərmayədir, texniki baxımdan olduqca mürəkkəbdir. Əlbəttə, bizim geniş əlaqələndirməyə və əməkdaşlığa ehtiyacımız var. Bu məqsədlə Azərbaycan «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasını təsis edib və cari ilin fevral ayında onun ilk iclasını keçirib.

Həmin iclas mənim sadaladığım ölkələrin, eləcə də Birləşmiş Ştatlar və Avropa Komissiyasının yüksəkrütbəli nümayəndələrinə bu məsələni müzakirə etmək imkanını yaratdı. Biz mətbuat üçün Birgə Bəyannamə də qəbul etdik ki, orada Azərbaycanın aparıcı rolu aydın şəkildə müəyyən edilib. Bu bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın bir hissəsidir, ancaq əməkdaşlığımız bununla bitmir. Bununla yanaşı, biz anlayırıq ki, Avropa İttifaqı üçün enerjinin şaxələndirilməsi, deyərdim, milli təhlükəsizlik məsələsidir və biz həmin məsələyə məhz bu şəkildə yanaşmalıyıq. Enerji təhlükəsizliyi milli təhlükəsizlikdən ayrıla bilməz. Daha bir vacib məsələ mənbələrin şaxələndirilməsidir. Marşrutların şaxələndirilməsi də vacibdir. Ancaq mənbə eynidirsə, şaxələndirilmənin heç bir mənası yoxdur. Belə olan halda, söhbət mənbələrin şaxələndirilməsindən gedir və Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycandır. Əlbəttə, mən demək istəmirəm ki, digər mənbələr əhəmiyyətli deyil və biz heç kimlə rəqabət aparmağa çalışmırıq.

Lakin digər mənbələr artıq istifadə olunur və yeganə yeni mənbə Xəzərdir, Azərbaycandır. Hesab edirəm ki, biz burada vacib rol oynayırıq və bu, davam edəcəkdir.

Bununla yanaşı, bizim Avropa İttifaqı ilə əməkdaşlıq formatımız mövcuddur və gələn ay Riqada «Şərq Tərəfdaşlığı»nın növbəti Zirvə toplantısı keçiriləcəkdir. Azərbaycan bu proqramın fəal iştirakçısıdır və demək istərdim ki, biz eyni zamanda, Avropa İttifaqının üzv dövlətləri ilə ikitərəfli əlaqələrimizi gücləndiririk. Bu günədək Azərbaycan artıq ittifaqın 7 ölkəsi ilə Strateji Tərəfdaşlığa dair saziş imzalayıb və ya Birgə Bəyannamə qəbul edib. Bu, Avropa İttifaqı üzvlərinin dörddəbiridir və düşünürəm ki, növbəti illərdə Avropa İttifaqı tərəfindən «Şərq Tərəfdaşlığı» Proqramına üzv olan dövlətlərə qarşı daha da fərqləndirilmiş yanaşma olmalıdır. Çünki bunlar fərqli ölkələrdir, fərqli hədəflərə və fərqli iqtisadi inkişafa malik dövlətlərdir. Bu səbəbdən bizim üçün ən münasib format strateji tərəfdaşlıqdır. O bizim münasibətlərimizin mahiyyətini və gələcəyini əks etdirəcəkdir.

Yekunda bizim üçün prioritet olan məsələ ilə bağlı bir neçə söz demək istərdim, bu da təhsildir. Təhsil bilikdir, təhsil gələcəkdir, bizim üçün təhsil müasirləşmə deməkdir. Bizim bəxtimiz gətirib ki, Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə bərabərdir. Hökumətimiz ildə 40 milyon avroya yaxın vəsait xərcləyir ki, bizim gənclər dünyanın aparıcı universitetlərində təhsil alsınlar. Təhsil həm də radikallaşmadan müdafiədir. Bu da bu regionda yerləşən ölkə üçün çox vacibdir. Radikallaşmadan müdafiə, əlbəttə ki, cəmiyyətdə sabitlik və ədalət, habelə onun iqtisadi inkişafı, yoxsulluğun və işsizliyin aradan qaldırılması deməkdir. Çünki radikallar yoxsulluq, işsizlik, sosial və siyasi ədalətsizlikdən istifadə edirlər. Radikallar bu vasitələrdən istifadə edərək, gənclərin beyinlərini korlayır və öz məqsədlərinə nail olmaq üçün onları öz sıralarına cəlb edirlər.

Bu səbəbdən bizim üçün təhsil radikallaşmadan müdafiə, müasirləşmə və inkişaf deməkdir. Biz Azərbaycanı məhz belə

görmək istəyirik və Azərbaycanın hansı şəkildə inkişaf etməsi ilə bağlı cəmiyyətimizdə tam konsensus var. Bizim inkişaf yolumuz azadlıq, demokratiya, iqtisadi və sosial tərəqqi, bütün tərəfdaşlarımızla yaxşı münasibətlər yoludur ki, müstəqilliyimizi gücləndirək və seçimimizi qoruya bilək.

Əziz dostlar, sizi bir daha Azərbaycanda salamlayıram və foruma uğurlar diləyirəm.

* * *

*Forumda çıxış edən Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev dünyadakı böhranların rekord həddə çatdığını dedi. Müasir dünyanın çağırışlarına toxunan dövlət başçısı qanunun aliliyinin təmin olunması, böhranların həlli, miqrasiyanın tənzimlənməsi, terrorçuluğun qarşısının alınmasının vacibliyinə diqqət çəkdi. «Sülh yalnız müharibənin olmaması deyil. Sülh qanunun aliliyidir» – deyən Rosen Plevneliev indi dondurulmuş münaqişələrin sayının artdığını bildirərək, dünyada davamlı nizam-intizama nail olunmasının zəruriliyini vurğuladı. Bolqarıstan Prezidenti onu da dedi ki, siyasi məsələlərin həlli siyasi qərarların qəbul olunmasını tələb edir.*

*Bolqarıstan dövlətinin başçısı hər bir ölkənin digər ölkəni tərəfdaş kimi qəbul etməsinin vacibliyinə toxundu, etimad körpüsünün önəmini qeyd etdi.*

**Rosen Plevneliev**: Cənab Prezident, dostlar! Çox sağ olun ki, mənim üçün belə bir imkan yaratmısınız. Mən dözümlü bir xalqın – bolqarların nümayəndəsi kimi, bu gün burada – Azərbaycanda sizin qarşınızda çıxış edirəm. Çalışıram sizə izah edim ki, bizim mirasımız nədən ibarətdir. Bu tarixi görüşümüz bizə imkan verəcək ki, daha yüksək rifaha imza atan bir dünya yarada bilək. Biz çalışacağıq qeyd etdiyim məsələləri, Nizami Gəncəvinin bizə vəsiyyət etdiklərini gələcək üçün çağırışlar kimi, mərhələlər kimi, inkişaf üçün bərqərar edək. Biz onları dəstəkləyəcəyik, inkişaf etdirəcəyik, gələcəyə ötürəcəyik, daha çox dözümlü, vətənpərvər olacağıq. Müsbət enerjidən daha çox istifadə edəcəyik və sizin qərarlarınızdan asılı olaraq biz öz planlarımızı daha güclü

bir səviyyəyə çatdıracağıq, dostluq naminə bir-birimizi daha yaxşı başa düşəcəyik. Çox sağ olun, cənab Prezident.

**G e o r g e İ v a n o v** (*Makedoniya Respublikasının Prezidenti):* Bu çox önəmli forum dünya nizamı üçün vacib məsələləri müzakirə etməyə imkan verir. Avropa doğrudan da sülh, azadlıq və növbəti nəsillər üçün sabit məkana çevrilməlidir. «Şərq Tərəfdaşlığı» Proqramı Avropa Qonşuluq Siyasətinin perspektivi kimi, Avropa İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlığı genişləndirməli idi. Beynəlxalq hüquq normalarına uyğun olaraq münaqişələrin həllinə kömək etmək və tərəflər arasında etimad yaratmaq əsas məqsədlərdən idi. Son məqsəd isə İttifaqın sabitliyi, rifahı üçün ümumi standartların bərqərar olması idi. Digər tərəfdən, Avropa, Aralıq dənizi İttifaqı, Şimali Afrika və Yaxın Şərq ölkələrində bazar islahatları və demokratik islahatlar dəstəklənməli idi. Əsas məqsəd iqtisadi inkişafa kömək etmək və işsizlik səviyyəsini azaltmaq idi.

*Makedoniya Prezidenti çıxışında Avropa İttifaqının dəyərlərinə toxundu, bu qurumun yaratdığı dəyərlərin qitəni əhatə edən ölkələrin hər birində bərabər qaydada paylanmasının vacib olduğunu bildirdi. Avropa İttifaqının genişlənmə siyasətinin xeyli ləngidiyini deyən dövlət başçısı bu qurumun hələ də dünya nizamında layiqli yer uğrunda mübarizə apardığını bildirdi. George İvanov əsas məqsədin rifah yaratmaq olduğunu söylədi. O, ölkəsi haqqında danışaraq, Makedoniyada tolerantlığın hökm sürdüyünü vurğuladı.*

*Sonra Maltanın Baş naziri Cozef Muskat çıxış edərək, Bakı Forumunun yüksək səviyyədə təşkilinə və onu bu tədbirə dəvət etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Cozef Muskat dünyanın və cəmiyyətlərin dəyişdiyi indiki vaxtda ölkəsində həyata keçirilən islahatlardan danışdı, hazırda dünyanı narahat edən miqrasiya probleminin artıq ciddi fəsadlar yaratdığını bildirdi.*

**C o z e f M u s k a t:** İnsanlar öz həyatlarını daim yaxşılaşdırmaq istəyirlər. Bunu da qəbul etmək lazımdır ki, insanlar həmişə miqrasiya edəcək, yerlərini dəyişmək niyyətində

olacaqlar. Ona görə də miqrasiya məsələlərinin həll olunması üçün həm Avropa səviyyəsində, həm də qlobal səviyyədə yeni qanunlar, yeni qaydalar yaratmalıyıq. Avropa dünyanın nizam-intizamını dəyişib. O, insanların rifahı naminə daha sürətlə dəyişməlidir.

*Cozef Muskat bu problemin həll olunmadığı təqdirdə onun Avropada böhrana səbəb ola biləcəyi ehtimalını irəli sürdü. Qeyd etdi ki, insanlar cəmiyyətin dəyişməsini daha ləng qəbul edirlər.*

*Sonra İsmail Serageldin Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin foruma müraciətini oxudu. Müraciətdə deyilir:*

«III Qlobal Bakı Forumu bir çox dövlət və hökumət başçıları, bir sıra önəmli beynəlxalq təşkilatlar ilə müzakirə və fikir mübadiləsi aparmaq üçün gözəl fürsətdir. Qlobal maraq doğuran məsələləri müzakirə etmək barədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü bu baxımdan çox qiymətlidir, vaxtına düşür və eyni zamanda, zəruridir. Hazırda dünya nizamı 2 dünya müharibəsinin acı təcrübəsinə əsaslanır. Sülh, demokratiya və insan hüquqları dəyərlərini müdafiə etmək bizim iradəmizdən asılıdır. İnsanların uzunmüddətli rifahını, sabitliyini təmin etmək istəyən hər bir şəxs dünya birliyinin qaydalarını qəbul etməli və bərqərar olunmasına çalışmalıdır. Biz bilirik ki, təhlükəsizlik və əməkdaşlıq prinsipləri Avropada yalnız dialoq, əməkdaşlıq və etibarın yaradılması nəticəsində mümkündür. Baxmayaraq ki, 1949-cu ildə, demək olar, bütün ölkələr BMT-nin insan hüquqları haqqında Bəyannaməsini qəbul edib. Bu prinsiplərin tam şəkildə bərqərar olunması və onlara hörmətlə yanaşılması üçün hələ görüləcək işlər çoxdur. Dünya nizamı yetərincə çevik olmayıb. Əlbəttə, gələcəkdə onun davamlı inkişafı önəmlidir. Biz ondan sui-istifadə etməməliyik. Bunu yalnız ümumi dialoq şəklində etmək mümkündür. Almaniya da bu səyləri həmişə dəstəkləyəcək. Forumun iştirakçılarını bir daha salamlayıram.

**Federal Kansler Angela Merkel».**

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun foruma ünvanladığı məktubu həmin ölkənin Azərbaycandakı səfiri İrfan Siddiq oxudu. Məktubda deyilir:*

«Mən Bakıda keçirilən III Foruma salamlarımı çatdırmaq istərdim. Bu görüş dünyanın aparıcı liderlərini bir araya gətirib. Bu şəxslər qlobal məsələlər üzrə bir-biri ilə rəqabət aparan şəxslərdir. Bu sahədə müxtəlif çağırışların həlli üçün müdrik yanaşma çox önəmlidir. III Forumun məqsədi etimadın yaradılmasıdır. Müasir dünyada indiki təhdidləri nəzərə alsaq, onların həlli üçün belə forumun məqsədi çox önəmlidir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin və açıq cəmiyyətlərin qlobal forumunun beynəlxalq əməkdaşlığın, ən əsas təhlükəsizlik məsələlərinin, çağırışların həll olunması sahəsində göstərdiyi səyləri yüksək qiymətləndirirəm. Mən forum iştirakçılarını səmimiyyətlə salamlayıram.

**Baş nazir Devid**
**Kemeron».**

*Daha sonra YUNESKO-nun baş direktoru İrina Bokovanın forum iştirakçılarına videomüraciəti nümayiş etdirildi. Videomüraciətdə deyilir:*

«Zati-aliləri!

Xanımlar və cənablar!

Hazırkı III Qlobal Bakı Forumunda bu gün beynəlxalq münasibətlərdə vacib bir məsələ araşdırılacaqdır. Dövlətlər arasında və cəmiyyətlər daxilində etimad sabitlik, inkişaf və sülhün sütunudur. Etimadın gücləndirilməsi insan hüquqları və insan ləyaqətinə əsaslanan həmrəylik vasitəsilə sülhü müdafiə etmək üçün 70 il bundan əvvəl yazılmış YUNESKO-nun mandatının əsasında durur. Bu məsələ cəmiyyətlərin transformasiyaya uğradığı, bərabərsizliyin baş qaldırdığı, münaqi-

şələrin davam etdiyi və planetimizin artan təzyiqlə üzləşdiyi bir vaxtda önəmlidir. Dünyada biz zorakı ekstremist qüvvələr tərəfindən məktəblərə hücum olunduğunu, mədəni abidələrin məhv edildiyini müşahidə edirik. Bu çağırışlar dönüş nöqtəsində dövlətin yeni qlobal dayanıqlı inkişaf gündəmini formalaşdırmasında baş qaldırır. Bu gündəmin uğur qazanması üçün YUNESKO-nun qeyri-hərbi gücü həlledici rol oynayır. Təhsil, elm, mədəniyyət, kommunikasiya və informasiya – bunlar dayanıqlı inkişaf və davamlı sülhün təməlini təşkil edir. Bu dövr YUNESKO tərəfindən irəli aparılan mədəniyyətlərin yaxınlaşması üçün beynəlxalq onilliyi istiqamətləndirir. Bu məsələ, həmçinin YUNESKO və Azərbaycan arasında aparılan tərəfdaşlığın özəyində durur. Mən mədəniyyətlərarası dialoqun təbliğ edilməsinə uzun müddətdir ki, sadiq qaldığına görə prezident İlham Əliyevə öz təşəkkürümü bildirmək istəyirəm. Bu məsələ şifahi ənənələr və musiqi ənənələri sahəsində YUNESKO-nun Xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində də irəli aparılır. Eyni münasibət hər bir qadın və kişinin ləyaqəti haqqında yazmış, 2013-cü ildə YUNESKO tərəfindən 900 illiyi qeyd olunmuş Azərbaycan şairəsi Məhsəti Gəncəvi tərəfindən də ifadə olunmuşdur. Xanımlar və cənablar, mən sizə bu nöqteyi-nəzərdən uğurlu bir forumda iştirak etməyi diləyirəm.

**YUNESKO-nun baş direktoru İrina Bokova».**

*BMT-nin sabiq Baş katibi Butros Butros-Qali öz videomüraciətində forumun işinə uğurlar arzuladı:*

«Mən xəstəyəm və əfsuslar olsun ki, müxtəlif həkimlərin qəbuluna getmək məcburiyyətindəyəm və onlar mənə hərəkət etməməyi məsləhət görüblər. Ümidvaram ki, Bakı Forumu texnoloji inqilaba görə baş verən kəskin dəyişiklikləri, BMT-nin artıq köhnəlmiş bir təşkilat olması faktını və yeniliklərə ehtiyac duyduğunu nəzərə almağa kömək edəcəkdir. Ümid edirəm ki,

Bakı Forumu bir çox digər beynəlxalq konfranslara kömək edəcəkdir və yeni ideyalar üzərində texnoloji inqilabın hansı təsirlərə malik olduğunu nəzərə alaraq, beynəlxalq ictimaiyyəti yeni ideya və konsepsiyalarla təmin etmək üçün bir növ mədəni mərkəz rolunu oynayacaqdır. Biz özümüzü yeni cəmiyyət üçün hazırlamalıyıq. Biz hələ də dövlətin yeganə iştirakçı olduğu köhnə cəmiyyətdə yaşayırıq. Artıq dövlət yeganə iştirakçı deyil.

Mən Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığımı ifadə etməliyəm. Mən onu çox yaxşı tanıyıram, onun atasını da tanıyırdım. Ümid edirəm ki, texnoloji inqilabla əlaqəli yeni problemlərin sülh yolu ilə həllini tapmaqda beynəlxalq ictimaiyyətə kömək etmək üçün Bakı müxtəlif konfranslar və iclasların keçiriləcəyi mədəni mərkəz olmağa davam edəcəkdir.

**BMT-nin sabiq Baş katibi Butros Butros-Qali».**

*İsmail Serageldin ABŞ-ın sabiq Dövlət katibi Henri Kissincerin də məktubunu oxudu:*

«Bakı Forumunun bütün iştirakçılarını salamlayıram. Hazırda dünyada çox güclü çağırışlar var. Dünyada təhlükəsizliyin qorunması üçün çox böyük imkanlar var. Biz düşünürük ki, bu forum beynəlxalq aləmdə anlaşmanın və etimadın möhkəmlənməsinə, dünyamızın daha gözəl, daha ləyaqətlə yaşamaq üçün bir məkana çevrilməsi işinə kömək edəcək. Hamınıza bu yolda uğurlar arzu edirəm.

**ABŞ-ın sabiq Dövlət katibi Henri Kissincer».**

*Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxışında miqrasiya probleminin həlli istiqamətində təsirli addımların atılması vaxtının yetişdiyini dedi. Bundan əlavə, insanlar arasında ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin də görülməsinin vacibliyinə diqqət çəkdi. Bu ideyalar uğrunda*

*mübarizənin daha güclü xarakter almasının zəruri olduğunu dedi. Latviyanın sabiq prezidenti ədalətin hökm sürdüyü ölkələrin daha çox inkişaf etdiyini vurğuladı. Vayra Vike-Freyberqa müxtəlif fikirləri dinləyərək, ortaq məxrəcə gəlinməsi baxımından Bakı Forumunun əhəmiyyətli məkana çevrildiyini bildirdi, bu proseslərin uğurlu alınmasında prezident İlham Əliyevin rolunu və xidmətlərini xüsusi vurğuladı.*

**Vayra Vike-Freyberqa:** Bu forumun məqsədi sizin fikirlərinizi dinləməkdir, baxmaqdır ki, fərqlər nədən ibarətdir, bunları təhlil etməkdir. Cəmiyyətdə ideyalar irəli sürülməlidir. Yaxşı ideyalar bölüşülməlidir və tətbiq olunmalıdır. Mən düşünürəm ki, Bakı Forumu bu mənada çox önəmli bir məkana çevrilib. Mən şəxsən prezident İlham Əliyevə təşəkkürümü bildirmək istərdim. Ona görə ki, o belə görüşün önəmini başa düşən bir şəxsiyyətdir və bu tədbirin keçirilməsinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə böyük dəstək verib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi öz işini ideyalar, fikirlər əsasında qurmaq, məsləhətlərdən, ideyalardan istifadə etmək istəyir. Hakimiyyətdə olan şəxslərin, prezidentlərin, baş nazirlərin, kralların fikirlərini bilmək istəyir. Burada əyləşən insanların hamısının səlahiyyət, təsir imkanları var. Mən istərdim ki, siz hamınız təsir imkanlarınızdan istifadə edib Bakıda bir neçə günü birlikdə çox gözəl keçirə biləsiniz.

Hamınıza uğurlar arzu edirəm.

*Xatırladaq ki, üçüncü dəfə Bakıda keçirilən foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Madrid Klubu və Roma Klubunun üzvü olan sabiq dövlət və hökumət rəhbərləri, tanınmış ictimai və siyasi xadimlərdən ibarət 200-ə yaxın nümayəndə qatılıb. Aprelin 30-dək davam edəcək tədbirdə nüfuzlu siyasi liderlər qloballaşmanın geniş vüsət aldığı bir dövrdə dünyanı narahat edən məsələlər – etnik və digər zəmində baş verən münaqişələr, terror təhdidləri, demokratiyanın inkişafı, təhsil, ekologiya və digər sahələrdə mövcud problemləri geniş müzakirə edəcək, onların aradan qaldırılması istiqamətində qarşıda duran mühüm vəzifələrlə bağlı fikir mübadiləsi aparacaqlar.*

# BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi III Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Bolqarıstan prezidenti Rosen Plevnelievin III Qlobal Bakı Forumunda iştirakının önəmini vurğuladı.*

*Ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən prezident İlham Əliyev Bolqarıstana səfərini və səfər zamanı strateji tərəfdaşlıq haqqında imzalanan sənədi məmnunluqla xatırlatdı.*

*Bolqarıstan prezidenti Rosen Plevneliev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi III Qlobal Bakı Forumuna böyük maraq göstərdiyini dedi. Rosen Plevneliev Bolqarıstan ilə Azərbaycan arasında mövcud ikitərəfli əlaqələrin, əldə olunan razılaşma və anlaşmaların regional əməkdaşlığın genişləndirilməsi baxımından da rolunu xüsusi qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi III Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Makedoniya Respublikasının Prezidenti George İvanov ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Makedoniya Respublikasının Prezidenti George İvanov ilə əvvəlki görüşlərini məmnunluqla xatırlatdı.*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev əməkdaşlığımızın iqtisadi sahədə də genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

*Makedoniya prezidenti George İvanov Azərbaycanın son illər əldə etdiyi böyük uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi və ölkəmizin inkişafı ilə bağlı xoş arzularını söylədi. George İvanov I Avropa oyunlarının Bakıda keçirilməsini böyük tarixi hadisə kimi dəyərləndirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, əməkdaşlığımızın enerji, sərmayə qoyuluşu, birgə layihələrin icrası, təhsil və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BELÇİKA KRALLIĞI BAŞ NAZİRİNİN MÜAVİNİ DİDİER REYNDERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Avropa Şurası Nazirlər Komitəsinin sədri, Belçika Krallığı Baş nazirinin müavini, Xarici İşlər, Xarici Ticarət və İnkişafa Yardım naziri Didier Reyndersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğu bildirildi, əməkdaşlığımızın genişləndirilməsində qarşılıqlı marağın olduğu qeyd edildi, Belçika şirkətlərinin ölkəmizdəki uğurlu fəaliyyətinin önəmi vurğulandı, Avropa Şurası Nazirlər Komitəsinin sədri, Belçika Krallığı Baş nazirinin müavini, Xarici İşlər, Xarici Ticarət və İnkişafa Yardım naziri Didier Reyndersin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirildi.*

*Söhbət zamanı qeyri-neft sektoru, mədəniyyət, viza verilməsinin sadələşdirilməsi, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## III QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏTƏ İŞTİRAK

*28 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından aprelin 28-də III Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, xanımı Mehriban Əliyevanın və qızı Arzu Əliyevanın iştirak etdikləri ziyafətdə Bolqarıstanın və Makedoniyanın dövlət başçıları, Maltanın Baş naziri, bir sıra ölkələrin sabiq liderləri, dünya siyasətində əhəmiyyətli rol oynamış ictimai-siyasi xadimlər, ekspertlər və mütəxəssislər iştirak etmişlər.*

*Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa mərasimdə çıxış etdi.*

### Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqanın çıxışı

Azərbaycanda bizi səmimi və dostluq mühitində qəbul etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Bir çoxlarımız burada bir neçə dəfə olmuşuq və hər dəfə geri döndüyümüzdə Bakının müasirlik nöqteyi-nəzərindən daha da gözəl, təsiredici və qeyri-adi şəhər olmasının şahidi oluruq. Biz həmçinin ölkənin necə çiçəklənməsini, inkişaf etməsini və təbii ehtiyatlarından səmərəli istifadə etməsini də müşahidə edirik.

Cənab Prezident, Siz Bakıda belə bir forumun keçirilməsi ideyasına lap əvvəldən dəstək göstərmisiniz. Bu gün dünyanın üzləşdiyi problemləri müzakirə etmək məqsədilə təcrübəli mütəfəkkirlərin, mütəxəssislərin, beynəlxalq təşkilatların nümayən-

dələrinin, bir çox sahələrdə fəaliyyət göstərən peşəkarların və xüsusilə sabiq və indi hakimiyyətdə olan dövlət və hökumət başçılarının bir araya toplanması üçün Bakının ideal məkana çevrilməsi bizi daha çox məmnun edən faktdır. Başqa sözlə, biz hamıya məlum olan demokratiya və Madrid Klubunun açıq cəmiyyətlər adlandırdığı məfhum haqqında danışırıq. Madrid Klubu Bakıda keçirilən I və II forumların təşkil olunmasında tərəfdaş rolunu oynayıb. Vurğulamaq istəyirəm ki, hazırda mənim İsgəndəriyyə kitabxanasının direktoru cənab Serageldin ilə birlikdə həmsədrlik etdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, cənab Prezident, Sizin dəstəyiniz və köməyiniz sayəsində o qədər müstəqil və qadir bir təşkilata çevrilmişdir ki, o, forumlar arasında ən böyük olan, 70-dən çox ölkə ilə təmsil olunan III Bakı Forumunun təşkil olunması işini öz üzərinə götürmüşdür. Sizə deməliyəm ki, bizim çox gözəl və inanılmaz müzakirələrimiz olub. Hətta bu gün mənə müzakirələrin qızğın keçdiyini bildiriblər və müzakirələrin də məqsədi məhz bundan ibarətdir.

Açılış mərasimində söylədiyiniz nitq və forumda iştirakınız bu tədbir, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və xüsusilə bizim üçün şərəfvericidir. Sizin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi bu mərkəzin qısa müddətdə inanılmaz dərəcədə genişlənməsi və çiçəklənməsinə imkan yaradıb.

Azərbaycanın belə qeyri-adi tədbirlərin keçirilməsini öz üzərinə götürməsi çox xoşdur. Yaxın vaxtlarda Sizdə Avropa oyunları keçiriləcək. Ölkənizdə müxtəlif növ tədbirlər keçirilir, «Eurovision» və bu kimi digər müsabiqələr. Bakı inanılmaz dərəcədə cəlbedici bir mərkəzə çevrilib. Biz burada olmaqdan qürur duyuruq və xüsusilə Sizə təşəkkürümüzü ifadə edirik. Çünki biz bilirik ki, bu gün Sizin ananızın doğum günüdür və Siz ailənizlə bizimləsiniz. O, böyütdüyü oğulla qürur duya biləcək bir qadındır. Əminəm ki, o Sizin kimi prezidentlə qürur duyardı.

Qeyd etməliyəm ki, mənim ölkəmdə də tədbirlər keçirilir. Belə ki, Latviya hazırda Avropa Şurasına sədrlik edir və mayın 22-də Avropanın Qonşuluq Siyasətinin birlikdə müzakirə edilməsi adı altında xüsusi bir tədbir keçiriləcək. Bu forumda müzakirələr zamanı

biz həmin tədbirə qısaca olaraq toxunduq. Avropalılar bu məsələ haqqında düşünməkdədirlər və özümün də üzv olduğum Xarici Əlaqələr üzrə Avropa Şurası Avropa İttifaqının Qonşuluq Siyasəti haqqında tənqidi bir nəşr dərc edib. Mənim şəxsən razılaşdığım tövsiyələrdən biri də odur ki, Avropa İttifaqı öz qonşuluq siyasətində o qədər də uğur əldə etməmişdir və ona hələ də çoxlu hazırlıq işləri görmək lazımdır. Əlbəttə ki, Xarici Əlaqələr üzrə Avropa Şurasının tövsiyələrindən biri də bu olmuşdur ki, hər bir ölkə üçün fərdi yanaşma qəbul edilməlidir və hər bir kəsə şamil edilə biləcək qlobal yanaşma mövcud olmamalıdır. Şərq ölkələri Cənub ölkələrindən fərqlənir. Zəngin ölkələr həyatda qalmaq üçün mübarizə aparan ölkələrdən fərqlənir. Avropa bu ciddi fərqləri nəzərə almalıdır və hər bir ölkə ilə ayrıca dialoqa girməli, bu və ya digər vəziyyətə ən çox uyğun olan münasibətləri təyin etməlidir.

Mən Sizinlə çox səmimiyəm. İcazə verin, mayın 22-də keçiriləcək tədbirə Latviya hökuməti adından dəvəti Sizə çatdırım, çünki səmimi olaraq demək istəyirəm ki, Avropanın böyük bir hissəsi Avropa İttifaqı ilə dialoqun intensivləşdirilməsini görmək istəyir. Bu dəvəti Sizə çatdırıram və mayın 22-də Sizi Riqada gözləyirəm.

*Xanım Vayra Vike-Freyberqa tədbirin yüksək səviyyədə təşkili ilə əlaqədar III Qlobal Bakı Forumunun iştirakçılarının təşəkkürlərinin ifadə olunduğu Xatirə kitabını dövlətimizin başçısına hədiyyə etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Əvvəlcə, xanım həmsədr Vike-Freyberqaya ölkəmiz, bizim etməyə çalışdığımız işlər, nisbətən qısa müddətdə əldə edə bildiklərimiz haqqında xoş sözlərinə görə təşəkkürümü bildirirəm. Həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin məşhur siyasətçilərin, dövlət və ictimai xadimlərin, hakimiyyətdə olan, o cümlədən sabiq dövlət və hökumət

başçılarının iştirak etdiyi belə bir mötəbər tədbiri qısa vaxtda təşkil etmək iqtidarında olan dünya səviyyəli beynəlxalq təsisata çevrilməsi işində möhtəşəm nailiyyətlərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, dünyada nadir bir hadisədir. Biz prezidentlər olaraq, bir çox beynəlxalq tədbirlərdə iştirak etmişik. Hesab edirəm ki, Bakı Forumunun dünyanın siyasi xəritəsində məxsusi yeri var. Bu forum intellektualların, təcrübəli siyasətçilərin, öz ölkələrinə və xalqlarına ləyaqətlə xidmət etmiş və xidmət etməkdə olan insanların, təcrübəyə və biliyə malik insanların toplantısıdır.

Bu gün sürətlə dəyişən dünyada bəzən hadisələrə qısa müddət ərzində tez reaksiya vermək tələb olunduqda mütəxəssis biliyi, ümumi biliklər, reallıqların dərk edilməsi bəlkə də heç vaxt olmadığı kimi, bir zərurətə çevrilib. Bakıda ötəndəfəki görüşümüzdən bəri görün dünyada nə qədər hadisələr baş verib. Bu hadisələrin əksəriyyəti, yumşaq desək, narahatlıq doğurur. Bu hadisələrin əksəriyyəti gərginliyin artmasına, toqquşmalara, qan tökülməsinə, insan hüquqlarının tapdalanmasına, beynəlxalq səviyyədə tanınan sərhədlərin pozulmasına gətirib çıxarır. Bu çox məyusedicidir. Belə ki, biz dünyanın heç də istəmədiyimiz istiqamətdə irəlilədiyini müşahidə edirik. Dünyanın müxtəlif yerlərində qarşıdurmalar, yeni toqquşma əraziləri və müharibələri görürük. Beləliklə, buradakı müzakirələr, açıq müzakirələr, planetimizin inkişafı üçün mühüm qərarlar verən şəxslərə tövsiyələr çox dəyərli və əhəmiyyətlidir.

Mən xanım həmsədrə və doktor Serageldinə onların möhtəşəm fəaliyyətləri və töhfələrinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çox mötəbər və əhəmiyyətli beynəlxalq təsisatdır.

Mən burada bütün həmkarlarımı və dostlarımı da salamlamaq istəyirəm. Bu gün aramızda olan insanların çoxu ilə biz prezident olaraq sıx çalışmışıq. Mən Bakıdakı, təmsil etdiyiniz ölkələrdəki görüşləri xatırlayıram. Biz bir yerdə olanda aramızda çox səmimi və dostluq münasibətləri formalaşıb. İndi isə sizlərin artıq ayrı statusda olduğunuz, mənim isə əvvəlki statusda olduğum halda, biz hələ də bu dostluq

münasibətlərimizi davam etdiririk və mən sizi bu gün Bakıda görməyimə çox şadam.

Bakı həqiqətən də müxtəlif növ tədbirlərin keçiriləcəyi bir məkana çevrilir. Ənənəvi xarakter daşıyan Mədəniyyətlərarası Dialoq Forumu may ayında Bakıda üçüncü dəfə keçiriləcək. Mədəni müxtəliflik və multikulturalizm məsələlərinin müzakirə olunduğu Humanitar Forum bu ilin payızında beşinci dəfə keçiriləcək. Nizami Gəncəvi Forumunun artıq dünya xəritəsində öz yeri var. Həmçinin iqtisadi gündəmə aid tədbirlər keçirilir. Əlbəttə ki, bu gün enerji və təhlükəsizlik məsələləri müəyyən dərəcədə Bakıdan ünvanlanır. Bakıda qəbul edilən qərarlar qitəmizin gələcək enerji siyasətinə və enerji təhlükəsizliyinə ciddi şəkildə təsir göstərir.

Bu il 2 aydan da az müddət sonra biz ilk Avropa oyunlarına ev sahibliyi edəcəyik. Hələ 2 gün əvvəl oyunların məşəlinin alovlandırılması ilə bağlı möhtəşəm bir mərasim təşkil edildi. Xoşbəxtlikdən, bizim məşəli alovlandırmaq üçün də yerimiz var. Azərbaycan sivilizasiyaların və müxtəlif dinlərin mövcud olduğu qədim məkandır. Azərbaycanın tarixi abidələrindən biri olan Atəşgah alov–zərdüştlük məbədidir. Mərasim orada təşkil olundu və məşəlin bütün ölkə miqyasında səyahətinə start verildi. 2 il sonra – 2017-ci ildə biz bütün müsəlman ölkələrindən idmançıların dəvət ediləcəyi İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəyik. Beləliklə, 2 il müddətində Bakıda, bir şəhərdə Avropa oyunları və İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu da Azərbaycanın əsl mahiyyətidir. Bu bizim tariximiz, mədəniyyətimiz, ənənələrimizdir. Bizim dərin ənənəvi köklərimiz var. Biz müsəlman dünyasının bir hissəsiyik, eyni zamanda, bizim üzərimizdə həmişə güclü Avropa təsiri olub. Bu gün bizim siyasətimizə və fəaliyyətimizə nəzər yetirsəniz görəcəksiniz ki, bizim xarici siyasətimizin prioritetlərindən biri də Avropa ilə yaxından əməkdaşlıq etməkdir. Azərbaycan Sülh Tərəfdaşlıq Formatının bir üzvü kimi, bu əlaqələrin inkişafına da töhfə verir.

Bu gün qonaqlarımız arasında Avropa, Asiya, Latın Amerikası və müsəlman ölkələrindən məşhur siyasətçilər, dövlət xadimləri var. Bizim hamımızı sülh, əməkdaşlıq, yəqinlik, ləyaqət, insan hüquqları və demokratiya ideyaları birləşdirir. Bunlar bizi birləşdirir. Bir çox ölkələrin nümayəndələrinin bu gün Bakıda bizimlə olması çox sevindirici və qürurverici haldır. Biz əməkdaşlığa, inkişafa töhfə vermək və bütün tərəflərə bir daha hamımızın sülh və əməkdaşlıq içində yaşamağın, bir-birimizlə mübarizə aparmamağın, bir-birimizə hücum etməməyin və zorakılığa son qoymağın gərək olduğunu bildirən ismarıcı göndərmək üçün işimizin öhdəsindən gəlirik. Çünki təəssüflər olsun ki, zorakılıq artmaqdadır. Azərbaycan sabit inkişafa malik olan ölkədir. Azərbaycan müasir və gənc ölkədir, eyni zamanda da, iqtisadi və siyasi cəhətdən müəyyən vəsaitlərə və potensiala malikdir. Biz sülh, əməkdaşlıq və inkişafı gücləndirmək üçün öz səylərimizdən, potensialımızdan istifadə edirik.

Fürsətdən istifadə edərək, sizi Avropa oyunlarının açılışı mərasiminə dəvət etmək istəyirəm. Oyunlar Avropada ilk dəfə keçiriləcək, bu da bir az qəribədir. Belə ki, Olimpiya oyunları Avropada, Yunanıstanda başlayıb və Baron de Kuberten tərəfindən Avropada bərpa olunmasına baxmayaraq, Avropanın heç zaman öz oyunları olmayıb.

Avropa Olimpiya Komitəsi tərəfindən bu oyunların əhalisinin tam əksəriyyəti müsəlman olan bir ölkədə – Azərbaycanda təşkil edilməsi qərarı müasir tarixin ən müdrik qərarlarındandır. Bu, tolerantlığın, əməkdaşlığın və bizə hörmətin göstəricisidir. Biz də qonaqlarımızın iyun ayının xoş günlərində Bakıda özlərini rahat hiss etmələri üçün əlimizdən gələni edirik.

Bir daha xoş gəlmisiniz! Mən sizə və ölkələrinizə ən xoş arzularımı çatdırıram.

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Regiondakı prosesləri yaxından izlədiklərini bildirən Herbert Salber təmas xəttindəki vəziyyətdən narahatlıqlarını ifadə edərək, münaqişənin həll olunmasına hazırda həmişəkindən daha çox ehtiyac duyulduğunu dedi. O, təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığı genişləndirərək, regiondakı münaqişələrin həllinə öz töhfəsini vermək niyyətində olduğunu vurğuladı.*

*Ölkəmizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və bununla bağlı aparılan danışıqlar prosesində ən maraqlı tərəf olduğunu deyən dövlətimizin başçısı Azərbaycan torpaqlarının 20 faizdən çoxunun işğala məruz qaldığını və bu vəziyyətin uzun illər davam etdiyini, atılan addımların heç bir nəticə vermədiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, danışıqlar masasında irəli sürülən təşəbbüslərə əngəllər yaradan Ermənistan təmas xəttində müxtəlif silahlı təxribatlar törətməklə, mövcud status-kvonu saxlamağa çalışır. Dövlətimizin başçısı Avropa İttifaqının münaqişənin həlli ilə bağlı konkret mövqe nümayiş etdirməməsini də təəssüflə qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## BAKI KONQRES MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*29 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva aprelin 29-da Bakı Konqres Mərkəzinin açılışında iştirak etmişlər.*

*Maliyyə naziri Samir Şərifov mərkəzdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Heydər Əliyev Mərkəzinin yaxınlığında yüksək zövqlə inşa olunan bu mərkəzin tikintisinə 2014-cü ilin fevralında başlanılıb. Mərkəzin ümumi sahəsi 6,2 hektar, tikintialtı sahəsi isə 46,6 min kvadratmetrdir. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bina bütün zəruri infrastrukturla təmin olunub.*

*Prezident İlham Əliyev Bakı Konqres Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində 405 kvadratmetrlik monitor quraşdırılıb. Bu, dünyada qapalı məkanda quraşdırılan ən böyük və ən çox pikselli monitordur. Ümumilikdə isə binada müxtəlifölçülü 50-dən artıq monitor quraşdırılıb. Mərkəzdə 17 konfrans zalı yaradılıb. Onların ümumi tutumu 2500 nəfərdən çoxdur. Konfrans zallarında yaradılan şərait onların tutumunu tədbirə qatılan qonaqların sayına uyğun olaraq dəyişdirməyə imkan verir. Məsələn, konfrans zallarının tamaşaçı tutumunu təşkilatçının istəyinə uyğun olaraq 50 nəfərdən 250 nəfərədək dəyişmək mümkündür. Bina bütün zəruri kommunikasiya, o cümlədən havalandırma sistemləri ilə təchiz olunub. Burada restoran, inzibati və digər otaqlar da var. Mərkəzdə canlı yayım aparmaq üçün müasir şərait yaradılıb. Burada qonaqlara eskalatorlar və 16 lift xidmət göstərəcək.*

*Bakı Konqres Mərkəzinin auditoriya zalı da ən müasir səviyyədə yaradılıb. Zal 3500 yerlikdir. Burada müasir texnologiyanın ən son yeniliklərinin tətbiq olunduğu avadanlıqlar quraşdırılıb. Zalın akustika sistemi dünyanın aparıcı şirkətlərinin məhsuludur. Buranın işıqlandırılmasında müasir texnologiyadan istifadə edilib.*

*Ölkəmizdə hökm sürən siyasi-iqtisadi sabitlik, bütün sahələrin davamlı inkişafı və yaradılan şərait artıq Azərbaycanı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Bu gün ölkəmizdə siyasət, iqtisadiyyat, mədəniyyət, idman, ümumilikdə bütün sahələrə aid region, qitə və dünya əhəmiyyətli mötəbər tədbirlər təşkil olunur. Belə bir mərkəzin istifadəyə verilməsi ölkəmizin beynəlxalq tədbirləri daha da yüksək səviyyədə keçirməsi üçün geniş imkanlar yaradır.*

*Bildirildi ki, bu mərkəzdə mayın 2-dən 5-dək ilk beynəlxalq tədbir Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısı olacaq. Bu mötəbər tədbir Cənubi Qafqaz regionunda ilk dəfə məhz Azərbaycanda keçiriləcək. Toplantıda 3 minə yaxın iştirakçının, o cümlədən üzv ölkələrin maliyyə nazirləri və digər hökumət rəsmilərinin, habelə Mərkəzi Bank rəhbərləri ilə yanaşı, özəl sektor, beynəlxalq maliyyə institutları və vətəndaş cəmiyyəti nümayəndələrinin, eləcə də tanınmış alimlərin və ekspertlərin iştirakı nəzərdə tutulur. Belə bir mühüm tədbirin ölkəmizdə baş tutması Azərbaycanın bu sahədəki təcrübəsi, Bakıda yaradılmış yüksək standartlara uyğun infrastruktur, tranzit və logistika sahəsində ölkəmizin əlverişli imkanları ilə yanaşı, Bakı Konqres Mərkəzi kimi memarlıq nümunələrinin inşa olunması ilə də sıx bağlıdır.*

*Bu möhtəşəm bina inşa olunduğu əraziyə də gözəllik verir, Heydər Əliyev Mərkəzinin yerləşdiyi məkanın füsunkarlığını daha da artırır. Orijinal üslubda tikilən mərkəz ümumilikdə paytaxtda aparılan abadlıq-quruculuq işlərinin davamlı olduğunu bir daha təsdiqləyir.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Polşa arasındakı münasibətlər dinamik şəkildə inkişaf etməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2015-ci il*

## ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TAKEHİKO NAKAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 aprel 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə beynəlxalq maliyyə qurumları, o cümlədən Asiya İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın önəmi bildirildi, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkan olduğu məmnunluqla qeyd edildi. Bu baxımdan Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı və tədbirə hazırlıq işlərinin yüksək səviyyədə təşkil edildiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında həyata keçirilən uğurlu layihələrin əhəmiyyətindən danışıldı və əməkdaşlığımızın konkret perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ JOLT ÇUTORA İLƏ GÖRÜŞ

*1 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Macarıstan Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Jolt Çutoranı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsinin razılıq doğurduğu bildirildi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi. İki ölkə arasında əməkdaşlığın inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı və münasibətlərimizin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə edildi.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN İCRAÇI DİREKTORUNUN MÜAVİNİ MİTSUHİRO FURUSAVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Beynəlxalq Valyuta Fondunun icraçı direktorunun müavini Mitsuhiro Furusavanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirə hazırlığın yüksək səviyyədə təşkil edildiyi bildirildi. Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkan və bu istiqamətdə yaxşı təcrübəyə malik olduğu məmnunluqla qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi vurğulandı və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*Bakı*

*2 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də «Rossiya-24» telekanalına müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, salam! Bizi burada qəbul etdiyinizə görə çox sağ olun. Biz Sizinlə Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi ərəfəsində görüşürük. Bu bəlkə də xalqlarımızı birləşdirən əsas hadisə, bizim ümumi tariximizin hadisəsidir. Qələbə Günü Azərbaycan və şəxsən Sizin üçün nə deməkdir?**

**C a v a b:** Bu bizim üçün böyük bayramdır. Biz bu bayramı bir neçə gün ərzində – həm Qələbə günündən əvvəl, həm də həmin gün təntənəli şəkildə qeyd edirik. Veteranlarla görüşlər keçirilir, müxtəlif bayram tədbirləri təşkil olunur.

Bu bayram bizə çox əzizdir. Bu, ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd edilir. Təəssüf ki, müstəqilliyin ilk illərində Azərbaycanın o zamankı hakimiyyəti bunu rəsmi bayram kimi ləğv etmişdi. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Qələbə Günü dövlət bayramı elan edildi, qeyri-iş günü oldu və bununla da tarixi ədalət bərpa edildi. Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. Qeyd etmək istəyirəm ki, bütün veteranların avtomobillə təmin olunması proqramı bu il tam başa çatır. Onlara vaxtaşırı mənzillər, istirahət üçün yerlər, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə

olunmalıdırlar. Qeyd etdiyiniz kimi, keçmiş Sovet İttifaqının bütün xalqlarını bir-birinə yaxınlaşdıran bu tarixi məqam prinsip etibarilə faşizm üzərində Qələbənin qazanılmasında iştirak edən bütün insanları da bir-birinə yaxınlaşdırmalıdır.

Biz Azərbaycandan 700 min insanın müharibədə iştirak etməsindən qürur duyuruq. Bu müharibədə 300 mindən çox həmvətənimiz həlak olub, 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Beləliklə, fəxr edəcəyimiz çox məqamlar var. Biz ümumi Qələbəmizin xatirəsini göz bəbəyi kimi qoruyuruq.

**S u a l: Mən Sizin bir dəfə kadr arxasında dediyiniz sözləri dilə gətirmək istəyirəm və bunu açıq deyəcəyəm. Siz bildirmişdiniz ki, Böyük Vətən müharibəsi haqqında xatirə Sizin üçün atanızın xatirəsi qədər müqəddəsdir. Biz əcdadlarımızın, yaxınlarımızın xatirəsini əziz tutduğumuz kimi, bu tarixi hadisə, bu tarixi faciə barədə xatirələri də qoruyub saxlamalıyıq. Amma ətrafda tarixin yenidən yazılmasına cəhdlər göstərildiyi və bu müharibə peyvəndinin artıq çoxlarına təsir etmədiyi bir vaxtda buna necə nail olmaq olar?**

**C a v a b:** Biz bu cür cəhdləri, əvvələn, tarixi yenidən yazmaq, faşizm üzərində qələbədə sovet ordusunun rolunu azaltmaq, habelə faşist canilərinin, onların davamçılarının və ideologiyasını bölüşənlərin qəhrəman səviyyəsinə yüksəldilməsi cəhdlərini böyük narahatlıqla müşahidə edirik. Bir vaxtlar bizim hamımıza elə gəlirdi ki, faşizmə – yəni bəşəriyyətin tarixboyu hələ üzləşmədiyi şər qüvvəyə birdəfəlik son qoyulub. Təəssüf ki, zaman ötdükcə görürük ki, müəyyən səylər, bəzi dairələrin təbliğat kampaniyaları nəticəsində dünyanın müxtəlif ölkələrində gənc nəslin bir hissəsi real tarixi bilmədiklərinə və təhrif olunmuş tarixi faktların daim onlara aşılanması səbəbindən müəyyən dərəcədə bu virusa yoluxur. Biz dünyanın bir çox regionlarında neofaşistlərin marşlarını, məşəllər ilə yürüşlərini, nümayişlərini görürük. Bütün bunlar böyük narahatlıq doğurur.

Biz tariximizi, bu dəhşətlərə son qoymuş Sovet İttifaqı, eləcə də digər müttəfiq ölkələrin xalqlarının qəhrəmanlığını müqəddəs tuturuq. Bu qəhrəmanlıq nəsillərdən-nəsillərə keçərək yaddaşlarda

yaşamalıdır. Ona görə də düşünürəm ki, indi məsuliyyət atalarımızın, babalarımızın qəhrəmanlığına hörmətlə yanaşan siyasətçilərin, ölkə rəhbərlərinin, nüfuzlu ictimai xadimlərin üzərinə düşür. Onlar öz fəaliyyətlərində buna daim önəm verməlidirlər. Bir vaxtlar bizə elə gəlirdi ki, hamıya hər şey aydındır, bu tarixdir, çoxlu tarixi sənədlər var, odur ki, burada fikir ayrılığı ola bilməz. Lakin sən demə, ola bilərmiş. Ən kədərlisi də odur ki, bu gün 20–25 yaşlı gənc nəslin bəzi nümayəndələri faşist yürüşlərinə çıxmaqla, əslində ümumi Qələbəmizi gözdən salırlar. Əgər bu meyil gələcəkdə genişlənərsə, hansısa mərhələdə tarix baş-ayaq çevriləcəkdir. Düşünürəm ki, indiki mərhələdə mənim dediyim fikirləri bölüşən bütün ictimai qurumlar fəaliyyətlərini əlaqələndirməli, tarixi həqiqəti ictimaiyyətə, xüsusən gənclərə çatdırmaq, faşizmin qəhrəmanlıq səviyyəsinə qaldırılmasının və tarixin yenidən yazılmasının qarşısını almaq üçün fəal işləməlidirlər.

**S u a l: Siz əminsinizmi ki, bir neçə onillik keçəndən sonra vəziyyət prinsipial olaraq pis tərəfə dəyişməyəcək?**

**C a v a b:** Bu mövzunun daim diqqət mərkəzində saxlanılması üçün ən böyük məsuliyyət siyasətçilərin, dövlət xadimlərinin, ictimai xadimlərin, yazıçıların, yaradıcı ziyalıların üzərinə düşür. Bir daha demək istəyirəm, bəlkə də təkrar olacaq, amma bu məsələ məni həqiqətən narahat edir. Hələ 10–15 il bundan əvvəl şəxsən mənə elə gəlirdi ki, bu məsələdə fikir ayrılığı ola bilməz. Lakin görürsünüz, hər şey necə dəyişib. Böyük insan itkiləri verən ölkələrin, faşist işğalından əziyyət çəkənlərin özləri müəyyən dərəcədə manipulyasiya, psixoloji hücum, zombiləşmə obyektinə çevrilirlər. Bütün bunlar qorxulu meyillərdir. Bu, təkcə tarixi ədalətin təhrif edilməsi baxımından məyusluq doğurmur. Bu, dünyanın gələcəyi üçün təhlükəli meyillərdir. Bu o deməkdir ki, həmin ideologiya təəssüf ki, yaşayır. Bu bizim hamımız üçün böyük təhlükədir.

**S u a l: Mayın 9-da Moskvada olacaqsınızmı?**

**C a v a b:** Bəli, mütləq olacağam. Mən ötən yubileydə də Moskvada idim. Adətən, 9 May bayramını Bakıda qeyd edirəm,

veteranlarla yığışırıq, bayram tədbirləri keçiririk. Ancaq bu il mən onlarla bir qədər əvvəl görüşəcəyəm. Mayın 9-da isə Moskvada olacağam.

**S u a l: Siz dediniz ki, Böyük Vətən müharibəsi və Qələbə Günü postsovet məkanının bütün xalqlarını yaxınlaşdırır. Həmin gün erməni və Azərbaycan xalqları da bir-birinə yaxın olurlarmı?**

**C a v a b:** Bu barədə danışmaq çətindir. Xalqlar arasında münasibətlərə gəlincə, Ermənistan tərəfindən fərqli olaraq, əminəm ki, aramızda olan düşmənçilik daim davam edə bilməz. Biz bir dövlətin tərkibində yaşamışıq, faşizmə qarşı birlikdə mübarizə aparmışıq. Ona görə düşünürəm, erməni rəhbərliyi, nəhayət, başa düşəcək ki, düşmənçiliyə, işğala son qoymaq lazımdır. Ölkələrimiz arasında münasibətlərin normallaşması üçün əsas maneə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsidir. Bu işğalın nə tarixi, nə hüquqi, nə siyasi əsası var. Məlumdur ki, ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. 20 ildən çox vaxt keçib. Lakin bu qətnamələr kağız üzərində qalmaqdadır. Yəni beynəlxalq hüquq kobud surətdə pozulub. Öz doğma torpaqlarından qovulan 1 milyondan çox insanın hüququ pozulub. Yeri gəlmişkən, onların arasında xeyli veteran da olub. O da sirr deyil ki, erməni xalqının da faşizmdən əziyyət çəkməsinə, bu xalqın bir çox nümayəndələrinin İkinci dünya müharibəsi cəbhələrində şərəflə vuruşmasına baxmayaraq, bu gün Ermənistanda bizim üçün çox çətin başa düşülən meyillər müşahidə olunur. Faşistlər, Hitlerə xidmət edən adamlar qəhrəman kimi təqdim olunur. Onların adları məlumdur. Bu yaxınlarda Azərbaycan ictimaiyyəti, veteranlarımız dost dövlətlərin rəhbərlərinə, o cümlədən Rusiya Prezidentinə məktub göndərərək, Hitlerin tərəfində vuruşanların adlarının Ermənistanda küçələrə, evlərə, meydanlara verilməsi faktından narahatlıqlarını bildiriblər. Bu, böyük narahatlıq doğurur. Zənnimcə, millətçilik hissi ədalət hissindən üstün olmamalıdır.

Odur ki, indiki mərhələdə Ermənistan və Azərbaycan veteranlarının görüşməyə imkanları olsaydı, yəqin ki, onlar dost masası arxasında əyləşib birgə tarixlərinin şanlı səhifələrini yada salardılar. Təəssüf ki, Ermənistan tərəfi iki ölkə ictimaiyyəti arasında əlaqələrin qurulmasına hər vəchlə mane olur. Bir neçə il əvvəl ictimaiyyətin, deputatların qarşılıqlı görüşlərini təşkil etmək cəhdləri olmuşdu. Biz hətta bu formatı genişləndirməyi düşünürdük. Lakin Ermənistanda görəndə ki, bu hansısa yaxınlaşmaya, dost hisslərin oyanmasına gətirib çıxara bilər, əlaqələri dərhal kəsdilər. Əsas problem ondan ibarətdir ki, işğal davam edir. Təəssüf ki, Ermənistan bu prosesi maksimum dərəcədə uzatmağa çalışır. Hərçənd, onlar başa düşməlidirlər ki, bu, əbədi olaraq davam edə bilməz. Bu, sona çatacaq və bu nə qədər tez olsa, bir o qədər yaxşıdır.

**S u a l: Bununla belə, Ermənistan prezidenti də Moskvada olacaq. Sizin aranızda hər hansı təmas ola bilərmi?**

**C a v a b:** Həmin vaxtda təmaslarımız nəzərdə tutulmayıb. Bizim keçən il görüşlərimiz olub. Yayda Soçidə Rusiya Prezidentinin təşəbbüsü ilə, sonra payızda ABŞ-ın Dövlət katibi Kerri, daha sonra Fransa prezidenti Olland tərəfindən görüşlər təşkil olundu. Bu görüşlərdə bizə elə gəldi ki, irəliləyiş əldə oluna bilər. Lakin təmas xəttində gərginliyi azaltmaq barədə razılığa gəldiyimiz Paris görüşündən 2 həftə keçməmiş Ermənistan işğal olunmuş Ağdam rayonunda onların özlərinin verdiyi məlumata görə 47 min hərbi qulluqçunun iştirakı ilə genişmiqyaslı təlimlər təşkil etdi. Buna lüzum yox idi. Bu, danışıqlar prosesini pozmağa yönəlmiş açıq-aşkar təxribat idi. Biz bir neçə gün təmkinli münasibət göstərdik və göstəriş verdik ki, bu təxribata reaksiya verilməsin. Çünki biz hesab edirdik ki, gərginlik azaldılmalıdır. Lakin qarşı tərəf Mİ-24 döyüş helikopterləri ilə mövqelərimizə hücum etməyə cəhd göstərdi. Bizim tərəfin cavab tədbirləri nəticəsində helikopterlərdən biri məhv edildi. Bu da Ermənistan tərəfinə, əksinə, bizi təxribatda günahlandırmaq imkanı verdi. Bununla da hadisənin baş verdiyi noyabr ayından bu günə qədər

hər hansı bir əlaqəmiz olmayıb. Axı bu təlimləri biz keçirmirdik, o ki qaldı Ermənistan ərazisində. Təlimləri onlar keçirirdilər, özü də bizim Ağdam rayonunun ərazisində. Bu bir daha bizi əmin edir ki, Ermənistan tərəfinin bütün cəhdləri status-kvonun dəyişilməməsinə yönəlib. Baxmayaraq ki, Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, Fransa və ABŞ dəfələrlə vurğulayıblar ki, status-kvo qəbuledilməzdir, dəyişməlidir. Bu nə deməkdir? O deməkdir ki, işğalın aradan qaldırılması prosesi başlanmalıdır. Lakin Ermənistan tərəfi bununla razılaşmaq istəmir və hər vasitə ilə danışıqlar prosesinə mane olur. Yəni keçən ilin noyabrından indiyə kimi aramızda heç bir əlaqə yoxdur və nə vaxt olacağını da deyə bilmərik.

**S u a l: Tarixi yenidən yazmaq Rusiya və onun müttəfiqlərinə təzyiq vasitələrinin geniş arsenalında kifayət qədər həssas alətə çevrilib. Digər vasitə Rusiyanın 1 ildən çoxdur ki, məruz qaldığı iqtisadi sanksiyalardır. Bu sanksiyalar, o cümlədən qonşu ölkələrə də təsir göstərir. Rusiya bu böhran təzahürlərinin nəticələrini aradan qaldırır. Azərbaycanda bu, hiss olunurmu?**

**C a v a b:** Qeyd etmək lazımdır ki, bu vəziyyətin iqtisadiyyatımıza bir o qədər böyük təsiri yoxdur. Rusiyada yaşayıb işləyən azərbaycanlıların pulköçürmələri müəyyən dərəcədə azalıb. Rusiyada xeyli sayda azərbaycanlı yaşayır. Onlar əsasən imkanlı insanlardır, biznes sahəsində çalışırlar. Təbii ki, xalqımızın ənənələrinə uyğun olaraq bütün qohumlar həmişə bir-birinə kömək edir. İmkanlılar imkansızlara yardım edirlər. Beləliklə, Rusiyada yaşayan azərbaycanlılar tərəfindən maliyyə yardımının azalması müşahidə olunur. Lakin bu yardım bizim ümumdaxili məhsulumuzun kiçik bir hissəsini təşkil etdiyindən bunun iqtisadiyyatımıza qlobal təsiri olmayıb. Bütövlükdə Azərbaycanda həyat səviyyəsi artır. Bu il 3 ay ərzində iqtisadiyyat 5,3 faiz, həmişə qeyd etdiyimiz ən əsas göstərici – qeyri-neft iqtisadiyyatı 7 faiz artıb. Yəni neftin qiymətinin düşməsinə və əlbəttə ki, əsas ticarət tərəfdaşımızdan biri olan Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyətə baxmayaraq,

iqtisadiyyatımızın şaxələndirilməsi və həyata keçirilən islahatlar bizə dinamik inkişaf etməyə imkan verir. Sanksiyalara gəldikdə isə mövqemiz həmişə birmənalı olub. Biz onu hər zaman bildirmişik, bu, sirr deyil. Biz beynəlxalq münasibətlərin bu cür formasının əleyhinəyik. Yəqin bilirsiniz, vəziyyət Avropa Şurasının Parlament Assambleyasında müzakirə olunanda Azərbaycan nümayəndə heyəti tam tərkibdə Rusiyaya qarşı sanksiyaların əleyhinə çıxış etdi. Düşünürəm ki, bu, küncdə-bucaqda özünü Rusiya Federasiyasının müttəfiqi kimi göstərənlər üçün nümunə oldu. Belələri AŞPA-da öz mövqeyini nümayiş etdirməyə gələndə, necə deyərlər, aradan çıxırlar. Hesab edirəm ki, Rusiya ictimaiyyəti bunu bilməlidir. Belə məqamlarda mövqe, dost dəstəyi özünü göstərir. Hamının işi yaxşı olanda, əlbəttə, hamı xoş sözlər deyə, mədhiyyələr söyləyə bilər. Lakin öz sözünü Moskvada kuluarlarda yox, Strasburqda demək lazım gələndə, bax, o zaman burada həm ləyaqət, həm mövqe, həm də, ümumiyyətlə, insani keyfiyyətlər özünü göstərir. Ona görə bir daha demək istəyirəm ki, biz belə təzyiq formasının əleyhinəyik, bu, qeyri-səmərəli vasitədir. Biz həmişə dialoqun, bütün mürəkkəb məsələlərin danışıqlar masası arxasında etimad şəraitində həll olunmasının tərəfdarıyıq. Əlbəttə, müəyyən dərəcədə Rusiya ilə Qərb arasında etimad itirilib. Lakin zənnimcə, onu bərpa etmək üçün səylər göstərilməlidir. Dünyada, regionumuzda, Avropada təhlükələr xeyli çoxdur. Bu, ekstremizmin, radikalizmin, terrorizmin, Avropa qitəsində faşizmin dirçəlməsidir. Bu məsələləri birlikdə həll etmək lazımdır.

**M ü x b i r: Azərbaycan qaz hasilatına ümid bəsləyir. Əlinizdə belə resursların olduğu şəraitdə bu məntiqidir, qanunauyğundur. Lakin bu məsələni də siyasiləşdirmək istəyirlər. Bu gün «Cənub Qaz Dəhlizi» layihəsində Azərbaycana ciddi ümid bəsləyirlər və bunu Rusiyanın Avropada qaz layihələrinə alternativ kimi təqdim etməyə çalışırlar. Bu qazın nəzərdə tutulan ixrac həcmindən və satış bazarları barədə danışmağınızı xahiş edərdim.**

**İ l h a m Ə l i y e v:** Açığı, belə meyillər və bu cür informasiya fonu bizi də narahat edir. Ancaq yüksəkvəzifəli nümayəndələrin rəsmi bəyanatlarına baxsaq, orada belə qiymətləndirmələr yoxdur. Bu işlər ekspertlər, politoloqlar və hakimiyyətə yaxın strukturlar fonunda aparılır. Onlar sadəcə olaraq, belə bir fon yaradırlar. Nəticədə belə riyakar təbliğat artıq kimlər tərəfindənsə müəyyən dərəcədə reallıq kimi qəbul edilir. Bizim tərəfimizdən heç bir rəsmi nümayəndə heç vaxt belə bəyanatlar verməyib. Biz heç vaxt öz layihəmizi alternativ kimi nəzərdə tutmamışıq. Azərbaycanın energetika siyasəti artıq 21 ildir, biz 1994-cü ildən ölkəmizdə iri yataqların mənimsənilməsinə başladığımız vaxtdan həyata keçirilir. Elə həmin vaxt neftin dünya bazarlarına nəql olunması üçün bir neçə kəmər inşa edildi. Nəzərə almaq lazımdır ki, bizim dünya okeanlarına çıxışımız yoxdur. Qaz ehtiyatları keçən əsrin 90-cı illərinin sonlarında kəşf olunub. Elə o vaxtdan da qaz hasil etmək üçün fəal işə başladıq. 2007-ci ildən müəyyən həcmdə qaz hasil edirik. Qonşu ölkələrə – Türkiyəyə, Gürcüstana, İrana az həcmdə qaz ixrac edirik. Yeri gəlmişkən, Rusiyaya da. Bizim ehtiyatlarımız çox böyükdür. Əlbəttə, onları reallaşdırmaq lazımdır. «Cənub Qaz Dəhlizi» layihəsi çoxdan planlaşdırılırdı. Siz yəqin bilirsiniz ki, əvvəl o, Nabukko layihəsi adlanırdı.

**M ü x b i r: İndi Nabukko 2.0 adlandırırlar.**

**İ l h a m Ə l i y e v:** Bəli, bunu mənim bir qədər əvvəl haqqında danışdığım adamlar belə adlandırırlar. Biz görəndə ki, siyasi iradə, maliyyə resursları, əlaqələndirmə, səylərin birləşdirilməsi yoxdur, başa düşdük ki, Nabukko layihəsinin reallaşması qeyri-mümkündür. Bizə elə gəlirdi ki, kimlərsə bizim hesabımıza «mənfəət» əldə etmək istəyir. Azərbaycana bu layihədə sadəcə, xammal bazası rolu ayrılırdı. Bu isə bizi qətiyyən qane etmirdi. Layihə əslində gündəlikdən çıxdı. Lakin biz öz ehtiyatlarımızı realizə etməli idik. Əlbəttə ki, bizim üçün təbii qazın əsas satış bazarı Türkiyə və Avropadır, çünki digər qonşularımız İran və Rusiya böyük həcmdə təbii resurslara malikdir, Gürcüstan bazarı isə kifayət qədər kiçikdir. Beləliklə,

biz «Cənub Qaz Dəhlizi» layihəsi təşəbbüsü ilə çıxış etdik və 2012-ci ildə Türkiyə ilə TANAP – Trans–Anadolu qaz kəmərinin tikintisi barədə saziş bağladıq. Bu kəmər «Cənub Qaz Dəhlizi»nin bir hissəsidir. Bu gün bu layihə artıq reallaşmağa başlayıb. Biz layihə işlərini artıq həyata keçiririk. Tezliklə tikinti başlayacaq və birinci mərhələdə Azərbaycan qazı indikindən daha böyük həcmdə Türkiyə bazarına və sonra isə Türkiyə ərazisindən Avropa bazarına çatdırılacaq. Bu layihə bizə böyük qaz ehtiyatlarımızı realizə etmək imkanı verəcək. Demək olmaz ki, o dərhal gəlir gətirəcək. Çünki xərclər çox böyükdür, onların yerini doldurmaq lazımdır. Bununla yanaşı, qazdan gələn gəlirləri neft gəlirləri ilə müqayisə etmək olmaz. Hər halda, bizim üçün valyuta daxilolmalarının əsas mənbəyi neft ixracıdır. Bu ixrac indi sabitləşib və uzun müddət davam edəcək. Əlbəttə, qaz amili də iqtisadiyyatımızı möhkəmləndirəcək, Azərbaycanın rolunu və istehlakçılar üçün əhəmiyyətini artıracaq. Məlumdur, hər bir ölkə istəyir ki, onun rolu və əhəmiyyəti artsın. Beləliklə də bizim imkanlarımız genişlənəcək.

«Cənub Qaz Dəhlizi» layihəsi «Şahdəniz-2» yatağının işlənməsindən ibarətdir. Bu layihə çərçivəsində ixrac olunan 8 milyard kubmetr qazdan əlavə, 16 milyard kubmetr qazın hasilatı və ixracı nəzərdə tutulur. Bunun 6 milyard kubmetrini Türkiyə, 10 milyard kubmetrini isə bir neçə Avropa ölkəsi alacaq. Əlbəttə, bu Avropanın Norveçdən, Əlcəzairdən və Rusiyadan aldığı qazın həcmi ilə müqayisə oluna bilməz.

**M ü x b i r: Təklif edirəm ki, söhbətimizi, adətən, görüşlərimizi bitirdiyimiz mövzu ilə başa vuraq. Bu nəinki postsovet məkanında, bütün dünyada xalqları birləşdirən idman mövzusudur. Azərbaycanın keçirəcəyi Avropa oyunlarının başlanmasına az qalıb. Avropa oyunlarının məşəli artıq alovlandırılıb.**

**İ l h a m Ə l i y e v:** Bəli, hesab edirik ki, bu hadisə bütün Avropa idmançılarının ümumi bayramına çevriləcək. Bu bizim üçün böyük məsuliyyətdir. Deməliyəm ki, Azərbaycan bu

oyunların keçirilməsinə yeganə namizəd idi. Əgər o zaman biz buna razılıq verməsəydik, yəqin ki, elə ideya olaraq qalacaqdı. Mən bu ideyanı daim irəli sürən Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikkinin müstəsna rolunu qeyd etmək istəyirəm. Bu bizim üçün böyük məsuliyyət, eyni zamanda, böyük şərəfdir. Bizim qarşımızda 2 il yarıma, hətta daha az müddətə Olimpiada ilə müqayisə edilə biləcək oyunlar keçirmək dayanırdı. 6 mindən çox idmançı, 20 idman növü... Amma biz bu vəzifənin öhdəsindən gəldik. Məşəl artıq yandırılıb. Biz onu qədim Atəşgah məbədində alovlandırdıq. Bu, qədim zərdüştlük məbədidir. Bildiyiniz kimi, Azərbaycan bir çox dinlərin – zərdüştlüyün, islamın, xristianlığın, iudaizmin birgə mövcud olduğu bir ölkədir. Ölkəmizdə xalqlar arasında qardaşlığın və dinlərarası əməkdaşlığın nadir ab-havası var. Beləliklə, məşəl artıq ölkəmizdə səyahətdədir. Bu sizə yəqin ki, yaxşı tanışdır. Bununla yanaşı, bu hadisənin gözdən salınması cəhdləri müşahidə olunmaqdadır. Oyunlar yaxınlaşdıqca bu özünü daha aşkar göstərir. Bu bizdə yalnız təəccüb və anlaşılmazlıq doğurur. Axı bu nəyə lazımdır?! Azərbaycanın belə bir oyunları təşkil edə bilməsini sanki kimlərsə həzm edə bilmir. Odur ki, indi biz, demək olar, sizin Soçi ərəfəsində yaşadığınız vəziyyətdəyik: gözdənsalma, yalan, iftira. Prinsipcə, əməliyyat xərclərinə sərf etdiyimiz vəsaitin həcmi barədə tamamilə astronomik rəqəmlər açıqlanır. Oyunları keçirmək üçün cəmi bir neçə yüz milyon dollar xərclənib. Malik olduğumuz idman obyektlərinə gəlincə, onların 90 faizi ya artıq tikilmişdi, ya da inşasına qərar qəbul edildikdən əvvəl başlanılmışdı. Biz onları oyunlar üçün tikmirdik. Bakının nəqliyyat infrastrukturu buna qədər də inkişaf etmişdi. Siz Bakıda tez-tez olursunuz, bunları görürsünüz. Odur ki, bu cür yalan, düşmənçilik, ədavət kampaniyasına indi biz məruz qalmışıq. Lakin əsas bu deyil, əsas odur ki, biz dostluq və idman bayramı təşkil edəcəyik. Əsas qonaqlarımız isə, əlbəttə, idmançılar olacaq. Biz bu bayramda iştirak etmək istəyənlərin hamısını dəvət edirik. Biz idmançıların, turistlərin, Avropa və MDB ölkələrinin adi vətəndaşlarının özlərini evlərindəki kimi hiss

etmələri üçün əlimizdən gələni edəcəyik. Mən Rusiya komandasına uğurlar arzulayıram. Düşünürəm ki, Rusiya oyunların əsas favoriti olacaq.

**M ü x b i r: Düşünürəm ki, siz informasiya müharibəsindən qalib çıxacaqsınız, necə ki, biz qalib çıxdıq və Olimpiadada qalib gəldik. Sizə də idman qələbələri arzulayırıq. Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## DÜNYA BANKININ VİTSE-PREZİDENTİ LAURA TAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti xanım Laura Takın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirin təşkilati işlərinin yüksək səviyyədə aparıldığı qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında yolnəqliyyat, su təchizatı və kanalizasiya, bərk tullantıların idarə olunması və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Dünya Bankı ilə «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti arasında artıq əməkdaşlığa başlanıldığı və bu istiqamətdə işlərin aparıldığı qeyd edildi. Ölkəmizdə həyata keçirilən bir sıra layihələr, o cümlədən «ASAN xidmət» sahəsində görülən tədbirlər də yüksək qiymətləndirildi, Dünya Bankının «ASAN xidmət» ilə əməkdaşlığının genişləndirilməsi istiqamətində işlərin aparıldığı vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, dünyada gedən maliyyə böhranına baxmayaraq, iqtisadi inkişaf sahəsində əldə olunan nailiyyətlər, hökumətin maliyyə və büdcə sisteminin təkmilləşdirilməsi istiqamətində apardığı işlər, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi sahəsində qazanılan nailiyyətlər, kənd təsərrüfatında aparılan islahatlar, ölkənin iqtisadi potensialının artması fonunda ixrac bazarlarının müəyyənləşdirilməsi,*

*infrastruktur layihələrinin icrası, ictimai sektor, əhalinin sosial müdafiəsi, ölkənin mühüm nəqliyyat–tranzit əhəmiyyətinin artması, sosial, təhsil, yeni iş yerlərinin yaradılması, regionların inkişafı və digər sahələrdə icra olunan layihələr və həyata keçirilən işlərdən danışıldı.*

*Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ MALİYYƏ, GƏLİR, İQTİSADİ MƏSƏLƏLƏR, STATİSTİKA VƏ ÖZƏLLƏŞDİRMƏ NAZİRİ MƏHƏMMƏD İSHAQ DAR İLƏ GÖRÜŞ

*3 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Pakistan İslam Respublikasının Maliyyə, Gəlir, İqtisadi Məsələlər, Statistika və Özəlləşdirmə naziri Məhəmməd İshaq Darı qəbul etmişdir.*

*Nazir Məhəmməd İshaq Dar Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. Məhəmməd İshaq Dar Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Pakistanda həyata keçirdiyi bir sıra sosial və humanitar layihələrə görə ölkəsinin xalqının və rəhbərliyinin minnətdarlığını ifadə etdi.*

*Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə də əməkdaşlığımızın bu səviyyəyə çatdırılmasının önəmini qeyd etdi. Pakistan Prezidentinin ölkəmizə səfərini və onunla keçirdiyi müxtəlif görüşləri məmnunluqla xatırladan prezident İlham Əliyev bu görüşlər zamanı ölkələrimiz arasında maliyyə, iqtisadiyyat, investisiya qoyuluşu və digər sahələrlə bağlı məsələləri müzakirə etdiklərini vurğulayaraq ikitərəfli əlaqələrin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd etdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində*

*əməkdaşlığının* da *yüksək səviyyədə olduğunu* deyən *prezident İlham Əliyev Xocalı soyqırımı ilə bağlı* Pakistan *parlamentində qəbul edilən qətnaməyə görə təşəkkürünü* bildirdi.

*Dövlətimizin başçısı* Pakistan *İslam Respublikasının* Prezidenti *Məmnun Hüseynin və Baş* nazir *Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş* etdi.

## ASİYA İNKİŞAF BANKININ RƏHBƏRLƏR ŞURASININ 48-ci İLLİK TOPLANTISININ SESSİYASINDA İŞTİRAK

*Bakı Konqres Mərkəzi*

*4 may 2015-ci il*

*Bakı Konqres Mərkəzində mayın 4-də Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının sessiyası öz işinə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakao tədbirdə iştirak etmişlər.*

*Asiya İnkişaf Bankının 48-ci illik toplantısının Bakıda keçirilməsi barədə qərar 2012-ci ilin may ayında Manilada bankın Rəhbərlər Şurasının yekdil qərarı ilə qəbul edilib. Bununla əlaqədar olaraq, 2013-cü il fevralın 19-da «Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bankın Rəhbərlər Şurasının 48-ci illik toplantısı ilə bağlı Anlaşma Memorandumu» imzalanıb. Elə həmin il mayın 22-də prezident İlham Əliyev Baş nazirin birinci müavininin sədrliyi ilə Təşkilat Komitəsinin yaradılması barədə müvafiq sərəncam imzalayıb. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının illik toplantısı kimi mühüm bir tədbir Cənubi Qafqaz regionunda ilk dəfə məhz respublikamızda keçirilir. Bu nüfuzlu toplantıya üzv ölkələrin yüksək səviyyəli hökumət rəsmiləri, maliyyə nazirləri, mərkəzi bank rəhbərləri, həmçinin beynəlxalq maliyyə institutları və vətəndaş cəmiyyətlərinin təmsilçiləri, tanınmış alimlər, ekspertlər, gənc mütəxəssislər, ümumilikdə 3000-dək nümayəndə qatılıb. Toplantı çərçivəsində keçirilən silsilə*

*tədbirləri ölkəmizin kütləvi informasiya vasitələri ilə yanaşı, dünyanın 200-dək media orqanı geniş işıqlandırır.*

*Tədbirdən əvvəl Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının iştirakçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakao görüşüb söhbət etdilər.*

**Tədbirin aparıcısı:** Zati aliləri!

Xanımlar və cənablar!

Sizləri Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısında salamlayıram. Səxavətli ev sahiblərinə təşəkkürümüzü çatdırır və belə bir əzəmətli binada tədbirin keçirilməsinə şərait yaradıldığına görə minnətdarlığımızı bildiririk.

*Dövlətimizin başçısı sessiyada nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli prezident Nakao!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, sizi Azərbaycanda salamlayıram. Bizim üçün böyük qürur və şərəfdir ki, Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının illik toplantısına ev sahibliyi edirik. Bu toplantı yeni inşa edilmiş və açılışını 1 həftə öncə etdiyimiz Bakı Konqres Mərkəzində baş tutur. Bu, Bakının ən iri tədbir yeridir və onun inşasına 1 il öncə başlanılmışdır. Yəni tikintinin sürəti Azərbaycanın inkişaf sürətinə bərabərdir. Əminəm ki, Asiya İnkişaf Bankının köməyi ilə bizim ölkə daha da böyük nailiyyətlər əldə edəcəkdir.

Azərbaycan Asiya İnkişaf Bankına 1999-cu ildə qoşulmuşdur. O vaxtdan bəri bizim çox səmərəli əməkdaşlığımız olmuşdur və biz Asiya İnkişaf Bankının iqtisadiyyatımızın müasirləşməsi, əhalimizin yaşayış standartlarının yaxşılaşdırılmasında xalqımızın səylərinin davamlı dəstəklənməsinə görə Asiya İnkişaf Bankına təşəkkürümüzü bildiririk. Əminəm ki, bizim

səmərəli əməkdaşlığımız davam edəcəkdir, çünki Azərbaycanda hələ də islahatların aparılması, infrastrukturun təkmilləşdirilməsi və iqtisadiyyatımızın real sektorunda sərmayələrin qoyuluşu sahəsində görüləcək işlər çoxdur.

Bu günədək Asiya İnkişaf Bankı tərəfindən Azərbaycana 1,5 milyard dollar məbləğində vəsait ayrılıb, xalqımız bu layihələrdən bəhrələnib və həmin vəsait davamlı iqtisadi inkişafımıza xidmət edib.

Qonaqların əksəriyyəti ilk dəfədir ki, buraya səfər edirlər. Əminəm ki, bu, Azərbaycanı yaxından tanımaq üçün gözəl fürsət olacaq. Çünki Azərbaycan müstəqil ölkə kimi, dünya xəritəsində 23 ildən bir az artıq müddətdir ki, mövcuddur. Azərbaycan öz qədim tarixi, mədəniyyəti və ənənələrinə görə məşhurdur və əminəm ki, qonaqlarımız tarixi yerlərimizi ziyarət edəcək, Azərbaycan, xalqımızın ənənələri, keçmişimiz və bu günümüz haqqında daha dolğun məlumat əldə edəcəklər.

Azərbaycanın coğrafi yerləşməsi birmənalı olaraq bizim bir ölkə kimi inkişafımıza təsir edib. Şərq və Qərb, Asiya və Avropa arasında yerləşdiyinə görə Azərbaycanda əsrlərboyu multikultural cəmiyyət mövcud olmuşdur. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, Azərbaycan hər zaman əməkdaşlıq və qarşılıqlı anlaşma məkanı olub. Biz tariximizlə, multikultural tariximizlə fəxr edirik. Biz Azərbaycanın müasir və tolerant ölkə kimi inkişafına sadiqik ki, burada bütün millətlərin və dinlərin nümayəndələri sülh şəraitində və ləyaqətli şəkildə yaşasın.

Bir neçə il öncə yaradılmış Beynəlxalq Multikulturalizm Mərkəzi bizim daha da təhlükəsiz dünya, insanların özlərini daha qorunmuş hiss etdikləri, irqi ayrı-seçkilik, dini nifrət olmayan dünya naminə müsbət meyillərin inkişafına verilən töhfəmizdir.

Bizim səylərimiz nəticəsində Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Mədəni müxtəliflik bizim ölkənin ən böyük sərvətlərindəndir. Bu gün biz fəxr edirik ki, burada müxtəlif ölkələrdən olan çoxsaylı qonaqlar var.

Əminəm ki, bizim qarşılıqlı etimad, hörmət və marağa əsaslanan əməkdaşlığımız uğurla davam edəcəkdir.

Müstəqil ölkə olaraq Azərbaycan Sovet İttifaqının süqutu nəticəsində yarandı. Ancaq XX əsrin əvvəlində Rusiya imperiyasının dağılmasından sonra Azərbaycan 2 il müstəqil olmuş və müsəlman dünyasının ilk demokratik respublikası məhz 1918-ci ildə Azərbaycanda yaranmışdı. Lakin müstəqillik işğal nəticəsində əlimizdən alındı və biz 70 il ərzində müstəqillikdən məhrum edildik. Yalnız 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdi.

O həm çətin, həm də böyük gözləntilərin olduğu illər idi. Çünki biz ölkəmizin güclü iqtisadiyyatını yaratmalı idik. Təəssüflər olsun ki, o zaman Azərbaycan çətin vəziyyətdə idi. Daxili gərginlik, vətəndaş müharibəsi təhlükəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və iqtisadi çətinliklər bizim üçün ən böyük çağırışlar idi. İqtisadiyyatımız yalnız durğunluq deyil, tənəzzül içərisində idi, inflyasiya 1000 faizdən artıq idi, siyasi və iqtisadi inkişaf perspektivləri o qədər də aydın deyildi.

Keçən əsrin 90-cı illərinin ortalarında başlanmış siyasi və iqtisadi islahatlar o çətinliklərin öhdəsindən gəlmək imkanı yaratdı, bugünkü Azərbaycanı müasir, demokratik və çox yaxşı perspektivlərə malik olan dövlət kimi inkişaf etdirməyə imkan verdi.

Biz siyasi və iqtisadi islahatların reallaşdırılmasına başladıq və eyni zamanda, iki mühüm məsələ qarşısında qaldıq. Birincisi, dövlət quruculuğu idi. Çünki bizim ondan əvvəl müstəqil dövlətimiz yox idi. İkincisi isə siyasi və iqtisadi sistemin transformasiyası idi. Siyasi sistem Sovet İttifaqından mövcud olan sistem idi, iqtisadiyyat isə planlı iqtisadiyyat prinsiplərinə əsaslanırdı.

O zaman bazar iqtisadiyyatı mövcud deyildi. Yəni qarşımızda olan çağırışlar bunlar idi – dövlət quruculuğu prosesi, siyasi sistemin və iqtisadiyyatın transformasiyası. Mən düşünürəm ki, olduqca qısa zamanda – 23 ildən bir qədər artıq

müddət ərzində – XX əsrin 90-ci illərinin ortalarından bu günədək biz mühüm irəliləyişə nail olmuşuq.

Azərbaycan özünün demokratik inkişafına sadiqdir. Azərbaycanda bütün azadlıqlar tam təmin edilir – siyasi fəaliyyət azadlığı, media azadlığı, toplaşma azadlığı, dini azadlıqlar. Bizdə azad internet var. İnternet istifadəçilərinin sayı gündən-günə artır və bu gün bu rəqəm 70 faizə çatır. Hökumətimiz fəal şəkildə müasir texnologiyalar, İKT sahəsinə sərmayə qoyur. Biz bu gün genişzolaqlı interneti Azərbaycanın hər bir kəndinə çəkirik.

Bu bizim niyyətlərimizin göstəricisidir. Biz aydın şəkildə dərk etdik ki, siyasi transformasiya, müasir idarəçilik sistemi olmasa, uğura nail ola bilmərik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Biz xarici sərmayələrin cəlb edilməsi siyasətinə başladıq. Çünki bizim maliyyə resurslarımız yox idi və beləliklə, XX əsrin sonunda Azərbaycan bir daha neft və qaza görə məşhur ölkəyə çevrildi.

Qeyd etmək istərdim ki, dünyada ilk neft XIX əsrin ikinci yarısında Azərbaycanda – Bakıda hasil edilib. Dənizdəki yataqlardan da ilk neft Xəzər dənizinin Azərbaycan sektorunda XX əsrin ortalarında hasil olunub. Beləliklə, neft sənayesi, ən iri neft və qaz şirkətlərinin sərmayələrinin cəlb edilməsi bizim inkişafımızın təmin edilməsi yolu oldu. Lakin biz hər zaman deyirik ki, bu bizim yekun hədəfimiz deyil, inkişafımız üçün vasitədir. Biz ehtiyatlarımızdan istifadə yolu ilə ölkəmizi transformasiya edərək, müasirləşdirməli, xalqımız üçün daha yaxşı şərait yaratmalıyıq.

Bu islahatların həyata keçirilməsi qonşu Ermənistanın bizə hücum etdiyi vaxta təsadüf edirdi. Ermənistan Azərbaycana qarşı təcavüzə başladı. Həmin təcavüz nəticəsində Azərbaycanın ərazisinin 20 faizə yaxın hissəsi işğal altındadır. 1 milyondan artıq qaçqın və məcburi köçkün Ermənistanın təcavüzündən əziyyət çəkir. Əhaliyə qarşı etnik təmizləmə siyasəti aparılıb, Ermənistan ordusu və separatçı qüvvələr Azərbaycanda etnik təmizləmə və soyqırımı törədiblər.

Təəssüflər olsun ki, 20 ildir danışıqlar aparılır, lakin heç bir nəticə yoxdur. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Bu, XXI əsrdə qətiyyən qəbuledilməzdir ki, bir dövlət digərinin ayrılmaz və qanuni hissəsini işğal edir və buna görə cəzalandırılmır.

Bu bizdə bir daha elə bir təsəvvür yaradır ki, beynəlxalq hüquq qüvvədə deyil. Məsələn, bizim məsələmizdə dünyanın ən mötəbər beynəlxalq təsisatı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, onlar Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz olaraq çıxarılmasını tələb edir. Lakin bu qətnamələr 20 ildən artıqdır ki, tətbiq olunmur.

Bu, ən böyük ədalətsizlik və beynəlxalq hüququn pozulmasıdır. Bu bir daha nümayiş etdirir ki, beynəlxalq hüquq siyasi preferensiyalara malik olan və dünyada beynəlxalq münasibətlərə təsir edən dövlətlər tərəfindən selektiv şəkildə tətbiq olunur. Biz eyni zamanda, humanitar fəlakətlə üzləşmişdik. Dünyada adambaşına düşən ən çox sayda qaçqın məhz Azərbaycanda idi – 9,6 milyonluq əhalinin 1 milyonu.

Biz bu insanların qayğısına qalmalı, iqtisadiyyatımızı inkişaf etdirməli və sərmayə cəlb etməli idik. Lakin bizim sabitliyə və sülhə ehtiyacımız var idi.

Hazırda biz Ermənistanla atəşkəs şəraitindəyik. Biz münaqişənin beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə çalışırıq. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. O, zorla, istənilən dövlətin hökuməti və xalqının razılığı olmadan dəyişdirilə bilməz.

Bu səbəbdən dünyada bütün münaqişələr eyni prinsiplə istisnasız olaraq – beynəlxalq hüquq və ərazi bütövlüyü əsasında həll edilməlidir. Biz bu vəziyyətdə inkişaf etməli idik. Biz anladıq ki, yalnız güclü olduğumuz təqdirdə məqsədlərimizə nail ola bilərik.

Siyasi və iqtisadi inkişaf, sərmayə bütün məsələlərdə bizə planlarımıza nail olmağa imkan verdi. Azərbaycanın xarici

siyasətinə gəldikdə, o çox fəaldır. Siyasətimiz daha çox dostların əldə edilməsinə yönəlib. O, açıq siyasətdir. Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvüdür. Müxtəlif beynəlxalq təsisatların üzvüdür. Məsələn, biz Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Bir neçə il öncə biz «Qoşulmama Hərəkatı»nın üzvü olduq.

Bizim dünyada olduqca müsbət imicimiz var. Bir neçə il öncə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Yəni beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycana etimad göstərir və bizim lehimizə səs verir. Bu bizim ən böyük siyasi və diplomatik nailiyyətimizdir.

Biz bununla fəxr edirik. Təhlükəsizlik Şurasında biz bəyan etdiyimiz kimi, ədalət və beynəlxalq hüququ müdafiə etdik. Biz dərk etdik ki, taleyimiz və gələcəyimiz öz əlimizdədir. Beləliklə, bizim hədəfimiz özünü təmin edən iqtisadiyyat, dayanıqlı iqtisadiyyat yaratmaq idi. Biz buna nail olunmasının yollarını axtarırdıq və əlbəttə, enerji amili ən açıq-aydın və investorların diqqətini ən çox cəlb edən sahə oldu.

Bununla da, 1994-cü ildə Azərbaycan enerji strategiyasını başladı və nəticədə hökumətimiz, xarici şirkətlər və qonşularımız arasında çox fəal və geniş əməkdaşlıq yarandı. Bizim nəhəng neft-qaz ehtiyatlarımız olsa da, sərmayəyə ehtiyacımız var idi və həmin sərvətlərin dünya bazarına nəqli üçün vasitə lazım idi. Biz dünya okeanlarına çıxışı olmayan qapalı ölkəyik və bu səbəbdən boru kəmərləri inşa etməli idik. Bu gün enerji strategiyamıza sadiqliyimizə əsasən, biz tarixdə ilk dəfə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə xam neft kəmərləri vasitəsilə birləşdirdik. Bu, regionun enerji xəritəsinin dəyişdirilməsində ilk addım idi.

Neft və qaz sahəsinə sərmayələrin cəlb edilməsi yerli şirkətlərimizə təmaslar qurmaq və təcrübə əldə etmək imkanı verdi. Bu bizə gənc nəslə təlim keçmək və yeni nəsil azərbaycanlılar hazırlamağa imkan verdi ki, onlar iri beynəlxalq enerji şirkətlərində çalışmaq təcrübəsinə malik olsunlar.

Biz keçən əsrin 90-cı illərinin sonunda nəhəng qaz ehtiyatlarını kəşf etdikdə, bu o zaman bizim üçün böyük çağırış, həm də böyük fürsət idi. Bu gün biz bilirik ki, enerji təhlükəsizliyi təbii qaz ehtiyatları ilə bağlıdır. Bu baxımdan Azərbaycanın regionda rolu çox vacibdir. Çünki biz bu prosesdə aparıcı ölkə idik. Biz «Cənub Qaz Dəhlizi»nin tikintisinin təşəbbüskarı olduq. Bu gün o, regionun və Avropanın 10 dövlətini birləşdirir, inşaat işləri artıq başlanılıb.

Bu hazırda Avropada reallaşdırılan ən iri infrastruktur layihəsidir. «Cənub Qaz Dəhlizi»nin inşası və bizim qaz yataqlarımızın istismarını nəzərdə tutan bu layihənin dəyəri 45 milyard dollara bərabərdir. Azərbaycan bu prosesdə aparıcı qüvvədir. Bu gün dünyanın müxtəlif yerlərində istehlakçıların Azərbaycan qazına ehtiyacı var. Bu gün enerji siyasəti ölkəmizin geosiyasi əhəmiyyətini və imkanlarını artırır. Biz neft ixracından mənfəət əldə etməyə başlamışıq. Bir müddətdən sonra «Cənub Qaz Dəhlizi» layihəsi başa çatanda Azərbaycan bir neçə onillik, mən deyərdim, 100 il ərzində region və Avropa istehlakçıları üçün ən mühüm təbii qaz təminatçısından biri olacaq. Əlbəttə, bizim geosiyasi əhəmiyyətimiz və nüfuzumuz artacaq. Təbii ki, hər bir ölkə kimi, biz də regional məsələlərdə daha çox imkanlar əldə etmək istəyirik.

Bizim bütün siyasətimiz regional əməkdaşlığa yönəlib. Biz hər zaman qarşılıqlı faydalı vəziyyət yaratmağa çalışırıq. Məsələn, enerji sahəsində istehsalçı, tranzit və istehlakçı dövlətlər arasında yalnız belə olan halda layihələr uğurlu ola bilər. Biz heç vaxt enerji resurslarımızdan təzyiq aləti və ya əsaslandırılmamış üstünlük, yaxud mənfəət əldə edilməsi üçün istifadə etməmişik. Əksinə, biz hər zaman tərəfdaşlarımızı, tranzit və istehlakçı ölkələri dəstəkləyirik. Bununla da vahid məqsəd ətrafında ölkələr ailəsi yaranır ki, bu məqsəd hər birimiz üçün faydalı olan layihənin reallaşdırılmasıdır.

Hazırda Azərbaycanın enerji siyasəti regionumuzda getdikcə daha vacib rol oynayır. Həyata keçirməkdə olduğumuz layihələr Avropanın enerji xəritəsini tamamilə dəyişdirir. Resursların və

mənbələrin şaxələndirilməsi Azərbaycanın bu layihələri nə dərəcədə uğurlu həyata keçirəcəyindən asılıdır. Biz hər zaman demişik ki, iqtisadiyyatımız üçün ən vacib məqam davamlı inkişafdır. Biz həmişə neft və qazdan asılılığımızı azaltmağa çalışırıq və uzun illərdir həyata keçirdiyimiz şaxələndirmə siyasəti gələcək inkişaf üçün yaxşı fürsətlər yaradır.

Bizim ümumi daxili məhsulumuzun strukturuna nəzər salsaq görərik ki, onun 70 faizi qeyri-neft sektorundan ibarətdir. Lakin ixracımıza baxdıqda onun mütləq əksəriyyətinin neft və qazla əlaqəli olduğu bəlli olur. Bu, təbii haldır. Çünki söhbət nəhəng həcmlərdən gedir və bu həcmlər artacaqdır. Çünki bir neçə ildən sonra ixrac edəcəyimiz təbii qaz bizim enerji ixracında bu nisbəti daha da artıracaqdır.

Bu səbəbdən biz sərmayə cəlb etməyə və sərmayə yatırmağa çalışırıq ki, yerli və xarici investorlar üçün qeyri-neft sektorunda yaxşı imkanlar yaransın. Fəxr edirik ki, bizim qeyri-neft sektorumuzun artımı ümumi iqtisadi artımı üstələyir. Bu ilin ilk 3 ayında ümumi daxili məhsul 5,3 faiz artdığı halda, qeyri-neft sektorunda 7 faiz artım qeydə alınıb.

Təbii ki, neft və qaz istehsal edən ölkə kimi, neftin qiymətinin kəskin dəyişməsi bizdə narahatlıq doğurur. Lakin onu da qeyd etmək istərdim ki, bu bizim üçün bir növ çağırışdır ki, daha da səmərəli olaq, büdcəni daha da möhkəmləndirək, zəruri olmayan xərcləri azaldaq və diqqətimizi yaxşı idarəçilik və menecmentə yönəldək.

Qara qızıl adlandırdığımız neftin insan kapitalına çevrilməsi dövlət siyasətimiz olub və heç zaman bizim iqtisadiyyatımız bugünkü qədər şaxələndirilmiş olmayıb. Bizim hədəfimiz elə bir dayanıqlı iqtisadiyyat yaradıb ki, burada neft amili başlıca rol oynamasın. O, yalnız maliyyə ehtiyatlarının artırılmasına xidmət etməlidir ki, bizim üçün bu, siyasi və iqtisadi təhlükəsizlik məsələsidir. Bu da öz növbəsində, maliyyə bazarlarında hər hansı gözlənilməz hadisədən sığortalanmaq deməkdir.

Ancaq əsas diqqət iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilib. Bilirəm ki, bu günlərdə keçirilən görüş və ya seminarlarda nümayəndələrimiz Azərbaycanın iqtisadi nailiyyətləri haqqında məlumat veriblər. Bununla belə, sürətli inkişaf illəri olan son 10 il ərzində görülmüş işlərlə bağlı bir neçə rəqəmi xatırlatmaq istərdim. Ümumi daxili məhsul 3 dəfə artıb, xarici borcumuz olduqca aşağı səviyyədədir, ümumi daxili məhsulun təqribən 10 faizini təşkil edir. Biz milyardlarla xarici sərmayə cəlb edə bilmişik, müstəqillik illərində bu rəqəm 200 milyard dollara bərabər olub. Ötən il ərzində bu rəqəm 27 milyard dollar təşkil edib. Biz görürük ki, bu rəqəm artmaqdadır və ən vacib məsələ ondan ibarətdir ki, bu vəsaitin 70 faizi yerli sərmayədir. Bununla belə, Azərbaycan xarici sərmayələr üçün çox cəlbedici ölkə olaraq qalır. Biz 9 milyondan artıq əhaliyə malik olduğumuz ölkədə 1 milyondan artıq iş yeri yaratmağa müvəffəq olmuşuq. Bunun nəticəsində işsizlik çox aşağı səviyyəyə, təqribən 5 faizə enib. Bizim ən böyük nailiyyətimiz isə düşünürəm ki, yoxsulluğun aradan qaldırılması ilə bağlıdır. 10-15 il öncə bu göstərici 50 faizə bərabər idisə, bu gün həmin rəqəm 5 faizdir. Bu onu nümayiş etdirir ki, «Holland sindromu»na, iqtisadiyyatın birtərəfli inkişafına düçar olmadıq. Biz «qara qızıl»ı insan kapitalına çevirə bildik. Məlumdur ki, enerji sektorunda çoxsaylı iş yerləri yaranmır və heç də hər bir halda o, firavanlığa səbəb olmur, bəzi hallarda cəmiyyətdə təcridolunma və parçalanmaya səbəb olur. Zənginlər daha da zəngin, yoxsullar isə daha da yoxsul olur. Bu isə sosial problemlər və ədalətsizliklə nəticələnir. Bu səbəbdən bizim əsas hədəfimiz hər bir Azərbaycan vətəndaşının bu inkişafdan faydalanması olub. Hər bir vətəndaş ümumi inkişafda bunları görür – infrastrukturun yaradılmasını, yeni məktəb və xəstəxanaların inşasını, yaşayış səviyyəsinin yaxşılaşması və yeni iş yerlərinin açılmasını.

Beləliklə, işsizliyin, yoxsulluğun azaldılması və Azərbaycanın regionlarının inkişafı əsas hədəflərimizdən olub. Biz regionların inkişafını arzulayırdıq. Bunun üçün 3 dövlət proq-

ramı qəbul edilib ki, onların sayəsində yalnız Bakı sakinləri üçün deyil, regionlarda yaşayan əhali üçün də yeni imkanlar yaransın. İnfrastruktura qoyulan sərmayələr məsələsi olduqca vacibdir. Vaxt var idi ki, biz elektrik enerjisini idxal edirdik, bu gün ixrac edirik. Vaxt var idi ki, biz təbii qazı idxal edirdik, indi ixrac edirik.

Asiya İnkişaf Bankının və digər beynəlxalq qurumların köməyi ilə və hazırda dövlət vəsaiti hesabına biz sosial infrastruktura sərmayə yatırırıq. Son 10 ildə 500-dən artıq xəstəxana və tibb ocağı, 3 mindən çox məktəb inşa edilib ki, bu da Azərbaycanın sosial infrastrukturunu tamamilə dəyişib.

Hazırda biz ətraf mühitin qorunması məsələsinə diqqət yetirməliyik. Bakı hər zaman sənaye şəhəri olub və neftə görə Azərbaycanın mərkəzinə çevrilib. Neftin kəşfinə qədər Bakı sadəcə, xəritəmizdə coğrafi məkan idi. Biz XX əsrin əvvəlində istehsal olunan neftin yarısından çoxunu hasil edirdik.

İkinci dünya müharibəsi zamanı Azərbaycan Sovet İttifaqında hasil olan neftin 70 faizini istehsal edirdi və bu da faşizm üzərində Qələbədə həlledici rol oynamışdı. Ancaq müstəqilliyimizin ilk illərində biz nələrlə üzləşdik? İnflyasiya, durğunluq, neft sənayesinin dağılması və ekoloji fəlakət. Bu səbəbdən 10-15 il öncə Bakıya gəlmiş insanlar artıq onu tanıya bilmir. Çünki o zaman şəhər qaranlıq və çirkli idi. Hər yerdə köhnəlmiş sənaye əraziləri var idi. Bu gün artıq Bakı turizm şəhəri, mühüm tədbirlərin keçirildiyi məkandır. Biz ictimai yerlərin yaradılmasına və ətraf mühitlə bağlı məsələlərə böyük sərmayə qoymuşuq. Biz neft gölməçələrinin təmizlənməsinə, Bakı ətrafında və Abşeron yarımadasında çirkli torpaqların bərpa edilməsinə böyük vəsait yatırmalı olduq. Bu, yalnız müstəqil və azad olanda, öz sərvətinin sahibi olanda mümkündür. Azərbaycan müstəqilliyini 1991-ci ildə deyil, 1971-ci ildə bərpa etmiş olsaydı, biz bəlkə də dünyanın ən zəngin dövlətlərindən biri olardıq. Bu bir reallıqdır, lakin qısa bir zamanda biz itirdiyimizi bərpa etməyə çalışdıq.

Biz aydın başa düşürdük ki, iqtisadi müstəqillik olmadan, siyasi müstəqilliyimiz tamhəcmli olmayacaqdı. Enerji təhlükəsizliyi, iqtisadi müstəqillik və öz sərvətimizə güvənməyimiz inkişafımızın aparıcı qüvvəsi oldu. Təbii ki, digər vasitələrdən də istifadə etməyə çalışırıq, xüsusilə də coğrafi mövqemizdən. Bu gün Azərbaycan nəqliyyat qovşağına çevrilir. Biz yaxşı coğrafi mövqeyə və infrastruktura malikik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə yatırdıq. Hazırda biz Xəzər dənizində ən iri dəniz limanı inşa edirik. Onun illik yük qəbuletmə qabiliyyəti 25 milyon tona bərabərdir. Biz 5-i beynəlxalq olmaqla, 7 hava limanı inşa etmişik. Azərbaycan–Gürcüstan–Türkiyəni birləşdirəcək dəmir yolu xəttinin tikintisi başa çatmaq üzrədir. Bununla da Avropa və Asiya «Dəmir İpək yolu» vasitəsilə birləşəcəkdir. Bu yol Azərbaycan ərazisindən keçəcək, nəqliyyat üçün ən qısa və rahat yol olacaqdır. Bu, Avropadan Asiyaya və əks istiqamətdə yüklərin daşınması marşrutu olacaqdır ki, bununla Azərbaycanın geosiyasi əhəmiyyəti artacaq. Bu da əlavə sərmayələrin cəlb edilməsi deməkdir. Bu isə daha yaxşı vəziyyətin yaranması ilə nəticələnəcək.

Bizim planlarımız nədən ibarətdir: müasirləşmə, dövlət tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması. Biz «ASAN» adlı yenilik tətbiq etmişik ki, burada bir mərkəzdə bir neçə dəqiqə içərisində əhaliyə 30-dan artıq dövlət xidməti göstərilir. Biz şaxələndirmə siyasətimizi davam etdirəcəyik. İnformasiya-kommunikasiya texnologiyaları, kosmik sənaye Azərbaycanda uğurla inkişaf edir, kənd təsərrüfatı sahəsində böyük potensial var. Düşünürük ki, kənd təsərrüfatı və qeyri-neft sektorunun məhsulları iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaqdır. Biz yeni bazarlar axtarmalı və orada mövqelərimizi gücləndirməliyik. Çünki yaxın gələcəkdə biz əsas kənd təsərrüfatı məhsulları baxımından özümüzü 100 faiz təmin edəcəyik. Bu səbəbdən beynəlxalq bazarlara çıxış əsas məsələ olacaqdır. Nəzərə alsaq ki, əhalimizin 40 faizdən çoxu kənd yerlərində yaşayır, bunun da böyük sosial təsiri olacaqdır.

Biz Azərbaycanda makroiqtisadi vəziyyəti yaxından izləyəcəyik. Bir neçə ay öncə milli valyutamızı devalvasiya

etməli olduq, çünki olduqca güclənmişdi. Biz maliyyə islahatını həyata keçirəndə 1 manat 1 dollara bərabər idi. Lakin 10 il ərzində manat dollara nisbətdə çox gücləndi ki, bu da qeyri-təbii hal idi. Bütün qonşu dövlətlərdə milli valyuta artıq devalvasiya olmuşdu və biz də milli valyutamızı 33-34 faiz devalvasiya etdik. Ancaq bütün gündəlik tələbat məhsulları ölkədə istehsal edildiyindən bunun istehlak qiymətlərinə böyük təsiri olmadı. Beləliklə, makroiqtisadi sabitlik, aşağı səviyyəli inflyasiya nəzarət altında olacaq. Elə bir səviyyə ki, ixracatçılarımız sərbəst hərəkət edə bilsin.

Biz maliyyə vəsaitlərinin toplanmasını davam etdirəcəyik. Bu gün həmin vəsaitlər ümumi daxili məhsulun təqribən 70 faizini təşkil edir. Bu işlər davam edəcək, eyni zamanda, mühüm sahə olan infrastruktura sərmayə yatırılacaq. Biz özəl sektora aşağı faizli kreditlərin verilməsi nəticəsində bu sahənin stimullaşdırılmasını və iqtisadiyyatın real sektoruna sərmayələrin cəlb olunmasını davam etdirəcəyik.

İqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritet məsələdir və bu, diqqət mərkəzində olacaq. Biz xarici borcumuzu mümkün qədər aşağı səviyyədə saxlamağa çalışacağıq. Bu gün 9–11 faiz göstərici mükəmməl hesab oluna bilər, lakin nəzərə almaq lazımdır ki, buraya diqqət yetirilmədikdə, bu rəqəm arta bilər və tədbir görmək üçün artıq gec ola bilər.

Bizim coğrafi və iqlim şəraitimizi nəzərə alsaq görərik ki, 11 iqlim qurşağından 9-u Azərbaycanda mövcuddur. Gələcək illərdə turizm bizim iqtisadiyyatımızın mühüm sahəsi olacaq və bu cür toplantılar ölkəmiz haqqında real mənzərə və təsəvvür yaradır.

Biz müstəqil olaraq gənc ölkəyik, heç də hər kəs bizi tanımır. Lakin biz siyasi, iqtisadi müstəqillik, azadlıq və tərəqqi yolunun davam etdirilməsinə sadiqik. Mən əminəm ki, Asiya İnkişaf Bankı kimi gözəl tərəfdaşların sayəsində biz bütün məqsədlərimizə nail olacağıq. Çox sağ olun!

* * *

**T a k e h i k o   N a k a o** *(Asiya İnkişaf Bankının prezidenti):* Zati-aliləri cənab prezident İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar, sabahınız xeyir!

Mən çox şadam ki, Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısında sizi salamlayıram!

Asiya İnkişaf Bankı ilə Azərbaycan artıq 15 ildir ki, tərəfdaşdır. Ötən 15 il ərzində Azərbaycan həqiqətən, öz gəlirlərini 4 dəfə artıra və yoxsulluq səviyyəsini ciddi şəkildə azalda bilib. Bu, Azərbaycanın davamlı inkişaf məqsədlərinə nail olmaq işinə töhfəsidir. Mən hamımızın adından bizi bu gözəl şəhərə dəvət etdiyinə görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığımı bildirirəm.

*Asiya İnkişaf Bankının prezidenti rəhbərlik etdiyi qurumun 2014-cü ildə keçdiyi inkişaf yolunu ətraflı xarakterizə etdi. O bildirdi ki, Asiya İnkişaf Bankı ötən illərdə maliyyə imkanlarını xeyli artırıb və layihələrin icrasının keyfiyyəti yaxşılaşdırılıb. Yaxın illərdə Asiya və Sakit Okean regionunda iqtisadi inkişafın artım tempi Avrozona və Yaponiyanın müvafiq göstəricisini üstələyəcək. Takehiko Nakao qeyd etdi ki, Asiya İnkişaf Bankı yoxsulluğun azaldılması istiqamətində tədbirlərini daha da gücləndirir, infrastruktur layihələrinə diqqəti ilbəil artırır.*

*Bankın təhsil və səhiyyə sahələrinə dəstəyini 2 dəfə artırdığını vurğulayan Takehiko Nakao dedi:*

– Azərbaycana baxdıqda biz məktəbləri gözdən keçirərək, millətin tərəqqisinə bələd ola bilərik. Bir çox ölkələr universitetlərə qəbul səviyyəsini təmin etməyə nail oldular. Onlar, həmçinin təhsilin keyfiyyətini və səviyyəsini artırmağa müvəffəq oldular. Asiya İnkişaf Bankı keyfiyyətli təhsili təşviq edir. Həmçinin təlimlər vasitəsilə biz bu işin öhdəsindən gəlirik.

*Takehiko Nakao bildirdi ki, bank səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və universal səhiyyə sisteminin formalaşdırılması istiqamətində böyük işlər görür. O, Asiya İnkişaf*

*Bankının bərpa olunan enerji mənbələri məsələlərini də xüsusi diqqətdə saxladığını vurğulayaraq bildirdi:*

– Biz enerji effektivliyini, bərpa olunan enerji mənbələrinin gücləndirilməsini, davamlı nəqliyyatı və davamlı inkişaf edən komponentləri müəyyənləşdirmişik. Biz ehtiyatlarımızı günəş və digər bərpa olunan enerji mənbələri ilə əlaqədar məsələlərə yönəldəcəyik. Keçən il biz 4 milyard dolları iqlim dəyişikliyinin yumşaldıcı və uyğunlaşdırıcı tədbirlər sahəsində əməliyyatlara yönəltdik. Bir çox əməliyyatlar sahəsində biz yeni İnvestisiya Fondu yaratmağa müvəffəq olduq.

*Takehiko Nakao bankın ətraf mühit və yaşıllaşdırma tədbirlərinə də xüsusi diqqət yetirdiyini qeyd etdi:*

– Bakıda biz yaşıl avtobuslar sistemini təşkil etməyə başladıq ki, şəhərlərdə artım davamlı olsun və bizim layihə risklərimiz azalsın. Biz əsas investorları bu investisiyalara cəlb etməyə müvəffəq olduq. Bununla da azməsrəfli fəaliyyətlər sayəsində müxtəlif insanları qorumağa müvəffəq olduq. Bir çox maliyyə alətlərini kiçik ada ölkələri və meqaşəhərlər üçün nəzərdə tutmuşuq. Bizim əsas diqqətimiz məhz bu 3 sahəyə yönəlib. Gələcəkdə bu, ortamüddətli nəzarət hesabatında öz əksini tapacaq.

*Asiya İnkişaf Bankının prezidenti bir sıra yeni qlobal təşəbbüsləri də dəstəklədiklərini diqqətə çatdırdı:*

– Biz yeni qlobal təşəbbüslərə imza atmaq istəyirik. Mən istəyirəm ki, Asiya İnkişaf Bankı daha güclü, daha çevik hərəkət edən, daha səmərəli fəaliyyət göstərən qurum olsun. Biz öz imkanlarımızı nəzərə alaraq daha da güclənməliyik. Biz Asiya İnkişaf Bankının əməliyyatlarını 20 milyard dollara çatdırmalıyıq. Bizim yoxsul dövlətlərə dəstəyimiz artıq 70 faizə çatdırılıb. Bu istiqamətdə özəl şirkətlərin əməliyyatları üçün imkanlar var. Həmmaliyyələşməyə gəldikdə isə, bizim sərmayələrimiz 40 milyard dollara çatdırılmalıdır və digər imkanlardan da yararlanmalıyıq. Lakin biz bundan hansı şəkildə yararlanmağı bilməliyik. Biz bir neçə ölkə ilə fəal şəkildə çalışırıq ki, maliyyələşmə sxemlərimizin yaradılması üçün alətləri icad

edək. Biz həmçinin həmmaliyyələşmə imkanlarının artırılmasına çalışırıq. Biz Asiya İnfrastruktur İnvestisiya Bankı ilə sıx əməkdaşlıq edirik. Regionda bu bankın maliyyə ehtiyatlarına ehtiyac vardır. Biz bu imkanları artırmağa çalışırıq və sizin dəstəyinizə arxalanırıq ki, gələcəkdə maliyyə və kapital ehtiyatlarımızı artıraq. Biz həmçinin öz ekspertiza xidmətlərimizi gücləndirməliyik, ən sınanmış alətlərdən və uzunmüddətli kredit sxemlərindən bəhrələnməliyik.

*Gələcəkdə bankın fəaliyyətinin daha da genişləndirilməsi perspektivlərini ətraflı xarakterizə edən Takehiko Nakao Asiya və Sakit okean regionunda yoxsulluğun azaldılması və əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini vurğuladı.*

*Sonra ölkəmizin tarixini, mədəniyyətini, malik olduğumuz zəngin dəyərləri özündə əks etdirən maraqlı kompozisiya təqdim edildi. Azərbaycan musiqisinin müşayiəti ilə təqdim edilən kompozisiyada insanlığın yaranışından müasir günümüzə qədər ölkəmizin keçdiyi tarixi mərhələlərə nəzər salındı, Azərbaycanın dünya tarixindəki strateji yeri və qlobal proseslərə təsir imkanları barədə qonaqlara geniş məlumat verildi. Son 10 ildə ölkəmizin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, iqtisadi strategiya barədə məlumatların yer aldığı təqdimatda iyun ayında Bakıda keçiriləcək ilk Avropa oyunları ilə əlaqədar informasiyaya da geniş yer verildi.*

*Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının iştirakçılarının şərəfinə ziyafət verildi.*

## İTALİYA RESPUBLİKASININ İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ PYER KARLO PADOANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də İtaliya Respublikasının İqtisadiyyat və Maliyyə nazіri Pyer Karlo Padoanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının Bakıda keçirilməsinin önəmi qeyd olundu, tədbirin yüksək səviyyədə təşkil olunduğu bildirildi, ölkələrarası iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından toplantının rolu xüsusi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin tərəfdaşlıq səviyyəsinə qalxdığı və uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın siyasi, iqtisadi, mədəni, enerji, ticarət, turizm, kənd təsərrüfatı və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.*

# YAPONİYA BAŞ NAZİRİNİN MÜAVİNİ TARO ASONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Yaponiya Baş nazirinin müavini, Maliyyə naziri Taro Asonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyətindən danışıldı, ölkəmizdə aparılan uğurlu siyasət nəticəsində böyük iqtisadi inkişafa nail olunduğu vurğulandı, I Avropa oyunlarının ilk dəfə Azərbaycanda təşkil olunmasının önəmi qeyd edildi, respublikamızda mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün yaradılan müasir şərait yüksək dəyərləndirildi.*

*Söhbət zamanı Azərbaycan–Yaponiya ikitərəfli münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, informasiya-kommunikasiya texnologiyaları, turizm, humanitar və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «İNTURİST» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*5 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 5-də Bakıda «İnturist» hotelinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə hotel barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, beşulduzlu bu hotel «Absheron Hotel Group»a aiddir. Yeni hotel vaxtilə Bakıdakı «İnturist» mehmanxanasının arxitektura üslubunda inşa edilib. Bu mehmanxana nəinki Azərbaycanda, eləcə də keçmiş SSRİ-də çox məşhur idi. 1934-cü ildə istifadəyə verilən keçmiş «İnturist» mehmanxanası fəaliyyət göstərdiyi 70 il ərzində Bakının ən sevilən məkanı olub. Yeni hotel köhnə «İnturist» barədə xatirələri yaşatmaqla bərabər, nadir memarlıq quruluşu ilə diqqəti cəlb edir. Beşmərtəbəli binada 150 standart və suit nömrə var. Otaqların hamısı müasirliyi və rahatlığı ilə seçilir. Hotelin özəlliyini artıran cəhətlərdən biri də otaqların eyvanlarından Xəzər dənizinə və sahilboyu Bakı bulvarına açılan mənzərədir. Otaqların hamısı sürətli internet, havalandırma və digər zəruri sistemlərlə təchiz olunub.*

*Hoteldə SPA, kitabxana, iclas zalı, restoran və digər xidmət sahələri vardır. Terrasından dənizə gözəl mənzərə açılan restoranda dünya mətbəxinin təamları təqdim ediləcək. Buradakı şərait Bakının keçmiş əfsanəvi «İnturist» mehmanxanasının ab-havasını xatirələrdə canlandırır. Yeni «İnturist» fərqli və nadir mühiti ilə Bakının hotel biznesində özünə layiqli yer tutacaq.*

*Qeyd edək ki, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində* son *illər digər sahələrdə olduğu kimi, turizmin, o cümlədən müasir* hotel *sisteminin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə* edilib. *Təsadüfi deyil ki, Azərbaycanda yaradılan müasir* hotel *idarəçiliyi və bu sahənin inkişafı ölkəmizdə beynəlxalq səviyyəli bir çox* mehmanxana *brendlərinin açılması ilə nəticələnib.* Son *illərdə ölkənin* sosial-iqtisadi *inkişafı sayəsində yaradılan müasir* turizm infrastrukturunda *yeni «İnturist»* hotelinin *xüsusi* rolu olacaq. *Azərbaycandakı* sabitlik, *ölkəmizin qədim* tarixi, *zəngin mədəniyyəti, incəsənəti, mətbəxi və ən əsası qonaqpərvərliyimiz dünyada böyük* maraqla *qarşılanır.* Bunu son *illərdə ölkəmizə gələn turistlərin sayındakı artım* da *göstərir. Ölkəyə turistlərin cəlb olunmasında, əlbəttə ki, müasir hotellərin yaradılmasının* rolu *böyükdür. Belə müasir* hotelin *bütün dünyanın diqqət mərkəzində* olan *«Bakı–2015»* ilk *Avropa* oyunları *ərəfəsində istifadəyə verilməsi bu* oyunlarla *bağlı ölkəmizə gələn turistlərin rahatlığını təmin etmək baxımından* da *müstəsna əhəmiyyətə* malikdir. *Bu cür* infrastruktur *layihələrinin icrası Bakının* turizm *potensialını artırmaqla yanaşı, paytaxtın müasir simasının yaradılması işinə də öz töhfəsini verir.*

*Hotellə tanışlıqdan* sonra *dövlətimizin başçısı mehmanxananın* kollektivi *ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir! Bu gün şəhərimizin həyatında çox əlamətdar bir gündür. Yeni gözəl mehmanxana açılır. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. «İnturist» mehmanxanasının açılışı doğrudan da tarixi hadisədir. Bildiyiniz kimi, vaxtilə Azərbaycanda, Bakıda «İnturist» mehmanxanası olub. 80 il bundan əvvəl tikilmişdi. Əfsuslar olsun ki, sonra söküldü və onun yerində indi başqa bina tikilib.

Ancaq «İnturist» mehmanxanası yaşlı nəslin xatirəsində həmişə yaşayırdı. Ona görə çox şadam ki, belə bir qərar qəbul olundu və bu tarixi ədalət bərpa edildi. Gözəl yer seçilib. Əv-

vəlki «İnturist» mehmanxanasının yeri buradan bir o qədər də uzaqda deyil. Amma bu yer də çox gözəldir. Çox gözəl mənzərə açılır. Bir daha deməк istəyirəm ki, «İnturist» bundan sonra da yaşayacaqdır. Bu doğrudan da təqdirəlayiq hadisədir. Biz öz tariximizə çox bağlıyıq, tarixi irsimizə sadiqik və çalışırıq ki, həmişə tarixi ədaləti bərpa edək.

Onu da deməliyəm ki, bu mehmanxana ən yüksək standartlara cavab verir. Çox gözəl şərait yaradılıb. Adam burada özünü sanki öz evindəki kimi hiss edir, burada gözəl ab-hava var. Əminəm ki, yüksək xidmət də göstəriləcək və qonaqlar özlərini çox rahat hiss edəcəklər.

Son vaxtlar Azərbaycanda turizm sektoru sürətlə inkişaf edir. Kadr hazırlığı da lazımi səviyyədədir. Son illər ərzində Azərbaycanda, xüsusilə Bakıda çoxsaylı hotellər tikilib. Bu gün bütün müasir və ən qabaqcıl hotellərin brendləri Bakıda vardır. Son 2-3 il ərzində görün nə qədər gözəl hotellər tikilib. «Four Seasons», «Fairmont», «Mariott», «Kempinski», «Jumeirah», «Hilton», «Sheraton». Bunlardan əvvəl «Hyatt» var idi, indi də «İnturist» hoteli. «İnturist» mehmanxanasının bu hotellər sırasında öz yeri var. Əminəm ki, gələcəkdə bu proses davam edəcək. Çünki yaxın gələcəkdə yeni «Ağ şəhər» bulvarında «Boulevard» hoteli də açılacaq. Bulvarın uzunluğu artıq 16 kilometrə çatıb. «Ağ şəhər» bulvarı yaxın günlərdə insanların sərəncamına veriləcək. Beləliklə, Bakıya gələn qonaqlar şəhərimizi gəzəcək və bir daha görəcəklər ki, Azərbaycan nə qədər güclü ölkədir, Azərbaycan nə qədər sürətlə inkişaf edir. Bakıya gələn bütün qonaqlar bunu görür və qeyd edirlər.

Bakı dünyanın gözəl şəhərlərindən biridir və mənim üçün isə ən gözəl şəhərdir. Çünki Bakıda həm tarix, həm mədəniyyət, həm müasirlik bir vəhdət təşkil edir. Son vaxtlar o qədər ictimai yerlər açılıb ki, indi bu ictimai yerlərdə istirahət edə biləcək insanların sayı bəlkə də milyonlarla ölçülür. Bakı bulvarının dünyada analoqu yoxdur. Uzunluğu 16 kilometr olan bu bulvarda rahat, geniş gəzinti və velosiped zolaqları var. Digər ictimai yerlər də gözəldir. Yəqin siz də izləyirsiniz, vaxtilə zəbt

edilmiş bəzi torpaq sahələrini biz indi gözəl parklara çeviririk. Yəni ictimai yer insanlar üçündür. Bu gün Bakıda istirahət etmək, rahat dincəlmək üçün kifayət qədər geniş imkanlar var. Bu proses davam etdirilir. Bax, bu hotellə üzbəüz yerlər vaxtilə sənaye zonası idi və dəniz görünmürdü. Burada Gəmi təmiri zavodu, ondan sonra hərbi dəniz qüvvələrinə məxsus zavodlar yerləşirdi. Onların hamısı köçürüldü və bu gözəl yerlər artıq insanların sərəncamına verildi. Eyni mənzərəni biz «Ağ şəhər» bulvarında da görürük. Orada da bütün o yerlər ya zəbt edilmişdi, ya da vaxtilə sovet dövründə tikilmiş zövqsüz binalar yerləşirdi. Bu gün o ərazi insanlar üçün açıqdır. Ona görə Azərbaycana investisiyalar da qoyulur. Bax, budur bugünkü ölkəmiz. Azərbaycana gələn hər bir qonaq bunu qeyd edir.

Dünən Bakıda Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı keçirildi. Tədbirə minlərlə qonaq gəlmişdi və mənimlə söhbətlər əsnasında onların hamısı Bakı haqqında, Azərbaycan haqqında çox müsbət sözlər dedilər. Dedilər ki, Azərbaycanın bu qədər inkişaf etmiş ölkə olduğunu təsəvvür edə bilmirdilər. Bu həqiqətən, belədir və gələn ay ölkəmizə gələcək Avropa idmançıları da bunu görəcəklər. Mənə verilən məlumata görə, artıq hotelin bütün otaqları sifariş edilib və əminəm, siz qonaqlara yaxşı xidmət göstərəcəksiniz.

Bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

## MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏR VETERANLARI TƏŞKİLATININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*7 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi münasibətilə veteranları təbrik etdilər, ən xoş arzularını bildirdilər və onların ürək sözlərini dinlədilər.*

*Veteranlar ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiram hissi ilə xatırlatdılar.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası ilə tanış oldular.*

*Bina dövlətimizin başçısının müvafiq sərəncamı əsasında yaradılıb. Girişdə ulu öndərin büstü qoyulub. Prezidentə məlumat verildi ki, inzibati binadakı muzeydə elektron məlumat mərkəzi vasitəsilə ümummilli liderin veteranlarla görüşləri, Azərbaycan İkinci dünya müharibəsi illərində, Azərbaycan Böyük Vətən müharibəsindən sonra, prezident İlham Əliyevin veteranlarla görüşləri, Azərbaycan Qarabağ savaşında, ölkəmizin dünəni və bu günü mövzularında sənədlər, foto və videoarxivlə tanış olmaq mümkündür. Heydər Əliyev guşəsində müxtəlif fotolar və eksponatlar yer alıb. Burada veteranların və qonaqların*

*müxtəlif kitabları mütaliəsi üçün müvafiq şərait var. Prezident İlham Əliyevin veteranlarla görüşlərindən, onlara dövlət qayğısından bəhs edən guşədə də zəngin eksponatlara yer ayrılıb. Yeni inzibati binada səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb. Qeyd olundu ki, müşavirə otağında informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi maksimum diqqətdə saxlanılıb. Müasirliyi ilə diqqəti çəkən akt zalında da müxtəlif tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait var. Binanın təchizatı ən yüksək standartlara cavab verir. Veteranlar burada gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün silsilə tədbirlər keçirə biləcəklər. İnzibati binanın dəhlizində Azərbaycanın milli qəhrəmanlarının və Sovet İttifaqı qəhrəmanlarının şəkillərindən ibarət fotoguşələr yaradılıb. Ümumilikdə, yeni inzibati bina səmərəli fəaliyyət üçün hər cür şəraitə malikdir.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranlarla görüşdülər.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz veteranlar!

İlk növbədə, sizi qarşıdan gələn 9 May – Qələbə Günü münasibətilə ürəkdən təbrik etmək, sizə cansağlığı arzulamaq istəyirəm.

Mən mayın 9-da Moskvada keçiriləcək bayram tədbirlərində iştirak edəcəyəm. Ona görə bizim ənənəvi görüşümüzü bu gün – mayın 7-də keçiririk. Hər il biz sizinlə görüşürük və bu görüşlərin çox böyük mənası var.

Eyni zamanda, bu gün veteranların həyatında əlamətdar gündür. Çünki veteranlar üçün yeni gözəl inzibati bina istifadəyə verilir. Keçən il veteranlar təşkilatının nümayəndələri mənə müraciət etdilər. Dərhal qərar qəbul edildi və gözəl iş yeri tikildi.

Ən yüksək standartlara cavab verən bu mərkəzdə veteranlar çalışacaqlar. Burada bütün şərait yaradılıb və biz bunu qısa müddət ərzində etdik. Bu bir daha onu sübut edir ki, Azərbaycan dövləti öz veteranlarına böyük qayğı və diqqət göstərir. Veteranlar yüksək mükafatlarla təltif edilir, onlara minik maşınları verilir. Növbədə duran bütün veteranlara avtomobillərin verilməsi prosesi bu il başa çatacaq. Mənzillər, pul mükafatı verilir. Onu da qeyd etməliyəm ki, MDB məkanında ən yüksək pul mükafatı məhz Azərbaycanda verilir. Siz buna layiqsiniz. Siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz və Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Ulu öndər Heydər Əliyevin siyasəti də məhz ondan ibarət idi ki, biz müharibə veteranlarına daim diqqət göstərək.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində o vaxt hakimiyyətdə olan AXC – Müsavat cütlüyü Qələbə Gününü bayram günləri siyahısından çıxarmışdı. Yəni bu bayram ləğv edilmişdi. Onlar elə bil ki, sizin qəhrəmanlığınızı tarixdən silmək istəyirdilər. Ancaq onların özləri tarixdən və siyasi səhnədən silindi, Azərbaycan xalqı o yarıtmaz hakimiyyətə dözə bilmədi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra tarixi ədalət bərpa edildi, 9 May – Qələbə Günü rəsmi bayram kimi təsdiq olundu və o gündən bu günə qədər biz bu bayramı qeyd edirik. Bu bizim dövlət bayramımızdır, əziz bayramımızdır.

Azərbaycan faşizm üzərində Qələbənin əldə edilməsinə çox böyük töhfələr verib. Azərbaycandan 700 minə yaxın insan müharibədə iştirak edib, onlardan 300 mini həlak olub. 123 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər «Şöhrət» ordeninin hər 3 dərəcəsi ilə, 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunub. Bu, Azərbaycan xalqının qəhrəmanlığını təsdiq edən statistik göstəricilərdir.

Eyni zamanda, Azərbaycan alman faşizmi üzərində Qələbənin əldə edilməsində həlledici rol oynayıb. Mən bunu tam

məsuliyyətlə deyirəm. Çünki Azərbaycan nefti, Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam fərqli ola bilərdi. O vaxt – müharibə illərində Sovet İttifaqında 110 milyon ton neftin 75 milyon tonu Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdi. Təsadüfi deyil ki, alman faşizmi Bakını zəbt etmək üçün çox böyük səylər göstərmişdi. Çünki Bakını zəbt etsəydi, o zaman bütün Sovet İttifaqının əksər enerji resurslarına sahib çıxmış olacaqdı və beləliklə, yanacaq qıtlığı ucbatından müharibənin nəticələri tam başqa ola bilərdi.

Bakını sovet ordusu müdafiə etdi və bu, xalqımızı böyük bəlalardan xilas etdi. 300 min azərbaycanlı qəhrəmancasına həlak oldu. Əgər Hitlerin ordusu Bakını zəbt etsə idi, xalqımıza qarşı soyqırımı törədilərdi. Çünki faşizm ideologiyası irqçilik, ayrı-seçkilik, ksenofobiya, başqa millətlərə qarşı nifrət üzərində qurulmuşdu. Bakının qəhrəmanlığı bu gün dünya üçün də artıq sirr deyil və biz çalışmalıyıq ki, Azərbaycan xalqının, Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlığını bütün dünyaya nümayiş etdirək. Bu yaxınlarda çəkilən və nümayiş etdirilən sənədli film də Azərbaycanın ümumi Qələbəmizə nə qədər böyük töhfə verdiyini əyani şəkildə göstərir. Azərbaycan neftçiləri ilə bərabər, Azərbaycan zəhmətkeşləri də böyük fədakarlıq göstərmişlər. Müharibə zamanı Azərbaycanın sənaye müəssisələrində 130 növ silah-sursat istehsal olunurdu ki, bu da Qələbəmizin əldə edilməsində mühüm rol oynamışdı.

Biz bütün bu tarixi faktları bilirik. Bizim gənc nəslimiz də, dünya da bilməlidir. Biz Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsindəki müstəsna rolu haqqında danışırıq, danışacağıq və bundan sonra da bu tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıracağıq.

Əfsuslar olsun ki, bu gün faşizm ideologiyası bəzi yerlərdə yenə də baş qaldırır. Biz buna imkan verə bilmərik, biganə qala bilmərik. Müharibə haqqında həqiqətlər təhrif olunur. Sanki kimsə tarixi yenidən yalan, siyasi sifariş üzərində yazmaq istəyir. Sovet ordusunun Qələbənin əldə edilməsində həlledici rolunu bəzi qüvvələr danmaq istəyir. Bu dözülməzdir,

qəbuledilməzdir. Ona görə hamımız – veteranlar, siyasətçilər, ictimaiyyət, dünya ictimaiyyəti bu məsələ ilə bağlı öz sözünü deməlidir və biz bu sözü deyirik.

Tarixi təhrif etməklə yanaşı, faşistlərin qəhrəmanlaşdırılması prosesi də gedir. Biz buna dözə bilmərik. Çünki faşizm ideologiyası Yer kürəsində ən çirkin, təhlükəli, dəhşətli ideologiyadır. Bu gün müxtəlif ölkələrdə neofaşizm meyillərinin güclənməsi bizi haqlı olaraq narahat edir. Bizə elə gəlirdi ki, faşizm ideologiyası ilə artıq məsələ bağlanıb. Bundan sonra bu heç vaxt baş qaldırmayacaq. Ancaq əfsuslar olsun, biz görürük ki, yürüşlər, müxtəlif tədbirlər keçirilir. İndi həmin ideologiya başqa adlarla pərdələnərək dirçəlməyə başlayır.

Avropada antimiqrant hərəkatı da məhz faşizm, irqçilik, ayrı-seçkilik ideologiyası üzərində qurulur. Hesab edirəm ki, dünya siyasətçiləri öz sözünü deməlidir. Biz neofaşizmin nə qədər böyük fəlakət olduğu haqda öz sözümüzü deyirik və deyəcəyik.

Ona görə mən çox şadam ki, siz veteranlar həmişə olduğu kimi, öz fəal mövqenizlə seçilirsiniz və sizin sözünüzün çox böyük mənası var. Siz müharibənin, o tarixin canlı şahidlərisiniz, onun iştirakçılarısınız.

Əfsuslar olsun ki, Azərbaycan xalqı XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni faşizminin təzahürüdür. Bu gün dünyada erməni faşizmi haqqında kifayət qədər sənədlər, kitablar, məqalələr dərc edilir. Erməni faşizmini ifşa etmək üçün əsas yükü biz öz üzərimizə götürmüşük. Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlılardır.

Biz erməni faşizminə qarşı mübarizə aparırıq və qurbanlarımızın qanını yerdə qoymuruq. Biz lazımi tədbirləri görürük və görəcəyik ki, faşistləri layiqincə cəzalandıraq. Azərbaycan Ordusu indi bütün lazımi tədbirləri görür. Eyni

zamanda, Ermənistanda Hitlerə qulluq edən faşistlərin xatirəsinə hörmət göstərilir, onların adları küçələrə, meydanlara, parklara verilir. Siz veteranlar bir neçə ölkənin dövlət başçısına məktubla müraciət etmisiniz, erməni faşizmi haqqında yazmısınız, Ermənistanda faşistlərin qəhrəmanlaşdırılması haqqında yazmısınız. Mən bunu alqışlayıram. Bunu hər kəs bilməlidir. Bu dözülməzdir.

Ona görə Azərbaycanın həm İkinci dünya müharibəsindəki rolu, həm bu gün bizim mövqemiz haqqında dünya bilir və bilməlidir. Bəzi ölkələr indi tarixi həqiqətləri danmaq istəyir. Bir daha demək istəyirəm ki, tarixi təhrif etmək, faşizmi kommunizmlə bərabərləşdirmək istəyirlər. Bu dözülməzdir.

Bu gün biz azad cəmiyyətdə yaşayırıq. Bazar iqtisadiyyatı, siyasi plüralizm, demokratiya, çoxpartiyalı sistem – bunlar sovet dövründə mümkün deyildi. Ancaq Sovet İttifaqını faşist Almaniyası ilə müqayisə etmək həm ədalətsizlikdir, həm də böyük cinayətdir.

Biz öz tarixi keçmişimizə hörmətlə yanaşırıq. Keçmişdə yaxşı hallar da, acınacaqlı məqamlar da olub. Azərbaycan xalqı da bir çox hallarda ədalətsizliklə üzləşib. Ancaq biz tarixi heç vaxt saxtalaşdırmamalıyıq.

Bu gün yeni tarix yazılır. Müstəqil Azərbaycan öz tarixini yazır. Bu tarix şərəfli tarixdir. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Azərbaycan böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycanın iqtisadi inkişafı bu gün nümunə ola bilər. Böhranlı illərdə biz öz prinsipial siyasətimizdən kənara çıxmırıq. Biz xalqın rifah halını yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik. Bu gün Azərbaycanın dünyadakı rolu kifayət qədər böyükdür, mövqelər möhkəmdir, daxildə sabitlik, xalqla iqtidar arasında vəhdət var. Azərbaycan çoxmillətli ölkə kimi, dinlərarası, mədəniyyətlərarası münasibətlərin tənzimlənməsi işində nümunədir. Bu gün müstəqilliyimizin tarixini biz – siz veteranlar, gənc nəsil yazırıq. Bu gün biz azadıq, müstəqilik və bu bizim ən böyük sərvətimizdir. Müstəqil Azərbaycan dövləti

öz veteranlarına çox böyük hörmətlə yanaşır. Bu, dövlət siyasətidir, ədalətli siyasətdir.

Mən sizi qarşıdan gələn gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə bir daha cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm. Sağ olun.

* * *

**F a t m a  S ə t t a r o v a** *(İkinci dünya müharibəsi veteranı):* Əziz prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, xanımlar xanımı Mehriban Əliyeva!

Mən veteranlar adından və şəxsən öz adımdan Sizə böyük təşəkkürümü bildirirəm. Siz bu şad günümüzdə bizi çox sevindirdiniz. Biz Qələbənin 70 illiyini qeyd edirik. Bu, müharibə iştirakçıları üçün böyük bayramdır. Bizi sevindirən ikinci məsələ odur ki, Siz bu gün bizə bu gözəl binanı– Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının ən müasir standartlara cavab verən yeni inzibati binasını hədiyyə etdiniz. Buna görə veteranlar adından Sizə dərin təşəkkürümü bildirirəm. Hamımız Sizə «Çox sağ olun» – deyirik. Allah Heydər Əliyevə rəhmət etsin. O, zəmanəmizin böyük lideri idi. Mən ancaq bunu deyə bilərəm. O özündən sonra Sizin kimi bir oğul, xalqını, torpağını, millətini sevən bir şəxsi qoyub getdi. Allah ulu öndərimizə qəni-qəni rəhmət eləsin. Sizə böyük təşəkkürümüzü bildiririk.

Mehriban xanım, Siz həm bizim Prezidentin həyat yoldaşı, həm də onun balalarının anasısınız. Mən Sizin bütün fəaliyyətinizi televizordan izləyirəm. Mən burada olan və olmayan veteranlar adından Sizə təşəkkürümü bildirirəm. Çox sağ olun.

*Sonra çıxış edənlər ölkədə veteranlar üçün görülən işləri yüksək qiymətləndirdilər, yeni inzibati binanın veteranlara göstərilən dövlət qayğısının təzahürü olduğunu dedilər.*

*Professor, Prezident təqaüdçüsü və Əməkdar incəsənət xadimi Musa Bağırov ulu öndər Heydər Əliyevin veteranlara*

*qayğısından danışdı, bu siyasətin prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini bildirdi.*

**K a m i l H a k i m o v** *(SOCAR-ın «Ekol Mühəndislik Xidmətləri»ndə baş direktorun müşaviri):* Möhtərəm Prezident!

Hörmətli Mehriban xanım!

Mən 1943–1947-ci illərdə Neft Texnikumunda oxuya-oxuya Neft emalı zavodunda işləmişəm və neftçilərin fədakarlığının şahidi olmuşam. Möhtərəm Prezident, Siz bizim neftçilərin gördüyü işlərə çox düzgün qiymət verdiniz. Siz haqlı olaraq dediniz ki, Qələbənin qazanılmasına Bakı neftçiləri mühüm töhfələr veriblər. O vaxt Sovet İttifaqında hasil olunan neftin 70–80 faizini Bakı neftçiləri təmin edirdi. Mən öz əllərimlə ordu üçün neft məhsulları, sürtkü yağları hazırlamışam. Müharibədən sonra biz çörəkbişirmə müəssisələri üçün yağ istehsal edirdik. Bunu da Azərbaycan alimləri ixtira etmişdilər.

Möhtərəm Prezident, mən ömrüm boyu neft emalı sənayesində çalışmışam. Keçən əsrin 70–80-ci illərində ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında nazir işləmişəm, neft emalı sənayesinə rəhbərlik etmişəm. Sonra məni Fidel Kastronun xahişinə və Moskvanın göstərişinə əsasən Kubaya göndəriblər. 4 il Kubada Fidel Kastronun hökumətində nazirin müşaviri işləmiş və eyni zamanda, bütün zavodlarda çalışan sovet mühəndislərinə rəhbərlik etmişəm. 1982-ci ilin aprel ayında ulu öndərimiz Meksikadan qayıdarkən Havanada məni aeroporta dəvət etdi. Soruşdu ki, bilirsən niyə dəvət etmişəm? Cavab verdim ki, bilmirəm. Ancaq 2 ildir ki, respublikadan, sizdən ayrılmışam. Çox darıxırdım. Bu görüşə görə Sizə minnətdaram. Sonra işimlə, vəziyyətimlə maraqlandı.

Möhtərəm Prezident, bunları söyləməklə demək istəyirəm ki, ulu öndərin diqqət və qayğısını həmişə hiss etmişəm. O böyük insanın xatirəsi mənim qəlbimdə həmişə yaşayıb və yaşayacaq. Mən fəxr edirəm ki, o böyük insanın rəhbərliyi altında 10 il nazir işləmişəm.

Bir peşəkar neft emalı işçisi kimi, Sizə də minnətdaram ki, ulu öndərin neft strategiyasını uğurla davam etdirirsiniz. İndi

böyük neft emalı zavodları tikilir. Bütün bunlar çox qürurvericidir.

Mən Sizin bayramınızı təbrik edirəm, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı diləyirəm. Sağ olun.

**D a d a ş   R z a y e v** *(Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, general-mayor):* Hörmətli cənab Prezident, icazə verin, Sizi və Mehriban xanımı Qələbənin 70 illiyi münasibətilə ürəkdən təbrik edim, Sizə cansağlığı, uzun ömür arzulayım.

Cənab Prezident, 1994-cü il iyunun 28-də ulu öndər tərəfindən veteranların hüquqları bərpa olundu və o dövrdən başlayaraq veteranlara böyük diqqət və qayğı göstərilir. Siz o qayğını bu gün davam etdirirsiniz. Veteranlar təşkilatı üçün yeni inzibati binanın istifadəyə verilməsi bunun bariz nümunəsidir. Buna görə Sizə çox minnətdarıq.

Cənab Prezident, Sizin işiniz göz qabağındadır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Siz Azərbaycanı bütün dünyaya tanıtmısınız.

*Dadaş Rzayev müharibə veteranlarına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə bir daha minnətdarlığını bildirdi, veteranlara göstərilən müstəsna diqqət və qayğıya görə «Veteran Həmrəyliyi» medalını və vəsiqəsini dövlətimizin başçısına təqdim etdi.*

*Dadaş Rzayev respublikamızda veteran hərəkatının gücləndirilməsinə və veteranlara göstərdiyi yüksək diqqət və qayğıya görə birinci xanım Mehriban Əliyevaya Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti adından «Veteranların qayğıkeşi» diplomunu təqdim etdi.*

*Sonra dövlətimizin başçısına yenicə nəşr olunan «Azərbaycanlılar Böyük Vətən müharibəsində» kitabı, «İgid oğullarla bir cərgədə» ensiklopedik toplusu və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr olunmuş «Sərkərdənin taleyi» kitabı, həmçinin yeni çap olunmağa başlanan «Azərbaycan ve-*

*teranı» qəzetinin İkinci dünya müharibəsində Qələbənin 70 il-liyinə həsr edilmiş nömrəsi hədiyyə olundu.*

*Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının bayrağı da Azərbaycan Respublikasının Prezidentinə təqdim edildi.*

*Görüşün sonunda prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranları bir daha təbrik etdilər və ən xoş arzularını bildirdilər.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. İqtisadi sahədə əldə olunan nailiyyətlərə toxunan prezident İlham Əliyev bildirdi ki, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər nəticəsində bu, Azərbaycan iqtisadiyyatına ciddi təsir etməyib. Dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını dedi.*

*Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti Azərbaycanın etibarlı tərəfdaş olduğunu və rəhbərlik etdiyi qurumun ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini dedi. Suma Çakrabarti ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən işlərin önəmini qeyd etdi.*

*Görüşdə ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında enerji infrastrukturunun yaradılması, informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat, kənd təsərrüfatı və*

*digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*8 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İkinci dünya müharibəsində Qələbənin 70 illiyi münasibətilə keçiriləcək bayram tədbirlərində iştirak etmək üçün mayın 8-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Moskva şəhərinin Vnukovo-2 aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiyanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

# FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 70 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BAYRAM TƏDBİRLƏRİNDƏ İŞTİRAK

*Moskva*

*9 may 2015-ci il*

*Rusiya Federasiyasına işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Moskvada 1941–1945-ci illər İkinci dünya müharibəsində Qələbənin 70 illiyi münasibətilə keçirilən bayram tədbirlərində iştirak etmişlər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiya dövlətinin başçısı Vladimir Putin Kremldə qarşıladı.*

*Fəxri qonaqlar bayram təntənələrinin keçirildiyi Qırmızı meydana gəldikdən sonra hərbi parad başlandı.*

*Rusiyanın Müdafiə naziri Sergey Şoyqu və Quru Qoşunların Baş komandanı Oleq Salyukov paradı qəbul etdilər.*

*Mərasim iştirakçılarını təbrik edən Rusiya prezidenti Vladimir Putin dünya əhalisinin 80 faizinin cəlb olunduğu İkinci dünya müharibəsində qazanılan Qələbədə keçmiş sovet xalqlarının, həmçinin antihitler koalisiyasını təmsil edən ölkələrin xidmətlərinin heç vaxt unudulmayacağını bildirdi. Qələbə Gününün həmin xalqların və dövlətlərin ümumi bayramının olduğunu vurğulayan Vladimir Putin bildirdi ki, heç vaxt unudulmayacaq bu tarix müasir dövr üçün də bir örnəkdir.*

*Daha sonra paradda hərbçilərin təntənəli keçidi başlandı. Meydana MDB və antihitler koalisiyası ölkələrinin hərbçiləri daxil oldu. Dəstənin önündə Azərbaycan hərbçiləri gedirdi. Mayor Mehdi Mahmudovun rəhbərliyi ilə 70 Azərbaycan*

*hərbçisindən ibarət parad heyəti Qırmızı meydanda tribunalar qarşısından keçdi.*

*Azərbaycanlı zabit və əsgərlər faşizm üzərində Qələbənin əldə olunmasında müstəsna və tarixi rol oynayıblar, ən ağır döyüşlərdən qəhrəman kimi çıxıblar. Odur ki, tarixi Qələbənin qazanılmasında ölkəmizin əvəzsiz xidmətləri danılmazdır. O vaxt Sovet İttifaqının tərkibində olan Azərbaycandan cəbhəyə 700 minə yaxın hərbçi yollandı. Böyük Qələbənin qazanılmasında misilsiz xidmətlər göstərən hərbçilərimizin 300 mini döyüş meydanlarında həlak oldu. 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 30 nəfər «Şöhrət» ordeninin hər 3 dərəcəsi ilə təltif edildi, 170 min əsgər və zabitimiz isə müxtəlif orden və medallarla mükafatlandırıldılar.*

*Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində vuruşub. Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belorus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.*

*Faşizm üzərində Qələbənin 70 illiyi münasibətilə keçirilən hərbi parad zirehli texnikanın keçidi ilə davam etdi. Dəstənin önündə əfsanəvi «T-34» tankı gedirdi. Bundan əlavə, paradda nümayiş etdirilən çoxsaylı döyüş maşınları arasında Rusiya istehsalı olan «Armata» ağır zirehli piyada maşını, həmçinin «Yarus» raket kompleksinin ilk nümunələri, raket kompleksləri də var idi.*

*Qeyd edək ki, Qələbənin qazanılmasında yalnız qəhrəman övladlarımız deyil, həm də Azərbaycan neftinin böyük rolu olub. Bakı neftinin müharibənin taleyini həll etməsi fikri elə müharibənin ilk illərində öz təsdiqini tapıb. Düz 5 il Bakı nefti ön və arxa cəbhəni yüksəkkeyfiyyətli yanacaqla təmin edib. Müharibə dövründə SSRİ-də ümumilikdə 110 milyon ton neft*

*çıxarılıb. Bu neftin 75 milyon tonunu, cəbhəyə göndərilən neft məhsullarının isə 85-90 faizini Azərbaycan verib. Ön cəbhədəki hər 4 tankdan 1-i, təyyarələrin böyük əksəriyyəti Azərbaycan nefti ilə hərəkət edib. Məhz bu səbəbdən də Bakını İkinci dünya müharibəsinin taleyini həll edən şəhər adlandırırlar. Bakı neftinin müharibənin gedişi üçün həlledici rol oynadığını yaxşı bilən Hitler məhz buna görə Almaniyanın birinci tank ordusuna 1942-ci il sentyabrın 25-də Bakını zəbt etmək əmrini vermişdi. Hitler «Qafqaza hücuma başlayanda biz mütləq Bakını tutmalıyıq, əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq» – demişdi. Düşmən 1942-ci ildə 71, 1943-cü ildə 3 dəfə Bakı səmasını zəbt etməyə çalışıb. Qəhrəman təyyarəçilərimiz isə bu hücumların qarşısını alır, düşmənin 96 təyyarəsini məhv edirlər. Burada daha bir məqamı da xüsusi vurğulamaq lazımdır. Bakının neft emalı müəssisələri alimlərin və mühəndis-texniki işçilərin səyi nəticəsində cəbhə üçün yüksək oktanlı benzin istehsalını da uğurla həyata keçirirlər. 1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlanıb. Akademik Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq neft-kimya elmində böyük nailiyyət hesab edilən yüksək oktanlı aviasiya yanacağı əldə ediblər. Bu, müharibədə motorlar döyüşündə ciddi dönüşə səbəb olub.*

*Hərbi paraddan sonra dövlət və hökumət başçıları Naməlum əsgər abidəsi önünə əklil qoydular.*

*Sonra birgə xatirə şəkli çəkdirildi.*

*Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2015-ci il*

*Mayın 10-u müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər 12-ci ildir ki, bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Ümummilli liderimizin doğum günündə – mayın 10-da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək, abidəsi önünə tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçən əsrin 70–80-ci illərində keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.*

*1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin*

*siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək, üzərinə gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2015-ci il*

*Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə mayın 10-da Heydər Əliyev sarayının qarşısındakı parkda və Şəhər Mərkəzi parkında Gül bayramı təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak etdilər.*

*Paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının sevimli istirahət yeri olan Heydər Əliyev sarayının qarşısındakı park və Şəhər Mərkəzi parkı bu gün öz görkəmini tam dəyişib, möcüzəli gül bağına çevrilib.*

*Hər il təşkil olunan Gül bayramı bu il də ənənəvi təntənəsini yaşadı. Ərazi güllərdən ibarət maraqlı kompozisiyalarla bəzədildi. Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək, yarpaq və bitkilərdən hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır. Müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin parkda ucalan əzəmətli abidəsi diqqəti daha çox çəkir. Abidənin postamenti güllərlə bəzədilib.*

*Təxminən 1 aydan sonra Bakının ev sahibliyi edəcəyi ilk Avropa oyunlarına həsr olunan guşələr xüsusi maraq doğurur. Beynəlxalq ictimai rəydə ölkəmizin davamlı imicinin formalaşdırılması üçün önəmli amil olan «Bakı–2015» Avropa*

*oyunları dünyanın müxtəlif yerlərindən Azərbaycana səfər edənlərə Vətənimiz, xalqımızın mədəniyyəti, mövcud multikultural mühit ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. I Avropa oyunları Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin təşkilatçısı kimi mövqelərini daha da möhkəmləndirəcək, bu sahədə dövlətimizin və xalqımızın yüksək potensiala sahib olduğunu bir daha ortaya qoyacaq.*

*Parkda rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr olunan kompozisiyalar nümayiş etdirilir. Fəvvarələr də güllərlə əhatə olunub. Minlərlə güldən-çiçəkdən əlvan libas geymiş bu məkanda heç nə bir-birini təkrarlamır. Elə buraya toplaşan uşaqlar da güllər kimi saf və ətirlidir. Onların gülləri xatırladan müxtəlif libasları bayram ovqatını daha da artırır.*

*Əzəmətli kompozisiyalardan biri də Heydər Əliyev sarayının qarşısında qurulub. Heydər Əliyev Mərkəzinin maketi üzərində yaradılan bu kompozisiyanı ulu öndərin portreti bəzəyir.*

*Dövlətimizin başçısı, xanımı və ailə üzvləri parka toplaşan uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.*

*Parkda müxtəlif dibçək və kəsilmə güllərindən, qurudulmuş gül və bitki kollarından, göz oxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulub. Hər tərəf baharın xoş ovqatına bürünüb. Zəriflik nümunəsi olan çiçəklərin orijinal təqdimatı bayrama gələnlərin zövqünü oxşayır.*

*Artıq ölkəmizdə ənənə halı alan Gül bayramı dünyanın nadir gözəlliklərini təcəssüm etdirməklə ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, ümummilli liderin doğum gününün bu cür möhtəşəm formada qeyd olunması ilə yadda qalır.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-ci İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARADILMASININ 11 İLLİYİNƏ HƏSR OLUNAN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*10 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı ulu öndərin əziz xatirəsinə bir daha hörmət və ehtiramını bildirir.

Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur, onun memarıdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Azərbaycan onun rəhbərliyinin hər iki dövründə çox sürətlə inkişaf edib. Birinci dəfə sovet dövründə, 1969-cu ildə rəhbər təyin olunandan sonra Azərbaycanda əsaslı dəyişikliklər baş verdi. O vaxtdan Azərbaycan onun rəhbərliyi ilə sürətlə inkişaf edərək, 13 il ərzində Sovet İttifaqında ən qabaqcıl yerlərdə oldu. O vaxt Sovet İttifaqında cəmi 2 respublika özünü tam təmin edirdi və ümumittifaq büdcəsinə öz

töhfəsini verirdi. Onlardan biri Azərbaycan idi. Məhz o illərdə müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının inkişafı sürətlə gedirdi. Azərbaycan sovet məkanında mədəniyyət, incəsənət sahələrində öz sözünü deyirdi və respublikamızın o vaxtkı tarixi çox uğurlu idi.

Məhz ona görə keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan xalqı bir daha ulu öndərə üz tutaraq onu hakimiyyətə dəvət etdi. Çünki o, XX əsrin 70–80-ci illərinin əvvəllərində öz işləri, xalqa olan bağlılığı və cəsarətli siyasəti ilə xalqın böyük sevgisini, rəğbətini qazanmışdı.

Bilirsiniz ki, ulu öndərin həyatında bir neçə dövr olmuşdur. Hər dövrün öz böyük mənası var. Hər dövrdə çalışdığı bütün vəzifələrdə o, ləyaqətli siyasi xadim, cəsarətli insan, öz xalqına bağlı olan vətənpərvər kimi hərəkət edirdi. Heydər Əliyevin Azərbaycanda uğurlu fəaliyyəti nəzərə alınaraq 1982-ci ilin sonunda o, Sovet İttifaqının ən ali qurumu olan Siyasi Büroya üzv seçildi və Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Heydər Əliyevin kurasiyasında bir çox sahələr var idi. Bu sahələr çox ciddi diqqət tələb edirdi. Tapşırılan bütün işlərə çox böyük məsuliyyətlə yanaşırdı, onun gördüyü işlərin çox böyük səmərəsi var idi. Eyni zamanda, Azərbaycana daim diqqət yetirir, öz köməyini göstərməyə çalışırdı ki, burada da işlər yaxşı getsin. Ancaq əfsuslar olsun ki, o, Azərbaycandan gedəndən sonra respublikada vəziyyət tədricən tənəzzülə uğramağa başladı və demək olar ki, Azərbaycanda durğunluq müşahidə olunurdu. Artıq onun dövründə olan canlanma, fəal iş yox idi.

Onun sonrakı taleyi ilə bağlı kifayət qədər kitablar, məqalələr, elmi əsərlər yazılıb. Burada oturanlar, əlbəttə ki, o tarixi yaxşı bilirlər, gənc nəsil də bilməlidir, öyrənməlidir. Çünki bu bizim şanlı tariximizdir və 1987-ci ildə Heydər Əliyev böyük ədalətsizliklə üzləşmişdi. O vaxt sovet dövlətinin başında dayanan insan ona qarşı ədalətsizlik göstərdi. Bu ədalətsizliyin də səbəbləri var idi. Ona qarşı paxıllıq, riyakarlıq və digər mənfi hallar Heydər Əliyevin istefasını şərtləndirdi. Bu, Azərbaycan

üçün böyük itki idi. Çünki Heydər Əliyev sovet hakimiyyətində təmsil olunurdu. Təsadüfi deyil ki, o, istefaya gedəndən 2 həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırdılar. Əfsuslar oşlun ki, ovaxtkı sovet rəhbərliyi bu məsələ ilə bağlı onlarla həmfikir idi, onların mövqeləri üst-üstə düşürdü. Eyni zamanda, son vaxtlar üzə çıxan faktlar da onu göstərir ki, hətta xarici dövlətlərdən də Sovet İttifaqının rəhbərliyinə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı müraciətlər göndərilirdi. Bu, ümumiyyətlə, beynəlxalq münasibətlərdə dözülməz bir praktikadır. Ancaq bu tarixdir, bu həqiqətdir və ondan sonra Azərbaycanın bütün problemləri başlandı.

Azərbaycana o vaxt qəsdən heç bir nüfuzu, heç bir siyasi təcrübəsi, heç bir milli ruhu olmayan fərdlər hakimiyyətə gətirildi. Onların əsas vəzifəsi Azərbaycan xalqını incitmək, Azərbaycanın xalq təsərrüfatını dağıtmaq və Azərbaycanın inkişafını əngəlləmək idi. O vaxt sovet dövləti hələ güclü idi və mərkəzləşdirilmiş idarəetmə sistemi var idi. Ona görə Azərbaycan xalqı öz haqlı etirazını ifadə edə bilmirdi.

Heydər Əliyev özünü vətənpərvər, cəsarətli insan kimi, bir daha 1990-cı ilin yanvar ayında göstərdi. O günlər mənim yaxşı xatirimdədir. Azərbaycan xalqına qarşı böyük cinayət törədildi, günahsız insanlar qətlə yetirildi. Sovet ordusu Bakıya müdaxilə edərək, kütləvi qırğın törətdi. Yüzlərlə insan həlak oldu, yaralandı, itkin düşdü. Bu, böyük cinayət idi. Ancaq əfsuslar olsun ki, Azərbaycanın ovaxtkı rəhbərliyi bu barədə öz etiraz səsini qaldırmadı. Yenə də xalqın yeganə ümid yeri Heydər Əliyev idi. O vaxt Heydər Əliyev təqaüddə idi, fəal işlərlə məşğul olmurdu. O vaxt ona qarşı həm sovet rəhbərliyi, həm də Azərbaycanda vəzifədə olanlar tərəfindən çirkin kampaniya aparılırdı. O vaxt «beşinci kalon» var idi və onlar anonim məktublar, donoslar yazaraq onun əleyhinə iş aparırdılar. Bu gün donoslar başqa yerlərə ünvanlanır, o vaxt Moskvaya yazılırdı. 1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Azərbaycanın

Moskvadakı daimi nümayəndəliyinə gələrək, öz etiraz səsini bütün dünyaya çatdırdı. Fəxr edirəm və çox xoşbəxtəm ki, mən də o gün onunla bərabər orada idim. Heç vaxt yadımdan çıxmaz ki, o vaxt orada böyük insan kütləsi toplaşmışdı. Azərbaycanın daimi nümayəndəliyinə minlərlə azərbaycanlı öz həmrəyliyini, etirazını, öz hisslərini ifadə etməyə gəlmişdi.

Biz oraya gələndə insanlar Heydər Əliyevi tanıdılar və dərhal sükut yarandı. İnsanlar sanki canlı dəhliz yaratdılar ki, o, dəhlizlə binanın içərisinə keçsin. Bax, o vaxt Azərbaycan xalqı Heydər Əliyevə bir daha öz hörmət, etimad və inamını göstərdi. O, təqaüddə idi və ona qarşı mətbuatda, digər vasitələrlə çox çirkin kampaniya aparılırdı, buralarda mitinqlər təşkil olunurdu, insanları məcbur edirdilər ki, onun əleyhinə danışsınlar və digər çirkin tədbirlər görülürdü. Buna baxmayaraq, Azərbaycan xalqı bu faciəvi gündə bir daha onun ətrafında birləşdi və o, yanvarın 21-də məhz orada Sovet İttifaqı Kommunist Partiyasını, sovet dövlətinin rəhbərini ittiham etdi, onu günahlandırdı, bu cinayəti pislədi və öz haqq səsini ucaltdı.

O vaxt Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi və heç kim təsəvvür edə bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Bu addım, bu vətənpərvərlik nümunəsi bir daha göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır və o nə qədər cəsarətli, ədalətli şəxsiyyətdir. Təbii olaraq, təcrübəli siyasi xadim kimi, o dərk edirdi ki, bundan sonra ona qarşı böyük təzyiqlər başlayacaq, onun həyatına təhlükə ola bilər, belə də oldu. Əgər o, Moskvada bir qədər çox qalsaydı həbs olunacaqdı. O, Azərbaycana üz tutdu, Bakıya gəldi. Ancaq Bakıdakı ovaxtkı rəhbərlik imkan vermədi ki, o öz doğma vətənində yaşasın və məcbur olub doğulduğu yerə – Naxçıvana üz tutdu. Naxçıvanda insanlar onu çox böyük coşqu ilə qarşıladılar. Elə Bakıda da. Yadımdadır, o vaxt Bakıya gələndən sonra şəhərdə gəzməyə çıxmışdı. Minlərlə insan onun ardınca gedirdi. O hara gedirdisə, onlar da onun ardınca gedirdilər. Hətta ovaxtkı rəhbərlik təşvişə düşmüş və milis göndərmişdi ki, guya siz burada kütləvi aksiya keçirirsiniz. O da demişdi ki, mən heç bir aksiya keçirmirəm.

Mən gəzməyə çıxmışam və insanlar mənim ardımca gəlirlər. Yəni bütün Azərbaycan xalqı Heydər Əliyevi ürəkdən sevirdi və o sevginin əsas səbəbi məhz keçən əsrin 70–80-ci illərinin əvvəllərində gördüyü işlər və xalqımızın faciəvi günlərində haqqın, ədalətin yanında olması idi.

Naxçıvanda Heydər Əliyevi ilk növbədə, muxtar respublikanın parlamentinə, sonra isə Azərbaycan parlamentinə deputat seçdilər. Sonra xalq onu Naxçıvan Ali Məclisinin Sədri vəzifəsinə seçdi. O vaxt artıq Azərbaycan rəhbərliyinin rəyi heç bir məna kəsb etmirdi və xalq Naxçıvanda əsl vətənpərvərlik, cəsarət, müdriklik göstərdi.

Naxçıvan dövrü də çox zəngin olmuşdur. Bu dövr çox ağır və eyni zamanda, çox şərəfli bir dövr idi. Çünki məhz Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi Dövlət bayrağı kimi təsdiq edildi və Azərbaycan Ali Sovetinə müraciət edildi və vəsatət qaldırıldı ki, bu bayraq Azərbaycanın rəsmi bayrağı kimi təsdiq edilsin. Sovet İttifaqının saxlanılmasına dair referendumun keçirilməsi məhz Naxçıvanda mümkün olmadı. Çünki Heydər Əliyev buna imkan vermədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişildi və Naxçıvan Muxtar Respublikası adı təsdiq edildi. Bu, müstəqilliyə gedən yolların müxtəlif istiqamətləri idi və o da təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan dövlətçiliyinin gələcəyi müəyyən edilirdi. Çünki o vaxt Bakıda rəhbərlikdə təmsil olunan insanlar öz şəxsi maraqları haqqında düşünürdülər. Ölkənin, xalqın maraqları onları heç düşündürmürdü. Bunun nəticəsi olaraq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayanda xalq yenə də ulu öndərə üz tutdu, onu siyasi hakimiyyətə dəvət etdi, prezident vəzifəsinə seçdi və beləliklə, Azərbaycanda quruculuq, sabitlik, inkişaf dövrü başlandı. Sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi və Azərbaycan islahatlar yoluna qədəm qoydu. Dövlətçiliyin əsasları məhz o illərdə

qoyuldu. Ancaq antimilli qüvvələr öz çirkin niyyətlərindən əl çəkmək istəmirdilər. 1994-cü və 1995-ci illərdə dövlət çevrilişlərinə cəhd göstərildi. Bu cəhdlərin arxasında xarici qüvvələr dayanırdı. Bu da heç kəs üçün sirr deyil. Ancaq yenə də Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi ilə bu cəhdlərə son qoydu və bu cəhdləri törətmək istəyən ünsürlər öz layiqli cəzasını aldılar.

1995-ci ildə artıq vəziyyət tam sabitləşdi, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, hüquqi dövlət quruculuğu prosesi, iqtisadi islahatlar, siyasi islahatlar, Heydər Əliyev neft strategiyası icra edilməyə başlandı. Bu da Azərbaycanın indiki uğurlu inkişafının təməlində dayanan məsələdir.

1993–2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi. Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi. Ancaq uzun illər Kommunist Partiyasının üzvü olan, Qanlı Yanvar hadisələrindən sonra isə Kommunist Partiyasının sıralarını tərk edən bir insan kimi, o, demokratiya, inkişaf, bazar iqtisadiyyatı yolunu seçdi. Bu onun üçün çox ciddi bir seçim idi. Çünki o tamamilə fərqli bir ictimai-siyasi mühitdə formalaşmışdı. Gənc yaşlarından o dövrün nümayəndəsi kimi, Sovet İttifaqına, öz xalqına, Kommunist Partiyasına qulluq edirdi. Ona görə bu onun üçün çox ciddi bir seçim idi. Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir.

Azərbaycanda bütün azadlıqlar var, siyasi islahatlar aparılır, demokratik inkişaf sürətlə gedir. Azərbaycan bu gün dünya miqyasında demokratiyanın inkişafı baxımından seçilən ölkələrdəndir. Məhz bu strateji seçim keçən əsrin 90-cı illərinin ortalarında qəbul edildi və bu gün biz ulu öndərin siyasi xəttinə sadiq qalaraq müsbət meyilləri daha da gücləndiririk.

2003-cü ildən sonra isə yeni dövr başlayır. Əslində bu, əvvəlki dövrün məntiqi davamıdır. O vaxt da Azərbaycan xalqı

bir daha həlledici məqamda öz müdrik sözünü dedi. O vaxt xalq Heydər Əliyev siyasətinə, onun davamçılarına səs verdi. Çünki istəyirdi ki, bu siyasət davam etsin. İstəmirdi ki, yenə də hərc-mərclik, xaos, anarxiya, özbaşınalıq, mədəniyyətsizlik, talançılıq hökm sürsün. Azərbaycan xalqı xoşbəxt həyata layiq idi. Azərbaycan xalqı 1991–1992-ci illəri, 1993-cü ilin əvvəllərini yaxşı xatırlayırdı. Azərbaycanı kimlər idarə edirdi? Hansı səviyyəsiz qüvvələr hakimiyyət başına gəlmişdi? Əslində hakimiyyəti zorla zəbt etmişdilər. O, tariximizin qara səhifələridir. Səriştəsizlik, bacarıqsızlıq, mədəniyyətsizlik, cəsarətsizlik, qorxaqlıq, riyakarlıq – bu idi o vaxt Azərbaycan rəhbərliyini əks etdirən epitetlər. Azərbayan xalqı istəmirdi ki, yenə o qara günlər qayıtsın. İstəyirdi ki, insanlar rahat yaşasınlar, ölkəmiz inkişaf etsin, sabitlik pozulmasın. Düzgün seçim edərək, bir daha Heydər Əliyev siyasətinə səs verdi və əminəm, bu gün bütün Azərbaycan xalqı bir daha görür ki, nə qədər düzgün bir seçim edib.

Bu gün Azərbaycan inkişafdadır. Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdı. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir. Azərbaycan dövləti çox möhkəm dayaqlar üzərində qurulubdur. Milli-mənəvi dəyərlər birinci şərtdir. Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik və onları hər şeydən üstün tuturuq. Bu, möhkəm təməldir. Bizim milli ideologiyamız ulu öndər Heydər Əliyev tərəfindən formalaşıbdır. Biz bunu, bu ideologiyanı inkişaf etdiririk, zənginləşdiririk. Azərbaycançılıq ideologiyası bu gün artıq bir nümunə kimi mövcuddur.

Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzim olunması bu gün dünya üçün artıq bəllidir. Bizim nümunəmiz öyrənilir. Təsadüfi deyil ki, bu gün məhz Azərbaycan bu mövzu ilə bağlı dünyada mərkəzlərdən birinə çevrilib. Bizim beynəlxalq nüfuzumuz çox yüksək səviyyədədir. Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə,

inama malik olan bir ölkədir. Belə olmasaydı, beynəlxalq aləmin mütləq əksəriyyəti bizi dəstəkləməzdi.

Bu gün Azərbaycanda keçirilən beynəlxalq təbdirlər bunu əyani şəkildə sübut edir. Baxın, son 2 həftə ərzində Nizami Gəncəvi Beynəlxalq Forumu və Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı Bakıda keçirilib. Birinci tədbirdə 60-dan çox ölkədən nümayəndələr iştirak edirdi. Onların arasında çoxlu sayda fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçısı iştirak edirdi, əsasən də Avropa qitəsindən. Ondan bir neçə gün sonra Bakıda Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı keçirildi. Orada da 70-ə yaxın ölkənin ən yüksəkvəzifəli şəxsləri təmsil olunurdu, 2 həftə ərzində təxminən 130 ölkədən ən qabaqcıl, ən tanınmış, nüfuzlu simalar Azərbaycanda idilər. Mənim o tədbirlər əsnasında çoxsaylı görüşlərim zamanı onların hər biri böyük heyranlıqla və təəccüblə deyirdilər ki, biz Azərbaycanın bu qədər inkişaf etmiş ölkə olduğunu təsəvvür etmirdik. Azərbaycan bu qədər zəngin ölkədir, Bakı bu qədər gözəl şəhərdir. Onların hər biri bunu qeyd edirdi.

Azərbaycan bu gün dünya miqyasında öz nüfuzunu daha da artırır. Çünki hər bir mövzu ilə bağlı prinsipial mövqe ortaya qoyulur. Hər bir məsələ ilə bağlı müstəqil siyasət kursumuz var. Bizim siyasətimizə təsir etmək mümkün deyil. Məncə artıq bunu bilməyən yoxdur. Cəhdlər var və yəqin ki, olacaq. Ancaq o cəhdlərin səmərəsi sıfıra bərabərdir. Nəyə görə? Çünki Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Çünki xalqla iqtidar arasında birlik var. Bizim gücümüzün əsas mənbəyi Azərbaycan xalqıdır. Azərbaycana gələn qonaqlar bir çox hallarda soruşurlar ki, bu sürətli inkişafın sirri nədir? Ölkədə bu qədər inkişaf gedir, təhlükəsizlik hökm sürür, insanların üzü gülür, gözəl ab-hava var. Nədir bunun sirri? Bilirsiniz ki, bunu bir görüşdə izah etmək mümkün deyil. Bunun bir çox səbəbləri var. Amma əsas səbəb xalqla iqtidar arasındakı birlikdir. Əgər bu varsa, deməli, hər şey olacaq, əgər yoxdursa, heç nə kömək etməyəcək. Nə enerji resursları, nə

valyuta ehtiyatları, nə ordu – heç nə. Bax, indi müxtəlif regionlarda baş verən hadisələrə nəzər salaraq görürük, harada ki, bu yoxdur, sabitliyi süni şəkildə saxlamaq mümkün deyil. Ancaq xalqla iqtidar arasındakı birliyi əldə etmək, bunu möhkəmləndirmək üçün xalqa xidmət etmək lazımdır. Bax, mən bunu, necə deyərlər, yığcam formada bu cür izah edərdim: xalqa ulu öndər kimi xidmət etmək lazımdır. O, bütün dövrlərdə öz xalqına xidmət edib. Biz də çalışırıq onun yolu ilə gedək. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz onun yolu ilə uğurla gedirik.

Beynəlxalq nüfuzumuz bundan sonra da artacaq. Azərbaycan beynəlxalq aləmin dəyərli üzvüdür. Bundan sonra görüləcək işlər nəticəsində bizim təsir imkanlarımız daha da genişlənəcək. Bizim təsir imkanlarımız bizə ona görə lazımdır ki, Azərbaycanın maraqlarını təmin edək. Eyni zamanda, regional əməkdaşlıq məsələlərində də istədiyimizə nail olaq. Bizim istədiyimiz əməkdaşlıqdır, qarşılıqlı mənfəətdir, qarşılıqlı dəstəkdir. Bizim başqa fikrimiz yoxdur. Ona görə regional inkişaf, regional təhlükəsizlik, enerji təhlükəsizliyi məsələlərində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir.

Beynəlxalq nüfuz, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, infrastruktur layihələrinin icrası – bütün bunlar Azərbaycan reallıqlarıdır. Azərbaycan rəhbərliyinin hər bir məsələ ilə bağlı çox dəqiq, düşünülmüş proqramı və inkişaf strategiyası var. Biz ölkəmizi gələcəkdə necə inkişaf etdirəcəyik?! Bu barədə bizim bütün proqramlarımız var, bu barədə vaxtaşırı məlumatlar verilir və xalq tərəfindən dəstəklənir.

Azərbaycan bir neçə gündən sonra tarixdə ilk dəfə keçiriləcək Avropa oyunlarını qəbul edəcək. 2017-ci ildə isə İslam Həmrəyliyi oyunlarını qəbul edəcək. Bu da ölkəmizin nadirliyini əks etdirən ən gözəl göstəricidir.

Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkədir. Bu coğrafi yerləşmə, əlbəttə ki, bizim tariximizə də, bugünkü vəziyyətimizə də təsir edir. Biz isə çalışırıq ki, bu coğrafi mövqemizdən maksimum səmərə ilə istifadə edək. Bu coğrafi mövqe bizə bəlalar da, faciələr də gətirə bilərdi. Ancaq bu gün

düşünülmüş, cəsarətli və dürüst xarici siyasətimiz nəticəsində biz bu əlverişli mövqeni artıq müsbət amil kimi görürük. Bunu müsbət amilə çevirən məhz bizik. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Bu isə bizim nüfuzumuzu qaldırır, önəmimizi artırır. 2 il ərzində həm Avropa, həm İslam Həmrəyliyi oyunlarının keçirilməsi nadir bir göstəricidir, bunun analoqu yoxdur, bəlkə də heç vaxt olmayacaq.

O da aydındır ki, bu dərəcədə sürətli inkişaf heç də hamının xoşuna gəlmir. Azərbaycan xalqının mütləq əksəriyyəti bizim bütün təşəbbüslərimizi dəstəkləyir. Biz xarici və daxili siyasətlə bağlı bu dəstəyi tam görürük. Ancaq bizim uğurumuzu istəməyən, inkişafımıza paxıllıqla yanaşan dairələr də var. Biz bu barədə həm o dairələrin nümayəndələri ilə açıq danışırıq, həm də öz xalqımıza bu barədə məlumat veririk. Çünki Azərbaycan xalqı bilməlidir ki, nələr baş verir. Ölkə daxilində Azərbaycanın xarici siyasəti ilə bağlı biz heç nəyi gizlətmirik. Azərbaycan xalqı hər şeyi bilməlidir. Bilirəm, bu gün Azərbaycan xalqını incidən odur ki, bizə qarşı əsassız iddialar, ittihamlar səslənir. Bu ittihamların heç bir əsası yoxdur. Onlar süni şəkildə yaradılan ittihamlardır. Bir çox hallarda bu ittihamları bizə ünvanlayan dairələr sanki səhər durub güzgüyə baxmırlar. Amma baxsalar pis olmazdı. Kimisə ittiham etməkdənsə, elə öz daxili həyatına nəzər salmaq daha xeyirli ola bilər.

Ona görə bu kampaniyalar əslində heç vaxt dayanmayıb. Sadəcə olaraq, önəmli hadisələr ərəfəsində özünü daha da qabarıq şəkildə büruzə verir. 3 il bundan əvvəl «Eurovision» mahnı müsabiqəsi ərəfəsində Azərbaycana qarşı nə qədər çirkin qarayaxma, şantaj, böhtan kampaniyaları aparılıb. Bütün bunları biz yaxşı xatırlayırıq. İndi də təxminən eyni mənzərə ilə üzləşirik. Ancaq o vaxt da bunun heç bir təsiri, əhəmiyyəti yox idi, bu gün də yoxdur. Çünki Bakıya gələcək minlərlə idmançı, onların nümayəndə heyətləri öz gözləri ilə görəcəklər ki, Azərbaycan dövləti nəyə qadirdir, müstəqillik dövründə biz nələr yaratmışıq, Azərbaycan xalqı necə yaşayır. Azərbaycan xalqı azad, qürurlu, öz

milli dəyərlərinə sadiq xalq kimi yaşayır. Azərbaycan ictimaiyyəti bütün bu müsbət dəyişiklikləri görür, onları təqdirlə qarşılayır.

Ona görə bu yüksək kürsüdən mənim üçün çox əziz bir gündə bir daha demək istəyirəm ki, bütün bunlara fikir vermək lazım deyil. Bizim siyasətimizə bunun heç bir təsiri olmayacaq. Bizim siyasətimizə ancaq Azərbaycan xalqı, onun iradəsi təsir edə bilər. Biz ölkəmizi Azərbaycan xalqının iradəsi ilə idarə edirik. Milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Bundan sonra da biz öz prinsipial mövqemizdən kənara çıxmayacağıq. Biz ölkəmizin inkişafı, xalqımızın rifahı üçün bundan sonra da səmərəli işləyəcəyik, ulu öndərin siyasi xəttinə sadiq qalacağıq. Azərbaycanın dövlət müstəqilliyi bizim ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizdən əvvəlki nəsillər müstəqillik həsrəti ilə yaşayıblar. Ancaq müstəqilliyi görə bilmədilər. Bu xoşbəxtlik bizə nəsib oldu. Eyni zamanda, bu gün müstəqil dövləti inkişaf etdirmək, irəliyə aparmaq da bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir, böyük məsuliyyətdir.

Mən əminəm ki, Azərbaycan xalqı bundan sonra da ulu öndərin siyasi xəttinə sadiq qalaraq sürətlə inkişaf edəcək. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək. Bizim yolumuz haqq, inkişaf, tərəqqi yoludur. Bu yolda bütün Azərbaycan xalqına qələbələr arzulayıram. Sağ olun.

* * *

*Sonra Heydər Əliyev mükafatının təqdimetmə mərasimi oldu.*

*Əvvəlcə Azərbaycanın Xalq rəssamı Tahir Salahovun Heydər Əliyev mükafatı ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamı oxundu.*

*Prezident İlham Əliyev mükafatı Tahir Salahova təqdim etdi.*

**T a h i r   S a l a h o v** *(Xalq rəssamı):* Çox hörmətli prezident, əziz İlham Heydər oğlu!

Bu gün bu yüksək mükafatı Sizin əlinizdən almaq mənim üçün böyük şərəfdir. Bu mənim üçün, yaradıcılığım üçün böyük stimuldur. Düşünürəm ki, bu mənə daha məsuliyyətli olmağa, respublikamızla bağlı daha çox əsərlər yaratmağa kömək edəcək.

Demək istəyirəm ki, mən Heydər Əlirza oğlu ilə moskvalı rəssamlar Viktor İvanov və Pyotr Ossovskinin sərgisinin Bakıda açıldığı vaxt tanış oldum. Onlar Kubada olmuşdular, Kuba haqqında təəssüratlarını kətana köçürmüş və həmin sərgini Bakıya gətirmişdilər. Onların əsərləri Mərkəzi İncəsənət Muzeyində nümayiş olunurdu. O vaxt Kubanın səfiri gəlmişdi, soyadı deyəsən, Çamon idi. Bu ciddi və gözəl sərginin – çünki rəsmləri çəkən müəlliflər qəribə adamlar idi, onlar sovet və Rusiya incəsənəti tarixinə düşüblər – açılışından sonra ziyafət oldu. Ziyafətdə səfir, rəssamlar, Mərkəzi Komitənin katibləri iştirak edirdilər, mən də orada idim. Heydər Əlirza oğlu ziyafətdə çıxış etdi. O, rəssamlar, incəsənət haqqında mükəmməl çıxışı ilə məni heyran etdi, mənim dostlarıma, yoldaşlarıma yüksək qiymət verdi.

Demək istəyirəm ki, Heydər Əlirza oğlu dünya siyasətinin nəhənginə, Sovet İttifaqında 19 istiqamətə başçılıq edən rəhbərə çevrildi.

O, Sovet İttifaqının mədəniyyət xadimləri üçün çox işlər görüb. Bütün istiqamətlər üzrə – istər arxitektura və teatr, istər bəstəkarlıq və rəssamlıq, istərsə də dizayn sahələrində çox iş görüb. Mən Bakıya gələndə mədəniyyət xadimləri həmişə deyirdilər: Heydər Əlirza oğluna bizim salamımızı çatdırın. Onun dünya səviyyəli nəhəngə çevrilməsi, sonralar Azərbaycanı xilas etməsi böyük xoşbəxtlikdir.

Heydər Əlirza oğlu mənə ilk Dövlət mükafatını 1972-ci ildə «Yeni dəniz» tablosuna görə verib. Bu, böyük tablodur, Siz onu yəqin ki, görmüsünüz. Açılışa gələndə o, artıq respublikanın başçısı idi. Respublikanın vəzifəli şəxslərindən biri qəflətən dedi: «Tahir, bəs nə üçün sənin fəhlələrin gülümsəmirlər?». Məşum bir sükut çökdü. Birdən Heydər Əlirza oğlu ona dedi:

«Onlar nə üçün gülümsəməlidirlər ki? Onlar işləyiblər, zəhmət çəkiblər, bu, ağır zəhmətdir».

Demək istəyirəm ki, mən bu gün bu mükafatı 1920 – 40-cı illərdə, müharibə illərində, 50–70-ci illərdə xalqımızı şöhrətləndirən əsərlər yaradan bütün rəsamlara aid edirəm. Heydər Əlirza oğlu mədəniyyət xadimlərini ürəkdən sevirdi. O həm oxuyur, həm də şəkil çəkirdi. Bu onun üçün təbii bir duyğu idi. O vaxt 9 mədəniyyət xadimimiz Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Bu, mürəkkəb dövrdə böyük xoşbəxtlik idi.

Mən xoşbəxtəm ki, bu gün gənc rəssamlar Venesiya biennalesində Azərbaycanın, təsviri sənətin şərəfini qoruyurlar. Bu, böyük xoşbəxtlikdir. Azərbaycan üçüncü dəfədir ki, bu biennaledə iştirak edir. Leyla xanım, Aida Mahmudova, Azərbaycan rəssamlarının bütöv bir pleyadası orada iştirak edir. Mircavad da, Abşeron istiqamətində işləyən, amma vaxtilə qəbul edilməyən bir sıra rəssamlar da orada iştirak edirlər. Bu gün isə onlar Venesiya biennalesində Azərbaycanın şərəfini qoruyurlar. Demək istəyirəm ki, gənc nəsil gələcəyə baxır, gələcəyə istiqamətlənib. Zənnimcə, hər şey irəlidədir. Dostoyevski deyirdi: «Dünyanı gözəllik xilas edəcək». Biz gözəllik naminə mübarizə aparacağıq. Sağ olun.

*Sonra ulu öndər Heydər Əliyevin fəaliyyətinə həsr olunan videofilm nümayiş etdirildi. Daha sonra Heydər Əliyev Fondu tərəfindən 2009-cu ildə təsis edilən «Qızıl çinar» beynəlxalq mükafatının 2015-ci il üzrə qalibləri elan olundu.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fondun mədəniyyət sahəsində həyata keçirdiyi layihələrə dəstəyinə və Azərbaycan mədəniyyətinin təbliğində fəal iştirakına görə tanınmış incəsənət eksperti Erve Mikaelofa «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**E r v e M i k a e l o f:** Hörmətli cənab Prezident!

Xanım Əliyeva!

Xanımlar və cənablar!

Mənə verilmiş bu mükafata görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Bu gün axşam Sizinlə Azərbaycanın dostu qismində birgə olmaq mənim üçün böyük şərəfdir.

4 il əvvəl mən Sizin ölkənizə səfər etdim və Azərbaycanın zənginliyini, bugünkü inkişafını kəşf etdim. Bu gün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, Fondun vitse-prezidenti Leyla Əliyevanın səyləri ilə Azərbaycan mədəniyyətinin, incəsənətinin bir çox nümunələri dünyanın müxtəlif ölkələrində təqdim olunur. Bu məhz Fondun uğurlu fəaliyyətinin göstəricisidir. Çox sağ olun.

*Mehriban Əliyeva qədim muğam irsinin qorunmasına, muğam ifaçılıq məktəbinin inkişafına, yeni ifaçılar nəslinin yetişdirilməsinə, Azərbaycan mədəniyyətinin inkişafına verdiyi töhfələrə görə Xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Ağaxan Abdullayevə «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**A ğ a x a n A b d u l l a y e v** *(Xalq artisti):* Cənab Prezident!

Hörmətli Mehriban xanım!

Çox minnətdaram. Bu gün mənə verilən bu mükafat muğam sənətinə, muğam ifaçılarına verilən mükafatdır. Mən dəfələrlə demişəm ki, dövlətimiz, Prezidentimiz, Heydər Əliyev Fondu tərəfindən sənətkarlara, muğam ifaçılarına, mədəniyyət işçilərinə yüksək qiymət verilir. Heç bir ölkədə sənətkara belə bir qiymət yoxdur. Bu ancaq bizim Azərbaycandadır. Mən buna görə, cənab Prezident, Sizin qarşınızda baş əyirəm, Sizə «Çox sağ olun» – deyirəm.

Mən Heydər Əliyev Fonduna, şəxsən Mehriban xanıma sonsuz minnətdarlığımı bildirirəm. Məhz Mehriban xanımın diqqət və qayğısı sayəsində bu gün mən burada sizin qarşınızda çıxış edirəm. Bunu hamı bilir ki, əgər Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanımın köməyi olmasaydı, mən 5 il bundan

əvvəl ağır xəstəlikdən dünyamı dəyişərdim. Məni bu bəladan məhz Siz qurtarmısınız. Mən Almaniyada, Türkiyədə müalicə almışam. Buna görə də minnətdarlığımı bildirir, Sizə «Çox sağ olun» – deyirəm.

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasim bədii hissə ilə davam etdi.*

# RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin və səfər çərçivəsində keçiriləcək görüşlərin səmərəli olacağına əminliyini bildirdi. Ölkələrimizin hüquq-mühafizə orqanları arasında münasibətlərin uğurlu inkişafına toxunan prezident İlham Əliyev müvafiq qurumların işgüzar əlaqələrinin mövcud olmasının, qarşılıqlı informasiya mübadiləsi aparılmasının və birgə tədbirlərin keçirilməsinin regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Faşizm üzərində Qələbənin 70 illiyinin Azərbaycanda yüksək səviyyədə keçirildiyini deyən prezident İlham Əliyev bu tədbirlərin Qələbənin qeyd olunması ənənələrinin davam etdirilməsi və tarixi ədalətin qorunub saxlanılması üçün ümumi mövqenin formalaşdırılması baxımından önəmini vurğuladı.*

*Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı. Nikolay Patruşev ölkəmizə səfərinin ilk saatlarından başlayaraq Bakıda böyük abadlıq və quruculuq işlərinin yüksək keyfiyyətlə aparılmasının şahidi olduqlarını*

*dedi. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Nikolay Patruşev yüksək səviyyəli görüşlərin, o cümlədən Azərbaycan və Rusiya prezidentlərinin faşizm üzərində Qələbənin 70 illiyi münasibətilə Moskvadakı təmaslarının ikitərəfli münasibətlərimizin genişləndirilməsi və əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə toxunan rusiyalı qonaq ulu öndərin böyük dövlət və siyasi xadim olduğunu vurğulayaraq Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında onun müstəsna xidmətlərini xüsusi qeyd etdi. I Avropa oyunlarına toxunan Nikolay Patruşev bu tədbirin də yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ ƏLİ BABACANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Türkiyə Respublikası Baş nazirinin müavini Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir*

*Türkiyənin «G-20»-yə rəhbərliyə seçildiyini və bu mötəbər təşkilatın bütün tədbirlərinə ev sahibliyi edəcəyini vurğulayan Baş nazirin müavini Əli Babacan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan prezidenti İlham Əliyevin həmin tədbirlərdə iştirak etmək üçün dəvətini bir daha diqqətə çatdırdı. Əli Babacan qardaş Azərbaycanın «G-20»-nin toplantılarında Türkiyə ilə bərabər olmasının xüsusi önəm daşıdığını qeyd etdi. I Avropa oyunlarına Bakının ev sahibliyi etməsinin əhəmiyyətinə toxunan Əli Babacan yarışların yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Türkiyənin «G-20»-yə rəhbərlik etməsini qardaş ölkənin böyük qələbəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın buna çox sevindiyini dedi. Prezident İlham Əliyev bunu həm də dünyanın aparıcı dövlətləri tərəfindən Türkiyənin roluna göstərilən yüksək münasibətin ifadəsi kimi qiymətləndirdi. Azərbaycanı «G-20»-yə dəvət etdiyinə görə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha minnətdarlığını ifadə edən prezident İlham Əliyev bunun dostluğumuzun və qardaşlığımızın bariz nümunəsi, Türkiyə–Azərbaycan birliyini dünyaya nümayiş etdirən başlıca amil olduğunu dedi. Dövlətimizin başçısı ölkəmizin bu mötəbər görüşə hazırlaşdığını və bununla bağlı bu gün Bakıda xüsusi toplantının keçirilməsinin önəmini də vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda*

*Çanaqqala zəfərinin* 100 illiyi *münasibətilə keçirilən tədbirlərin yüksək səviyyədə təşkil olunmasının və mərasimlərdə dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçılarının iştirak etməsinin əhəmiyyətini məmnunluqla* qeyd etdi.

*Görüşdə ölkələrimiz arasında* dostluq *və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf* etdiyi bildirildi *və* bu *əlaqələrin* bundan sonra da *genişləndiriləcəyinə əminlik ifadə olundu.*

## AVROPA OYUNLARI PARKININ AÇILIŞI MƏRASİMİ

*13 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva mayın 13-də paytaxtda Avropa oyunları parkının açılışında iştirak etmişlər.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına parkda yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, yüksək səviyyədə aparılan tikinti-quraşdırma işləri zamanı bütün tələblər nəzərə alınıb. Ərazinin geoloji xüsusiyyətlərinə uyğun olaraq dayanıqlılıq üzrə müvafiq sınaq işləri yerinə yetirilib.*

*Prezident İlham Əliyev parkın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Diqqətə çatdırıldı ki, Avropa oyunları parkı su polosu, çimərlik voleybolu, çimərlik futbolu və basketbol yarışları üçün nəzərdə tutulub. Park 3 idman qurğusundan və 4 funksional zonadan ibarətdir. Qurğunun ümumi ərazisi 18 hektar, tikintialtı sahə isə 70 min kvadratmetrə yaxındır.*

*Qeyd edildi ki, Avropa oyunları parkında yerləşən su polosu yarışları kompleksindəki funksional otaqlar ən yüksək standartlar səviyyəsindədir. Burada iclas və məlumat otaqları, kafe və VIP sahələr də istifadəyə verilib. Kompleksdə beynəlxalq tələblər səviyyəsində 1836 və 560 tamaşaçı yeri olan 2 üzgüçülük hovuzu inşa edilib. Burada tənzimləyici su hovuzu da yaradılıb.*

*Su polosu yarışları kompleksi ilə çimərlik voleybolu və çimərlik futbolu yarışları kompleksi arasında ikimərtəbəli*

*funksional keçid inşa olunub. Burada, həmçinin «VIP lounge» və terras yaradılıb.*

*Avropa oyunları parkının basketbol yarışları kompleksi də beynəlxalq tələblər nəzərə alınaraq qurulub. Burada hər biri 3 nəfərdən ibarət komandaların idmanın bu növü ilə məşğul olmaları üçün əlverişli şərait var. Final yarışları üçün nəzərdə tutulan, eni 11, uzunluğu 15 metr olan meydançada 2008 nəfərlik tribuna quraşdırılıb. Bundan başqa, kompleksdəki 3 meydança da idmançıların ixtiyarına veriləcək. Onların hər biri 376 tamaşaçı tutumuna malikdir.*

*Parkın çimərlik voleybolu və çimərlik futbolu yarışları kompleksində idmanın bu növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Kompleksdə final yarışları üçün 2931 tamaşaçı tutumu olan meydança, hər biri 302 tamaşaçı yerinə malik 3 adi və 2 məşq meydançası idmançıların ixtiyarına veriləcək.*

*Avropa oyunları parkının bütün komplekslərində quraşdırılan idman qurğuları dünyanın tanınmış şirkətlərinin məhsullarıdır. Belə avadanlıqlar dünyada məşhur idman arenalarında istifadə olunur. Bu idman qurğusunda avtodayanacaq, qeydiyyat, mətbuat, yayım və çəkiliş qurğuları, digər xidmət sahələri mövcuddur.*

*Avropa oyunları parkı kimi müasir idman qurğusunun istifadəyə verilməsi «Bakı–2015» ilk Avropa oyunları zamanı su polosu, çimərlik voleybolu, çimərlik futbolu və basketbol yarışlarının yüksək səviyyədə təşkilinə hərtərəfli imkan yaradacaq. Ölkəmizdəki mövcud idman komplekslərinin müasir tələblər səviyyəsində yenidən qurulması və yeni idman qurğularının istifadəyə verilməsi Azərbaycanda idmana dövlət qayğısının göstəricisidir. Bu addımlar ölkədə idmana marağın artmasında, idmanın kütləviliyinin təmin edilməsində də mühüm rol oynayır. Belə tədbirlər həm də onu sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanılan və istənilən sahəyə aid bütün layihələr uğurla, həm də vaxtında icra olunur. «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın*

*rəhbərliyi altında ölkəmizdə bu mötəbər idman yarışı ilə bağlı görülən işlər I Avropa oyunlarının yüksək səviyyədə keçirilməsi üçün yaxşı əsas yaradır.*

*Parkda yaradılan şəraitlə tanış olandan sonra dövlətimizin başçısı və xanımı Avropadan olan rəsmi və texniki heyətə xidmət göstərəcək taksilərə baxdılar. Mayın 29-dan istifadəyə veriləcək bu taksilər oyunlar zamanı federasiyaların, beynəlxalq idman qurumlarının rəhbərlərinə və digər vacib şəxslərə xidmət göstərəcək. Oyunlar zamanı 500 belə taksi fəaliyyət göstərəcək. Bu isə öz növbəsində, Avropa oyunları ilə bağlı ölkəmizə gələn qonaqların rahatlığını təmin etmək baxımından önəmlidir.*

## VELOPARKIN AÇILIŞI MƏRASİMİ

*13 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva mayın 13-də Veloparkın açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Veloparkın baş planına baxdılar.*

*Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Fazil Məmmədov görülən işlərlə bağlı məlumat verdi. Qeyd edildi ki, hazırda Veloparkın yerləşdiyi ərazidəki park keçən əsrin 70-ci illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə salınıb. XX əsrin 90-cı illərinin əvvəllərində baxımsızlıq üzündən bərbad hala düşən bu ərazidə qanunsuz tikililər inşa olunub. 2005-ci ilin sentyabrında prezident İlham Əliyev parkın ərazisində təmizlik işlərinin aparılması barədə göstəriş verib. 2013-cü ildə isə parkın ərazisi baza kimi, Azərbaycan Velosiped İdmanı Federasiyasına təhkim edilib. Ötən müddətdə Federasiya tərəfindən 40 hektar ərazidə genişmiqyaslı abadlıq işləri aparılıb, burada minlərlə ağac əkilib, yarışlar üçün 4 velosiped marşrutu, o cümlədən dağ velosiped idmanı üçün yollar salınıb. Ümumi sahəsi 30 hektardan çox olan Veloparkın ərazisində Avropa oyunlarında istifadə olunacaq BMX veloparkı da inşa olunub. Sahəsi 28 min kvadratmetr olan BMX veloparkında yarışların keçirilməsi üçün maneəli meydança qurulub ki, onun da sahəsi 6700 kvadratmetrdir. Meydançada yaradılan şərait Beynəlxalq Velosipedçilər İttifaqının standartlarına tam uyğundur. Həm yarış iştirakçıları, həm də azarkeşlər üçün hər cür şəraitin yaradıldığı BMX veloparkında 1197 nəfərlik tamaşaçı yeri yaradılıb. Burada*

yüksək səviyyəli qonaqlar, idmançılar, əlil tamaşaçılar və mətbuat nümayəndələri üçün xüsusi yerlər nəzərdə tutulub.

Dünya idmanında xüsusi yeri olan BMX start xəttindən istifadə edən və maneəli cığırlarda motokros stilində yarışan velosipedlərlə bağlı idman növüdür. Ötən əsrin 70-ci illərində əsası qoyulan bu idman növü indi bütün dünyada məşhurdur. 1981-ci ildə Beynəlxalq BMX Federasiyasının təsis olunması, 1 il sonra dünya çempionatının keçirilməsi ilə bu idman növünün şöhrəti daha da artıb və hazırda Beynəlxalq Velosipedçilər İttifaqının tərkib hissəsinə çevrilib. 2003-cü ildən isə BMX Beynəlxalq Olimpiya Komitəsinin proqramına daxil edilib və ilk dəfə 2008-ci il Pekin Yay Olimpiya oyunlarında təmsil olunub.

Veloparkın ərazisində tikilən ikimərtəbəli ofis binasında qeydiyyat mərkəzi, iş, dopinq nəzarət, dopinq analizgötürmə otaqları, 25 yerlik iclas zalı və digər yardımçı otaqlar yaradılıb. Ofis binasının damında xüsusi örtüklü start meydançası, idmançıların hazırlaşması üçün 20 çadır quraşdırılıb. Ərazidə VIP, olimpiya ailəsi, beynəlxalq federasiyaların təmsilçiləri, rəsmi nümayəndələr üçün avtodayanacaq, qeydiyyat, fərdi yerləşdirmə və digər xidmət sahələri də mövcuddur.

Azərbaycanda irimiqyaslı velosiped yarışlarının keçirilməsi ötən əsrin 40-cı illərinin əvvəllərinə təsadüf edir. 1980-ci ildə ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində Bakıda dünya standartlarına uyğun və bir çox ümumittifaq yarışlarının keçirildiyi Respublika Velotreki tikilib istifadəyə verilib. Prezident İlham Əliyevin ölkədə idmanın inkişafına xüsusi diqqət və qayğısı nəticəsində idmanın bir çox növləri ilə yanaşı, velosiped idmanı da inkişaf etdirilir. Bununla bağlı Azərbaycan Velosiped İdmanı Federasiyasının qarşısına ölkəmizdə idmanın bu növünün inkişaf etdirilməsi və velosipedçi idmançıların Olimpiadaya, eləcə də digər mötəbər beynəlxalq yarışlara hazırlanması ilə bağlı vəzifələr qoyulub. Hazırda Azərbaycanda velosiped idmanı ilə məşğul olan məktəblər, klublar fəaliyyət göstərir. Ölkəmizdə keçirilən velosiped yarışları isə bu prosesin uğurla inkişaf etdiyini və kifayət qədər maraq doğurduğunu bir

*daha təsdiqləyir. Azərbaycanın artıq 3 ildir fəaliyyət göstərən «Synergy Baku Cycling Project» velosiped komandasının üzvləri 2013-cü ildən Beynəlxalq Velosipedçilər İttifaqının təşkil etdiyi Avropa və Asiya turlarında iştirak edir. Komandanın 12 nəfərdən ibarət üzvü indiyə qədər Xorvatiyada, Fransada və digər ölkələrdə keçirilən beynəlxalq yarışlarda uğurlu çıxış ediblər.*

*Komandanın üzvləri Veloparkda prezident İlham Əliyevlə görüşərkən, ölkəmizdə idmançılar, o cümlədən onlar üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər. Qeyd olundu ki, komandanın üzvləri bu il mayın 6–10-da ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan «Tour d`Azerbaidjan» veloyürüşündə də fərqləniblər. Paytaxt da daxil olmaqla, ölkəmizin 7 bölgəsini əhatə edən və uğurla başa çatan bu yarışda Aleksandr Surutkoviç «Dağ kralı» köynəyini qazanıb, Matey Müqerli üçüncü yeri tutub. Ölkəmizin ən məşhur velosipedçilərindən olan Maksim Averin isə öz çıxışı ilə Rio Olimpiadasına daha 22 reytinq xalı qazanıb.*

**E l ç i n Ə s ə d o v:** Cənab Prezident, biz idmançılar həmişə Sizinlə fəxr edirik. Bizə göstərdiyiniz dəstəyə görə Sizə təşəkkür edirik. İdmanın bütün növləri kimi, velosiped idmanına da çox böyük dəstək verirsiniz. Çox sağ olun.

*Dövlətimizin başçısı velosipedçiləri qazandıqları uğur münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Mən sizi qələbə münasibətilə təbrik edirəm. Şadam ki, Azərbaycanda idmanın velosiped növü də uğurla inkişaf edir. Gözəl şərait var, veloparklar yaradılır. «Tour d`Azerbaidjan» artıq beynəlxalq idman yarışı kimi dünyada tanınır. Mən bazar günü «Eurosport» kanalı ilə bu yarışları izləmişəm, çox böyük zövq almışam. İlk növbədə ona görə ki, indi bu yarışlar çox maraqlıdır. Eyni zamanda, Bakının gözəlliyini bir daha bütün dünyaya göstərir. Siz də çox böyük uğur qazanmısınız, komanda hesabında birinci yerə layiq görülmüsünüz.

«Tour d`Azerbaidjan» Azərbaycanın bölgələrində də keçirilir və bizim gözəl, mənzərəli yerlər xarici qonaqlar tərəfindən yüksək qiymətləndirilir.

Bakı gözəl şəhərdir. Digər şəhərlərimiz də gözəldir. Siz də görürsünüz. İnsanlar sizi çox səmimi qarşılayırlar. Əlbəttə, mötəbər yarışda qələbə qazanmaq çox böyük uğurdur. Əminəm ki, siz gələcəkdə də Azərbaycanı bütün beynəlxalq yarışlarda ləyaqətlə təmsil edəcəksiniz.

**E l ç i n  Ə s ə d o v:** Sizin dəstəyinizlə, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Norveç xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2015-ci il*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın mayın 14-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqı və xanımı May Thi Hanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Vyetnam Prezidentinə raport verdi.*

*Vyetnam Sosialist Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Vyetnam Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Çıonq Tan Şanqa, Vyetnam Sosialist Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*14 may 2015-ci il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın məhdud tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Cənab Prezident, Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz! Sizin səfəriniz dostluq münasibətlərimizin inkişafı işində çox əhəmiyyətli addım olacaq. Ölkələrimiz arasında münasibətlərin inkişafından çox razıyıq. Biz bütün istiqamətlər üzrə əməkdaşlığı qətiyyətlə davam etdirmək niyyətindəyik. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və biz Vyetnam ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyətin möhkəmlənməsi işində daha da irəli gedəcəyik. Bir daha xoş gəlmisiniz!

**Ç ı o n q T a n Ş a n q:** Hörmətli cənab prezident İlham Əliyev!

Əziz dostlar!

Bu gün başçılıq etdiyim nümayəndə heyəti ilə Azərbaycan Respublikasına səfər etmək mənim üçün böyük şərəfdir. Mən Sizin Vyetnam Respublikasına səfərinizi yaxşı xatırlayıram. Həmin səfər zamanı biz ikitərəfli gündəliyin bir çox məsələlərini müzakirə etdik. Mən ölkələrimiz arasında münasibətlərin ildən-ilə inkişaf etdiyini qeyd etməyə şadam.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın mayın 14-də geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Bir qədər əvvəl məhdud tərkibdə görüş keçirdik, ölkələrimiz arasında strateji əməkdaşlığın mühüm məsələlərini müzakirə etdik. İndi nümayəndə heyətinin bütün üzvlərinin iştirakı ilə dialoqumuzu davam etdirəcəyik.

Cənab Prezident, Sizin ölkəmizə səfərinizə çox böyük əhəmiyyət veririk. Vyetnam bizim üçün dost ölkədir və ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, mən ötən il Sizin ölkəyə səfərimi həmişə xatırlayıram. Apardığımız danışıqlar və qəbul etdiyimiz qərarlar münasibətlərimizin uğurlu inkişafını təmin edir. Siyasi dialoqu, iqtisadi sahədə, energetika sahəsində əməkdaşlığı möhkəmləndirmək üçün çox yaxşı perspektivlərimiz var. Humanitar əməkdaşlıq da münasibətlərimizin formatının ayrılmaz tərkib hissəsidir. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaq və əlaqələrimizin genişlənməsi üçün daha möhkəm zəmin yaradacaq. Cənab Prezident, Sizi və nümayəndə heyətinizin bütün üzvlərini bir daha salamlayıram.

**Ç ı o n q  T a n  Ş a n q:** Çox sağ olun, hörmətli cənab Prezident. Sizin ölkəmizə səfərinizdən düz 1 il sonra Azərbaycana səfər edən Vyetnam nümayəndə heyətinə başçılıq etməyimə çox şadam. Bu həm də onu göstərir ki, biz artıq ənənəvi dostlarımız, o cümlədən Azərbaycan ilə münasibətlərimizin inkişafına çox böyük əhəmiyyət veririk. İcazə verin, ilk növbədə, bizə

göstərilən çox səmimi, təntənəli və qardaşcasına qəbula görə bütün nümayəndə heyətimizin adından Sizə minnətdarlığımı ifadə edim.

* * *

*Söhbət zamanı Azərbaycanın sovetlər dövründə Vyetnama yardımı, xüsusilə neft-qaz sahəsində kadrların hazırlanmasında köməyi yüksək qiymətləndirildi, bu ənənələrin davam etdirilməsinin vacibliyi bildirildi. Beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlığın davam etdirildiyi vurğulandı, ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığı diqqətə çatdırıldı. Neft-qaz sahəsində əməkdaşlığın gözəl perspektivə malik olduğu bildirildi. Azərbaycanın şəhərsalma və infrastruktur sahəsində yaxşı təcrübəyə malik olması nəzərə alınaraq, şəhər tikintisi, infrastruktur və nəqliyyat sahələrində ölkəmizlə təcrübə mübadiləsinin aparılmasının önəmi qeyd edildi. Təhsil, kadr hazırlığı, tikinti, infrastruktur, humanitar, turizm, idman və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Bu sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 may 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın iştirakı ilə Azərbaycan–Vyetnam sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«SOCAR və PetroVietnam arasında neft və qaz sənayesində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Vietnam Oil and Gas Group» şirkətinin prezidenti və baş direktoru Nquyen Kuok Kxan imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında kənd təsərrüfatı və kəndin inkişafı sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Vyetnamın Kənd Təsərrüfatı və Kəndin İnkişafı nazirinin müavini Vu Van Tam imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Vyetnam Sosialist Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Vyetnam Sosialist Respublikasının Maliyyə nazirinin müavini Do Hoanq An Tuan imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və*

*Vyetnamın Nəqliyyat nazirinin müavini Nquyen Nqok Donq imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Vyetnam Sosialist Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş»i Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov və Vyetnamın Nəqliyyat nazirinin müavini Nquyen Nqok Donq imzaladılar.*

# VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 may 2015-ci il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq mətbuata birgə bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Vyetnam–Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm mərhələ olacaqdır. Keçən il mən Vyetnama dövlət səfəri etmişdim. Səfər çox uğurlu keçdi. Mənə göstərilən qonaqpərvərlik heç vaxt yadımdan çıxmaz. Hesab edirəm, 1 il ərzində Sizin Azərbaycana səfəriniz onu göstərir ki, bizim aramızda inkişafda olan əlaqələr çox intensiv xarakter daşıyır.

Bu gün biz ikitərəfli əlaqələrimizin müxtəlif sahələrini geniş şəkildə müzakirə etdik. Bir daha gördük ki, bir çox məsələlərlə əlaqədar bizim mövqelərimiz üst-üstə düşür. İlk növbədə, hər iki tərəf ikitərəfli əlaqələrini genişləndirmək fikrindədir. Hazırda siyasi əlaqələr çox yüksək səviyyədədir. Qarşılıqlı səfərlər bunu təsdiqləyir. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində də çox uğurla əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Bu gün aparılan danışıqlar nəticəsində

qərara gəldik ki, gələcəkdə də bütün beynəlxalq təşkilatlarda biz bir-birimizi dəstəkləyəcəyik. Bu çox önəmli məsələdir. Çünki bu, ikitərəfli əlaqələrin yüksək səviyyəsini əyani şəkildə göstərir.

Bu gün eyni zamanda, regional təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi apardıq. Mən cənab Prezidenti bizim regionda baş verən hadisələrlə bağlı məlumatlandırdım. Qeyd etdim ki, regional təhlükəsizlik üçün əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, uzun illər bu məsələ öz həllini tapmır. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, bu qətnamələri icra etmir və beləliklə, işğal davam edir.

Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşüb. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. Ərazimizin 20 faizi hələ də işğal altındadır. Bir daha qeyd etməliyəm ki, bir çox beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz ədalətli mövqeyini bildirib. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» – bütün bu mötəbər təşkilatlar birmənalı olaraq Azərbaycanın haqq işini dəstəkləyərək, müvafiq qərar və qətnamələr qəbul ediblər.

Bu məsələ və bütün başqa məsələlər beynəlxalq hüquq əsasında öz həllini tapmalıdır. Beynəlxalq hüququn fundamental prinsipi isə ölkələrin ərazi bütövlüyüdür. Bu məsələdə beynəlxalq birlik vahid mövqe nümayiş etdirməlidir. Burada heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Bütün ölkələrin ərazi bütövlüyü eyni yanaşma ilə tənzimlənməlidir.

Bu gün biz, əlbəttə ki, iqtisadi sahədə görülən işlər haqqında fikir mübadiləsi apardıq. Çox müsbət haldır ki, aramızda olan ticarət dövriyyəsi yüksək səviyyədədir, daha da yüksələ bilər.

Buna nail olmaq üçün konkret tədbirlər planı hazırlanmalıdır. Biz bu barədə də danışdıq. Hesab edirəm ki, ticarət dövriyyəsinin artırılması üçün yaxşı imkanlar var. Qarşılıqlı investisiya qoyuluşu məsələləri müzakirə edildi. Bu sahədə də artıq həm Vyetnam, həm Azərbaycan şirkətlərinin təcrübəsi vardır. Bu gün keçiriləcək biznes-forumda əminəm ki, iki ölkənin biznes qurumları da bu məsələ ilə bağlı öz sözünü deyəcək. Bir sözlə, iqtisadi və ticarət əlaqələrimiz bizim ümumi əməkdaşlığa çox müsbət təsir göstərir və gözəl perspektivlər də vardır.

Təbii ki, ənənəvi olaraq neft-qaz sahəsində əməkdaşlıqla bağlı bu gün biz məruzələri də dinlədik. Bu sahədə çox gözəl təcrübə var. Vaxtilə Azərbaycan mütəxəssisləri Vyetnamda neft-qaz sahəsində işləyiblər, öz təcrübələrini bölüşüblər. Bu gün də buna imkan var. Bu gün biz artıq Vyetnam şirkətlərini Azərbaycana dəvət edirik. Azərbaycanda zəngin neft-qaz yataqları vardır. İstərdik ki, Vyetnam şirkətləri də bizim yataqlarımızda, onların işlənməsində iştirak etsinlər. Eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR da artıq beynəlxalq enerji şirkətinə çevrilib və böyük maraqla Vyetnamda işləmək üçün səylər göstərir.

Bu gün eyni zamanda, humanitar sahədə əməkdaşlıq da diqqət mərkəzində idi. Burada da gözəl təcrübə, gözəl ənənələr var. Mən keçən il Vyetnamda olarkən vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı tələbələrlə görüşdüm. Çox səmimi bir görüş idi və mən onları Azərbaycana dəvət etdim. Şadam ki, onlar bir həftə bundan əvvəl Azərbaycana gəlib öz doğma yerlərində olublar və əminəm ki, Vətənə çox xoş təəssüratlarla qayıdıblar. Eyni zamanda, Vyetnam–Azərbaycan Dostluq Forumu da keçirilib. Bu gün cənab Prezidentlə bir daha bu məsələ ilə bağlı öz fikirlərimizi bildirdik. Biz də istəyirik ki, Vyetnamdan daha çox tələbə Azərbaycana gəlsin və burada təhsil alsın. Beləliklə, bizim əlaqələrimiz daha da genişmiqyaslı ola bilər.

Bir sözlə, çıxışımı yekunlaşdıraraq qeyd etməliyəm ki, bizim əlaqələrimiz artıq yüksək səviyyədədir. 1 il ərzində 2 dövlət

səfəri həyata keçirilir. Bu özlüyündə bir göstəricidir. Əlaqələrimizin mahiyyəti də çox müsbətdir, çox möhkəmdir. Gələcəkdə biz iki dost ölkə kimi, əlaqələrimizi daha da genişləndirəcəyik və Vyetnam–Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəyik.

Cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Bir daha Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

## Vyetnam prezidenti Çıonq Tan Şanqın bəyanatı

Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli dostlar!

Mən Azərbaycana səfər etmək imkanından çox məmnunam. Azərbaycan çox gözəl ölkədir, qədim tarixə, mədəniyyətə malikdir. Biz bilirik ki, bu ölkənin çox zəngin potensialı var və Azərbaycan bizə çox dost ölkədir. Bizə göstərilən səmimi qəbula və ehtirama görə, cənab Prezident, Sizə, azərbaycanlı dostlarımıza minnətdarıq. Vyetnam nümayəndə heyətinə və mənə yüksək qonaqpərvərlik göstərilmişdir. Bizim ölkələrimiz arasındakı münasibətlər inkişaf edir.

Bizim bu gün cənab prezident İlham Əliyev ilə çox məhsuldar və səmərəli danışıqlarımız oldu. Cənab Prezident ilə biz yekdilik ki, Vyetnam və Azərbaycan çox böyük imkanlara malikdirlər. Bu bizə əlaqələrimizi, əməkdaşlığımızı, iqtisadi və ticari sahədə işbirliyimizi daha da artırmağa və digər sahələrdə işləməyə imkan verir.

Biz həmçinin qeyd etdik ki, artıq imzalanmış sazişlər həyatda öz əksini tapsın və bu gün imzalanan sazişləri də icra edək. Biz bu gün əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün yaxın gələcəkdə daha hansı sazişləri imzalayacağımızı nəzərdən keçirməliyik.

Biz digər vacib məqamları da nəzərdən keçirdik. Hər iki tərəf razılığa gəldi ki, nümayəndə heyətlərinin səfərlərinin, xüsusən də yüksək səviyyəli səfərlərin sayı artsın. Cənab Prezident qeyd etdi ki, son 1 il ərzində biz olduqca mühüm 2 dövlət səfərini həyata keçirdik. Bu bir daha bizim etimada əsas-

lanan münasibətlərimizi nümayiş etdirir. Bizim xarici işlər nazirliklərimiz arasında daha sıx məsləhətləşmələrin aparılması vacibdir ki, beynəlxalq səviyyədə atdığımız addımlarımızı əlaqələndirək. Nümayəndə heyətlərinin səfərləri daha da artmalıdır. Müxtəlif nazirliklər və qurumlar arasında səfərlər mübadiləsi aparılmalıdır. Biz imzalanmış sazişləri icra etməliyik.

Bizim ölkələrimiz arasında əməkdaşlıq artıb. 2014-cü ildə ticarət dövriyyəsi 422 milyon ABŞ dolları təşkil edib ki, bu da 2013-cü il ilə müqayisədə 30 faiz artım deməkdir. Qeyd etmək istəyirik ki, hökumətlərarası Komissiyanın ilk iclası keçirilib. Bu məqsədlə biz neft və qaz sahəsində əməkdaşlığı genişləndirmək əzmindəyik. Bu, əməkdaşlıq üçün olduqca vacib bir sahədir.

Bu əlaqələrimizin strateji əsası var. Çünki sabiq prezidentimiz Ho Şi Min vaxtilə Bakıda zəngin neft-qaz yataqlarına səfər etdikdə onun bir arzusu var idi ki, biz bu sahələrdə birgə işləyək.

Biz istərdik ki, məhz Vyetnam ilə Azərbaycan arasındakı əməkdaşlıq, dostluq geniş şəkildə inkişaf etsin. Bu hər iki ölkəyə, bizə çox konkret fayda verəcəkdir.

Cənab Prezident, hörmətli dostlar, diqqətinizə görə çox sağ olun.

## VYETNAM İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın ölkəmizə rəsmi səfəri çərçivəsində Vyetnam İnformasiya Agentliyinin Avropadakı müxbirinə müsahibə vermişdir.*

**S u a l: Azərbaycan ilə Vyetnam arasında münasibətlərin vəziyyətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir. Bu münasibətlərin böyük tarixi vardır. Azərbaycan xalqı Vyetnama həmişə böyük sevgi və rəğbətlə yanaşıb. Sizin ölkənizin ən çətin dövrlərində azərbaycanlılar Vyetnam ilə həmrəy olublar. Elə bu dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək hissləri bizim bugünkü ikitərəfli münasibətlərimizin xarakterini və formasını müəyyənləşdirib. Ölkələrimiz arasında siyasi əlaqələrin səviyyəsi razılıq doğurur.

Əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini xüsusi qeyd etmək istəyirəm. Ötən ilin mayında mənim Vyetnama çox uğurlu dövlət səfərim oldu. Səfər zamanı mənə və Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyi böyük məmnunluq hissi ilə xatırlayıram. Bu səfər heç şübhəsiz ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yeni mərhələdə inkişaf etdirilməsində böyük rol oynayıb. Həmin səfər zamanı biz Azərbaycan–Vyetnam əlaqələrinin müxtəlif sahələrini geniş müzakirə etdik. Bir neçə il bundan əvvəl Vyetnamda Azərbaycan səfirliyi açılıb. Hesab edirəm ki, bu, münasibətlərimizin inkişafında irəliyə atılmış mühüm addımdır. Ümid edirəm ki, yaxın zamanlarda

Vyetnamın da Azərbaycanda səfirliyi açılacaq və bu, ölkələrimiz arasında əlaqələrin daha da irəliyə aparılmasına öz töhfəsini verəcək.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi də böyük önəm daşıyır. Əminəm ki, bu əməkdaşlıq ölkələrimizin üzv olduqları bütün beynəlxalq təşkilatlarda daha da möhkəmlənəcək. Əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın da xüsusi əhəmiyyəti vardır. Vyetnam parlamentində Vyetnam–Azərbaycan Parlamentlərarası Dostluq Qrupu, Azərbaycanın Milli Məclisində isə Azərbaycan–Vyetnam Parlamentlərarası Dostluq Qrupu fəaliyyət göstərir. Ölkələrimiz arasında aparılan məsləhətləşmələr və müxtəlif qurumlar arasında əlaqələr ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verir.

**S u a l: Azərbaycanın və Vyetnamın potensiallarını nəzərə alsaq, hansı sahələrdə əməkdaşlıq üçün perspektivlərimiz var?**

**C a v a b:** Azərbaycan və Vyetnam dinamik və davamlı inkişaf yolunda olan ölkələrdir. Xüsusilə vurğulamaq istərdim ki, dünyada baş verən maliyyə-iqtisadi böhrana baxmayaraq, ölkələrimizin iqtisadi inkişafının artım templəri davam edir.

Qeyd edim ki, Azərbaycanın və Vyetnamın neft-qaz sahəsində böyük təcrübə və uğurları var. Bu baxımdan «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Vyetnamın Neft və Qaz Korporasiyası «PetroVietnam» arasında Strateji Əməkdaşlıq haqqında Saziş» bu sahədə əməkdaşlığın inkişaf perspektivləri üçün yaxşı imkanlar açır. «Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikası Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki əməkdaşlıq haqqında sənəd» də iqtisadi sahədə əməkdaşlıq üçün mühüm hüquqi əsas yaradır. Önəmlidir ki, Azərbaycanda və Vyetnamda çoxlu sayda iş adamlarının iştirakı ilə biznes-forumlar keçirilib. Biznes əlaqələri qurmaq üçün bu çox yaxşı fürsət yaradır. Təsadüfi deyil ki, Bakıda keçirilən XI Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində və XIX Beynəlxalq «Xəzər neft,

qaz, neftayırma, neft kimyası» sərgi və konfransında Vyetnam şirkətləri ilk dəfə olaraq böyük həvəslə iştirak ediblər.

Neft-qaz və digər sektorlara qarşılıqlı investisiyaların qoyulması üçün də yaxşı imkanlar vardır. Ticarət, biznes sahələrində qarşılıqlı fəaliyyət üçün kifayət qədər potensial mövcuddur. 2015-ci ilin yanvar–mart aylarında Vyetnam Sosialist Respublikasının Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə xeyli artıb, ixrac əməliyyatları bərpa olunub. Biz bu istiqamətdə fəaliyyətimizi daha da artırmalıyıq. Bir sözlə, ikitərəfli əlaqələrin inkişaf istiqamətləri olduqca genişdir, bütün bunlar araşdırılmalı və əməkdaşlığımızın yeni sahələri müəyyənləşdirilməli və inkişaf etdirilməlidir.

Humanitar sahədə əməkdaşlığımızın uğurla inkişaf etdirilməsi və bu əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün də gözəl perspektivlər vardır. Humanitar münasibətlərimizin təməlini vaxtilə Azərbaycanda təhsil alan və gənclik illərini bizim ölkədə keçirən Vyetnam vətəndaşları qoyublar. Fərəhləndirici haldır ki, onlar indi öz ölkələrində müxtəlif dövlət, hökumət və ictimai vəzifələrdə çalışır, Vyetnamın tərəqqisi işinə öz töhfələrini verirlər. Vyetnama dövlət səfərim zamanı bu insanlarla görüşümüz və həmin görüş zamanı göstərilən səmimiyyət və qonaqpərvərlik yaddaşımızda xoş xatirələrlə qalıb. Təhsil, mədəniyyət, turizm sahələrində əməkdaşlığımızın inkişafı üçün də çox gözəl imkanlar vardır.

**S u a l: Siz Vyetnam prezidenti Çıonq Tan Şanqın Azərbaycana gözlənilən dövlət səfəri zamanı tərəflərin hansı məsələləri müzakirə edəcəkləri barədə məlumat verə bilərsinizmi?**

**C a v a b:** Bir daha qeyd etmək istəyirəm ki, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlər xüsusi əhəmiyyət daşıyır. Bu gün həm Azərbaycan, həm Vyetnam davamlı inkişaf yolundadır. Yerləşdiyi regionlarda və daha geniş məkanda iqtisadi inkişaf işinə öz layiqli töhfələrini verir və hər iki ölkə rəhbərliyi dostluq münasibətlərinin daha da

möhkəmləndirilməsi üçün siyasi iradə nümayiş etdirirlər. Bütün bunlar əlaqələrimizin daha da genişləndirilməsi və dərinləşdirilməsi üçün güclü potensial yaradır.

Vyetnam Sosialist Respublikası Prezidentinin ölkəmizə qarşıdakı səfəri zamanı siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin daha da inkişaf etdirilməsi mövcud potensialdan yararlanaraq iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün konkret planların müəyyənləşdirilməsi məsələlərinin müzakirəsi baxımından önəmlidir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, hər iki tərəf əlaqələrimizin inkişafına böyük maraq göstərir. Əminliklə demək olar ki, bu səfər qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq prinsiplərinə əsaslanan dövlətlərarası münasibətlərin tarixində yeni səhifə açacaqdır.

**M ü x b i r: Çox sağ olun, cənab Prezident!**

## AZƏRBAYCAN–VYETNAM BİZNES-FORUMUNDA İŞTİRAK

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Bakıda keçirilən Azərbaycan–Vyetnam biznes-forumunda iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Vyetnam prezidenti Çıonq Tan Şanq biznes-forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Prezident, əziz dostlar!

Çox istərdik ki, siyasi sahədə müşahidə olunan mənzərə iqtisadi sahədə də görünsün. Buna nail olmaq üçün, əlbəttə, həm hökumət üzvləri, həm də biznes strukturları öz səylərini göstərməlidirlər. Ötən il Vyetnamda olarkən orada da biznes-forum keçirilmişdi. Bakıda da keçirilir. Bu onu göstərir ki, birgə işləmək üçün kifayət qədər böyük maraq var.

Vyetnam iqtisadiyyatı son illərdə çox yüksək templərlə inkişaf edir. Biz bunu bilirik və bu münasibətlə, cənab Prezident, Sizi təbrik edirik. Bu, artıq dünya miqyasında yüksək qiymətə malik olan vəziyyətdir və düşünülmüş siyasətin təzahürüdür.

Azərbaycan iqtisadiyyatı da sürətlə inkişaf edir. Bizim qarşımızda duran bütün vəzifələr vaxtında və uğurla icra edilir. Azərbaycan xarici investisiyalar üçün açıq ölkədir. Müstəqillik dövründə ölkəmizə 200 milyard dollardan çox sərmayə qoyulub. Təkcə keçən il 27 milyard dollar investisiya yatırılıb. Bu onu göstərir ki, həm xarici, həm də yerli investorlar ölkəmizə, onun gələcəyinə inanırlar.

Bizim çox gözəl investisiya mühitimiz var. Xarici və yerli sərmayələr dövlət tərəfindən qorunur. Əgər belə olmasaydı, Azərbaycana bu qədər sərmayə yatırılmazdı. Biz sərmayə qoyuluşunda da dinamikanı görürük. Son vaxtlar daha çox yerli sərmayə qoyulur. Qoyulan ümumi vəsaitin təxminən 70 faizi daxili vəsaitdir. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı yüksək templərini saxlayır.

Azərbaycanda xarici investisiyaların qorunması işində ən qabaqcıl təcrübə tətbiq edilir. Bir sözlə, vyetnamlı investorlar üçün Azərbaycanda işləmək, investisiya qoymaq, hesab edirəm ki, çox əlverişli ola bilər.

Bununla bərabər, bu gün biz cənab Prezidentlə onu da müzakirə etdik ki, Vyetnam şirkətlərinin Azərbaycanda daha geniş şəkildə təmsil olunması məsələləri öz həllini tapmalıdır. Deyə bilmərəm ki, bu sahədə bizim böyük uğurlarımız var. Ancaq ümid edirəm ki, biz bu səfərdən sonra burada da gözəl nəticələri görəcəyik.

Bizim xalqlarımız bir-birinə böyük rəğbətlə yanaşırlar. Azərbaycan mütəxəssisləri ötən əsrin 70–80-ci illərində Vyetnamın neft-qaz sektorunda çalışıblar. Vyetnamlı tələbələr sovet dövründə Azərbaycanda təhsil alıblar. Mən Vyetnamda olarkən onlarla görüşdüm. Bu gün də 30-a yaxın vyetnamlı tələbə Azərbaycanda təhsil alır və biz cənab Prezidentlə belə fikrə gəldik ki, onların sayını artırmalıyıq.

Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Əlbəttə ki, neft-qaz sektoru bizim iqtisadi inkişafımız üçün birinci mərhələdə həlledici rol oynamışdır. Ancaq hazırda ümumi daxili məhsulumuzun təxminən 70 faizi qeyri-neft sektorunda formalaşıb. Bu da onu göstərir ki, iqtisadi şaxələndirmə artıq Azərbaycanda reallıqdır.

Bununla bərabər, əlbəttə, neft sektoru daim diqqət mərkəzindədir. Bu gün SOCAR ilə «PetroVietnam» arasında imzalanan sənəd bu sahədə gələcək əməkdaşlığı təmin edəcək. Biz istəyirik ki, «PetroVietnam» Azərbaycanın zəngin neft-qaz yataqlarının işlənməsində iştirak etsin. Düşünürəm ki, şirkətlər

arasındakı əlaqələr bunu təmin edəcək. Eyni zamanda, SOCAR da indi xarici bazarlara çıxır, xaricdə öz fəaliyyətini genişləndirmək istəyir. Beləliklə, burada qarşılıqlı maraqlar əsasında çox səmərəli və faydalı əməkdaşlıq yarana bilər.

Hesab edirəm ki, xalqlarımızın bir-birinə belə bağlı olmalarını nəzərə alaraq, biz gərək insanlararası əlaqələri sürətləndirək. Burada turizm sektoru, əlbəttə ki, ən birinci vasitədir. Bu sahədə əməkdaşlığın konkret formatları təşkil edilə bilər. Biz turizm imkanlarımızı təqdim etməliyik ki, insanlar bizim nə kimi imkanlarımızın olduğunu daha  yaxından bilsinlər.

Ticarət dövriyyəsinin artırılması üçün, hesab edirəm ki, yaxşı imkan var. Ticarət dövriyyəmiz kifayət qədər yüksəkdir. Biz bir-birimizdən uzaqda yerləşən ölkələrik və məsafə kifayət qədər böyükdür. Bunu nəzərə alsaq, görərik ki, ticarət dövriyyəsi yaxşı səviyyədədir. Əlbəttə, bu dövriyyəni artırmaq da mümkündür.

Kənd təsərrüfatı sahəsində də əməkdaşlıq üçün yaxşı şərait var. Son vaxtlar Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı ciddi tədbirlər görülür. Bu gün bu sahədə müqavilə də imzalanıb. Hazırda Azərbaycanda iri sənaye zonalarının yaradılması prosesi gedir. Biz istərdik ki, Vyetnam şirkətləri bu işlərdə iştirak etsinlər.

Bir sözlə, siyasi əlaqələrimizin yüksək səviyyədə olmasından faydalanaraq biz mütləq iqtisadi sahədə də ən yüksək nəticələrə çatmalıyıq. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəfin çox ciddi siyasi iradəsi var. Biznes-forumların keçirilməsi, hesab edirəm ki, burada əsas vasitə olacaqdır. Çünki siyasi iradə var, hökumətlərarası əlaqələr də kifayət qədər möhkəmdir. Bu gün Vyetnam Prezidentini müşayiət edən nümayəndə heyətində yüksəkvəzifəli şəxslər təmsil olunur. Burada qurumlararası, nazirliklərarası əlaqələr mühüm rol oynayacaq.

Əlbəttə, bu gün bizim vyetnamlı qonaqlarımız Azərbaycan ilə əyani şəkildə tanış olurlar, ölkəmizin imkanlarını görürlər. Doğrudan da müstəqillik dövründə Azərbaycan böyük və şərəfli

yol keçib. Bu gün biz iqtisadi müstəqilliyimizi, enerji təhlükəsizliyimizi tam şəkildə təmin edirik. Bölgədə nəqliyyat təhlükəsizliyi məsələləri də Azərbaycanın iştirakı ilə öz həllini tapır. Mən öz həmkarımı bu barədə də məlumatlandırdım. Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi nəticəsində Azərbaycan Avropa ilə Asiya arasında çox önəmli bir nəqliyyat mərkəzinə çevriləcək və beləliklə, burada yeni imkanlar yaranacaqdır.

Müstəqillik dövründə biz ancaq öz gücümüzə güvənmişik və ona görə bizim xarici borcumuz çox aşağı səviyyədədir. Bu, dünya miqyasında bəlkə ən aşağı səviyyələrdən biridir. Xarici borc ümumi daxili məhsulumuzun təqribən 10 faizini təşkil edir. Bu onu göstərir ki, biz çox borc almamışıq, öz gücümüzə güvənmişik və buna görə də bu gün iqtisadi müstəqilliyə tam şəkildə nail olmuşuq. Xarici maliyyə qurumlarından asılı deyilik, baxmayaraq ki, biz xarici maliyyə qurumları ilə də fəal işləyirik.

Bu ayın əvvəlində Bakıda Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının illik toplantısı keçirildi. 3 mindən çox qonaq gəlmişdi. Belə mötəbər tədbirin Azərbaycanda keçirilməsi Asiya iqtisadi qurumlarının, hökumətlərinin Azərbaycana olan münasibətini, inamını əks etdirir. Eyni zamanda, Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı ilə də sıx əlaqələr qurub. Yəni beynəlxalq maliyyə qurumları da Azərbaycanda gedən islahatları yüksək qiymətləndirir. Biz onların imkanlarından faydalanırıq, amma daha çox öz daxili resurslarımıza arxalanırıq. Bu ən düzgün seçimdir. Bu seçim bizə imkan verib ki, biz bu gün iqtisadi inkişafımızı çoxşaxəli formatda təşkil edək.

Azərbaycan hökumətinin gələcək planlarımızla bağlı kifayət qədər geniş və məzmunlu yanaşması var. Biz ölkəmizin inkişafı üçün gələcəkdə əlavə tədbirlər görəcəyik. İqtisadi inkişafımız dayanıqlı, çoxşaxəli olacaq və beləliklə, insanların rifah halı yaxşılaşacaqdır.

Azərbaycanda biznes mühiti çox müsbətdir. Azərbaycan dövləti özəl sektoru dəstəkləyir. Mən Azərbaycanın iş adamları ilə mütəmadi qaydada görüşlər keçirirəm, onlara siyasi dəstəyimi verirəm. İş adamlarından yeganə tələbim ondan ibarətdir ki, işlərini qanun çərçivəsində təşkil etsinlər. Belə olan halda heç kimin problemi olmayacaq. Azərbaycanda hüquqi dövlət qurulur və bütün məsələlər öz həllini qanun çərçivəsində tapmalıdır.

Hörmətli cənab Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram. Vyetnamdan gələn bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Sağ olun.

## Vyetnam prezidenti Çıonq Tan Şanqın çıxışı

Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Əziz dostlar!

Bu gün keçirilən biznes-forumda iştirak etməkdən olduqca məmnunam. Bu biznes-forum Vyetnamın Ticarət-Sənaye Palatası və Azərbaycanda Sərmayələrin Təşviqi Agentliyi tərəfindən təşkil edilib. Çox şadam ki, bu tədbir Bakıda keçirilir. Bu gün bu tədbirdə iştirak edən biznes dairələrinin nümayəndələrinə uğurlar arzu etmək istəyirəm.

Biznes-forumda iştirak etməzdən əvvəl biz cənab Prezidentlə səmimiyyət və qarşılıqlı anlaşma şəraitində danışıqlar apardıq. Son illər ərzində ölkələrimizin keçdiyi inkişaf yoluna birgə nəzər saldıq. Son göstəricilər sübut edir ki, Vyetnam və Azərbaycan siyasi, iqtisadi və humanitar münasibətlərin inkişafında böyük irəliləyişə nail olublar. Lakin kifayət qədər diqqət yetirilməmiş perspektivli sahələr də qalmaqdadır.

Cənab prezident İlham Əliyevin 2014-cü ilin mayında Vyetnama səfəri çərçivəsində mən azərbaycanlı dostlarla biznes-forumun təşkil edilməsi üçün Vyetnamın Ticarət-Sənaye Palatasına müvafiq göstərişlər verdim. Çox ümidvaram ki, bu gün keçirdiyimiz görüş iki ölkənin işgüzar dairələri arasında

əlaqələrin daha da inkişafına zəmin yaradacaq və beləliklə, həmin münasibətləri yeni səviyyəyə qaldıracaq.

Hörmətli dostlar, ölkələrimiz arasında iqtisadi sahədə uğurlu əməkdaşlığı çox yüksək dəyərləndirirəm. Son illər ərzində ikitərəfli ticarət dövriyyəsi sürətlə artır. Bu rəqəm 2012-ci ildə 29,2 milyon, 2013-cü ildə 382 milyon dollar olub və nəhayət, 2014-cü ildə 422 milyon dollara çatıb. Hesab edirəm ki, müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlərimiz var. Bununla belə, Vyetnam Azərbaycana kənd təsərrüfatı mallarını və digər yüksək rəqabətqabliyyətli məhsullarını ixrac edə bilər. Azərbaycan isə öz növbəsində, neft emalı sahəsində üstünlüyə malikdir. Bundan başqa, siz bank işi, turizm və digər sahələrə sərmayə yatıra bilərsiniz.

Hesab edirəm ki, iqtisadi işbirliyimizi artırmaq və onun ölkələrimiz arasında siyasi münasibətlər səviyyəsinə çatdırılması üçün biz bir çox məsələləri həll etməliyik, o cümlədən ölkələrimiz arasında coğrafi məsafəni qət etməliyik. Bizim tələbatlarımız fərqlidir və bir-birini tamamlayır. Bununla belə, tam əminəm ki, şirkətlərimizin bu gün üzləşdiyi maneələr ümumi iradəmiz və səylərimiz sayəsində aradan qaldırılacaqdır. Mən cənab Prezidentin bu gün sizlərə söylədiyi sözlərlə tam razıyam.

Xanımlar və cənablar, əziz dostlar!

Son 30 il ərzində ölkənin yenidən qurulması istiqamətində həyata keçirilən siyasətin nəticəsində Vyetnamda siyasi sabitlik qorunub saxlanılır, iqtisadiyyat yüksək templə artır. Ölkəmiz xarici investorlar üçün təhlükəsiz və münasib yerdir. Əhalisi 90 milyon olan Vyetnam Azərbaycan sərmayədarları üçün də çox cəlbedici ola bilər. Vyetnam ASEAN regionuna, o cümlədən Asiya–Sakit okean regionu ölkələrinin bazarlarına açılan mühüm qapıdır. Bu azad ticarət sazişlərinin bu yaxınlarda müxtəlif ölkələrlə imzalanacağı baxımından xüsusilə vacibdir. Bu, regionda və bütün dünyada ticarətin inkişafı üçün mühüm əsas ola bilər.

Bu səfər çərçivəsində məni müxtəlif sahələrdə çalışan 45-dən artıq şirkətin nümayəndələri müşayiət edir. Eyni zamanda, bu dəfə onlar üçün son 2 gün ərzində və xüsusən də bu gün bir çox şəraitlər yaradılmışdır ki, iş adamlarımız azərbaycanlı tərəfdaşları ilə tanış olsunlar.

Çox ümidvaram ki, bu tədbirlərdən sonra şirkətlərimiz bir-birinin bazarları haqqında daha çox məlumatlara malik olacaq və konkret nəticələr əldə edəcəklər. Mən neft və qaz sahəsində əməkdaşlığın inkişafına xüsusi önəm verirəm. Bir çox neftçilərimiz keçmişdə təhsilini Azərbaycanda alıblar. Hesab edirəm ki, ölkələrimiz arasında iqtisadi münasibətlər baxımından tərəflər bu kimi mühüm sahədə əməkdaşlığı genişləndirməlidirlər.

Xanımlar və cənablar, əziz dostlar!

Ümid edirəm ki, yaxın vaxtlarda ölkələrimizin işgüzar dairələri ticarət münasibətlərini daha da inkişaf etdirəcək, məlumatları mübadilə edəcəklər. Öz növbəmdə, mən Vyetnamın hakimiyyət orqanlarına sizin üçün lazımi münasib şərait yaratmaq məqsədilə müvafiq tapşırıqlar verəcəyəm. Vyetnam ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsini, ölkələrimizin biznes dairələrinin əməkdaşlığının genişləndirilməsini səmimiyyətlə arzulayıram. Bu gün keçirilən biznes-forumun işinə uğurlar, sizin hamınıza möhkəm cansağlığı diləyirəm.

Çox sağ olun.

* * *

*Biznes-forumda Azərbaycandan və Vyetnamdan rəsmi şəxslərlə yanaşı, neft-qaz, enerji, tikinti, İKT, maliyyə və bank, kənd təsərrüfatı, sənaye, ticarət, xidmət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərən 170-ə yaxın iş adamı iştirak edirdi.*

*Tədbir çərçivəsində Azərbaycan və Vyetnam iş adamları arasında ikitərəfli görüşlər keçirildi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından mayın 14-də Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın və xanımı May Thi Hanın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları rəsmi qəbulda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım May Thi Han!

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə dəvətimi qəbul edib Azərbaycana rəsmi səfər etdiyinizə görə Sizə təşəkkür edir və rəhbərlik etdiyiniz nümayəndə heyətini bir daha salamlayıram.

Biz bu gün olduqca faydalı görüşlər keçirdik. Əminəm ki, qarşılıqlı maraq doğuran məsələlər ətrafında apardığımız fikir mübadiləsi və müzakirələr, əldə olunan razılaşmalar və imzalanan sənədlər ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etməsinə töhfəsini verəcək.

Azərbaycan və Vyetnam arasında dostluq münasibətlərinin təməli ötən əsrdə Vyetnam xalqının böyük oğlu Ho Şi Minin Azərbaycana və xalqımızın ümummilli lideri Heydər Əliyevin Vyetnama səfərləri ilə qoyulmuşdur. İnanıram ki, keçən il mənim ölkənizə dövlət səfərim və bu gün Sizin Azərbaycanda olmağınız bu gözəl ənənənin davamı kimi, münasibətlərimizi

daha da möhkəmləndirəcək, yüksək səviyyəli təmasların intensiv xarakter almasına güclü təkan verəcək.

Bu gün dost ölkələrimiz arasında siyasi, hərbi, iqtisadi, o cümlədən enerji, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı və uzunmüddətli tərəfdaşlıq üçün böyük imkanlar vardır. Biz Vyetnamla əməkdaşlığın genişləndirilməsi istiqamətində bütün mümkün vasitələrdən istifadə edilməsində olduqca maraqlıyıq.

Sevindirici haldır ki, son dövrlər münasibətlərimizin xarakteri keyfiyyətcə yeni müstəviyə keçib. Ötən il Vyetnamın Elm və Texnologiya Assosiasiyaları Birliyinin Siyasət, Hüquq və İdarəçilik İnstitutunun nəzdində Azərbaycan Tarixi və Mədəniyyətinin Araşdırmaları Mərkəzinin yaradılmasını təqdirəlayiq hesab edirəm. Əminəm ki, ölkəmizin adət-ənənələri, tarixi və mədəniyyəti ilə bağlı Vyetnam ictimaiyyətinə dolğun məlumatların çatdırılmasında bu mərkəz mühüm rol oynayacaqdır.

Mən ötən həftə Bakıda keçirilən Azərbaycan–Vyetnam Dostluq Forumunu da xüsusilə qeyd etmək istərdim. Böyük əksəriyyəti Azərbaycanın ali təhsil müəssisələrindən məzun olmuş vyetnamlıların iştirak etdiyi bu tədbir xalqlarımız arasında mövcud olan dostluğun daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Qürurvericidir ki, Azərbaycanda təhsil alan bu şəxslər Vyetnam Sosialist Respublikasında bir çox sahələrin, xüsusən neft və qaz sənayesinin inkişafına əhəmiyyətli töhfə verirlər. Hesab edirəm ki, bu gün Vyetnamın nüfuzlu şirkətlərinin iştirakı ilə keçirilən biznes-forum ölkəmizdəki əlverişli iqtisadi şəraitin və turizm potensialının dəyərləndirilməsi baxımından çox faydalı olacaqdır. Həmçinin Vyetnam şirkətlərinin ölkəmizdə həm neft-qaz, həm də qeyri-neft sektorundakı layihələrdə iştirakı əməkdaşlığımızın genişlənməsi baxımından arzuolunandır.

Biz Vyetnamla çoxtərəfli əməkdaşlığa da xüsusi əhəmiyyət veririk. Düşünürəm ki, BMT, «Qoşulmama Hərəkatı» və digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi

əlaqələndirməklə, uğurlu nəticələr əldə edə bilərik. Bu gün biz, həmçinin regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi apardıq. Mən qeyd etdim ki, regionun ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıb. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunub. Ermənistanın məqsədyönlü etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatların oxşar qərar və qətnamələri vardır. «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə 120 ölkə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair qətnamə qəbul edib. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, coğrafi baxımdan ölkələrimiz arasında böyük məsafə olsa da, inanıram ki, qarşılıqlı səylərimiz nəticəsində Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq münasibətləri daha da sıx olacaqdır.

## Vyetnam prezidenti Çıonq Tan Şanqın çıxışı

Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli xanım Mehriban Əliyeva!

Əziz azərbaycanlı və vyetnamlı dostlar!

Mən gözəl və qonaqpərvər ölkə olan Azərbaycana səfər etməyimə, Azərbaycan xalqının qazandığı böyük uğurları əyani surətdə görməyimə çox şadam. Mən mehriban və səmimi

qəbula, Vyetnam dövləti və xalqı barədə gözəl hisslərinə, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri haqqında səmimi dost sözlərinə görə cənab Prezidentə və azərbaycanlı dostlara Vyetnam nümayəndə heyəti adından minnətdarlığımı bildirmək istəyirəm.

Vyetnam xalqı keçmiş zamanlardan Azərbaycanı zəngin qədim mədəniyyəti olan gözəl ölkə, mehriban və qonaqpərvər xalq kimi tanıyır. Coğrafi məsafənin uzaq olmasına baxmayaraq, Vyetnam ilə Azərbaycanın qardaşlıq və dostluq hissləri çox yaxındır. Vyetnam xalqı milli müstəqillik və dövlət quruculuğu uğrunda mübarizə apardığı illərdə Azərbaycan xalqının bizə göstərdiyi böyük və dəyərli dəstəyi heç vaxt unutmur. Biz fəxr edirik ki, tarixi dəyişikliklərə və sınaqlara baxmayaraq, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri qorunub saxlanılır, möhkəmlənir və yaxşı inkişaf edir. Vyetnam xalqlar arasında dostluğu həmişə qiymətləndirir, qoruyur və gələcək nəsillərə ötürür. Bu gün Vyetnam ilə Azərbaycan arasında qarşılıqlı faydalı, çoxşaxəli əməkdaşlığı daha da möhkəmləndirmək üçün olduqca əlverişli şərait yaranıb. Bu gün yüksək səviyyəli dövlət nümayəndə heyəti ilə birlikdə Azərbaycana səfərim Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək və bundan sonra da gücləndirmək istəyini bir daha təsdiq edir.

Hörmətli cənab Prezident! Əziz dostlar!

Bu gün mənimlə cənab Prezident arasında çox məzmunlu və səmərəli danışıqlar oldu. Biz bir çox sahələrdə ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi istiqamətlərini və konkret tədbirləri əməkdaşlıq və qarşılıqlı anlaşma ruhunda müzakirə etdik və razılaşdırdıq.

Əminəm ki, aramızdakı yaxınlıq və bağlılıq, çoxdankı ənənəvi dostluq münasibətləri, habelə iki ölkə rəhbərlərinin və xalqlarının iradəsi və qətiyyəti xalqlarımızın maraqları və ölkələrimizin çiçəklənməsi, regionda və bütün dünyada sülh və sabitlik naminə yeni dövrdə əməkdaşlığı çiyin-çiyinə davam etdirməyimiz üçün möhkəm zəmin olacaq.

# ALMANİYA FEDERATİV RESPUBLİKASI BUNDESTAQININ CƏNUBİ QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ KARİN ŞTRENTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Almaniya Federativ Respublikası Bundestaqının Cənubi Qafqaz Dostluq Qrupunun sədri xanım Karin Ştrentsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Karin Ştrents xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı Bundestaqın Cənubi Qafqaz Dostluq Qrupunun sədri xanım Karin Ştrentsin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin önəmini qeyd edən prezident İlham Əliyev Almaniyaya səfərini və orada keçirdiyi səmərəli görüşləri məmnunluqla xatırlatdı.*

*Almaniya Bundestaqının Cənubi Qafqaz Dostluq Qrupunun sədri xanım Karin Ştrents Azərbaycanın bu il tarixi bir hadisənin – I Avropa oyunlarının təşkilatçısı olmasının əhəmiyyətini vurğulayaraq ölkəsinin bu yarışları yaxından izləmək arzusunda olduğunu dedi. Azərbaycanla bağlı ədalətli mövqe*

*nümayiş etdirilməsinin zəruriliyini vurğulayan xanım* Karin *Ştrents* bildirdi ki, biz *çalışacağıq* ikili standartlar *olmasın, ədalətli mövqe* olsun. *İkili* standartlar bizi *də* narahat edir.

*Dövlətimizin başçısı I* Avropa *oyunları ərəfəsində ədalətsiz mövqe nümayiş etdirilməsinin* Olimpiya *oyunlarının* ruhuna *və nizamnaməsinə uyğun olmadığını təəssüflə* qeyd etdi. *Prezident İlham Əliyev bütün dövlətlərə* eyni *cür yanaşmanın* vacibliyinə toxundu, bildirdi ki, ikili standartlar *həm ölkədə, həm də* Avropada ictimai *fikrə mənfi təsir göstərir.*

*Görüşdə Azərbaycanın* Avropa *İttifaqı ilə* enerji *sahəsində əməkdaşlığının xüsusi* rolu qeyd olundu, *ölkəmizin təşəbbüsü ilə reallaşan iri enerji layihələrinin önəmi vurğulandı, TANAP və TAP layihələrinin perspektivindən danışıldı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## «BAKI ÜRƏK GÜNLƏRİ» IV BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli konqres iştirakçıları!

Sizi – müxtəlif ölkələrdən «Bakı Ürək Günləri» IV Beynəlxalq Konqresinə gəlmiş alimləri səmimi-qəlbdən salamlayır və insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə hər birinizə uğurlar arzu edirəm. Ümidvaram ki, kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafında artıq özünəməxsus yeri olan ənənəvi Bakı Konqresi müasir təbabətin yeni müalicə üsulları və texnologiyalarının Azərbaycanda tətbiqinə layiqli töhfəsini verəcəkdir.

Ölkəmizdə davamlı surətdə gerçəkləşdirilən sosialyönümlü siyasət ürək-damar xəstəliklərinin profilaktikası, diaqnostikası və ən yeni texnologiyalara uyğun müalicəsini prioritet istiqamətlərdən biri olaraq müəyyən etmişdir. İnkişaf strategiyamıza uyğun şəkildə paytaxt və regionlarda günün tələblərinə cavab verən xəstəxanaların, xüsusi ixtisaslaşmış mərkəzlərin yaradılması əhaliyə kardiologiyanın nailiyyətlərindən lazımınca faydalanmaq imkanı verir. Ürək-damar cərrahiyyəsi üçün tələb olunan yüksəkixtisaslı kadr hazırlığı problemi həm ölkə daxilində, həm də Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində həllini tapmaqdadır. Əminəm ki, müasir kardiologiya sahəsinin aktual problemlərinin konqresdə aparılacaq birgə geniş müzakirəsi Azərbaycanın səhiyyə sisteminin təkmilləşdirilməsi baxımından da önəmli olacaqdır.

Builki konqresiniz I Avropa oyunları ərəfəsində keçirilir. Sağlamlığın rəhni olan və fəal həyat tərzi təbliğ edən idman da təbabət kimi, həmişə insan resurslarının keşiyində dayanır, ölkələrin və xalqların uğurlu əməkdaşlığına, qarşılıqlı anlaşmasına xidmət göstərir. İnanıram ki, işlərinizin gərginliyinə baxmayaraq, ilk Avropa oyunları ilə bağlı maraqlı

hadisələri diqqətlə izləyəcək, daim gözəlləşən və müasirləşən Bakının görməli yerlərini ziyarət edəcəksiniz.

Hamınıza cansağlığı, səadət və müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 may 2015-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE NAZİRİ TOFİQ BİN FAUZAN ƏL-RƏBİƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye naziri Tofiq bin Fauzan əl-Rəbiənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli əlaqələrin yaxın dostluq münasibətlərinə əsaslandığını və əməkdaşlığımızın yüksək səviyyədə olduğunu vurğuladı. Səudiyyə Ərəbistanı Krallığına səfərindən və orada keçirdiyi səmərəli görüşlərdən razılığını ifadə edən prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsində yüksək səviyyəli görüşlərin önəmini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında investisiya qoyuluşu, birgə layihələrdə iştirak, kənd təsərrüfatı, neft-kimya, turizm, inşaat, sənaye və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye naziri Tofiq bin Fauzan əl-Rəbiənin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin səmərəli olacağına əminliyini bildirdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Ticarət və Sənaye naziri Tofiq bin Fauzan əl-Rəbiə Bakıda gedən sürətli inkişaf proseslərinin, şəhərin abadlaşdırılmasının, ən müasir infrastrukturun yaradılması və digər sahələrdə görülən işlərin onlarda dərin təəssürat yaratdığını dedi. Nazir ölkələrimiz arasında güclü ikitərəfli münasibətlərin mövcud olduğunu vurğuladı. Səudiyyə Ərəbistanı Kralının şəxsi göstərişi ilə müxtəlif sahələri təmsil edən böyük*

*nümayəndə heyəti ilə Azərbaycana səfər* etdiyini *deyən* nazir *ölkələrimiz arasında güclü münasibətlərin və qarşılıqlı hörmətin olmasına* baxmayaraq, *ticarət əlaqələrinin qənaətbəxş olmadığını* dedi. *Ölkəsinin Azərbaycanda genişmiqyaslı işlər görmək* niy*yətində olduğunu deyən* qonaq *azərbaycanlı həmkarlarının,* o *cümlədən iş adamlarından ibarət nümayəndə heyətinin Səudiyyə Ərəbistanına səfər etməsinin müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılması baxımından önəmini vurğuladı.*

## NOBEL QARDAŞLARI PROSPEKTİNƏ PARALEL İNŞA OLUNMUŞ DƏNİZKƏNARI YOLUN AÇILIŞI MƏRASİMİ

*15 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 15-də Bakının Nobel qardaşları prospektinə paralel inşa olunmuş dənizkənarı yeni yolun açılışında iştirak etmişlər.*

*«Azvirt» Məhdud Məsuliyyətli Cəmiyyətin sədri Kamil Əliyev dövlətimizin başçısına yeni avtomobil yolu, buradakı yol qovşaqları, mühəndis qurğuları və yeraltı piyada keçidləri barədə məlumat verdi. Qeyd edildi ki, 8 zolaqlı yol ən müasir tələblər səviyyəsində və yüksək keyfiyyətlə inşa edilib. Yolun hərəkət zolaqlarının eni 3,75 metrdir. Yeni yol «Ağ şəhər» bulvarının yaxınlığında yerləşir. Burada istirahət edən insanların təhlükəsizliyi üçün yolun tikintisi zamanı hər birinin eni 8 metr olmaqla, 3 piyada keçidi də inşa olunub.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni yolun «Ağ şəhər» yaşayış massivi yaxınlığında yerləşməsi keçmişdə «Qara şəhər» adlanan ərazinin dövlətimizin başçısının tapşırığına əsasən tamamilə abadlaşdırılması və yeni görkəm alması istiqamətində görülən mühüm işlərin davamlı olduğunu nümayiş etdirir. Bu yolun inşası təkcə sosial məna daşımır, bunu həm də Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsinə töhfə kimi də qiymətləndirmək olar. Bütün bunlarla yanaşı, yeni yol həm də paytaxtın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir.*

## «BOULEVARD» HOTELİN AÇILIŞI MƏRASİMİ

*15 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 15-də Bakıda «Boulevard» hotelin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, bu, «Absheron Hotel Group»a daxil olan dördüncü hoteldir. «Ağ şəhər»də yerləşən yeni hotel həm də «Marriott» brendinin xüsusi portfeli sayılan məxsusi hotel və kurortların cəmləndiyi «Autograph Collection»un rəsmi üzvüdür.*

*Bakı buxtasında yerləşən beşulduzlu «Boulevard» hotel yüksək səviyyədə və müasir üslubda inşa olunub. Hotelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkan yaradır.*

*Nəfis tərtibatla qurulan hotelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Hotelin yaradılması zamanı əsas meyar qonaqların rahatlığını yüksək səviyyədə təmin etməkdən ibarət olub. Burada kafe, mağaza, biznes mərkəzi, kitabxana da var.*

*«Boulevard» hoteldə müxtəlif beynəlxalq, regional və yerli əhəmiyyətli tədbirlər keçirmək üçün əlverişli şərait yaradılıb. Kompleksdə 5 iclas otağı var. Bu otaqlarda müxtəlif görüşlər, təlimlər, təqdimatlar təşkil etmək mümkündür.*

*Hotelin ziyafət zalı da müasirliyi ilə seçilir. Burada 1000-dən çox qonağın iştirakı ilə müxtəlifformatlı tədbirləri yüksək*

səviyyədə təşkil etmək mümkündür. Ziyafət zalının sahəsi 1300 kvadratmetrdir. Zal bütün zəruri avadanlıqlarla təchiz edilib.

Hotelin sağlamlıq mərkəzi müasir tələblərə cavab verən fitnes və SPA xidmətləri təklif edir. Burada 25 metrlik qapalı üzgüçülük hovuzu və müasir avadanlıqla təchiz olunmuş idman zalı fəaliyyət göstərir. Hoteldə 818 nömrə vardır. Hotelin pəncərələrindən Xəzər dənizinə və Bakı bulvarına açılan möhtəşəm mənzərəni seyr etmək mümkündür. Otaqların interyeri məşhur memarlıq şirkətləri tərəfindən dizayn edilib.

Dövlətimizin başçısı və xanımı hotelin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

«Boulevard» hoteldə yaradılan 3 restoranda qonaqlara müxtəlif növ təamlar təqdim ediləcək. Restoranların nadir bədii konsepti tanınmış dizayn şirkəti tərəfindən yaradılıb. Ən xırda detalların belə, nəzərə alındığı qeyri-adi interyer hotelin tarixini, müasir dizaynla uyğunlaşdırılmış irsini və kosmopolit dinamikliyini özündə cəmləşdirir. «The White City Lounge», «The Green House Kitchen» və «Black City Cafe» restoranlarında qonaqların zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait var. Fasiləsiz xidmət göstərən bu məkanların hər birinin ayrı-ayrılıqda açıq havada da xüsusi sahələri var.

Bütün sahələrdə olduğu kimi, turizm, o cümlədən bu sektorun əsas xidmət sahələrindən olan müasir hotel sisteminin yaradılması istiqamətində son illər mühüm nailiyyətlər əldə edilib. Bu, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində mümkün olub. Son illərdə ölkəmizdə bir çox məşhur hotel brendləri istifadəyə verilib. Bu da təsadüfi deyil. Azərbaycanda yaradılan müasir hotel idarəçiliyi və bu sahənin inkişafı həmin məsələdə mühüm əhəmiyyət kəsb edir.

Son illərdə ölkənin sosial-iqtisadi inkişafı sayəsində yaradılan müasir turizm infrastrukturunda bu hotelin də xüsusi rolu olacaq. Azərbaycanda ictimai, siyasi və iqtisadi sahələrdə sabitlik, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, incəsənəti, mətbəxi və ən əsası, qonaqpərvərliyimiz dünyada böyük

*maraqla qarşılanır. Bu fakt son illərdə Azərbaycana gələn turistlərin sayındakı artımda da özünü aydın göstərir. Ölkəyə turistlərin cəlb olunmasında bu cür müasir hotellərin yaradılmasının rolu danılmazdır. Belə müasir turizm obyektinin bütün dünyanın diqqət mərkəzində olan «Bakı–2015» ilk Avropa oyunları ərəfəsində istifadəyə verilməsi isə xüsusi əhəmiyyət daşıyır. Bu cür layihələr ilk Avropa oyunları ilə bağlı ölkəmizə gələn turistlərin rahatlığını təmin etməyə və paytaxt Bakının turizm potensialını nümayiş etdirməyə də imkan yaradır.*

*Hotellə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** *«Boulevard»* hotelin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Hotellə tanış oldum, çox gözəl hoteldir, ən müasir səviyyədə tikilib. Xarici görünüşü, daxili dizaynı ən yüksək səviyyədədir. Bu, Azərbaycanın, bəlkə də bölgənin ən böyük hotelidir. Belə böyük hotelin tikintisi əslində onu göstərir ki, Azərbaycana gələn qonaqların sayı gündən-günə artır. Baxmayaraq ki, son 2-3 il ərzində Bakıda 10-a yaxın müasir hotel istifadəyə verilib, ən böyük hotelin tikintisinə də ehtiyac var idi.

Hotelin yerləşməsi də çox gözəldir. «Ağ şəhər» bulvarında yerləşir. Bu da yenilikdir. Çünki bildiyiniz kimi, bu ərazilərdə vaxtilə sənaye müəssisələri, zövq oxşamayan digər tikililər olub. İndi isə bütün bu ərazi ictimai zona, bulvarın davamı kimi, Bakının sakinlərinin sərəncamına verilir.

«Ağ şəhər» bulvarı nadir bir memarlıq əsəridir, əslində Bakı bulvarının davamıdır. Bu gün «Ağ şəhər» bulvarı, köhnə bulvar, yeni bulvar, Bayraq Meydanı bulvarı və Bayıl bulvarı vahid bir kompleks təşkil edir. Uzunluğu 16 kilometrə bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, 100 il bundan əvvəl salınmış Bakı bulvarının uzunluğu cəmi 3,5 kilometr olub. Yəni bütün bu ərazilərdə vaxtilə sənaye müəssisələri, zavodlar, hərbi təyinatlı müəssisələr var idi ki, onlar köçürüldü və bu gün dünya miqyasında Bakı bulvarı kimi ikinci gözəl yer, ikinci

gözəl bulvar yoxdur. Çox şadam ki, yeni yaranan «Ağ şəhər» bulvarında «Boulevard» hotel tikilib və istifadəyə verilir. Bu bir daha onu göstərir ki, ölkəmiz sürətlə inkişaf edir. Ölkəmiz öz qapılarını bütün qonaqlarının üzünə açır. Bakıya gələn turistlərin sayı artıq milyonlarla ölçülür. Əminəm ki, Avropa oyunlarından sonra gələn qonaqların sayı daha da artacaq. Çünki Bakı gözəl şəhərdir. Mənim fikrimcə, dünyanın ən gözəl şəhəridir, bunu indi demək olar. Şəhərimizə gələn hər bir qonaq qeyd edir ki, Bakıdan getmək istəmir, yaxud da çalışır ki, sonra Bakıya qayıtsın. Çünki şəhərimizin tarixi memarlığı, ab-hava, təhlükəsizlik, yüksək xidmət sahələri, müasir hotellər, istirahət zonaları, əlbəttə ki, qonaqları cəlb edir. Ancaq biz Bakıda görülən işləri ilk növbədə, Azərbaycan vətəndaşları, onların rahatlığı, istirahəti üçün edirik. Bu gün Bakı sakinləri bütün bu gözəl imkanlardan istifadə edirlər.

Bir daha demək istəyirəm ki, bölgənin, regionun ən böyük hotelinin Bakıda tikilməsi, xüsusilə son illər ərzində «Hyatt», «Sheraton» «Four Seasons», «Marriott», «Kempinski», «Jumeirah», «Hilton», nəhayət, «İnturist» – bütün bu hotellər tikiləndən sonra yenə də böyük hotelin inşası inkişafımızın ən gözəl göstəricisidir. Mənə verilən məlumata görə, burada 700-dən çox iş yeri açılıbdır ki, onların əksəriyyəti Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub. Bu da çox gözəl əlamətdir. Həm yüksək maaş verilir, həm də ki, insanlar işlə təmin olunurlar. Görürəm ki, işləyənlərin əksəriyyəti gənclərdir və burada artıq gözəl təcrübə toplamısınız. Əminəm ki, gələcəkdə daha da yüksək vəzifələrdə çalışacaqsınız. Sizi bir daha ürəkdən salamlayıram və sizə uğurlar arzu edirəm.

## «AĞ ŞƏHƏR» BULVARINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*15 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 15-də Bakı «Ağ şəhər» bulvarında yaradılan şəraitlə tanış olmuşlar.*

*Bakı «Ağ şəhər» bulvarında layihə çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər paytaxtın «Qara şəhər» kimi tanınan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb. Dövlətimizin başçısı tərəfindən 2013-cü ilin mayında təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlamaqla, paytaxtımızın simasını daha da gözəlləşdirir.*

*Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün «Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa edilib. Bu gözəl istirahət məkanı sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırır. Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni daha da cazibədar edir.*

## YUNESKO-nun SABİQ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də YUNESKO-nun sabiq baş direktoru Koişiro Matsuuranı qəbul etmişlər.*

*Görüşdə YUNESKO-nun sabiq baş direktoru Koişiro Matsuura prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu məmnunluqla qeyd etdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü də ehtiramla xatırlatdı.*

*Söhbət zamanı Bakıda keçiriləcək III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi vurğulandı, bu tədbirin sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi işinə verdiyi töhfə yüksək dəyərləndirildi.*

## BMT-nin SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ NASSİR ABDULAZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz əl-Nasseri qəbul etmişlər.*

*Nassir Abdulaziz əl-Nasser ölkəmizə səfərindən ötən dövr ərzində Bakıda gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Qonaq qeyd etdi ki, prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan böyük uğurlar əldə edib və Bakıda keçiriləcək I Avropa oyunları mühüm əhəmiyyət daşıyır. III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmindən danışan Nassir Abdulaziz əl-Nasser təmsil etdiyi qurumun forumun etibarlı tərəfdaşı olmasından məmnunluğunu vurğuladı. O, ölkəmizdə millətlər, dinlər, mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşma siyasətinin davam etdirilməsi işini yüksək dəyərləndirdi, «Bakı Prosesi»nə verdiyi töhfəyə görə prezident İlham Əliyevə minnətdarlıq etdi. Qonaq 2016-cı ildə Bakıda keçiriləcək BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunda dünyanın ən nüfuzlu qurumlarının və görkəmli şəxsiyyətlərinin iştirak edəcəklərini də bildirdi.*

*Nassir Abdulaziz əl-Nasserin fikirlərinə razılığını bildirən dövlətimizin başçısı ölkəmizdə keçirilən digər beynəlxalq tədbirlər kimi, 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunun da yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Görüşdə foruma hazırlıq prosesi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## YUNESKO-nun BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı qəbul etmişlər.*

*Görüşdə YUNESKO-nun baş direktoru xanım İrina Bokovanın III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakı yüksək dəyərləndirildi. Forumun artıq ənənəvi olaraq keçirildiyi və tədbirə marağın ildən-ilə artdığı məmnunluqla qeyd edildi. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından Forumun əhəmiyyəti xüsusi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə YUNESKO arasında uğurlu əməkdaşlığın bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kamerun xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 may 2015-ci il*

## III ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*18 may 2015-ci il*

*Heydər Əliyev Mərkəzində «Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq» mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz!

Çox şadam ki, bu gün Bakıda III Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayır. Bu, yaxşı göstərici və ənənədir. Biz üçüncü dəfədir ki, bu qlobal forumu təşkil edirik. Bu, mədəniyyətlərarası dialoq məsələlərinin müzakirə olunmasının artan əhəmiyyətini nümayiş etdirir.

Bu gün 100-dən artıq dövlətin nümayəndəsi Bakıdadır. Bu isə bir daha belə müzakirələrin vacibliyini təsdiqləyir. Əminəm ki, mədəniyyətlərarası münasibətlərə müsbət dinamika verilməsi üçün Forumun keçirildiyi günlərdə dəyərli fikirlər səslənəcək. Azərbaycan bu sahədə öz səylərini hər zaman göstərir və xalqları, dövlətləri, sivilizasiyaları bir araya gətirməyə çalışır.

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlərboyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənib. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün.

Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri – Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik.

Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var.

Təəssüflər olsun ki, bu gün dünyanın müxtəlif yerlərində baş verənlər dərin narahatlıq doğurur. Biz mənfi istiqamətdə cərəyan edən meyillərin şahidi oluruq. Bu səbəbdən ölkələri, sivilizasiyaları və dinləri daha da yaxınlaşdırmaq üçün hansı işlərin görülməli olduğunu açıq və səmimi müzakirə etməliyik. Gərginliyin və nifrətin azaldılması beynəlxalq gündəmin ən mühüm məsələlərindəndir. Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi.

Multikulturalizmin alternativi yoxdur. Hesab edirəm ki, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təsisatların, qeyri-hökumət təşkilatlarının və medianın bu məsələdə məsuliyyəti artmaqdadır. Bildiyimə görə, forumun mövzularından biri məhz ictimai xadimlər və siyasətçilərin məsuliyyətinə həsr edilib. Biz bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Bəzən dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq və o zaman siyasətçilərin və vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Düşünürəm ki, bu səbəbdən multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməliyik. Bilirəm ki, bununla bağlı müxtəlif fikirlər və bəzən də pessimist ideyalar var. Lakin multikulturalizmin müsbət nümunələri də var və Azərbaycan onlardan biridir. Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə, səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək. Bu səbəbdən artıq dünyada multikulturalizm mərkəzlərindən biri olaraq tanınan Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meyilləri stimullaşdırmalıyıq. Bunun alternativi nədir? Təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.

Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, biz qlobal arenada bu müsbət dəyərlərin təşviqində müvafiq rol oynamağa çalışırıq. Azərbaycan müsəlman dünyasına mənsub olan ölkədir, ancaq eyni zamanda, onun Avropa ilə güclü bağlılığı var. Müsəlman dünyasının ilk demokratik respublikası 1918-ci ildə Azərbaycanda yaradılıb və dərhal qadınlara seçki hüququ verilib. Bu da bir sıra Avropa ölkələrindən əvvəl baş tutub. Beləliklə, bizim etnik və mədəni özünəməxsusluğumuz, habelə Avropanın təsiri cəmiyyətimizdə xüsusi ab-hava yaradıb. Əsrlərboyu biz dəyərlərimizi qoruya bilmişik. Biz fərqli siyasi və ictimai şəraitdə yaşamışıq, müxtəlif dövlət və imperiyaların tərkibində olmuşuq. Artıq biz müstəqilik, ancaq bu müsbət meyil davam edir və bu dəyərlərin təşviqi məsələsinə sadiqik.

Mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqun təşviqinin ən vacib elementlərindən biri, əlbəttə ki, təhsildir. Biz təhsilə böyük diqqət yetiririk və fəxr edirik ki, Azərbaycanda savadlılıq 100 faizə bərabərdir. Təhsil gələcəyin, inkişafın yoludur. Elə inkişaf etmiş ölkələr var ki, onlar tərəqqini təbii sərvətlərlə deyil, təhsil, elm və texnologiyaların inkişafı sayəsində təmin ediblər. Eyni zamanda, təhsil ekstremizmə, radikalizmə, fundamentalizmə, terrorçuluğa qarşı təminatdır. Bu, müasir həyatın təhlükəli elementlərinə qarşı sığortadır. Bildiyimə görə, bu mövzu ətrafında müzakirələr forumun diqqət mərkəzində olacaq və hesab edirəm ki, Azərbaycanın təcrübəsi də maraq doğuracaq. Çünki biz də bu gün təhsil sistemimizi transformasiya edirik və onu beynəlxalq standartlara çatdırırıq. Biz məmnunuq ki, gənc nəsil azərbaycanlılar həyatda öz layiqli yerlərini tutmaq və ölkənin potensialını gücləndirmək üçün daha çox öyrənmək, qabiliyyətlərini artırmaq arzusundadırlar. Eyni zamanda, biz fəxr edirik ki, gənc nəsil vətənpərvərdir. Vətənpərvərlik insanların ölkəsini sevməsi deməkdir. Habelə bu, dövlətlər və xalqlar arasında birliyi gücləndirən amildir. Biz hər zaman hesab edirik ki, ölkəyə, xalqa, dinə olan hörmət digərlərinin ənənələrinə və dəyərlərinə hörmətdən başlayır. Yalnız bu yolla uğura nail olmaq mümkündür.

Təəssüflər olsun ki, bu gün biz daha çox bu haqda danışmalı oluruq. Çünki biz bu gün dünyanın müxtəlif yerlərində etnik, dini məzhəb zəminində ayrı-seçkiliyi görürük. Bu da faciəvi bir haldır. Biz bunu öz qonşuluğumuzda görürük. Həmçinin neofaşizm hərəkatı kimi təhlükəli meyillərin şahidi oluruq. Beynəlxalq ictimaiyyət, onun liderləri bu məsələyə çox ciddi şəkildə yanaşmalıdırlar. Çünki biz bu döyüşdə qalib gəlməliyik və bunu yalnız birgə səylərimizlə edə bilərik. Bu səbəbdən bu gün burada təşkil etdiyimiz Mədəniyyətlərarası Forum kimi tədbirlər çox əhəmiyyətlidir. Hesab edirəm ki, Bakı bu gün belə məsələlərin müzakirə edildiyi məkandır.

Müstəqil Azərbaycan nisbətən gənc dövlətdir, yalnız 24 ildir ki, müstəqildir. Lakin bu illər islahat, transformasiya,

inkişaf illəri olub. Biz dövlətimizi qurmaq fürsəti əldə etdik. Biz ənənələr və mədəniyyət ölkəsiyik. Siz Bakının abidələrini görürsünüz. Ölkəmizin digər yerlərinə səyahət etsəniz xalqımızın memarlıq, tarixi və dini abidələrini görərsiniz. Bu da bizim mədəni irsimizin bir hissəsidir. Ancaq müstəqil ölkə kimi, biz gəncik və biz dövlətimizi, siyasi sistemimizi qurmalı idik. Hesab edirəm, qısa bir zamanda bizim ölkəmizin təcrübəsi onu nümayiş etdirdi ki, inkişafa, tərəqqiyə sadiqlik, cəmiyyətin dəstəyi varsa, transformasiya uğurlu ola bilər.

Bu gün Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvüdür, regional müstəvidə çox müsbət rol oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlığın gücləndirilməsinə istiqamətləndirilib. Enerji təhlükəsizliyi ilə bağlı siyası və iqtisadi məsələlər diqqət mərkəzindədir. İrəli sürdüyümüz təşəbbüs və layihələr regionun hüdudlarını aşıb. Bu layihələr ölkələri və qitələri birləşdirir. Enerji təhlükəsizliyi məsələsinə nəzər saldıqda aydın görünür ki, Azərbaycan burada artıq Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. Nəqliyyat infrastrukturuna gəldikdə, biz bu gün tarixi İpək yolunu bərpa edirik. Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsini yaradırıq. Biz təkcə iqtisadi inkişafa və daha təkmil nəqliyyat infrastrukturuna deyil, xalqlararası təmaslara sərmayə yatırırıq. Tarixi İpək yolu Azərbaycandan keçmişdir. Biz bu gün onu müasir texnologiyaların tətbiqi və qonşu dövlətlərin iştirakı ilə bərpa edirik. İqtisadi və sosial inkişafla bağlı bütün layihələrimiz regional əməkdaşlığı, xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanı gücləndirir.

Bununla yanaşı, beynəlxalq arenada oynadığımız rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Biz fəxr edirik ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində Azərbaycan 155 dövlətin dəstəyi ilə ən mötəbər beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu o deməkdir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti bizi dəstəkləmişdir. Səmimi deyə bilərəm ki, bizim heç də bu 155 dövlətin hər biri ilə fəal əlaqələrimiz yoxdur.

Lakin düşünürəm ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində bizim etibarlı tərəfdaş kimi davranışımız, birgə dəyərlər və milli maraqlara əsaslanmış müstəqil mövqemiz ölkəmizə qarşı müsbət münasibət yaratmışdır.

Biz siyasi və iqtisadi transformasiyaya böyük sərmayə yatırmışıq. Müstəqilliyi bərpa etdikdə biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə oldu. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar – siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir.

Bununla yanaşı, Azərbaycanın təbii sərvətlərinə və potensialımıza əsaslanan iqtisadi siyasət müstəqilliyimizin ilk illərində müəyyənləşdirdiyimiz məqsədlərə nail olmağa imkan verdi. Bu da iqtisadi müstəqillik idi. Bizim xarici borcumuz olduqca aşağı səviyyədədir – ümumi daxili məhsulun 10 faizinə bərabərdir. Biz donorlardan, sponsorlardan, ianələrdən və beynəlxalq maliyyə qurumlarının yardımlarından asılı deyilik. Halbuki biz onlarla çox fəal əməkdaşlıq edirik. Biz ölkəmizin enerji təhlükəsizliyini maksimum dərəcədə təmin edə bilmişik və bu gün biz digərlərinin enerji təhlükəsizliyini təmin edirik.

Həmçinin işsizlik və yoxsulluq kimi sosial məsələlər həll olunur. Burada çox müsbət dinamika görürük. Bu gün Azərbaycan yoxsulluq və işsizliyin ən aşağı səviyyədə olduğu ölkələrdəndir. Bu göstərici 5 faizə bərabərdir. Təbii ki, bu da cəmiyyətdə müsbət dinamika yaradır. Bu amillərin birləşməsi Azərbaycanın əhəmiyyətinin artırılmasında vacib rol oynayır. Əlbəttə, diqqəti daha çox daxili məsələlərə yönəldirik.

Məqsədlərimizə nail olmaq və inkişaf etmiş dövlətə çevrilmək üçün görüləcək işlərimiz çoxdur. Halbuki Davos İqtisadi

Forumunun qiymətləndirməsinə əsasən iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünyada 38-ci yerdədir. Buna isə təbii sərvətlər hesabına yox, islahatlar hesabına nail olunub. Bununla yanaşı, biz xalqları daha da yaxınlaşdıran müxtəlif layihələrin təşəbbüskarıyıq. Bunlar enerji, iqtisadiyyat, siyasi əlaqələr sahələrinə, habelə humanitar sektora aiddir. Biz hər il Bakıda Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Zirvə görüşünü təşkil edirik. Bugünkü forum da artıq üçüncü dəfədir təşkil edilir.

3 həftədən, yəni 1 aydan da az vaxtdan sonra Azərbaycan ilk Avropa oyunlarına ev sahibliyi edəcək. 2012-ci ilin sonunda qəbul edilmiş qərar çox müdrik qərar idi. Həcminə görə Yay Olimpiya oyunlarına bərabər oyunların 2 il yarım müddətdə təşkil edilməsi böyük çağırış idi. Avropa Olimpiya Komitəsinin dünyada ilk Avropa oyunlarının müsəlman əhaliyə malik Azərbaycanda keçirilməsi ilə bağlı qərarı son illər qəbul edilmiş ən müdrik qərarlardan biridir. Biz 6000 Avropa idmançısını bir araya gətirəcəyik. Artıq hazırlıq prosesinin yekun mərhələsindəyik. Bu, yalnız böyük idman tədbiri deyil, həm də dostluq və tərəfdaşlıq tədbiri olacaq. Bizim üçün isə bu, təbii ki, ölkəmizi və qonaqpərvərliyimizi nümayiş etdirmək baxımından yaxşı fürsət olacaq. 2 ildən sonra biz İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Yəni 2 il ərzində eyni ölkədə, eyni şəhərdə həm Avropa, həm də İslam Həmrəyliyi oyunları keçiriləcək. Hesab edirəm ki, iki il ərzində hər iki oyunun eyni ölkədə təşkil edilməsi Avropa idman tarixində nadir hal olacaq.

2008-ci ildə də «Bakı Prosesi» bizim təşəbbüsümüzlə başlanmışdır. Avropa Şurasının mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatının nazirlərinin dəvət edilməsi bizim təşəbbüsümüz idi. Bu, ilk belə hal idi. Çünki Azərbaycan hər 2 təşkilata üzv olan azsaylı ölkələrdəndir. Daha sonra – 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin iclasına Avropa Şurası mədəniyyət nazirləri dəvət edildi. Bunlar bizim təşəbbüslərimiz idi və artıq buna «Bakı Prosesi» adı verilib.

Bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər «Bakı Prosesi»nə daxildir. Biz səylərimizi davam etdirəcəyik və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək, bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaradır. Biz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfəmizi verməyə çalışacağıq.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz!

* * *

**Nassir Abdulaziz əl-Nasser** *(BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi):* Azərbaycan prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

Belə bir mötəbər toplantıda ikinci dəfə çıxış etmək üçün gözəl Bakı şəhərinə yenidən gəlməyimdən olduqca məmnunam. Eyni zamanda, BMT-nin Baş katibi cənab Pan Gi Munun səmimi salamlarını çatdırmaqdan çox şadam. O bizim forumumuza uğurlar arzu edir. BMT-nin Sivilizasiyalar Alyansı III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycan hökuməti və bütün digər təşkilatlarla qurduğu tərəfdaşlıqdan şərəf hissi duyur və hazırlıq işlərini azərbaycanlı tərəfdaşları ilə əlaqələndirir.

Bu il keçirilən forumun mövzusu «Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq»dır. 2015-ci ilin sentyabrında dünya liderləri 17-ci davamlı inkişaf məqsədlərini qəbul etmək üçün toplaşacaqlar. Bu baxımdan Alyansın məramı sülhsevər və inklüziv cəmiyyətlərin qurulması zərurətini qeyd edən 16-cı davamlı inkişaf məqsədinə tam oxşardır. BMT-nin gördüyü işin əksər hissəsi və həmin yeni davamlı inkişaf məqsədləri vasitəsilə həll etməyə çalışdığımız məsələlərin çoxu 2030-cu ilə qədər fəaliyyətimizi istiqamətləndirəcək. Davamlı inkişaf və qlobal təhlükəsizliyə nail olmaq üçün irəliləyişə əngəl törədən bir sıra problemləri aradan qaldırmağa yardım edəcək.

Təcridolunma, iqtisadi məhdudiyyətlər, qeyri-bərabərlik, düzgün idarəçiliyin çatışmaması XXI əsrdə dünyamızı zəiflədən sosial ədalətsizlik nümunələrindən biridir.

Xanımlar və cənablar! Bu gün biz «Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq» mövzusunu müzakirə etdiyimiz zaman müxtəliflik məfhumunu xatırlatmaq çox yerinə düşərdi. Bu zala nəzər saldıqda burada müxtəlif ölkələrdən gəlmiş çoxlu sayda fərqli insanları görürəm. Asiya ilə Avropa arasında yerləşən Azərbaycanın özü müxtəlif irq, din, mədəniyyət və dillərdən ibarət möhtəşəm mozaikadır.

*BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi dünyada gedən inkişaf proseslərinə baxmayaraq, müxtəlif ölkələrdə münaqişələrin baş verməsinin ciddi narahatlıq doğurduğunu diqqətə çatdırdı. Gənc nəsli hədəf seçən radikalizmin, ekstremizmin və münaqişələrə səbəb olan digər halların qarşısını almaq üçün kollektiv tədbirləri, dialoqları, məsləhətləşmələri genişləndirmək zərurətindən danışan Nassir Abdulaziz əl-Nasser bu baxımdan Bakı Forumunun xüsusi önəm daşıdığını vurğuladı. O bununla əlaqədar BMT-nin Azərbaycan ilə əməkdaşlığa verdiyi əhəmiyyətdən danışdı:*

– Cənab Prezident, mən bildirmək istəyirəm ki, ötən il biz burada – gözəl Azərbaycanda olduq və tədbirimizi keçirdik. Mən istərdim ki, bizim əməkdaşlığımız bundan sonra da davam etsin. Çox sağ olun.

**İ r i n a  B o k o v a** *(YUNESKO-nun baş direktoru):* Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar!

III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən şərəf hissi duyuram. «Bakı Prosesi» 2008-ci ildə başlanıb. Hər gün biz zati-aliləri cənab İlham Əliyevin bu təşəbbüsünün uzaqgörənliyinin şahidi oluruq. Bu rəhbərlik keyfiyyətləri Azərbaycanın İpək yolu kimi mədəniyyətindən, onun qədim tarixindən irəli gəlir. Biz bunu Bakının YUNESKO-nun dünya irsi siyahısına daxil edilmiş İçərişəhərinin timsalında görürük. Mən bunu YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri üzrə xoşməramlı səfiri, birinci xanım Mehriban Əliyevanın bu işlərə böyük sadiqliyində görürəm. Biz bunu Azərbaycanın qeyri-maddi mədəni irsində, o cümlədən YUNESKO-nun reprezentativ siyahısına daxil edilmiş qədim xalçaçılıq sənəti, Türkiyə, Hindistan, İran, Qırğızıstan, Pakistan və Özbəkistanla birgə siyahıya salınmış Novruz bayramının timsalında görürük.

Ötən həftə YUNESKO bu tarixi nümayiş etdirən «Azərbaycan qədimlikdən müasirliyə doğru» adlı gözəl sərgini qəbul etdi. Həmin sərgidə Məhsəti Gəncəvinin əsərləri təqdim olundu. 2013-cü ildə həmin rəhbərlik keyfiyyətlərini təcəssüm etdirən qeyri-maddi mədəni irsin qorunması üzrə hökumətlərarası Komissiyanın 8-ci sessiyası Bakıda keçirildi. Bu tədbir böyük uğurla nəticələndi, bizim hamımızı burada bir araya gətirdi.

Xanımlar və cənablar, bu gün bizim buna heç vaxt görünməmiş dərəcədə ehtiyacımız var. Bu il YUNESKO özünün 70-ci ildönümünü qeyd edir və mən inanıram ki, məramımız heç vaxt görünməmiş dərəcədə əhəmiyyətlidir. Biz bütün dünyada ölkələri parçalayan, insanlara əzab verən münaqişələri görürük. Biz zorakı ekstremizmin, etnik təmizləmənin artmasını görürük. Biz məscidlərin, kilsələrin və digər məbədlərin dağıdıldığını, azlıqların təqib olunduğunu görürük. Biz təhsilə, uşaqlara, xüsusən məktəbli qızlara hücumları görürük. Biz ifadə

azadlığına hücumları, jurnalistlərin qətlə yetirildiyini görürük. Biz cəmiyyətlərin digərlərinin üzünə bağlandığını görürük. Dünyadakı mövqemiz, YUNESKO-nun mövqeyi, «Bakı Prosesi»nin mövqeyi bu baxımdan görünməmiş dərəcədə əhəmiyyətlidir.

*İrina Bokova dünyada mövcud olan münaqişələr zamanı məscidlərin, kilsələrin, tarixi abidələrin məhv edildiyini, insan hüquqlarının tapdandığını təəssüf hissi ilə qeyd etdi. Bütün bunların qarşısını almaq üçün mədəniyyətlərarası dialoqun gücləndirilməsində «Bakı Prosesi» ilə YUNESKO-nun mövqeyinin üst-üstə düşdüyünü vurğuladı.*

*YUNESKO-nun baş direktoru mədəniyyətlər, qruplar, xalqlar arasında nifaqlara, insanların kateqoriyalara bölünməsinə çalışan qüvvələrə qarşı ümumi dəyərlərlə mübarizə aparılmasının zərurətindən danışdı və bu mübarizəyə maraqlı olan insanları bir araya gətirən «Bakı Prosesi»nə minnətdarlığını bildirdi.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni forumda müzakirə olunan məsələlərin aktuallığından danışdı. Çıxışında multikulturalizm məsələsinə toxunan baş katib bəzi dairələrin iddialarına baxmayaraq, indiki dövrdə bu məsələnin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı və artıq multikulturalizm mərkəzinə çevrilmiş Bakı haqqında təəssüratlarını danışdı.*

**İyad bin Amin Mədəni:** Zati-aliləri, Bakıda olmağımızdan çox şadıq. Bu şəhər hər zaman bizi təəccübləndirir. Hər dəfə gələndə sanki yeni şəhərdəyik. Çox dinamik, çox inkişaf edən bir şəhərdir. Bilirsiniz, nəinki coğrafi, memarlıq baxımından da maraqlı şəhərdir. Burada xoş ab-hava, mehriban qonaqpərvərlik, çoxmədəniyyətlilik mövcuddur. Bizim fikrimizcə, Azərbaycanın coğrafi mövqeyi sırf müxtəlifliklə, tarixiliklə bağlı deyil. Bu həmçinin ölkə rəhbərliyinin müdrikliyi, onun uzaqgörən siyasəti ilə bağlı olan məfhumdur.

Zati-aliləri, xanımlar və cənablar!

Biz çox çətin bir dövrdə yaşayırıq. Belə olan halda güclü rəhbərlik keyfiyyətləri tələb olunur. Mədəniyyətlərarası dialoq sırf görüntü, hər hansı bir müzakirə aparmaq naminə tətbiq edilməli deyil. Biz öz imicimizi məhz ətrafımızdakı ağır reallıqlar baxımından inkişaf etdirməliyik. Öz üzərimizə öhdəlik götürməliyik ki, bir-birimizi anlayaq, reallıqlarımızı görək, bir-birimizə dözümlü olaq. Bir-birimizə, tərəfdaşlarımıza hörmətlə yanaşaq, bizim dəyərlər sistemimizə digər sistemləri qoşa bilək. Yəni əgər bunları etiraf etsək, dünyanın hüdudları bizə o qədər də çox görünməz. Hörmətli qonaqlar, əgər biz qlobal kənd haqqında danışırıqsa, bu qlobal kənd, bu qlobal ictimaiyyət müxtəliflik daxilində yaşamağı bacarmalıdır, bu çərçivədə olmalıdır. Çünki biz bəzi hallarda bu haqda çox düşünürük, bəzi dairələr də düşünür, lakin biz bunu, həmçinin yaymalıyıq. Biz böyük ümidlə yaşayırıq ki, vaxt ötdükcə səylərimizi daha da gücləndirəcəyik. Biz bu foruma dəstək vermək, tərəfdaş qismində çıxış etməkdən də fərəhlənirik. Biz BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə işlədik, İSESKO ilə əməkdaşlıq etdik. Bizə bu cür forumlar, toplantılar lazımdır.

*Dünyanı narahat edən problemlərin birgə səylərlə həllinin mümkünlüyündən danışan İyad bin Amin Mədani həmin səyləri birləşdirməyin yollarını və üsullarını müzakirə etmək üçün Bakıda yaradılan şəraiti yüksək dəyərləndirdi:*

– Biz bilirik ki, dünyada bu ayrı-seçkiliyin, təcrid olunmanın aradan qaldırılması birgə səylərimizlə mümkündür. Bu baxımdan mədəniyyətlərin və dinlərin, müxtəlif baxışların tətbiq edilməsi çox vacibdir. Biz bununla paylaşmalıyıq və bu gün Bakıda – Azərbaycanın paytaxtında bu fikirlərlə paylaşırıq.

Cənab Prezident, Sizi burada görməkdən böyük şərəf hissi duyuruq. Biz bilirik ki, Siz bizim bu mövqemizlə yekdilsiniz. Siz bizim bu səylərimizə dəstək verirsiniz və bu bizim üçün çox vacibdir. Çünki burada əyləşən şəxslər bilirlər ki, bu binanın memarı xanım Zaha Hadiddir. Bildiyiniz kimi, o, tanınmış memardır. Məhz belə insanların töhfəsi ilə biz hər bir

mədəniyyət hüququnu, hər bir insan hüququnu təmin etməliyik. Biz bundan şərəf hissi duyuruq.

Nəhayət, cənab Prezident, xanımlar və cənablar, əgər bizim əsrimiz özünəməxsusluq, identiklik əsridirsə, bu həmçinin tolerantlıq, digərlərinin mədəniyyətlərinin etirafı əsri olmalıdır. Biz tək yaşamalı deyilik. Biz paylaşmalı, tərəfdaş kimi çıxış etməliyik. Bu imkanı yaratdığınıza görə çox sağ olun.

**Əbdüləziz bin Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Zati-aliləri cənab Prezident!

Hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Belə bir mötəbər toplantıda Sizin qarşınızda çıxış etməkdən böyük şərəf və iftixar hissi duyuram. Mən III Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edirəm, böyük məmnuniyyətlə ölkənizə, paytaxt şəhərinizə gəlmişəm. Sizin şəhəriniz beynəlxalq səylərin məhz mərkəzində dayanır. Lakin bundan öncə, icazə verin, mən öz təbriklərimi Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə çatdırım. Onun davamlı şəkildə göstərdiyi səyləri, belə bir çiçəklənən ölkəni yaratmaq üçün gördüyü işləri yüksək dəyərləndiririk. Bu fəaliyyət nəticəsində əldə edilmiş nailiyyətlər Azərbaycanı irəliləyiş, müasirlik və sabitliyin nümunəsinə çevirib.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar!

Bu forum artıq üçüncü dəfədir ki, bizi bir araya gətirir. Bu tədbir beynəlxalq miqyası baxımından mədəniyyətlərarası dialoqa, sivilizasiyalar alyansına, xalqlar və dövlətlər arasında ahəngdar həyata həsr olunmuş mühüm beynəlxalq tədbirdir. Mən görürəm, bu forum artıq öz məqsədinə nail olur və onun məqsədi məhz gərginliyin və böhranların aradan qaldırılması, onların azaldılmasından ibarətdir. Bu gün dünya daha sülhsevər, daha təhlükəsizlik şəraitində yaşamalıdır. Buna görə biz hesab edirik ki, bu mövzu tarixdə heç vaxt görünməmiş dərəcədə vacibdir.

*İSESKO-nun baş direktoru dünyanın müxtəlif regionlarında sabitliyin pozulduğunu, ekstremizmin və terrorçuluğun genişlənməsinin təhlükəli hal aldığını bildirdi və onların qarşısını almaq üçün siyasi yolların axtarılması və bəşəriyyəti irəliyə doğru aparacaq ideyaların təşviqinin gücləndirilməsi zərurətindən danışdı.*

*Əbdüləziz bin Osman əl-Tüveycri münaqişələrdən danışarkən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxundu, ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu, bu məsələlərin beynəlxalq hüquq və normalar çərçivəsində həllinin vacibliyini vurğuladı. Ümumilikdə böhranların həllinə mədəniyyətlərarası dialoqların töhfə verə biləcəyini əsaslandıran İSESKO-nun baş direktoru dedi:*

– Hesab edirik ki, mədəniyyətlərarası dialoq mövzusunda belə bir forumun keçirilməsi sadə bir tədbir kimi qəbul edilməli deyil. Bu forum məhz siyasi tədbirlərin görülməsi, bu gün dünyada baş verən qarşıdurmaların aradan qaldırılmasına xidmət etməlidir. Bu bizim məramımızdır. Bu məram bizim üçün olduqca vacibdir. Biz bunu vaxtında həyata keçirməliyik və dünyada sülhü möhkəmləndirməliyik. Belə bir çətin vəzifə bu forumun çiyinlərindədir. Hesab edirik ki, biz öz real bacarığımızla, cəsarətimizlə və mübariz olmağımızla bu maneələri aradan qaldıracağıq.

*Sonra BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifainin foruma təbrik məktubunu baş katibin turizm və sülh üzrə müşaviri Əmr Abdel-Qaffar oxudu.*

**Əmr Abdel-Qaffar:** İcazə verin, cənab Prezident, baş katibimizin Sizə ünvanlanmış təbriklərimi çadırım. O Sizin bu səylərinizi, tolerantlıq, dialoq dəyərlərinin təşviq edilməsində apardığınız fəaliyyəti yüksək dəyərləndirir. Bu, xüsusən də geosiyasi mühit, sülhün qorunması baxımından çox vacibdir.

BMT-nin turizmin təşviq edilməsi ilə məşğul olan xüsusi təşkilatı qismində çıxış edən Dünya Turizm Təşkilatı hər zaman

bu fikirdə olub: biz turizmi elə bir formada təşviq etməliyik ki, beynəlxalq inkişafa, sülhə və tərəqqiyə töhfə verək.

Cənab Prezident, xanımlar və cənablar!

Son 10 il ərzində turizm sahəsində çox böyük artım müşahidə olunub. Bu bizim zəmanəmizin iqtisadiyyatının çox vacib elementlərindən biridir. 1 il ərzində bütün dünyada, demək olar ki, 1 milyarddan artıq insan turist qismində yerini dəyişir.

Son illər ərzində turizm, hətta deyə bilərik ki, çiçəklənən bir sahə olub, lakin eyni zamanda, özlüyündə bəzi çətinliklər və təhdidlərlə də üzləşib. Bu da təbii ki, sülh və təhlükəsizliklə bağlı olan təhdidlərdir. Buna görə bizim beynəlxalq turizmlə bağlı gündəliyimizdə duran məsələlərdən biri davamlı inkişafdır. Biz davamlı inkişafa töhfə verməliyik, mədəniyyətlərarası dialoqa, yanaşmaya və anlaşmaya xidmət etməliyik.

BMT-nin Dünya Turizm Təşkilatı «Bakı Prosesi»ni bundan sonra da sıx dəstəkləyəcək.

Bu gün biz bu tədbirdə iştirak edirik. Biz öz fəal rolumuzu oynayacağıq ki, hər hansı toqquşmaların qarşısının alınması mümkün olsun, tolerantlıq və anlaşma xalqlar, dünya dövlətləri arasında təşviq edilsin. Biz Sizinlə birgə işləmək əzmindəyik. Biz görürük və çox gözəl başa düşürük ki, bizim qarşımızda duran məram ümumidir. Biz hamımız çalışırıq ki, daha təhlükəsiz və sülhsevər dünyanı quraq. Sağ olun.

*Daha sonra YUNESKO tərəfindən Mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik münasibətilə nəşr edilən «Fərqli fikirlərlə razılaşmaq» adlı kitabın təqdimatı oldu.*

*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirak etdikləri mərasimdə çıxış edən YUNESKO-nun baş direktoru İrina Bokova bu kitabın tolerantlığa, qarşılıqlı hörmət, ləyaqət və mərhəmətə əsaslandığını bildirdi.*

*«Fərqli olmağa razılaşmaq belə təlatümlü dövrdə zəruridir» – deyən İrina Bokova bəzən insanlar arasındakı münasibətlərdə yeni texnoloji alətlərdən istifadənin yetərsiz olduğunu dedi, daha çox paylaşmaq və bölüşmək kimi ideyaların bütün cəmiyyətlərdə*

*bərqərar olmasının əhəmiyyətinə toxundu. O, Bakı Forumunun əhəmiyyətini vurğulayaraq YUNESKO-nun fəaliyyətinə, BMT-nin Mədəniyyətlərin yaxınlaşması beynəlxalq onilliyində göstərdiyi dəstəyinə görə Azərbaycana təşəkkür etdi.*

**İ r i n a B o k o v a:** Xanımlar və cənablar, inanıram ki, bu gün təşkil edilən bu dünya forumu çox əhəmiyyətlidir. Bütün fəaliyyətlərimizdə, o cümlədən BMT Mədəniyyətlərin yaxınlaşması beynəlxalq onilliyində göstərdiyi rəhbərlik və dəstəyinə görə Azərbaycan Respublikasına təşəkkür etmək istəyirəm. İnanıram ki, birgə yaşamaq anlayışımızın nöqtələrini birləşdirərək, bir-birimizlə necə münasibət quracağımızı görə biləcəyik. Nəşrimizi təqdim etdiyim bu qısa müraciətimdən sonra icazə verin, çox səmimi şəkildə prezident İlham Əliyevə və Azərbaycana təşəkkür edim.

Cənab Prezident, səhər söylədiyiniz nitq hamımız üçün çox güclü ilham mənbəyi idi. Siz Azərbaycanın qədim tarixi haqqında – ilk məscidlərdən, ilk kilsələrdən, burada hər zaman sərbəst olan yəhudi cəmiyyətindən danışdınız. Siz tarixdən, bütün bu müxtəliflikdən dərs alaraq müasirliyə doğru gedirsiniz. Düşünürəm ki, bir çox cəmiyyətlər üçün bu günlərdə ən böyük çağırış müasirliklə, dəyişən dünyanın tələbləri ilə ayaqlaşmaqdır. İnanıram ki, irəli getmək üçün keçmişi bilməli və ondan dərslər almalıyıq. Dünyada Azərbaycanın etdiyi kimi, keçmişdən dərs alan çox az ölkə var. Təsadüfi deyil ki, biz burada – Bakıda toplaşmışıq. Bakı dünya şəhəridir – həm qədim, həm də çox müasir şəhərdir. Biz YUNESKO – irsi qoruyan, irsin mədəniyyətlər arasında dialoq vasitəsi olduğuna inanan təşkilat kimi, başqalarının irsini dünya irsi siyahısına yazaraq qiymətləndiririk. Məscidlər, kilsələr, sinaqoqlar, başqa mədəniyyətlərin və xalqların irsini siyahıya əlavə etməklə, biz dialoqun mücəssəməsini görürük.

*Baş direktor YUNESKO-nun Mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik münasibətilə nəşr etdirdiyi kitabı prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra İrina Bokova qədim kəlağayı sənətinin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi haqqında komitənin keçən il qəbul etdiyi qərarı Azərbaycanın birinci xanımı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevaya təqdim etdi.*

– İstəyirəm Azərbaycanın birinci xanımı, YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri üzrə Xoşməramlı səfiri xanım Mehriban Əliyevaya qədim kəlağayı sənətinin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi haqqında komitənin keçən il qəbul etdiyi qərarı təqdim edim. Yəqin ki, azərbaycanlı qadınları kəlağayı geyərkən görmüsünüz. Biz bununla və Xoşməramlı səfirimiz xanım Mehriban Əliyeva ilə çox böyük qürur duyuruq. Əminəm ki, xanım Mehriban Əliyeva bütün Azərbaycan xalqı adından bu sertifikatı almağa layiqdir.

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev çıxışında mədəniyyətlərarası dialoqun yayılması üzrə bütün fəaliyyətlərə göstərdiyi dəstəyə və töhfəyə görə prezident İlham Əliyevə təşəkkür etdi. Bildirdi ki, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və tərəfdaşlığa, habelə 2008-ci ildə prezident İlham Əliyev tərəfindən elan edilən «Bakı Prosesi»nə töhfələr vermiş forum iştirakçılarına təqdim etmək üçün simvol hazırlanıb.*

*Əbülfəs Qarayev sülh və mədəniyyətlərarası dialoq üzrə «Bakı Prosesi»nin simvolunu BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz əl-Nasserə, YUNESKO-nun baş direktoru İrina Bokovaya, İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amid Mədəniyə, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycriyə və digər şəxslərə təqdim etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

* * *

*Sonra prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından III Ümumdünya Mədəniyyətlərarası Dialoq*

*Forumunda iştirak edən yüksək səviyyəli qonaqların şərəfinə nahar verildi.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 18-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni ilə görüşmüşlər.*

*Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif sahələrdə həyata keçirilən birgə layihələrin önəmi qeyd olundu. Prezident İlham Əliyev bu ilin aprelində Səudiyyə Ərəbistanına rəsmi səfərini xatırladaraq bu səfərin uğurla keçdiyini və müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi baxımından səmərəli olduğunu diqqətə çatdırdı.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni paytaxtımızda həyata keçirilən genişmiqyaslı abadlıq işlərinin, gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Artıq Bakıda üçüncü dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən danışan İyad bin Amin Mədəni bu tədbirin müxtəlif fikirlərin dinlənilməsi və onların tətbiqi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Söhbət zamanı Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 18-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri ilə görüşmüşlər.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın hazırki səviyyəsindən məmnunluq ifadə edildi. Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun xalqlar və mədəniyyətlərarası dialoqun inkişafı baxımından əhəmiyyəti yüksək qiymətləndirildi. Bakının artıq mühüm məsələlərin müzakirə olunduğu mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən məkana çevrilməsinin əhəmiyyəti vurğulandı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-da YERLƏŞƏN ETNİK ANLAŞMA FONDUNUN SƏDRİ RABBİ MARK ŞNAYER İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də ABŞ-da yerləşən Etnik Anlaşma Fondunun sədri Rabbi Mark Şnayeri qəbul etmişdir.*

*Etnik Anlaşma Fondunun sədri Rabbi Mark Şnayer Azərbaycanda gedən ümumi inkişaf proseslərinin maraqla izlənildiyini, Bakıda gördüklərinin onda dərin təəssürat yaratdığını bildirdi. O, Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində rəhbərlik etdiyi təşkilatın maraqlı olduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun dünyada multikulturalizm ənənələrinin yaşadılmasına mühüm töhfə olduğu bildirildi, onun mədəniyyətlərin bir-birinə daha da yaxınlaşması baxımından əhəmiyyəti vurğulandı. Bu tədbirin keçirilməsi Azərbaycanın beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfəsi kimi qiymətləndirildi.*

# BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA İNŞA OLUNAN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN AÇILIŞI MƏRASİMİ

*19 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Bakı Olimpiya stadionu ətrafında inşa olunan yol-nəqliyyat infrastrukturunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə Bakı Olimpiya stadionu ətrafında aparılan abadlıq işləri ilə tanış oldu.*

*Olimpiya stadionu ətrafında 82 min kvadratmetrlik ərazidə geniş yaşıllıq sahəsi salınıb. 68 min tamaşaçı tutumlu stadiona olimpiya normativlərinə əsasən insanların daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulub ki, bunun üçün də ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilib. Bu nəhəng idman qurğusu müasir arxitektura üslubu, xüsusi gözəlliyi ilə seçilir və şəhərimizdə həyata keçirilən quruculuq işlərinə bir töhfədir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinə paralel olaraq metronun «Koroğlu» stansiyasına qədər yeni avtomobil yolunun inşasının birinci hissəsi layihəyə uyğun olaraq tam başa çatdırılıb. İnşası «Azvirt» MMC tərəfindən aparılan yolun birinci hissəsi əsasən Bakı Olimpiya stadionu ətrafındakı əraziyə düşür. Burada işlər yüksək səviyyədə həyata keçirilib. Bu yol qovşağının ümumi sahəsi 529 min kvadratmetrdir. Yolun hərəkət hissəsi 2–6 zolaqlıdır. Yolboyunca 2 körpü inşa olunub. Birinci körpünün uzunluğu 205, ikinci körpünün uzunluğu isə 162 metrdir.*

*Son illərdə Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində çox mühüm tədbirlər reallaşdırılır. Onların arasında paytaxtda və regionlarda inşa olunan çoxsaylı yolötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidlərini göstərmək olar. Mühüm məqam isə ondan ibarətdir ki, bu ilin iyununda Bakıda ilk Avropa oyunları keçiriləcək. Oyunların başlanmasına az vaxt qalmasına baxmayaraq, bu beynəlxalq idman tədbirinə hazırlıq davam edir. Bu çərçivədə paytaxtda bir sıra infrastruktur layihələri icra olunub, yeni idman qurğuları tikilib. Bundan əlavə, şəhər infrastrukturunun ilk Avropa oyunlarına hazırlığı da diqqət mərkəzindədir. Paytaxtın mərkəzi küçə və xiyabanlarında abadlıq işləri aparılıb və bu proses indi də davam etdirilir. İdman obyektlərinə aparan yolların yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq xeyli iş görülüb.*

*Azərbaycan Prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev ərazidə piyadalar üçün nəzərdə tutulan yol ilə də tanış oldu. Bildirildi ki, ərazidə uzunluğu 900 metrə, eni isə 30 metrə yaxın olan piyada yolu inşa edilib, yol üzərində iki tunel tikilib. Yolun qapalı hissəsinin uzunluğu 92, açıq hissəsinin uzunluğu 691 metrdir. Piyadalar üçün nəzərdə tutulan yolda 115 metr uzunluğunda kompleksə daxil olan üçüncü körpü də inşa olunub. Tuneldən keçən yollar Bakı Olimpiya stadionu ilə olimpiya şəhərciyini birləşdirir. Yarışları izləmək üçün avtobuslarla əraziyə gələn tamaşaçılar bu piyada yolu ilə Bakı Olimpiya stadionuna rahat hərəkət edəcəklər.*

# BEYNƏLXALQ AVTOVAĞZAL ƏRAZİSİNDƏN BAKI DAİRƏVİ YOLUNU BİRLƏŞDİRƏN KÖRPÜNÜN VƏ STEND ATICILIĞI KOMPLEKSİNƏ GEDƏN YOLUN AÇILIŞI MƏRASİMİ

*19 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Beynəlxalq Avtovağzal ərazisindən Bakı dairəvi yolunu birləşdirən körpünün və Stend Atıcılığı Kompleksinə gedən yolun açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun «Avtovağzal dairəsi» adlanan ərazisinin Bakı Dairəvi-1 avtomobil yoluna birləşdirilməsi məqsədilə inşa edilən yeni yolda təmir-tikinti işləri yüksək səviyyədə həyata keçirilib. «Körpü-Bina Tikinti» MMC tərəfindən aparılan inşaat işləri 2014-cü ilin sentyabrında başlanılıb. Ümumi uzunluğu 1070 metr olan yolun körpüyə qədər hissəsinin eni 22 metrdir və 4 hərəkət zolağından ibarətdir. 15 aşırımdan ibarət körpünün uzunluğu 451 metr, eni 13 metrdir. Stend Atıcılığı İdman Kompleksinə gedən yol da tam hazırdır. Uzunluğu 1,4 kilometr, eni 21,5 metr olan yolun inşasına isə ötən il başlanılıb.*

*Bu yolların istifadəyə verilməsi Beynəlxalq Avtovağzaldan Qazax–Gürcüstan və Ələt–Astara–İran sərhədi, həmçinin Hacıqabul–Horadiz istiqamətində sərnişin daşıyan avtobuslar, o cümlədən Sumqayıt istiqamətindən gələn nəqliyyat vasitələrinin birbaşa Respublika Stend Atıcılığı İdman Kompleksinə və Bakı Dairəvi-1 avtomobil yoluna rahat və maneəsiz şəkildə çıxmasına şərait yaradacaq.*

*Qeyd olundu ki, Biləcəri enişindən Beynəlxalq Avtovağzal ərazisinə qədər təqribən 400 metrlik giriş yolunda və dairədə aparılan təmir-tikinti işləri də başa çatıb. Biləcəri enişindən dairəyə doğru olan mövcud 11 metr enində yol genişləndirilərək 22 metrə çatdırılıb. Həmin ərazidə yolayrıcıları inşa edilib, işıq dirəkləri quraşdırılıb, geniş abadlıq işləri aparılıb. Beynəlxalq Avtovağzalın qarşısında yerləşən yolötürücüsünün alt hissəsində də yenidənqurma işləri həyata keçirilib. Ərazidə abadlıq işləri görülüb.*

*Dövlətimizin başçısına Bakı–Sumqayıt yolunun 9-cu kilometrində inşa olunan 5 körpü və Sumqayıt–Bakı istiqamətində yan yolun genişləndirilməsi işləri barədə məlumat verildi.*

*Ərazidə inşa olunan 5 körpünün ümumi uzunluğu 400 metrdir. Burada 2350 metr uzunluğunda yan yollar genişləndirilib və yolun eni 15 metrə çatdırılıb. Bütün bunlar Bakı–Sumqayıt yolunda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə mühüm töhfə verəcək.*

# BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ BAŞ VERƏN YANĞINLA ƏLAQƏDAR YARADILAN DÖVLƏT KOMİSSİYASININ İLK İCLASINDA İŞTİRAK

*20 may 2015-ci il*

*Paytaxtın Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanda yerləşən çoxmərtəbəli yaşayış binasında mayın 19-da yanğın baş vermişdir.*

*Mayın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisə yerinə gəlmişdir.*

*Dövlətimizin başçısı binaya baxış zamanı hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, hadisə vaxtı zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə yardımların göstərilməsi və digər məsələlərlə əlaqədar Dövlət Komissiyasının üzvlərinə yerindəcə tapşırıqlarını verdi.*

*Daha sonra baş verən yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının Azərbaycan Prezidentinin rəhbərliyi ilə ilk iclası keçirildi.*

*Dövlətimizin başçısı Komissiyanın iclasında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Dünən Binəqədi rayonunun ərazisində yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğın nəticəsində 15 nəfər həlak olub, onlarla insan yaralanıb.

Həlak olanların ailələrinə, onların yaxınlarına, qohumlarına bir daha başsağlığı verirəm. Təklif edirəm ki, həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilsin *(hadisə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu).*

Allah rəhmət eləsin.

Mənə verilən məlumata görə, hazırda xəstəxanalarda 20-yə yaxın insan var. Onların müalicəsi təmin edilir. Səhiyyə Nazirliyi hər şeyi edir ki, onlar tezliklə sağalıb evlərinə qayıtsınlar.

Qeyd etməliyəm ki, hadisə zamanı bizim bütün dövlət qurumlarımız çox böyük fədakarlıq göstəriblər. Səhiyyə işçiləri, təcili tibbi yardım işçiləri, xilasedicilər, polis əməkdaşları böyük peşəkarlıq və fədakarlıq, qəhrəmanlıq göstəriblər. Onlarla insan binadan təxliyyə edilib, xilas olunub. Bu xilasetmə əməliyyatlarında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hadisə ilə bağlı dünən mənim sərəncamımla Dövlət Komissiyası yaradılıb. Bu gün biz Komissiyanın birinci iclasını keçiririk. Komissiyanın birinci iclasına şəxsən mən özüm rəhbərlik edirəm.

Komissiya bütün məsələləri araşdırıb rəy verməlidir. İlk növbədə, yanğının nəticələri araşdırılmalıdır. Hüquq-mühafizə orqanlarına göstəriş verilib. Onlar bu işlərlə məşğuldurlar. Dünən cinayət işi açılıb. Cinayət törətmiş insanlar məsuliyyətə cəlb olunmalıdırlar.

Hazırda Komissiya işləyir. Əsas məsələ ondan ibarətdir ki, zərərçəkmiş insanlara qayğı, diqqət göstərilsin. Onlar indi müvəqqəti olaraq mənzil şəraiti ilə təmin edilirlər. Göstəriş verilib ki, onların müvəqqəti məskunlaşması ilə bağlı bütün müvafiq tədbirlər görülsün. Onlara maddi kömək də göstərilib ki, bina təmir olunanadək müvəqqəti olaraq kirayədə qalsınlar. Bu məsələlər öz həllini tapır.

Eyni zamanda, əlbəttə ki, yanğının səbəbləri ciddi şəkildə araşdırılmalıdır. Qeyd etdiyim kimi, hüquq-mühafizə orqanları artıq işə başlayıb. Binanın təmiri ilə məşğul olan şirkətin rəhbərləri saxlanılıb və məsələ ciddi araşdırılmalıdır.

Bu, birinci hadisə deyil. Bundan bir qədər əvvəl Xətai rayonunda da oxşar hadisə baş vermişdi. Xoşbəxtlikdən orada heç kim həlak olmamışdı. Ancaq o məsələ də ciddi araşdırılmalıdır. Onu da qeyd etməliyəm ki, Xətai rayonundakı

yaşayış binasında baş vermiş yanğının nəticəsi ilə bağlı araşdırmalar aparılır. Aydınlaşdırılıb ki, o binanın təmiri ilə başqa şirkət məşğul olub.

Yəni bu onu göstərir ki, hər iki hadisədə binanın təmiri ilə məşğul olan şirkətlər böyük məsuliyyətsizlik göstəriblər. İndi, əlbəttə ki, hüquq-mühafizə orqanları bu məsələni araşdıracaq. Hələ ki, bir şey demək istəmirəm. Amma ilkin versiya ondan ibarətdir ki, təmirdə istifadə olunan üzlük materialları keyfiyyətsiz olmaqla bərabər, həm də odadavamlı deyildi. Mən Bakıda aparılan təmirlə bağlı dəfələrlə məsələ qaldırmışam ki, ilk növbədə, təmir keyfiyyətlə aparılmalıdır və təhlükəli maddələrdən istifadə olunmamalıdır.

Müvafiq dövlət qurumlarının nümayəndələri məni də dəfələrlə inandırırdılar ki, istifadə olunan bütün materiallar keyfiyyətlidir və odadavamlıdır. Ancaq hadisə onu göstərdi ki, bu, yalan məlumatdır. Bu məsələ də araşdırılmalıdır ki, bu binaların təmirində istifadə olunan materiallar harada istehsal edilib və ya haradan idxal olunub? Onlara kim sertifikat verib? Hansı ekspertizadan keçib? Əgər ekspertizadan keçibsə, o rəyi kim verib? Əgər ekspertizadan keçməyibsə, deməli, bu binalar qanunsuz şəkildə təmir olunub. Bu məsələlər ciddi şəkildə araşdırılmalıdır.

Dünən artıq müvafiq göstərişlər verilib. Mənə verilən məlumatlar hələ ki, məni qane etmir. Çünki görürəm ki, burada bəzi qurumlar bu məsuliyyəti bir-birinin üstünə atmaq istəyirlər. Ona görə hüquq-mühafizə orqanları, ilk növbədə prokurorluq məsələni ciddi araşdırmalıdır və konkret nəticə hasil edilməlidir ki, günahkarlar kimlərdir.

Bir daha demək istəyirəm, ilkin versiya ondan ibarətdir ki, keyfiyyətsiz materiallardan istifadə olunub. Ancaq bu materiallardan artıq neçə ildir ki, Bakıda istifadə olunur və buna oxşar hadisələr baş verməyib. Mənə verilən bəzi məlumatlara görə, ilkin mərhələdə istifadə edilən materialların keyfiyyəti yüksək olub. Ancaq sonrakı mərhələdə artıq bu materialların tərkibində təhlükəli maddələr aşkar olunub. Əgər bu belədirsə, onda bu barədə də rəsmi rəy bildirilməlidir və bu işlərdə, günahsız vətəndaşların

ölümündə təqsiri olan bütün qurumlar, bütün insanlar cəzalandırılacaq. Cəza da çox ciddi olacaq. Çünki günahsız insanlar həlak olub. Onların heç bir günahı yox idi.

Bir daha demək istəyirəm ki, xilasedicilər, səhiyyə işçiləri, polis əməkdaşları çox fəal və qəhrəmancasına çalışıblar. Əgər belə olmasa idi, qurbanların sayı daha da çox ola bilərdi. Ancaq eyni zamanda, insanlar həlak olub və əlbəttə ki, bu bütün xalqımızı sarsıdıb.

Onu da qeyd etməliyəm ki, hazırda Bakı şəhərində oxşar üzlük materialları ilə üzlənmiş binalar kifayət qədər çoxdur. Bəzi məlumatlara görə, 200-dən çoxdur. Artıq dünəndən Bakı Şəhər İcra Hakimiyyətinə, Fövqəladə Hallar Nazirliyinə göstəriş vermişəm ki, buna oxşar materiallarla üzlənmiş bütün binalarda dərhal ekspertiza keçirilsin, o materialların tərkibi dəqiq öyrənilsin və əgər hər hansı bir təhlükə varsa, tezliklə bu üzlük materialları sökülsün və beləliklə, heç bir təhlükə olmasın.

Ancaq qeyd etməliyəm ki, bu işlər bundan əvvəl görülməli idi. Əgər bütün işlər düzgün şəkildə qurulsaydı, bu hadisə baş verməzdi. İndi mənə müxtəlif məlumatlar gəlir və bəzi hallarda bu məlumatlar ziddiyyət təşkil edir. Ona görə burada aydınlıq olmalıdır. Azərbaycan vətəndaşları bilməlidirlər ki, günahkarlar kimlərdir və bu hadisəyə görə kimlər məsuliyyət daşıyacaq.

Hazırda birinci dərəcəli məsələ yanğına məruz qalmış evin sakinlərinin yerləşdirilməsidir. Onlara dövlət tərəfindən maddi yardım göstəriləcək. Dünən imzaladığım sərəncamda bu da nəzərdə tutulur. Nazirlər Kabinetinə göstəriş verilib ki, onlara göstəriləcək maddi dəstəyin həcmi qısa müddət ərzində müəyyən edilsin.

Yanğına məruz qalmış bina dövlət hesabına tezliklə təmir edilməlidir. Bütün mənzillər dövlət hesabına təmir olunmalıdır. İnsanlara lazımi əşyalar veriləcək, mebel alınacaq. Yəni bütün bunları dövlət öz üzərinə götürür. Bu bir daha Azərbaycan dövlətinin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Bina tezliklə təmir olunmalıdır, çünki insanlar binaya qayıtmalıdırlar. Əlbəttə ki, binanın yanğından sonra dayanıqlılığı müəyyən edilməlidir və bütün bu işlər maksimum qısa müddət ərzində görülməlidir.

Bir daha qeyd etməliyəm ki, bu, birinci hal deyil. Əslində birinci yanğın baş verəndən sonra bu tədbirlər görülməli idi. Mən müvafiq göstərişlər vermişdim. Çünki Xətai rayonundakı birinci bina da çox qısa bir müddət ərzində alovlanıb yanmışdı. Bu dəfə də oxşar hadisə baş verib. Baxmayaraq ki, xilasedicilər, yanğınsöndürən maşınlar, təcili tibbi yardım briqadaları dərhal hadisə yerinə gəliblər, görüntülər var, ancaq bina çox qısa müddət ərzində yanıb.

Bu hadisədən hər kəs nəticə çıxarmalıdır. Hər bir dövlət məmuru öz məsuliyyətini dərk etməlidir. Bir daha qeyd etməliyəm ki, heç kim cəzasız qalmayacaq. Günahkar insanlar dövlət tərəfindən cəzalandırılacaq və ədalət bərpa ediləcəkdir.

* * *

**A b i d  Ş ə r i f o v** *(Komissiyanın sədri):* Cənab Prezident, dünən verdiyiniz tapşırığa uyğun olaraq Komissiya hadisə yerində araşdırma aparıb. Sizin tapşırığınızla ilk növbədə, insanların yerləşdirilməsi ilə məşğul olduq. Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyəti ilə birlikdə dünən gün ərzində bu məsələni həll etdik. Hamı yerləşdirilib. Sizə məruzə edirəm ki, əlavə olaraq Sərhəd Qoşunlarından 10 üçotaqlı mənzil ehtiyatımız var. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Buzovnada 36 mənzilli pansionatı var, lazım gələrsə sakinləri orada da yerləşdirə bilərik.

Dünyasını dəyişən insanların dəfn məsələsi ilə əlaqədar Sizin tapşırığınıza uyğun olaraq şəhər icra hakimiyyəti tərəfindən yerlərdə qərargahlar yaradılıb, lazımi tədbirlər görülüb. Rəhmətə gedənlərin nəşi yaxınlarının və doğmalarının istədikləri məzarlıqlarda dəfn edilib. Bu məsələ bu gün öz

həllini tapıb. Sizin tapşırığınıza uyğun olaraq bütün xərclər dövlət hesabına çəkilir.

Xəstəxanalarda müalicə alanlar Səhiyyə Nazirliyinin ciddi nəzarəti altındadır. Səhiyyə Nazirliyinin rəhbər işçilərindən müalicə ocaqlarında növbələr təşkil edilib ki, heç bir problem yaranmasın.

Komissiya 2 gün ərzində binanın durumu ilə əlaqədar araşdırma aparacaq və dəqiq nəticələr barədə Sizə məruzə edəcəyik ki, gələcəkdə nə etmək olar.

Cənab Prezident, təklif edirik ki, yanğına qarşı tədbirlər çərçivəsində şəhərdə bu qəbildən olan binaların fasad işıqlandırılması dayandırılsın. Siz dediniz ki, şəhərdə 200-dən çox bu cür bina var. Biz Sizin tapşırığınıza uyğun olaraq dəqiqləşdirməliyik ki, bu binaların ən təhlükəliləri hansılardır. Təklif edirəm ki, Bakı Şəhər İcra Hakimiyyətinin, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin, «Azərişıq» Səhmdar Cəmiyyətinin və digər əlaqədar qurumların mütəxəssisləri ilə birlikdə evin sahiblərinin iştirakı ilə binalarda yoxlamalar aparaq. Əgər razılıq olarsa, binaların fasadlarının üzlüyünü Avropa oyunlarına qədər sökməyə başlamayaq. Araşdırma aparaq, vəziyyəti öyrənək ki, nə etməliyik?!

**İ l h a m Ə l i y e v:** Bunun Avropa oyunlarına heç bir aidiyyəti yoxdur.

**A b i d Ş ə r i f o v:** Mən işin həcminə görə deyirəm, cənab Prezident. Əlbəttə, Sizin razılığınız olduğu təqdirdə. Söhbət çoxmərtəbəli binaların fasad üzlüklərinin 20–25 gün ərzində sökülüb bərpa edilməsindən gedir. Əlbəttə, Siz necə desəniz, o cür də edəcəyik.

**İ l h a m Ə l i y e v:** Söküb bərpa etməmək də olar. Bilirsiniz, indi Avropa oyunları, başqa tədbirlər bu faciə qarşısında heçə bərabərdir.

**A b i d Ş ə r i f o v:** Bəli, heç nədir.

**İ l h a m Ə l i y e v:** Heç nədir. Bir daha demək istəyirəm, buna oxşar materiallarla üzlənmiş binalardan dərhal nümunə götürülməlidir. Hər bir binadan. O materiallar təhlil edilməlidir,

əgər orada təhlükə varsa, odadavamlı deyilsə, dərhal bütün binaların üzlükləri sökülməlidir. Dərhal! Bunu tez bir zamanda etmək olar. 1 həftə, maksimum 2 həftə ərzində bütün binaların fasad üzlükləri sökülməlidir, oyunlardan sonra təmir olunar. Əsas məsələ budur. Yəni biz burada heç bir başqa amili nəzərə almamalıyıq.

**O q t a y  Ş i r ə l i y e v** *(Səhiyyə naziri):* Cənab Prezident, dünən 56 adama tibbi yardım göstərilib, onların bir qisminə yerlərdə təcili tibbi yardım göstərilib, 41 nəfər isə xəstəxanalarda yerləşdirilib. Onlardan 26 nəfərinə lazımi xidmət edilərək, axşam evə buraxılıb. Hazırda xəstəxanalarda 14 xəstə var. Onların vəziyyəti kafidir, yəni aralarında çox ağır xəstə yoxdur. 14 nəfər hadisə yerində dünyasını dəyişib. 68 yaşında bir qadın isə gecə xəstəxanada vəfat edib.

**İ l h a m  Ə l i y e v:** Bakı Şəhər İcra Hakimiyyəti, mən dünən göstəriş vermişəm, sakinlərin bütün problemləri həll edilməlidir, maddi təminat, yerləşmə, dəfn mərasimi – hər şey təşkil edilməlidir.

**H a c ı b a l a  A b u t a l ı b o v** *(Bakı Şəhər İcra Hakimiyyətinin başçısı):* Sizin göstərişinizə əsasən orada olan zərərçəkmiş sakinlərlə bir-bir görüşdüm, hamısına yerlər göstərildi, avtobuslar da hazır idi. Təklif etdik ki, kim harada istəyirsə yerləşə bilər. Çoxu qohumlarının evinə köçmək istədi, biz etiraz etmədik. Amma dedik ki, kim harada yaşayacaqsa, bina təmir olunana qədər onlara kirayə haqqı veriləcək. İkincisi, onlara deyildi ki, burada mənzillərin hamısı yanıbsa onlar dövlət tərəfindən təmir olunacaq, həm də mebellərlə təmin ediləcək. Onlar razılıqlarını bildirdilər.

Möhtərəm Prezident, hadisə zamanı 14 nəfər həlak olub. Axşam 1 nəfər də dünyasını dəyişib – 15 nəfər. Qubaya, Sabirabada, Lökbatana aparılanlar da var. Bu işlərin hamısını dövlət tərəfindən həll etdik. Dəfn mərasimləri ilə bağlı bütün işlər dövlət tərəfindən görüldü.

**İ l h a m  Ə l i y e v:** Bir daha deyirəm ki, Nazirlər Kabineti həm həlak olanların ailələrinə, həm də yaralananlara veriləcək maddi köməyin həcmini tezliklə müəyyən etsin. Təklif versin

ki, burada yubanma olmasın, bu işlər çox vaxt aparmasın. O vaxta qədər şəhər icra hakimiyyəti qalan bütün məsələləri öz üzərinə götürür.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Baş üstə.

**A b i d  Ş ə r i f o v:** Yəqin ki, ailənin tərkibindən, evin sahəsindən asılı olaraq ailəbaşına 30–35 min manat vermək təklif olunur.

**İ l h a m  Ə l i y e v:** Burada məsələ belə olmalıdır. Birincisi, həlak olanların ailələrinə maddi təminat verilməlidir. Bu, evin, mənzilin sahəsinə görə olmamalıdır. İkincisi, mənzillərin təmiri dövlət tərəfindən aparılmalıdır. Üçüncüsü, yaralananlara dövlət tərəfindən maddi təminat verilməlidir, onun məbləği müəyyən edilməlidir. Yanmış bütün mənzillərin ev əşyaları – mebeldən tutmuş qab-qacağa qədər dövlət tərəfindən yüksək səviyyədə təmin edilməlidir. Bütün siyahılar yəqin ki, var. Eyni zamanda, evlərdə insanların sənədləri də yanıb. O da bərpa edilməlidir. Yəni Daxili İşlər Nazirliyi, «ASAN xidmət», digər müvafiq qurumlar tezliklə bütün sənədləri bərpa etməlidir.

**A b i d  Ş ə r i f o v:** Sənədlərlə əlaqədar göstəriş verilib. Uşaqların təhsili, attestat almaları və s. ilə bağlı bu gün yerində araşdırma aparılıb ki, heç bir problem yaranmasın. Mən dediyim 30–35 min manat sadəcə, yardımdır.

**İ l h a m  Ə l i y e v:** Siz təklif verin. Tezliklə mən müvafiq sərəncam imzalayacağam.

**K ə m a l ə d d i n  H e y d ə r o v** *(Fövqəladə Hallar naziri):* Cənab Prezident, dünən saat 10.57-də bizə məlumat daxil oldu. Əməliyyat 16:27-də başa çatdı. Buraya həm 150 nəfərdən çox canlı qüvvə, həm də 40 ədəd texnika cəlb olundu. Binadan 27 nəfər təxliyyə edilib. 37 nəfər xilas olunub. 14 cəsəd çıxarılıb. Təəssüflər olsun ki, 1 nəfər də gecə xəstəxanada vəfat edib.

Cənab Prezident, Xətai rayonunda baş vermiş hadisə zamanı mənə verdiyiniz tapşırıqdan sonra biz bu materialla üzlənmiş bütün binaları – ona qədər də əlimizdə məlumatlar var idi – araşdırmışıq. Bəzi yerlərdə, demək olar ki, şəhərin bir çox

yerində vaxtın azlığını nəzərə alaraq, biz növbətçilik qurmuşuq. Gecə-gündüz–24 saatlıq həm bizim Mülki Müdafiə Qoşunlarının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, həm də Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşlarının və yanğınsöndürənlərin iştirakı ilə təxminən 150 binanı mühafizə etmişik. Siz rəva bilirsinizsə, biz növbətçiliyi – bu qəbildən olan 263 bina var – onların fasadlarının üzlüyü sökülməmişdən qabaq təmin edək və bütün yanğınsöndürən maşınları bir dəqiqəlik məsafələrdə yerləşdirək. Bu yolla biz Sizin tapşırığınızı qısa müddətdə icra edə bilərik.

**İ l h a m Ə l i y e v:** Baş prokuror, məlumat verin. Nə iş görmüsünüz?

**Z a k i r Q a r a l o v:** Möhtərəm cənab Prezident, Sizin göstərişinizə əsasən dərhal istintaq-əməliyyat qrupu hadisə yerinə çıxıb. Baş vermiş bu ağır faciənin səbəblərinin araşdırılması üçün istintaq-əməliyyat qrupuna Milli Təhlükəsizlik, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Baş Prokurorluğun ixtisaslı mütəxəssisləri cəlb ediliblər.

Möhtərəm cənab Prezident, ilk növbədə müəyyən edilib ki, üzlükləri «Global Construction» şirkəti quraşdırır, istehsalı ilə isə «Global Stone» şirkəti məşğul olur. Bunun da sahibi və faktiki rəhbəri hazırda şübhəli şəxs qismində saxlanılmış Miryusif Mahmudov adlı şəxsdir. O bu işlərə 2010-cu ildə başlayıb. Ona ilk uyğunluq sertifikatı 2010-cu ildə verilib. Sertifikatı Sadıq Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları İnstitutu verib. Bu sertifikatlar hər il yenidən verilib. Bunlar birillik olubdur. Bu sənədlər eyni zamanda, Standartlaşdırma Komitəsinə və Səhiyyə Nazirliyinə təqdim olunub. Sənədləri məsul əməkdaşlar imzalayıblar. Araşdırılan sənədlərdə göstərilir ki, müxtəlif tədqiqatlar aparılıb. Bilavasitə yazılıb ki, inşaat sektorunda bina və tikililərin üzlənməsində istifadə edilə bilər.

**İ l h a m Ə l i y e v:** Bəs odadavamlılığını kim müəyyən edir?

**Z a k i r Q a r a l o v:** Odadavamlılığını da sözsüz ki, onlar müəyyən edir.

**İ l h a m Ə l i y e v:** Yox, Səhiyyə Nazirliyi onu edə bilməz.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Onu bizim Dövlət Yanğın Nəzarəti Xidmətinin laboratoriyası və yanğın nəzarəti bölməsi verib. Orada da bunun sənədləri var. Onların təklif etdikləri sertifikatlarda, bizim onlara verdiyimiz rəylərdə yazılıb ki, bunlar çətin yanan materiallardır. Bu zavod ilkin olaraq işə başlayarkən onlar materiallara xüsusi maddə qatırdılar və Rusiyadan, Türkiyədən bütün sertifikatlar da o tərkiblə gəlib. Amma sonradan istehsal zamanı materiallara bu maddə qatılmayıb.

Cənab Prezident, bütün bu işləri aparan sifarişçi təşkilatlara, icra hakimiyyətlərinə məktublarda dəfələrlə xəbərdarlıq edilib ki, bunlar ekspertizasız və heç bir müraciətsiz olub. Təəssüf ki, heç bir cavab alınmayıb. Bir dəfə deyil, dəfələrlə məktub göndərilib, konkret binalar göstərilib.

**Z a k i r Q a r a l o v:** Yalan yazılsa da, burada konkret olaraq icazə verilir ki, üzlük materialı kimi istifadə olunsun. Müxtəlif yerlərə məktublar var. Cənab Prezident, ümumiyyətlə, həmin şirkətlə icra hakimiyyəti arasında bu işlərin görülməsi ilə bağlı müqavilə bağlanmayıb.

**İ l h a m Ə l i y e v:** Müqaviləsiz necə iş görülüb?

**Z a k i r Q a r a l o v:** Müqaviləsiz 14 binanın üzlənməsi həyata keçirilib. Yəni bu işlərə başlanmazdan əvvəl hər bina üzrə layihələndirmə aparılmalıdır. Layihələndirmə Fövqəladə Hallar Nazirliyinə təqdim olunmalıdır. Layihələndirilməyə razılıq veriləndən sonra bu işlər davam etdirilməlidir. Eyni zamanda, burada ilkin baxışdan müəyyən edilib ki, təkcə bu materiallar istifadə olunmamalıdır. Bunların arasına eyni zamanda, izolyasiya materialları da qoyulmalıdır. İzolyasiya materialları olmadığına görə də havanın tam işləməsi baş vermişdir.

Cənab Prezident, bu şirkət tərəfindən görülmüş işlər üzrə əlavə daha 2 hadisə olub. Bir hadisə 2012-ci ilin dekabr ayında Sumqayıt şəhərində olub. Düzdür, orada tələfat olmayıb. Birinci siqnal o vaxt olub ki, bu materiallar keyfiyyətsizdir. İkinci hadisə 2015-ci il fevralın 27-də baş verib. Bu, Xəzər rayonunun Buzovna qəsəbəsində, Rasif Nərimanov küçəsi, 26 ünvanında olub. Orada da bu material yanıb. Xətai rayonuna qədər bizdə artıq 2 siqnal var idi ki, bu materiallar keyfiyyətsizdir və bunların istifadəsi tam yararsızdır.

Şirkət rəhbərinin ifadəsinə görə, qatqı materialları Türkiyədən alınıb. Guya Hollandiyanın məhsulu olan bir şirkətin materiallarıdır. Biz dünən axtarış keçirdik. Şirkətin bütün sənədlərini götürmüşük və Ədliyyə Nazirliyinin Ekspertiza İnstitutunun, eyni zamanda, Elmlər Akademiyasının Kimya İnstitutunun da mütəxəssislərini cəlb etmişik ki, burada hansı kimyəvi materialların mövcudluğu araşdırılsın. İlkin əməliyyat məlumatlarına görə, hansısa məhlulu qatmırlar. Bütün hallarda ən başlıca məsuliyyətsizlik bu işlərin qeyri-rəsmi aparılmasıdır. Ona görə biz indi icra hakimiyyətində də günahkar şəxsləri müəyyənləşdiririk, onların haqqında tədbirlər görüləcək.

İstintaq-əməliyyat qrupu tərəfindən artıq 100-dən çox şahid dindirilib. Müxtəlif məhkəmə ekspertizası, həmçinin yanğın-texniki, təhlükəsizlik-texniki və fiziki-kimyəvi ekspertizalar təyin edilib. Bu rəyləri almaq üçün sözsüz ki, vaxt lazımdır. Ancaq eyni zamanda, Milli Təhlükəsizlik Nazirliyi ilə birlikdə binanın qəsdən, kiminsə tərəfindən yandırılması fərziyyələri də araşdırılır. Sizi tam əmin edirik ki, bütün günahkar şəxslərin qısa zamanda müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilməsi təmin olunacaq.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, bütün versiyalar təhlil edilməlidir. Bir daha demək istəyirəm ki, istintaq təzə başlayır. İstintaqın nəticələri, əlbəttə, həm mənə, həm Azərbaycan ictimaiyyətinə təqdim ediləcək. Qarşıya bütün vəzifələr qoyulub, məsələ ciddi araşdırılacaq. Bir daha demək istəyirəm ki, ilk növbədə, hazırda xəstəxanalarda müalicə alan yaralı insanlara

qayğı, diqqət göstərilir, göstərilməlidir. Qalan bütün məsələlər də öz həllini tapmalıdır. Bütün günahkar şəxslər məsuliyyətə cəlb ediləcək və onları çox ciddi cəza gözləyir. Belə hadisələrin gələcəkdə təkrarlanmaması üçün tələb edirəm ki, mənə konkret təkliflər paketi təqdim edilsin. Çünki görürəm ki, bu sahədə ciddi tənzimləmə sistemi yoxdur. Bu tənzimləmə məsələləri qanunvericilikdə, qaydalarda təsbit edilir, ancaq həyatda buna riayət olunmur. Binalar təmir edilir, müqavilə bağlanmır. Bu, ümumiyyətlə, qəbuledilməzdir. Yaxud da sertifikat verilir ki, bir maddəyə orada hansısa qatqılar əlavə edilsin, odadavamlılıq artsın, ya da yüksək səviyyədə olsun. Amma ondan sonra, yəni tikinti, istehsalat zamanı o qatqı əlavə edilmir və beləliklə, keyfiyyət itirilir. Ona görə istifadə edilən bütün tikinti materiallarına hər bir mərhələdə ciddi nəzarət olunmalıdır. Bir dənə də olsun bina olmamalıdır ki, orada müqaviləsiz hansısa iş görülür, yaxud da bunun ekspertizası yoxdur. Əgər ekspertiza varsa və ekspertiza həqiqətə uyğun deyilsə, o zaman o ekspertiza rəyini verən insanlar məsuliyyətə cəlb edilməlidir. Ona görə burada hüquq- mühafizə orqanlarının çox geniş fəaliyyəti nəzərdə tutulur ki, biz bu məsələyə, bu hərc-mərcliyə birdəfəlik son qoyaq. Çünki bu bizə yaraşmaz.

Azərbaycanda bu qədər işlər görülür, bu qədər abadlıq-quruculuq, təmir-bərpa işləri görülür. Bütün işlər ən yüksək keyfiyyətlə görülməlidir. Mənim birinci tələbim bundan ibarətdir – təhlükəsizlik və keyfiyyət. Ancaq realda biz onu görürük ki, bu qaydalar pozulur, qanunsuz evlər tikilir. İndi Bakıda, Azərbaycanda nə qədər qanunsuz evlər tikilir?! Mən soruşanda sanki heç kimin xəbəri yoxdur. Yerli icra başçılarının, şəhər icra başçılarının xəbəri yoxdur, heç kimin xəbəri yoxdur. Bu yaxınlarda istifadəyə verilən yeni idman obyektləri ilə tanış olarkən gördüm ki, vaxtilə ulu öndər Heydər Əliyevin şəxsi iştirakı ilə salınmış «Dostluq» parkının bir hissəsini yenə də zəbt edirlər. Mən təxminən 7-8 il bundan əvvəl oraya getmişdim. Görmüşdüm ki, orada «Dostluq» parkındakı ağacları qırırlar, villalar tikirlər. Hacıbala Abutalıbova göstəriş verdim ki, gedin aydınlaşdırın,

bütün tikilən binalar qanunsuzdur, dağıdın onları. Qoy, bu, binaları tikənlərə dərs olsun. O gün gəlib görürəm ki, yenə də düz «Dostluq» parkının yanında, yamacda villalar tikilir. Dedim, öyrənin bunu kimlər tikir? Heç bir adam çıxmadı. Dedim ki, gedin bir villanı sökün, görək kim çıxacaq bunun arxasından. Heç kim çıxmadı. Dedim belədirsə, əgər heç kimə məxsus deyilsə, bunları söküb dağıdın, başqalarına da dərs olsun. Gedirlər qanunsuz yollarla özəlləşdirirlər, zəbt edirlər, hasarlayırlar. Burada elə istinad divarları tikilib ki, bəlkə də o divarların inşasına bir neçə milyon manat sərf olunub.

Bu qədər özbaşınalıq olmaz. Mən dəfələrlə demişəm ki, qayda-qanun olmalıdır. İlk növbədə, bütün vəzifəli şəxslər nümunə göstərməlidirlər. Yerlər zəbt edilir, qanunsuz tikintilər aparılır. Ondan sonra gedib bunu qanunsuz yolla sənədləşdirirlər.

Yüksəkgərginlikli xətlərin altında nə qədər binalar tikilib. İnsanlar bəlkə də bunu başa düşmür ki, bu onların özləri üçün nə qədər təhlükəlidir. Ancaq o icazəni kim verib? Elə bil ki, özbaşına tikiblər. Axı biz hamımız Azərbaycanda yaşayırıq. Əgər yerli icra orqanları, bələdiyyə icazə verməsə, özbaşına kim nə edə bilər? Bələdiyyə bir növ, necə deyərlər, icra başçılarının filialına çevrilib. Bələdiyyənin öz səlahiyyəti var, amma mən o fəaliyyəti görmürəm. Bütün bölgələrdə, kəndlərdə, şəhərlərdə işlər dövlət büdcəsi hesabına görülür. Bələdiyyə bir kənd yolunu tikibmi? Halbuki bu bilavasitə onun işidir. Bütün kənd yollarını dövlət büdcəsi hesabına, ya da Prezidentin ehtiyat fondunun hesabına biz tikirik. Bələdiyyə sadəcə olaraq, bir möhür idarəsidir, yəni qanunsuz əməllərə ştamp qoyur. Bu məsələ də prokurorluq tərəfindən araşdırılmalıdır, buna son qoyulmalıdır.

Soruşuram bu qanunsuz binalar haradan meydana gəlib? Heç kim bilmir. Bu, mümkün deyil. Bu da, necə deyərlər, mənbədən qaynaqlanan hadisədir. Qanunsuzluğa, özbaşınalığa son qoyulmalıdır.

Ona görə gələcəkdə belə bədbəxt hadisələrin təkrarlanmaması üçün, Komissiya üzvləri, mənə konkret təklif verin. Bir balaca bina da icazəsiz tikilə bilməz. Bundan sonra əgər bu

olacaqsa, nəinki işdən çıxaracağam, onlar cinayət məsuliyyətinə də cəlb ediləcəklər. İndi Azərbaycan ictimaiyyəti görür ki, ölkədə toxunulmaz insan yoxdur. Cinayət törədibsə, vəzifəsindən asılı olmayaraq məsuliyyətə cəlb edilməlidir.

Mən dəfələrlə demişəm ki, vəzifəli şəxslər özlərini normal aparsınlar, insanlarla ünsiyyət qursunlar, insanları incitməsinlər. Onlar özləri, ailə üzvləri qanunu pozmasınlar. Dəfələrlə demişəm, amma nə görürəm?! Yenə də mənim göstərişlərimi icra etməyənlər var və nəticə nə olur?! Onlar özləri bədbəxt olurlar. Azərbaycan ictimaiyyəti hər şeyi bilir. Heç kim qanundan kənarda qala bilməz. Bir nəfər belə, toxunulmaz deyil. Bax, son vaxtlar bir neçə iş adamı böyük pozuntularla bağlı məsuliyyətə cəlb edilib. Vaxt gələcək ictimaiyyət bu məsələlərlə bağlı məlumatlandırılacaq. Nəyə görə? Ona görə ki, öz məsuliyyətlərini dərk etmədilər, dövlət əmlakını taladılar, dövlət vəsaitini oğurladılar.

Vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər. Ondan sonra məsuliyyətdən yayınmaq istəyirlər. Əfsuslar olsun, belələrinə himayədarlıq edən dövlət məmurları da var ki, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar. Mən demişəm, burada oturanlar mənim mövqemi bilirlər. Bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru. Yüksək vəzifə sahibi məsuliyyətli olmalıdır. Biz hüquqi dövlətdə yaşayırıq. Cinayət törətmisənsə, get cəzasını çək, vəssalam. Ona görə bir daha demək istəyirəm ki, bu hadisə ilə bağlı konkret təkliflər verilməlidir. Bu gün bütün dövlət məmurlarına, bütün dövlət qurumlarında çalışanlara bir daha xəbərdarlıq edirəm ki, hər kəs qanuna əməl etməlidir, heç kim məsuliyyətdən qaça bilməyəcək. O cümlədən bu bədbəxt hadisənin səbəbkarları da mütləq məsuliyyətə cəlb ediləcəklər. Ədalət bərpa olunacaqdır.

# XXI AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ IX AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*21 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də «World Food Azerbaijan–2015» XXI Azərbaycan Beynəlxalq qida sənayesi və «Caspian Agro–2015» IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.*

*Kənd Təsərrüfatı naziri Heydər Əsədov dövlətimizin başçısına sərgilər barədə məlumat verdi.*

*Qeyd edək ki, 2015-ci il ölkəmizdə «Kənd təsərrüfatı ili» elan olunub. Bu sərgilərin yüksək səviyyədə keçirilməsi «Kənd təsərrüfatı ili» ilə bağlı görülən işlərin daha da sürətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgisində kənd təsərrüfatı sahəsi üçün texnika və avadanlıqlar, habelə məhsul və xidmətlər nümayiş olunur. Almaniya, Yunanıstan, İtaliya, İspaniya, Koreya Respublikası, Niderland Krallığı, Rusiya, ABŞ, Türkiyə, Fransa, Ukrayna və digər ölkələrin kənd təsərrüfatı məhsulları və avadanlıqlarının aparıcı istehsalçıları və distribüterləri sərgidə məhsul və xidmətlərini təklif edirlər. Sərgi kənd təsərrüfatı sahəsinin ən aktual istiqamətlərini əhatə etməklə, yeni məhsullarla tanış olmaq imkanı yaradır.*

*Bu il XXI Azərbaycan Beynəlxalq qida sənayesi sərgisində iştirak edən şirkətlərin sayı 250-dən artıqdır. Sərgidə balıq, mal, qoyun, quş əti, konservləşdirilmiş süd məhsulları, qənnadı məmulatları, soyuducu sistemlər və bir çox digər məhsullar təqdim olunur.*

*Dövlətimizin başçısı «Grand Motors» MMC-nin stendi ilə tanış oldu. MMC 2005-ci ilin sentyabrından fəaliyyət göstərir. Şirkət öz fəaliyyətini Azərbaycan bazarının tikinti və kənd təsərrüfatı sektorlarına yönəldib. «Grand Motors» ağır texnika və yük avtomobillərinin Azərbaycana idxalını və satışını təşkil edir. Hazırda bu şirkət dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir. Şirkət gətirdiyi texnika və avadanlığın istehsal prosesindən tutmuş, alıcıya çatdırılmasınadək və hətta ondan sonrakı mərhələni də nəzarət altında saxlamaq imkanına malikdir. «Grand Motors» həmin texnikaları istehsal etmiş zavodlarda təlim keçmiş yüksək-ixtisaslı heyətlə 24 saat operativ, mobil və stasionar servis xidməti də göstərir.*

*«Grow Group Azerbaijan» şirkəti də sərgidə geniş təmsil olunur. Şirkət istixana avadanlığının satışını və quraşdırılmasını həyata keçirir. Bundan başqa, müştərilərə müasir standartlar səviyyəsində tam avtomatlaşdırılmış plastik və şüşə istixana kompleksləri də təklif olunur. «Grow Group Azerbaijan» 2009-cu ildən ölkəmizdə fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı Litvanın stendinə baxdı. Litva ilk dəfədir bu sərgidə iştirak edir. Bu ölkə sərgidə 5 şirkətlə təmsil olunur. Şirkətlər əsasən ət və süd məhsulları, kofe, dondurma təklif edirlər. Burada Litvada istehsal edilən dəniz məhsulları da nümayiş olunur.*

*«Valley» şirkəti sərgidə yeni pilot suvarma sistemi layihələrini, uzaqdan idarəetmə, torpağın tərkibinə görə suvarma sistemləri kimi yeni texnoloji nailiyyətləri nümayiş etdirir. Şirkət ilk dəfə sərgidə iştirak edir. Azərbaycanda 14 rayonda 200-dən çox layihə reallaşdıran müəssisə 10 ildir ölkəmizdə fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev Gürcüstanın stendinə baxdı. Bu ölkə də sərgidə geniş təmsil olunur. Burada 8 şirkət kənd təsərrüfatı məhsullarını nümayiş etdirir. Onların arasında mineral sular, bal, pendir və digər məhsullar var. İlk dəfədir sərgiyə qatılan Gürcüstanın stendi zənginliyi ilə maraq doğurur.*

*«Hissimo–Azərbaycan» kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan İsrailin «Hissimo» şirkətinin ölkəmizdəki rəsmi nümayəndəliyidir. Şirkətin fəaliyyətinin əsas məqsədi Azərbaycandakı fermerləri və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şirkətləri toxum, gübrə, şitil və mal-qara ilə təchiz etməkdir.*

*Rusiyanın iri kənd təsərrüfatı texnikaları istehsalçısı olan «Rostselmaş»ın stendində müasir texnikalar nümayiş olunur. Burada taxılbiçən və otbiçən kombaynlar, presləyici və digər kənd təsərrüfatı texnikası var. Şirkətin Kanada və ABŞ kimi ölkələrdə də nümayəndəlikləri fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı Belarusun stendi ilə tanış oldu. Belarus müntəzəm olaraq bu sərgidə iştirak edir. Bu il 60-dan çox şirkətin məhsullarının nümayiş etdirildiyi Belarus stendində ət-süd sənayesi, şirniyyat, çörək, qənnadı və digər məhsullar təqdim olunur. Burada, həmçinin iştirakçılara Belarusun elmi institutlarının yeni texnoloji avadanlıqları da nümayiş etdirilir.*

*Zəyəm Texnologiyalar parkı ilk dəfədir sərgiyə qatılıb. Şəmkirdə fəaliyyət göstərən texnologiyalar parkının stendində torpaqsız şəraitdə bitkinin yetişdirilməsi, kompüter sistemi ilə gübrələmə və digər müasir texnoloji yeniliklər təqdim olunur. Nümayiş etdirilən məhsulların hamısı Zəyəm Texnologiyalar parkında istehsal edilir.*

*Avstraliyanın «Viktoriya» şirkəti ərzaq və kənd təsərrüfatı məhsulları üzrə dünyanın aparıcı şirkətlərindəndir. Şirkətin istehsal sahəsi Avstraliyanın coğrafi cəhətdən təmiz və əlverişli ərazisində yerləşir. Bu isə öz növbəsində, yüksək səviyyədə məhsul əldə etməyə imkan verir.*

*2011-ci ildən fəaliyyət göstərən «Atena» MMC də sərgidə məhsullarını nümayiş etdirir. Müəssisədə istehsal və emal texnologiyaları ən müasir səviyyədə qurulub. «Atena» gün ərzində 400 ton xam südün istehsalını avtomatik avadanlıqlar vasitəsilə həyata keçirir. Ümumilikdə, müəssisə süd və süd məhsulları bazarına 40 növdən çox fərqli məhsul təqdim edir.*

«Cemsan» bu sərgidə hər il iştirak edir. Şirkət 30 ildir ki, fəaliyyət göstərir. Stenddə müasir ət kəsimi avadanlıqları nümayiş etdirilir. «Cemsan» ölkəmizdə 12 yerdə müasir ət kəsimi avadanlıqları quraşdırıb.

XXI Azərbaycan Beynəlxalq qida sənayesi və IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgilərində 39 ölkədən 293 şirkət iştirak edir. Onların 83-ü yerli, 210-u isə xarici şirkətlərdir.

Azərbaycan Prezidenti «Nova Nord Holding»in stendi ilə də tanış oldu. Holding sərgiyə 20-dən çox şirkətlə qatılıb. Bu holdingin ölkəmizdə kənd təsərrüfatı üzrə ixtisaslaşmış 5 şirkəti fəaliyyət göstərir. Holding Azərbaycana Avropanın məşhur ətlik cinsi olan iribuynuzlu heyvanları idxal edir. «Nova Nord» əsasən Fransadan Limuzin və Şarole, Şotlandiyadan qara və qırmızı Aberdin Anqus, Avstriyadan isə həm ətlik, həm də südlük Simmental cinslərini fermerlərə təqdim edir.

Dövlətimizin başçısına «Nova Agro» MMC-nin «Abşeron Aqropark» layihəsi barədə məlumat verildi. Bu layihə tam həyata keçirildikdən sonra ölkənin ətlik cins heyvana tələbatının xarici ölkələrdən asılılığına 3-4 il ərzində tamamilə son qoyulacaq. Layihənin əsas məqsədi Azərbaycanda əkinçilik, heyvandarlıq, yem istehsalı, istixanalar və təmiz enerji istehsalını birləşdirərək, əlavə dəyəri yüksək olan ixtisaslaşmış bir model yaratmaqdır. «Nova Aquaculture» MMC-nin göl-balıqçılıq təsərrüfatında nərə balıqlarının yetişdirilməsi üzrə təsərrüfatın qurulması üçün şərait yaradılıb. Hazırda şirkətin balıqçılıq təsərrüfatının əsas fəaliyyət funksiyası bu istiqamətdə səmərəliliyi daha da artırmaq üçün müəyyən tədbirlər planını həyata keçirməkdir.

«BMS Aqro» MMC 2013-cü ildə yaradılıb və xırdabuynuzlu damazlıq heyvanların saxlanılması və idxalı ilə məşğuldur. Müxtəlif ölkələrdən gətirilən bu heyvanlar südlük və ətlik cinslər olmaqla, məhsuldarlığı ilə seçilir.

«Hilal-Aqro» MMC də ölkəyə ətlik cins olan iribuynuzlu mal-qara və dəvə idxal edir. Cins heyvanların idxalı ilə yanaşı onların kökəldilməsi, kəsimi, daşınması, həmçinin korporativ və pərakəndə formada müştərilərə satışını təşkil edən şirkət

məhsullarını «Hilal-Ət» markası ilə təqdim edir. Cəmiyyətin Bakının Kürdəxanı qəsəbəsində iribuynuzlu heyvanların kökəldilməsi təsərrüfatı fəaliyyət göstərir.

Belarusun «Qomselmaş» holdingi dünyanın müasir kombayn və digər kənd təsərrüfatı texnikası istehsalçılarından biridir. «Qomselmaş» müxtəlif növ taxıl və yem yığan kombaynlar istehsal edir. Onların hamısı iqtisadi cəhətdən səmərəliliyi və müasirliyi ilə seçilir. Şirkət məhsullarını dünyanın müxtəlif ölkələrinə ixrac edir.

Sərgidə Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi də yeni traktorlarla iştirak edir. Burada Gəncə Avtomobil Zavodunun istehsalı olan 9 müxtəlif model traktor, otbiçən və kotanlar nümayiş olunur. Traktor modellərindən bəziləri ilk dəfə olaraq müəssisə tərəfindən sərgidə təqdim edilir.

Dövlətimizin başçısına Kənd Təsərrüfatı Nazirliyinin yeni yaradılacaq Süni Mayalanma Mərkəzi barədə məlumat verildi. Bu layihə prezident İlham Əliyevin «Azərbaycan Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» 2014-cü ildə imzaladığı Sərəncam əsasında həyata keçirilir.

Sonra prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin «Ağdam atçılıq təsərrüfatı» MMC-nin stendinə baxdı. Bu təsərrüfat prezident İlham Əliyevin «Azərbaycan Respublikasında Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında» 2014-cü ildə imzaladığı sərəncama uyğun olaraq yaradılır. Layihəyə əsasən kompleksdə tövlələr, nalbənd və sərrac emalatxanası, süni mayalanma laboratoriyası, qapalı və açıq manejlər, məşq qurğusu, atlar üçün qaçış zolağı, gəzinti meydançaları, yem anbarı inşa olunacaq.

Burada, həmçinin «Reinke» şirkətinin kənd təsərrüfatı texnikası nümayiş etdirilir. Tarla suvarması texnikası olan bu avadanlıqlar müasirliyi ilə seçilir. Bu sistem süni yağış yaradır, suvarma zamanı su itkisinə yol vermir və sudan qənaətli istifadəni təmin edir. Bu isə öz növbəsində, məhsuldarlığın artırılmasına şərait yaradır.

## QEYDLƏR

**1. Özbəkistan,** Ö z b ə k i s t a n   R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 19.

**2. İslam Kərimov,** İ s l a m   Ə b d u q ə n i   o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 19.

**3. Qazaxıstan,** Q a z a x ı s t a n   R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 20, 76,79,114–115, 147.

**4. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 21, 22, 30, 66, 76, 79, 99, 106–108, 120, 127, 184–194, 232, 235, 255–256.

**5. Nikita Mixalkov** (d.1945) – kinorejissor, ssenarist və aktyor. RSFSR və Rusiya Federasiyasının Xalq artisti. «Anna 6-dan 18-ə» filmi Kann kinofestivalının Qran-Pri, «Günəşdən

usanmışlar» filmi isə «Oskar» mükafatına layiq görülüb. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 21.

**6. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 22, 126, 233–235.

**7. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 23–26, 57.

**8. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – 2006-cı ildən Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidentidir. – 23–26.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 25, 32, 33, 44, 66, 138, 156, 177, 225, 274, 294.

**10. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 26, 340–341, 342.

**11. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qara-

bağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 21, 84, 94, 124, 184, 227, 236–254.

**12. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrə-

nilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27, 30, 31–48, 119, 122, 128, 140, 141, 171, 199, 217, 221, 229, 230, 232–235, 237, 252, 253, 259, 299, 300, 304, 305, 306, 307, 309, 325.

**13. İtaliya,** İ t a l i y a   R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 30, 110–111.

**14. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət

başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 30, 64, 79, 133–136, 257–258.

**15. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 35, 49, 158, 159, 190, 192, 206.

**16. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanın Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri – Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 31–48, 64, 237–238.

**17. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 39–44, 154, 156, 205.

**18. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs

verdikdə qəbul olunmuş sayılır. – 40, 42, 64, 154, 155, 156, 204, 205, 274, 313.

**19. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 45–46, 55.

**20. Mədinə** – Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adı Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissəlamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərlərindən biridir. – 47–48, 55.

**21. Məhəmməd peyğəmbər** (əleyhissəlam) (570/571–632) – islamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı Quranı xalqa çatdırmışdır. – 45, 47–48.

**22. Məmmədbağır Əliyev,** M ə m m ə d b a ğ ı r C a v a d o ğ l u (d.1955) – həkim-onkoloq, ictimai xadim, tibb elmləri doktoru, professor. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü. Ümümrusiya Azərbaycanlılar Konqresinin ilk prezidenti.

Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 51–52.

**23. Quba soyqırımı** – 1918-ci ildə ermənilər tərəfindən törədilən soyqırımı. 2007-ci ildə Quba şəhər stadionunun təmiri üçün qazma işləri aparılarkən kütləvi qəbiristanlıq aşkar edilmişdir. Qəbiristanlıqda insan başları və bədənləri ayrı-ayrı basdırılmışdır. Sümüklərin antropoloji tədqiqatı onların

müsəlmanlara aid olduğunu təsdiqləmişdir. Bu məzarlıq Qudyalçayın sağ sahilində 2 quyuda aşkarlanmışdır. Ermənilər bu qətliamın izini itirmək üçün belə etmişlər. – 53.

**24. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 70, 134–136, 257.

**25. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 110.

**26. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 115, 147.

**27. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 124–125.

**28. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 124, 125.

**29. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 128.

**30. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 55 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Pretoriya şəhəridir. – 131.

**31. Ceykob Zuma** (d.1942) – Cənubi Afrika Respublikasının siyasi xadimi, 1999–2005-ci illərdə CAR-ın vitse-prezident, 2007–2017-ci illərdə CAR Milli Konqresinin sədri, 2009–2018-ci illərdə CAR-ın Prezidenti olmuşdur. – 131.

**32. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 132.

**33. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq

hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 134–136, 163–164.

**34. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a- m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 135.

**35. Nepal,** N e p a l F e d e r a t i v D e m o k r a t i k R e s- p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km$^2$, əhalisi 30 milyondan çoxdur. İnzibati cəhətdən 14 zonaya bölünür. Paytaxtı Katmandu şəhəridir. – 137.

**36. Ram Baran Yadav** (d.1948) – 2008–2015-ci illərdə Nepal respublika elan edildikdən sonra Nepalın birinci prezidenti olmuşdur. – 137.

**37. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət par-

lamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 6, 136, 138–140, 149, 188, 189.

**38. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 138–140.

**39. Rəfiqə Şabanova,** R ə f i q ə M a h m u d q ı z ı (d.1943) – həndbolçu, məşqçi və müəllim. XXI Olimpiya oyunları çempionu, SSRİ və Azərbaycan Əməkdar idman ustası. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 145.

**40. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 150, 166–167, 171–173.

**41. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 150, 152.

**42. İsgəndəriyyə kitabxanası** – qədim dövrün ən məşhur kitabxanası. E.ə. III əsrin əvvəllərində İsgəndəriyyədə yaradılmışdı. İsgəndəriyyə kitabxanasına görkəmli alimlər – Eratosfen,

Zenodot, Kallimax və başqaları başçılıq etmişlər. Fondunda 100 mindən 700 minədək cild kitab olmuşdur. İsgəndəriyyə müharibəsi dövründə (e.ə.47-ci il) İsgəndəriyyə kitabxanası yanmış, sonradan yenə bərpa edilmişdi. Eramızın 391-ci ilində İsgəndəriyyə kitabxanasının bir hissəsini fanatik xristianlar dağıtmış, ərəblərin hakimiyyəti dövründə (VII–VIII əsr) kitabxana tamamilə məhv edilmişdir. – 151.

**43. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 159, 166–167, 188, 189, 328.

**44. Rosen Plevneliev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 161, 168.

**45. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 162, 169.

**46. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 163, 233–235, 293–294.

**47. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 163.

**48. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 163–164.

**49. Henri Kissincer** (d.1923) – tanınmış ABŞ dövlət xadimi, politoloq. 1952-ci ildən Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969–75-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi vəzifəsində işləmişdir. 1973–77-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur.

Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Nobel mükafatı (1973-cü il) və digər mükafatların laureatıdır. – 151, 166–167.

**50. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanıb. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlayıb və vahid valyuta – avro dövriyyəyə buraxılıb. Avropa İttifaqının üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 159, 160, 162, 173, 177.

**51. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanun-

verici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 170.

**52. Arzu Əliyeva,** A r z u   İ l h a m   q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 171, 259.

**53. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 199– 214.

**54. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıb. Mənzil-qərargahı Vaşinqtondadır. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 183.

**55. Böyük Vətən müharibəsi** – bax, İkinci dünya müharibəsi.

**56. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və

Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 184, 185, 187, 226, 227, 229, 230, 232–235.

**57. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunub. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 195–196.

**58. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 216.

**59. Həzi Aslanov,** Həzi Əhəd oğlu (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal

Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. 1945-ci il yanvarın 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 229.

**60. Sergey Şoyqu** (d.1955) – Rusiyanın dövlət xadimi, ordu generalı. 1994–2012-ci illərdə Rusiya Federasiyasında Mülki Müdafiə və Fövqəladə Hallar naziri olmuşdur. 2012-ci ildən Rusiya Federasiyasının Müdafiə naziridir.– 233.

**61. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 237.

**62. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilat-

çısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 237.

**63. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 237.

**64. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996–2018-ci illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 237.

**65. Yusif Məmmədəliyev,** Y u s i f H e y d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Y.Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da İkinci dünya müharibəsində aviasiyanın

yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 235.

**66. Adolf Hitler** (1889–1945) – Nasional-Sosialist Partiyasının füreri (rəhbəri), alman-faşist dövlətinin başçısı (1933-cü ildən reyxkansler). Almaniyada faşist rejiminin yaradıcısı. İkinci dünya müharibəsinin əsas təşkilatçısı olmuşdur. İşğal olunmuş ərazilərdə hərbi əsirlərin və dinc əhalinin kütləvi surətdə məhv edilməsinin başçısıdır. Sovet ordusu Berlinə girəndə özünə qəsd etmişdir. Nürnberq prosesində hərbi cani elan edilmişdir. – 235.

**67. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 237.

**68. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab

və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 237.

**69. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 244.

**70. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində

muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 244.

**71. Tahir Salahov,** T a h i r T e y m u r o ğ l u (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Tahir Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 251–252.

**72. Nikolay Patruşev** (d.1951) – Rusiyanın dövlət xadimi, Ordu generalı. 2008-ci ildən Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının sədri. – 255–256.

**73. Əli Babacan** (d.1967) – Türkiyənin siyasi xadimi. 2005–2009-cu illərdə Türkiyənin Xarici İşlər naziri olmuşdur. – 257–258.

**74. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 266.

**75. V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 266.

**76. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a- s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 116–117, 267–292.

**77. Çıonq Tan Şanq** (d.1949) –2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 267–292.

**78. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılıb, 1946-cı ildən fəaliyyətə başlayıb. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 305, 307, 315, 316, 325.

**79. Koişiro Matsuura** (d.1937) – 1999–2009-cu illərdə YUNESKO-nun baş direktoru olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 305.

**80. Kamerun,** K a m e r u n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 20,5 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaunde şəhəridir. – 308.

**81. İpək yolu**, B ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zaman-

lardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 210, 313.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Ağaxan** – 253
**Abdullayev Rövnəq** – 281
**Abutalıbov Hacıbala** – 339–340
**Al Səud Abdullah** *(şahzadə)* – 55
**Ağayev Qəzənfər** – 84
**Al Səud Salman** – 31, 55
**Aslanov Həzi** – 229
**Aso Taro** – 216
**Atatürk Mustafa Kamal** – 135
**Babacan Əli** – 257–258
**Bağırov Musa** – 227
**Biya Pol** – 308
**Bokova İrina** – 164–165, 307, 315–316, 324
**Butros Qali** – 165–166
**Cabbarov Mikayıl** – 139
**Çukerman Rocer** – 149
**Çıonq Tan Şanq** – 267–292
**Çarlz** *(Uels şahzadəsi)* – 134
**Çemezov Sergey** – 126
**Çutora Jolt** – 182
**Dar Məhəmməd** – 197–198
**Dehqan Hüseyn** – 124–125
**Dukanoviç Milo** – 15
**Əl-Assaf İbrahim** – 36
**Əl-Məktum Məhəmməd** – 23–26, 55
**Əl-Mənsuri Sultan** – 26
**Əl-Naimi Əli** – 35
**Əl-Rəbiə Tofiq** – 297–298
**Əl-Tüveycri Əbdüləziz** – 321–322, 327
**Əl-Zamil Əbdülrəhman** – 34

**Əli Əhməd** – 38
**Əliyev Heydər** – 21, 84, 94, 124, 184, 227, 236–254
**Əliyev Əziz** – 237
**Əliyev Məmmədbağır** – 51–52
**Əliyev Tamerlan** – 237
**Əliyeva Arzu** – 171, 259
**Əliyeva Leyla** – 128
**Əliyeva Mehriban** – 27, 30, 31–48, 119, 122, 128, 140, 141, 171, 199, 217, 221, 229, 230, 232–235, 237, 252, 253, 259, 299, 300, 304, 305, 306, 307, 309, 325
**Əliyeva Zərifə xanım** – 237
**Ərdoğan Rəcəb Tayyib** – 70, 134–136, 257
**Əsədov Elçin** – 264
**Əsədov Oqtay** – 237
**Furusava Mitsuhiro** – 183
**Gəncəvi Nizami** – 150, 152
**Görməz Məhmət** – 134
**Hakimov Kamil** – 228–229
**Hahn Yohannes** – 56
**V Harald** – 266
**Heydərov Kəmaləddin** – 26, 340–341, 342
**Hikki Patrik** – 144–145
**Hitler Adolf** – 235
**Hüseyn Məmnun** – 197, 198
**İsabayev Beybit** – 114–115
**İvanov George** – 162, 169
**Jumabayev Amangəldi** – 20
**Karpio Xorxe** – 8
**Kemeron Devid** – 163–164
**Kerri** – 188
**Kərimov İslam** – 19
**Kissincer Henri** – 151, 166–167

**Komorovski Bronislav** – 180
**Kontreras Amenhotep** – 16
**Korrea Rafael** – 6, 7
**Qaralov Zakir** – 341, 342–343
**Qaraşov Taleh** – 94
**Qarqaş Ənvər** – 26
**Qrıboçko Pyotr** – 127
**Quidi Federika** – 110–111
**Mahmudov Mehdi** – 233
**Maduro Nikolas** – 16
**Mattarella Sercio** – 110
**Matsuura Koişiro** – 305
**Mehdiyev Ramiz** – 237
**Merkel Angela** – 163
**Mədəni İyad** – 39–44, 319–321, 326
**Məhəmməd** *(əleyhissalam)* – 45, 47–48
**Məmmədəliyev Yusif** – 235
**Miliç Branko** – 13
**Mixalkov Nikita** – 21
**Minnixanov Rüstəm** – 106–107
**Mönye Paskal** – 139
**Muskat Cozef** – 148, 162–163
**Nakao Takehiko** – 181, 199, 212–213
**Nazarbayev Nursultan** – 115, 147
**Nquyen Than Şon** – 116–117
**Olland Fransua** – 138–140, 188
**Patruşev Nikolay** – 255–256
**Plevneliev Rosen** – 161, 168
**Padoan Pyer** – 215
**Priputen Peter** – 11–12
**Putin Vladimir** – 22, 126, 233–235
**Rasizadə Artur** – 237
**Reynders Didier** – 170
**Rəhimov Azad** – 119, 122, 259
**Rodriqes Humberto** – 6–7

**Rivlin Reuven** – 118
**Ruhani Həsən** – 124, 125
**Rzayev Dadaş** – 221, 229
**Seqalerba Anibal** – 9–10
**Salahov Tahir** – 251–252
**Salyukov Oleq** – 233
**Salber Herbert** – 177
**Serageldin İsmail** – 151–152
**Səttarova Fatma** – 227
**Şabanova Rəfiqə** – 145
**Şərif Nəvaz** – 197, 198
**Şərifov Abid** – 337–338
**Şərifov Samir** – 26
**Şnayer Rabbi** – 328
**Şoyqu Sergey** – 233
**Ştrents Karin** – 293–294
**Tak Laura** – 195–196
**Teşome Mulati** – 13–14
**Truonq Tan Şanq** – 116, 117
**Uard Brendan** – 5
**Vaskes Tabare** – 10
**Vuçiç Aleksandr** – 105
**Vike-Freyberqa Vayra** – 150, 166–167, 171–173
**Villem-Aleksandr** – 132
**Vorkneh Ayalev** – 13–14
**Vuyanoviç Filip** – 15
**Yadav Ram** – 137
**Zuma Ceykob** – 131

## Coğrafi adlar göstəricisi

**Afrika** – 162
**Ağdam** – 66, 188, 189
**Aktau** – 76
**Alanya** – 29
**Almaniya** – 64, 163, 233–235, 293–294
**Amerika Birləşmiş Ştatları** – 30, 66, 159, 166–167, 188, 189, 328
**Antalya** – 29
**Aralıq dənizi** – 158, 162
**Argentina** – 29
**Asiya** – 49, 153, 313
**Astara** – 84–93
**Avropa** – 49, 70, 153, 162, 190, 311, 313
**Avstraliya** – 136
**Bayıl** – 119
**Belarus** – 234
**Belçika** – 170
**Berlin** – 234
**Binəqədi** – 333
**Birləşmiş Ərəb Əmirlikləri** – 23–26, 57
**Bodrum** – 29
**Bolqarıstan** – 64, 161, 168, 171
**Böyük Britaniya** – 134–136, 163–164
**Brest** – 234
**Cənubi Afrika Respublikası** – 131
**Cənubi Qafqaz** – 28, 158, 177
**Ciddə** – 37–44
**Çanaqqala** – 134–136

**Çexoslovakiya** – 234
**Dağlıq Qarabağ** – 25, 32, 33, 44, 66, 138, 156, 177, 225, 274, 294
**Dominikan** – 29
**Davos** – 65
**Ekvador** – 6–7
**Ər-Riyad** – 31–36
**Ərdəhan** – 29
**Ərdəbil** – 29
**Ərzurum** – 29
**Fransa** – 66, 136, 138–140, 149, 188, 189
**Gəncə** – 80
**Gürcüstan** – 79
**Həbəşistan** – 13–14
**Xəzər dənizi** – 18, 49, 92, 158, 203, 210
**Xızı** – 75
**Xocalı** – 156
**İğdır** – 29
**İran** – 29, 79, 124–125
**İrlandiya** – 5
**İsrail** – 118
**İstanbul** – 70
**İtaliya** – 30, 110–111, 115
**Kamerun** – 308
**Kiyev** – 234
**Koreya Respublikası** – 30
**Kuba** – 53
**Qafqaz** – 234
**Qara dəniz** – 158
**Qazaxıstan** – 20, 76, 79, 114–115, 147
**Qars** – 29
**Qələbə** – 80
**Qəzza** – 40
**Qüds** – 40

**Latın Amerikası** – 8
**Latviya** – 150, 166–167, 171–173
**Leninqrad** – 234
**Lənkəran** – 86, 94–104
**Litva** – 30
**Macarıstan** – 29, 182
**Makedoniya** – 162, 169, 171
**Malayziya** – 29
**Malta** – 148, 162–163, 171
**Maldiv** – 29
**Mardin** – 29
**Masallı** – 80
**Mədinə** – 47–48, 55
**Məkkə** – 45–46, 55
**Moskva** – 99, 222, 232–235
**Monteneqro** – 15
**Münhen** – 65
**Naxçıvan** – 28
**Naxçıvan Muxtar Respublikası** – 244
**Nepal** – 137
**Niderland** – 132
**Norveç** – 266
**Odessa** – 234
**Özbəkistan** – 19
**Pakistan** – 197–198
**Paris** – 66, 188
**Peru** – 8
**Polşa** – 180, 234
**Pribaltika** – 234
**Rusiya** – 21, 22, 30, 66, 76, 79, 99, 106–108, 126, 127, 184–194, 232–235, 255–256
**Sabirabad** – 80
**Serbiya** – 105

**Simferopol** – 234
**Səudiyyə Ərəbistanı** – 31–48, 64, 297–298
**Slovakiya** – 11–12
**Stalinqrad** – 234
**Sumqayıt** – 80
**Tatarıstan** – 106–107
**Təbriz** – 29
**Türkiyə** – 30, 64, 79, 133–136, 257–258
**Türkmənistan** – 79
**Ukrayna** – 30, 234
**Uruqvay Şərq Respublikası** – 9–10
**Urmiya** – 29
**Vatikan** – 64
**Venesuela Bolivar Respublikası** – 16
**Vyetnam** – 116–117, 267–292
**Yaxın Şərq** – 162
**Yeni Zelandiya** – 136
**Yaponiya** – 216
**Yuqoslaviya** – 234

# MÜNDƏRİCAT

İRLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BRENDAN UARD İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.......................................................................................5

EKVADOR RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HUMBERTO VİNUEZA RODRİQEZ İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.......................................................................................6

PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XORXE ABARKA DEL KARPİO İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.......................................................................................8

URUQVAY ŞƏRQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ANİBAL KABRAL SEQALERBA İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.......................................................................................9

SLOVAKİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PETER PRİPUTEN İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.....................................................................................11

HƏBƏŞİSTAN FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AYALEV QOBEZİE VORKNEH İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il*.....................................................................................13

MONTENEQRO RESPUBLİKASININ AZƏRBAY-
CANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
BRANKO MİLİÇ İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il* ........................................................................ *15*

VENESUELA BOLİVAR RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
AMENHOTEP ZAMBRANO KONTRERAS İLƏ GÖRÜŞ

*28 mart 2015-ci il* ........................................................................ *16*

BAKI «AĞ ŞƏHƏR» BULVARINDA HƏYATA KEÇİRİLƏN
İNŞAAT İŞLƏRİNİN GEDİŞİ
İLƏ TANIŞLIQ

*30 mart 2015-ci il* ........................................................................ *17*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*31 mart 2015-ci il*........................................................................ *19*

QAZAXISTAN RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ
AMANGƏLDİ JUMABAYEV İLƏ GÖRÜŞ

*1 aprel 2015-ci il* ........................................................................ *20*

RUSİYA KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ,
KİNOREJİSSOR NİKİTA MİXALKOV İLƏ GÖRÜŞ

*1 aprel 2015-ci il* ........................................................................ *21*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*2 aprel 2015-ci il* ........................................................................ *22*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ
BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD
ƏL-MƏKTUMUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 aprel 2015-ci il* ........................................................................ *23*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*2 aprel 2015-ci il* ........................................................................................ *24*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 aprel 2015-ci il* ........................................................................................ *26*

«AITF–2015» XIV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞLIQ

*3 aprel 2015-ci il* ........................................................................................ *27*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏR

*5 aprel 2015-ci il* ........................................................................................ *31*

SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*5 aprel 2015-ci il* ........................................................................................ *32*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT PALATALARI ŞURASININ SƏDRİ ƏBDÜLRƏHMAN ƏL-ZAMİL İLƏ GÖRÜŞ

*5 aprel 2015-ci il* ........................................................................................ *34*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ NEFT VƏ MİNERALLAR NAZİRİ ƏLİ ƏL-NAİMİ İLƏ GÖRÜŞ

*5 aprel 2015-ci il* ........................................................................................ *35*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ MALİYYƏ NAZİRİ İBRAHİM ƏL-ASSAF İLƏ GÖRÜŞ

*5 aprel 2015-ci il* ........................................................................................ *36*

CİDDƏ ŞƏHƏRİNƏ SƏFƏR

*6 aprel 2015-ci il* ........................................................................................ *37*

İSLAM İNKİŞAF BANKI QRUPUNUN PREZİDENTİ ƏHMƏD MƏHƏMMƏD ƏLİ İLƏ GÖRÜŞ

*6 aprel 2015-ci il* ........................................................................... *38*
İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ İLƏ GÖRÜŞ

*6 aprel 2015-ci il* ........................................................................... *39*

MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ

*6 aprel 2015-ci il* ........................................................................... *45*

PEYĞƏMBƏR MƏSCİDİNİ ZİYARƏT

*7 aprel 2015-ci il* ........................................................................... *47*

XVIII AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

*7 aprel 2015-ci il* ........................................................................... *49*

RUSİYA ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ, N.N.BLOXİN ADINA RUSİYA ONKOLOJİ ELMİ MƏRKƏZİNİN DİREKTOR MÜAVİNİ, ELMİ-TƏDQİQAT UŞAQ ONKOLOGİYA VƏ HEMATOLOGİYA İNSTİTUTUNUN DİREKTORU MƏMMƏDBAĞIR CAVAD OĞLU ƏLİYEVƏ

*7 aprel 2015-ci il* ........................................................................... *51*

«AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUNUN TÜRK–MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI» MÖVZUSUNDA KEÇİRİLƏN II BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

*8 aprel 2015-ci il* ........................................................................... *53*

İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ PREZİDENTİ ŞAHZADƏ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2015-ci il* ........................................................................... *55*

AVROPA İTTİFAQININ KOMİSSARI YOHANNES HAHNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2015-ci il*..........56

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRİ SALEM XALİFA MƏHƏMMƏD ƏL-ĞAFLİ İLƏ GÖRÜŞ

*9 aprel 2015-ci il*..........57

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*10 aprel 2015-ci il*..........58

NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK

*10 aprel 2015-ci il*..........59

YEKUN NİTQİ

*10 aprel 2015-ci il*..........70

ASTARA RAYONUNA SƏFƏR

*11 aprel 2015-ci il*..........84

«ASTARAÇAY» MMC-nin ÇAY EMALI FABRİKİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2015-ci il*..........85

LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏR

*11 aprel 2015-ci il*..........94

MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2015-ci il*..........96

SERBİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ALEKSANDR VUÇİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2015-ci il* ........................................................................................ *105*

RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RÜSTƏM MİNNİXANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 aprel 2015-ci il* ........................................................................................ *106*

«İSLAM MAARİFÇİLİYİ VƏ MÜASİR DÖVR» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*15 aprel 2015-ci il* ........................................................................................ *108*

İTALİYA RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ FEDERİKA QUİDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2015-ci il* ........................................................................................ *110*

PAYTAXTA GƏTİRİLƏN YENİ METRO QATARLARINA BAXIŞ

*16 aprel 2015-ci il* ........................................................................................ *112*

QAZAXISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BEYBİT İSABAYEV İLƏ GÖRÜŞ

*19 aprel 2015-ci il* ........................................................................................ *114*

VYETNAM SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NQUYEN THAN ŞON İLƏ GÖRÜŞ

*19 aprel 2015-ci il* ........................................................................................ *116*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB REUVEN RİVLİNƏ

*20 aprel 2015-ci il ........................................................................................118*

BAKI SU İDMANI SARAYININ AÇILIŞI MƏRASİMİ

*20 aprel 2015-ci il ........................................................................................119*

BAKI İDMAN SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*20 aprel 2015-ci il ........................................................................................122*

İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİ HÜSEYN DEHQANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 aprel 2015-ci il ........................................................................................124*

RUSİYA FEDERASİYASININ «ROSTEX» DÖVLƏT KORPORASİYASININ BAŞ DİREKTORU SERGEY ÇEMEZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 aprel 2015-ci il ........................................................................................126*

İ.M.SEÇENOV ADINA BİRİNCİ MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN REKTORU PYOTR QLIBOÇKO İLƏ GÖRÜŞ

*21 aprel 2015-ci il ........................................................................................127*

HEYDƏR ƏLİYEV ADINA İDMAN SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*22 aprel 2015-ci il ........................................................................................128*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*23 aprel 2015-ci il ........................................................................................131*

NİDERLAND KRALI ƏLAHƏZRƏT
VİLLEM-ALEKSANDRA

*23 aprel 2015-ci il* ............................................................................ *132*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*24 aprel 2015-ci il* ............................................................................ *133*

ÇANAQQALA ZƏFƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ
TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*24 aprel 2015-ci il* ............................................................................ *134*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA

*25 aprel 2015-ci il* ............................................................................ *137*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA
OLLANDIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*25 aprel 2015-ci il* ............................................................................ *138*

AZƏRBAYCAN–FRANSIZ UNİVERSİTETİNƏ DAİR
NİYYƏT MƏKTUBUNUN İMZALANMASI MƏRASİMİ

*25 aprel 2015-ci il* ............................................................................ *139*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA
OLLAND İLƏ BİRGƏ NAHARDA İŞTİRAK

*25 aprel 2015-ci il* ............................................................................ *140*

«BAKI–2015» I AVROPA OYUNLARI
MƏŞƏLİNİN ALOVLANDIRILMASI
MƏRASİMİ

*26 aprel 2015-ci il* ............................................................................ *141*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*27 aprel 2015-ci il* ......................................................................... *147*

MALTA RESPUBLİKASININ BAŞ NAZİRİ COZEF MUSKAT İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il* ......................................................................... *148*

FRANSA RESPUBLİKASININ YƏHUDİ İNSTİTUTLARININ TƏMSİLÇİLİK ŞURASININ PREZİDENTİ ROCER ÇUKERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il* ......................................................................... *149*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA VƏ İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*27 aprel 2015-ci il* ......................................................................... *150*

III QLOBAL BAKI FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*28 aprel 2015-ci il* ......................................................................... *151*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il* ......................................................................... *168*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il* ......................................................................... *169*

BELÇİKA KRALLIĞI BAŞ NAZİRİNİN MÜAVİNİ DİDİER REYNDERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 aprel 2015-ci il* ......................................................................... *170*

III QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ
ŞƏRƏFİNƏ ZİYAFƏTƏ İŞTİRAK

*28 aprel 2015-ci il ............................................................................171*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2015-ci il ............................................................................177*

BAKI KONQRES MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*29 aprel 2015-ci il ............................................................................178*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

*30 aprel 2015-ci il ............................................................................180*

ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TAKEHİKO
NAKAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*30 aprel 2015-ci il ............................................................................181*

MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDAKI
SƏFİRİ JOLT ÇUTORA İLƏ GÖRÜŞ

*1 may 2015-ci il ................................................................................182*

BEYNƏLXALQ VALYUTA FONDUNUN İCRAÇI
DİREKTORUNUN MÜAVİNİ MİTSUHİRO FURUSAVANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2015-ci il ................................................................................183*

«ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*2 may 2015-ci il ................................................................................184*

DÜNYA BANKININ VİTSE-PREZİDENTİ
LAURA TAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*3 may 2015-ci il*..........................................................................................*195*

PAKİSTAN İSLAM RESPUBLİKASININ MALİYYƏ, GƏLİR, İQTİSADİ MƏSƏLƏLƏR, STATİSTİKA VƏ ÖZƏLLƏŞDİRMƏ NAZİRİ MƏHƏMMƏD İSHAQ DAR İLƏ GÖRÜŞ

*3 may 2015-ci il*..........................................................................................*197*

ASİYA İNKİŞAF BANKININ RƏHBƏRLƏR ŞURASININ 48-ci İLLİK TOPLANTISININ AÇILIŞI SESSİYASINDA İŞTİRAK

*4 may 2015-ci il* .........................................................................................*199*

İTALİYA RESPUBLİKASININ İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ PYER KARLO PADOANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 may 2015-ci il*..........................................................................................*215*

YAPONİYA BAŞ NAZİRİNİN MÜAVİNİ TARO ASONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 may 2015-ci il*..........................................................................................*216*

«İNTURİST» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*5 may 2015-ci il*..........................................................................................*217*

MÜHARİBƏ, ƏMƏK VƏ SİLAHLI QÜVVƏLƏR VETERANLARI TƏŞKİLATININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*7 may 2015-ci il*..........................................................................................*221*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 may 2015-ci il*..........................................................................................*231*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*8 may 2015-ci il*......................................................................................*232*

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN
70 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BAYRAM
TƏDBİRLƏRİNDƏ İŞTİRAK

*9 may 2015-ci il*......................................................................................*233*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN
MƏZARINI ZİYARƏT

*10 may 2015-ci il* ...................................................................................*236*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN
OLMASININ 92-ci İLDÖNÜMÜ ÜNASİBƏTİLƏ TƏŞKİL
OLUNMUŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2015-ci il*....................................................................................*238*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN
OLMASININ 92-ci İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV
FONDUNUN YARADILMASININ
11 İLLİYİNƏ HƏSR OLUNAN TƏNTƏNƏLİ MƏRASİMDƏ
İŞTİRAK

*10 may 2015-ci il* ...................................................................................*240*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ
KATİBİ NİKOLAY PATRUŞEVİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2015-ci il*....................................................................................*255*

TÜRKİYƏ RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ ƏLİ
BABACANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*12 may 2015-ci il*....................................................................................*257*

AVROPA OYUNLARI PARKININ AÇILIŞI MƏRASİMİ

*13 may 2015-ci il* ........................................................................ *259*

VELOPARKIN AÇILIŞI MƏRASİMİ

*13 may 2015-ci il* ........................................................................ *262*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*14 may 2015-ci il* ........................................................................ *266*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*14 may 2015-ci il* ........................................................................ *267*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQ İLƏ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞ

*14 may 2015-ci il* ........................................................................ *268*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 may 2015-ci il* ........................................................................ *269*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 may 2015-ci il* ........................................................................ *271*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ÇIONQ TAN ŞANQ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 may 2015-ci il* ........................................................................ *273*

VYETNAM İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*14 may 2015-ci il* ........................................................................ *278*

AZƏRBAYCAN–VYETNAM BİZNES-FORUMUNDA İŞTİRAK

*14 may 2015-ci il* ........................................................................ *282*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*14 may 2015-ci il*...........................................................................*289*

ALMANİYA BUNDESTAQININ CƏNUBİ QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ KARİN ŞTRENTSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 may 2015-ci il*...........................................................................*293*

«BAKI ÜRƏK GÜNLƏRİ» IV BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

*15 may 2015-ci il*...........................................................................*295*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE NAZİRİ TOFİQ BİN FAUZAN ƏL-RƏBİƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2015-ci il*...........................................................................*297*

NOBEL QARDAŞLARI PROSPEKTİNƏ PARALEL İNŞA OLUNMUŞ DƏNİZKƏNARI YOLUN AÇILIŞI MƏRASİMİ

*15 may 2015-ci il*...........................................................................*299*

«BOULEVARD» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*15 may 2015-ci il*...........................................................................*300*

«AĞ ŞƏHƏR» BULVARINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*15 may 2015-ci il*...........................................................................*304*

YUNESKO-nun SABİQ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*...........................................................................*305*

BMT-nin SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ NASSİR ABDULAZİZ ƏL-NASSER İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*...........................................................................*306*

YUNESKO-nun BAŞ DİREKTORU XANIM
İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*17 may 2015-ci il*..........................................................................*307*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*18 may 2015-ci il*..........................................................................*308*

III ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ
FORUMUNUN AÇILIŞI MƏRASİMİ

*18 may 2015-ci il* .........................................................................*309*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİ
İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*..........................................................................*326*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ
BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*..........................................................................*327*

ABŞ-da YERLƏŞƏN ETNİK ANLAŞMA FONDUNUN SƏDRİ
RABBİ MARK ŞNAYER İLƏ GÖRÜŞ

*18 may 2015-ci il*..........................................................................*328*

BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA
İNŞA OLUNAN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN
AÇILIŞI
MƏRASİMİ

*19 may 2015-ci il*..........................................................................*329*

BEYNƏLXALQ AVTOVAĞZAL ƏRAZİSİNDƏN BAKI
DAİRƏVİ YOLUNU BİRLƏŞDİRƏN KÖRPÜNÜN VƏ STEND
ATICILIĞI KOMPLEKSİNƏ GEDƏN
YOLUN AÇILIŞI MƏRASİMİ

*19 may 2015-ci il*......................................................................................*331*

BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ BAŞ VERƏN
YANĞINLA ƏLAQƏDAR YARADILAN DÖVLƏT
KOMİSSİYASININ İLK İCLASINDA İŞTİRAK

*20 may 2015-ci il*......................................................................................*333*

XXI AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ
IX AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI
SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*21 may 2015-ci il*......................................................................................*347*

QEYDLƏR.........................................................................................*352*

*Şəxsi adlar göstəricisi*...............................................................................*375*

*Coğrafi adlar göstəricisi* ..........................................................................*379*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.